**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

# DƏRBƏND
# FOLKLOR ÖRNƏKLƏRİ

## 1-ci kitab

**BAKI – 2014**

**Layihə rəhbəri: Muxtar KAZIMOĞLU (İMANOV)**
AMEA-nın müxbir üzvü

**Toplayanlar, tərtib edənlər:** **Məhərrəm QASIMLI**
**Oruc ƏLİYEV**
**Rza XƏLİLOV**

**Elmi redaktoru:** **Aynur HÜSEYNOVA**

**Dərbənd folklor örnəkləri, 1-ci kitab,** Bakı, “Elm və təhsil” nəşriyyatı, 2014, 368 səh.

D $\frac{4603000000}{Í\text{-}098\text{-}2013}$ Ãðèôëè íÿøð

© Фолклор Институту,

2013.

# ÖN SÖZ

Dünyanın qədim mədəniyyət mərkəzlərindən olub Əl-Bab ("Qapı"), Əl-Bab-əl-hədid ("Dəmir qapı") və s. kimi adlarla tanınan Dərbənd şəhəri antik dövrlərdən başlayaraq tarix boyu Azərbaycanın, o cümlədən Yaxın və Orta Şərqin iqtisadi-siyasi həyatında mühüm rol oynamışdır. Şəhərin ərazisində aparılan arxeoloji qazıntılar zamanı üzə çıxarılmış maddi mədəniyyət abidələri hələ eramızın I-III yüzilliklərində Dərbəndin Yaxın Şərqin bir sıra ölkələri ilə iqtisadi əlaqələr saxladığını göstərir. Dərbəndin beş min ildən artıq bu tarixə malik olması qədim və orta yüzilliklərə aid mənbələrdə də qeyd olunmuşdur.

Adı Gəncə, Naxçıvan, Şirvan, Şəki, Bərdə ilə yanaşı çəkilmiş Dərbənd tarix boyu Azərbaycanın şimal sərhədi olaraq özünün Narın qalası ilə müxtəlif qəsbkarların hücumlarına sinə gərmişdir. Yazılı qaynaqlar Dərbənd qalasının tikilişini VI yüzilliyə – Sasanilər dövrünə aid etsə də, aparılmış qazıntılar hələ eramızdan öncə VIII-VII yüzilliklərdə burada qala-istehkamın olduğunu təsdiq edir. Qalanın tikilməsi barədə məlumat yalnız tarixi qaynaqlarda deyil, müxtəlif əfsanə və rəvayətlərdə də özünəməxsus şəkildə qorunmuşdur. Nizami Gəncəvinin Dərbənd qalasının tikilişini İsgəndər Zülqərneynin adı ilə bağlaması onun xalq arasında gəzən rəvayətlərdən faydalandığını göstərməklə yanaşı, Dərbənd qalasının tarixinin daha əski çağlara gedib çıxmasından da xəbər verir. Sonralar XVII yüzilliyin saz-söz şairi Abbas Tufarqanlının – :

Ay ağalar, gəlin tərifin deyim,
Nə əcəb düşübdü yeri Dərbəndin.
İsgəndər əlilə olub bərqərar,
Çəkilibdi bürcü-barı Dərbəndin –

deməsi, bu mövzuda olan rəvayətlərin xalq arasında nə qədər dərin kök saldığını göstərməkdədir.

Ərəb tarixçisi Əl-Balazuri Dərbənd qalasının I Xosrov Ənuşirəvanın hakimiyyəti illərində (531-579) şəhəri köçəri xalq-

ların aramsız hücumlarından qorumaq məqsədi ilə tikilməsini qeyd etmişdir[1]. Dərbəndin coğrafi cəhətdən əlverişli mövqeyi, ticarət yolları üzərində yerləşməsi Roma, Bizans, İran kimi qüdrətli dövlətləri özünə cəlb etmiş, onlar arasında qızğın müharibələrə səbəb olmuşdur. Sasanilər dövləti eramızdan əvvəl III-I yüzilliklərdə Azərbaycan ərazisində yaranmış Qafqaz Albaniyasının şəhərlərindən olan Dərbəndi, Roma imperatorluğu ilə uzun sürən müharibədən sonra – IV yüzillikdə istila edə bilmişdir.

Ərəb tarixçilərindən Ət-Təbari və İbn Əl-Əsirin yazdıqlarına görə, sonuncu Əməvi xəlifələrindən Hişamın hakimiyyət illərində (724-743) ərəb sərkərdəsi Məsləmə ibn Əbd Əl-Məlikin başçılıq etdiyi ərəb qoşunları xəzərlərin müqavimətini qıraraq Dərbəndi fəth edə bilmişdir. Məşhur şərqşünas Qustav Edmund fon Qryunebaum qeyd edir ki, xəzərlər təqribən yüz il ərəblərin Dərbənd üzərinə yürüşlərinə qarşı şiddətli müqavimət göstərmişlər[2].

XIII yüzilliyin ikinci yarısında Dərbənd Yaxın Şərqin ən inkişaf etmiş ticarət mərkəzlərindən birinə çevrilmiş və IX yüzilliyin sonu, X yüzilliyin başlanğıcından etibarən ərəb xilafətinin hökmranlığından azad ola bilmişdir.

Bəllidir ki, ərəb xilafətinin dağılmasından sonra Azərbaycanda müxtəlif feodal dövlətlər yaranır. Bu dövrdə yaranmış Səlarilər dövlətinin hüdudları Dərbənddən Marağayadək uzanırdı. Artıq XIII yüzillikdə Dərbənd Şirvanşahlar dövlətinin tərkibində idi[3]. Təsadüfi deyildir ki, bu dövrün tarixçilərindən Həmdullah Qəzvini və Şərəf əd-Din Əli Yəzdi öz əsərlərində Dərbəndi gah "Şirvan Dərbəndi" (Dərbəndi-Şirvan), gah da "Bakı Dərbəndi" (Dərbəndi-Bakı) adlandırırdılar.

---

[1] Баладзори. Книга завоевания стран. Баку, 1927, с. 7

[2] Г.Е. Грюнебаум. Классический ислам. М., « Наука» 1988, с. 69

[3] Ализаде А.А. Социально-Экономическая и политическая история Азербайджана XIII-XI вв. Баку, 1956, с. 397

Dərbənd XIV-XV əsrlərdə monqol və tatarların tapdağı altında qalmışdır.

1538-ci ildə Şirvanşahlar dövləti ləğv olunub, Şirvan bəylərbəyliyi kimi Səfəvilər dövlətinin tərkibinə daxil oldu. Bu dövrdə Şirvan bəylərbəyliyinin əyalətlərindən biri olan Dərbənd, Türkiyə və Səfəvilər dövləti arasında gedən uzunmüddətli vuruşların mərkəzində dururdu.

XVIII yüzilliyin iyirminci illərində I Pyotrun dövründə müstəmləkəçilik siyasətinə başlayan çar Rusiyasının qoşunları ilk dəfə olaraq Dərbəndin ətrafında göründülər. 1722-ci ilin 23 avqustunda I Pyotrun qoşunları Dərbəndə daxil oldu. Bağlanmış müqaviləyə əsasən, İran Dərbəndi çar Rusiyasına güzəştə getdi. 1735-ci ildə rus qoşunları Dərbəndi tərk etdilər. Elə həmin vaxt Nadir şahın qoşuları Dərbəndə daxil olub, şəhəri tutdular.

XVIII yüzilliyin ortalarında Azərbaycanda bir çox xanlıqlar yaranmışdı ki, onlardan biri də Dərbənd idi. Həmin yüzilliyin sonu və XIX yüzilliyin əvvəllərində Azərbaycan xanlıqları rus qoşunlarının hücumuna məruz qaldı. 1796-cı il mayın 10-da Dərbənd rus qoşunları tərəfindən alındı və 1806-cı ildə Rusiyaya ilhaq edildi.

Tarixən Şirvanşahlar dövlətinin ən məşhur şəhəri olmuş Dərbənd hal-hazırda Dağıstan MSSR-in tərkibinə daxildir.

Azərbaycan folklorunun yayılma arealı respublikamızın indiki inzibati-coğrafi ərazisindən daha geniş olub, qərbdə Borçalı, Göyçə mahallarını, cənubda Cənubi Azərbaycanı, şimalda Dərbəndi əhatə edir. Sanki bu folklor atlası vətənimizin real tarixi sərhədlərini əks etdirir. Lakin bu xəritə öz tarixi həqiqətinə baxmayaraq, uzun müddət "ağ ləkə"lərlə örtülü olmuşdur.

Dərbənd şəhəri və onun ətraf kəndləri uzun illər qapalı bir ərazi kimi fəaliyyət dairəsindən kənarda qalmışdı. 1987-1989-cu illərdə Ədəbiyyat İnstitutunun folklor şöbəsinin Dərbəndə və onun ətraf kəndlərinə təşkil etdiyi ekspedisiyalar vaxtı toplanıb yazıya

alınmış, şifahi ədəbiyyat nümunələri əsasında tərtib edilmiş bu toplu – çoxcildli "Azərbaycan folkloru antologiyası" silsiləsindən olan, həmin regionun xalq ədəbiyyatı nümunələrini sistemli şəkildə özündə cəmləşdirən ilk kitabdır. Tərtib işinə daxil edilmiş folklor örnəkləri təmsil etdikləri janrların ümumi tipoloji xüsusiyyətləri, özünəməxsusluğu haqqında geniş təsəvvür yaratmağa imkan verir.

Toplanılmış folklor örnəklərindən bəlli olur ki, sınamalar, ovsunlar kimi arxaik nümunələr dərbəndlilərin gündəlik həyatında möhkəm yer tutub. Onlar yerli əhalinin məişət və təsərrüfat həyatı barədə geniş təsəvvür yaradır.

Ümumiyyətlə, arxaik janr və növləri səciyyələndirən cəhətlərdən biri onların folklor və etnoqrafiya ilə eyni dərəcədə bağlılığıdır. Bu nümunələr bu və ya digər məqsədlə icra edilən müəyyən magik hərəkətlərdir. Bu hərəkətlərin icrası isə özünəməxsus daxili ritmik nəğmələrlə müşayiət olunur. Bu poetik parçalar çox vaxt ovsun, cadu xarakteri daşıyır. Arxaik janr və növlərdə hərəkətlə sözün vəhdəti bu janrların təkamül mərhələsinin ilkin çağlarında daha çox sinkretik mahiyyət daşımışdır.

Dərbənd folklorunun qədim janrlarından biri olan mərasim nəğmələri əcdadlarımızın dünyagörüşünü, təbiətin əsrarəngiz sirlərinə dair inam və baxışlarını poetik bir dillə təcəssüm etdirir. Bu nəğmələr yerli əhali arasında geniş yayılmış, onların gündəlik həyat və məişətinin müxtəlif sahələrinə sirayət etmişdir. Sözün qüvvəsinə inamdan yaranan mərasim nəğmələri folklorşünaslığımızda qəbul olunmuş təsnifata görə iki bölümə ayrılır: mövsüm və məişətdə ifa olunanlar. Bu təsnifatın əsasını mərasimin insan və cəmiyyət, kollektiv insan və təbiət, ətraf mühit münasibətlərini nizama salmaq, tarazlamaq funksiyası təşkil edir. Göstərilən təsnifat təqdim olunan mərasim nümunələrinin mətnləri ilə də səsləşir.

Mövsüm mərasimləri ilin müxtəlif fəsillərində qədim insanın əkinçilik, maldarlıq, qoyunçuluq və s. kimi təsərrüfat və əmək fəaliyyəti ilə bağlı icra olunmuşdur. Məişət mərasimləri isə hər şeydən əvvəl insan həyatının bütün mərhələlərini əhatə edən doğum, evlənmə və yas təranələrinə aiddir.

Mərasimlər insan doğulduğu gündən həyatı boyu ona yol yoldaşlığı edir. İnsanın doğuluşu ilə bağlı icra edilən mərasimlər qədim insanın təsəvvürünə görə, onu əhatəsində yaşadığı şər qüvvələrdən qorumalı idi. Bu baxımdan yeni doğulmuş uşağın qırxının çıxması münasibətilə icra edilən "qırx açar camı" mərasimi xüsusi maraq doğurur.

Qədim insanın təbiət və daha geniş mənada deyilsə, dünya, cəmiyyət haqqında ibtidai təsəvvürlərini əks etdirən əfsanələr müəyyən məqamlarda janr və məzmun baxımından rəvayətlərlə çarpazlaşır. Bu, cəmiyyətin inkişafının əfsanə və rəvayətlərin mərhələlərində real gerçəkliyin məhsulu kimi qəbul olunması ilə bağlıdır. Kitabdakı "Başmaqtəpə", "Göz daşı" kimi əfsanələr bu baxımdan səciyyəvidir.

Rəvayətlərdə isə tarixi aspekt daha güclüdür. Başqa sözlə desək, rəvayətdə tarix təhkiyə yolu ilə bir növ bərpa olunur. Tarixən olmuş hadisələr, fəaliyyət göstərmiş şəxsiyyətlər, hər hansı yerin, dağın, bulağın və s. bu və ya digər şəkildə adlandırılmasının səbəbləri haqqında məlumatlar rəvayətlərin əsas məğzini təşkil edir. Rəvayətlərin bu funksional mənasından çıxış edilərsə, onları tarixi və toponomik rəvayətlər kimi təsnif etmək mümkündür.

Dərbənd şəhərinin binasının qoyulması, Dərbənd qalasının tikilməsi, ərəblərin şəhəri istila etməsi və s. kimi rəvayətləri müəyyən mənada xalqın şifahi tarixi salnaməsi də adlandırmaq olar. Bu baxımdan "Dərbəndin alınması" rəvayəti səciyyəvidir. Bir dərbəndlinin xəyanəti nəticəsində ərəblərin Dərbəndi tutmasından danışan bu rəvayətlə IX yüzilliyin ərəb tarixçisi Balazurinin bu məsələ haqqında verdiyi məlumat arasında çox böyük yaxınlıq vardır.

Tarixçi yazır ki, ərəb sərkərdəsi şəhərin həyatı üçün Dərbəndə gedən su arxlarının nə qədər əhəmiyyətli olduğunu bilərək mal-qaranı kəsib, içalatını arxlara boşaltmağı əmr edir. Bir gün keçməmiş suyu üfunət iyi basır. Ertəsi gün qalanın müdafiəçiləri şəhəri tərk edib gedirlər[4]. Ehtimal ki, xatırladılan rəvayətlə tarixçinin məlumatı bir mənbədən, bir tarixi həqiqətdən qidalanmışdır.

Toponomik rəvayətlərin bir qismi dərbəndlilərin inamlar sistemində, gündəlik məişətində özünəməxsus yer tutan pirlərdən bəhs edir. "Əmcəkli pir", "Kar daş piri" və s. haqqında rəvayətlər bu qəbildəndir.

Mifoloji rəvayətlər əsas etibarı ilə peyğəmbərlər, övliyalar, həmçinin mifoloji obrazlar haqqında xalq təhkiyəsidir. Dərbənd ərazisində yayılmış mifoloji rəvayətləri xarakterizə edən cəhətlərdən biri onların etioloji səciyyədə olmasıdır. Bu baxımdan "İlan balığı", "Toyuq", "İnsanın səbirsizliyi" kimi rəvayətlər xüsusi maraq doğurur.

Dərbənddən toplanmış məişət nağılları və heyvanlardan bəhs edən nağıllarla yanaşı sehrli nağılların da xüsusi yer tutması bu regionda zəngin nağılçılıq ənənələrinin olduğunu göstərməkdədir. Bu ənənələrin başqa yerlərə nisbətən Dərbənd şəhərində daha güclü olduğu nəzərə çarpır. Təsadüfi deyildir ki, topluya daxil edilmiş nağılların əsas hissəsi Dərbənd şəhərindən yazıya alınmışdır. Xeyirlə şərin mübarizəsi, qəzavü-qədər Dərbənd nağıllarının əsas ideyasını təşkil edərək süjet xətlərinin inkişafında həlledici rol oynayır. Padşah, şahzadə, kiçik qardaş, kiçik bacı, yetim qız və s. kimi personajlar bu nağılların obrazlar sisteminin əsasını təşkil edir.

Dərbənd nağılları öz kompozisiyasına görə sadədir. Nağıl kompozisiyası hüdudlarında təsvir olunan hər bir konflikt, hadisə üç mərhələdən keçir: hadisə, hadisənin inkişafı və nəhayət,

---

[4]Балазури. Книга завоевания стран. Баку, 1927 г, с. 17

hadisənin həlli. Nağılların belə kompozisiya quruluşu digər dünya xalqlarının nağıl yaradıcılığı üçün də xarakterikdir.

Dərbənd nağıllarının poetik baxımından özünəməxsusluğu hər şeydən əvvəl özünü ənənəvi nağıl formullarında göstərir. Bu nağıllar, adətən, "oladı, olmuyadı, bir paccah oladı" və ya geniş "damdan-bacadan ötüb keçər, öysürük tutdu ona verməz məcəl, getdi həkimin yanına, bir püstə atdı onun zindanına, o püstəyə nə diyək, şüneyi-şərbət diyək, bunu içib biz də bir balaca nağıl diyək" və s. kimi pişrövlərlə (nağıl başlanğıcları) başlanır.

Dərbənd nağıllarını səciyyələndirən cəhətlərdən biri də eyni vaxtda iki və ya üç nağıl personajından bəhs edən süjet xətlərinin olmasıdır. Bir süjet xəttindən başqasına keçid çox vaxt "xəbəri xəbərdən" formulundan istifadə yolu ilə baş verir. Ümumiyyətlə, bir bədii priyom kimi kontaminasiya – müxtəlif süjetlərin bir nağıl kompozisiyası çərçivəsində işlənməsi Dərbənd nağıl yaradıcılığı poetikasının əsas elementlərindən biridir.

Dünyanın gərdişi haqqında dərin fəlsəfi düşüncələr, vətən həsrəti, qəriblik, məhəbbətin tərənnümü və s. kimi motivlər Dərbənd bayatılarının aparıcı mövzularındandır. Xalqımız bu kiçik lirik şeir parçalarında daxili hiss və həyəcanını, iztirablarını böyük bədiiliklə ifadə etmişdir:

Dağlar, necə dağlarsan,
Çiskin, duman bağlarsan.
Dağlanmamış yerim yox,
Sən haramı dağlarsan?

Əzizinəm, başda mən,
Dərya da mən, daş da mən.
Yazıldı qara yazı
Gənə yazıq başda mən.

Dərbənd folklorunda geniş yayılmış janrlardan biri də tapmacalardır. Səma cisimləri, ev əşyaları, bitkilər, heyvanlar, məişət avadanlığı və s. kimi deyimlər Dərbənd tapmacalarının əsas mövzusunu təşkil edir. Dərbənd tapmacaları bəzən nəzmlə, bayatı formasında, bəzən isə nəsrlə ifadə olunur. Mənzum tapmacalar Dərbənd folkloru üçün daha xarakterikdir.

Dərbənd atalar sözlərinin mövzu dairəsi son dərəcə geniş olaraq insan fəaliyyətinin, həyatının bir çox sahələrini əhatə edir. Dərbəndlilərin yüzilliklərin sınağından çıxmış mənəviyyatı, həyat təcrübəsi bu kiçik həcmli, lakin geniş mənalı ibrətamiz cümlələrdə gözəl ifadə olunmuşdur.

Dərbənd folklorunda nazlamalar, laylalar da özünəməxsus yer tutur. Nazlamalar mövzu baxımından laylalardan o qədər də seçilmir. Burada körpənin boya-başa çatmasından doğan arzular daha güclüdür. Nazlamaların ifa, deyim ritmində, ahəngində laylalardan fərqli olaraq aram-arxayıncılıq yoxdur. Bu, forma baxımından nazlamaların laylalara nisbətən daha sərbəst olmaları ilə bağlıdır. Nazlamaların bu xüsusiyyəti ifaçıya ifa vaxtı müəyyən improvizasiyalar etmək imkanı verir:

Dərya qırağı,
Dərbənd bağı,
Qızların ağı,
Bu balama qurban.

Azərbaycan folklorunun başqa arealları ilə müqayisədə Dərbənd və onun ətraf ərazilərinin folklorunda dastan aparıcı rol oynamır. Ola bilsin ki, Dərbənd folklorunun bu səciyyəsi aşıq yaradıcılığının da eyni vəziyyəti ilə bağlıdır. Belə ki, kitaba daxil olmuş dastanların çoxu yalnız bir aşığın – aşıq Niftullanın ifasından yazıya alınmışdır. Aşıq yaradıcılığı sahəsində diqqəti cəlb edən cəhətlərdən biri bu regionun, necə deyərlər,

özünün dastan repertuarının olmasıdır. Vaxtı ilə burada fəaliyyət göstərmiş yerli aşıqların repertuarında klassik dastanlarımızla yanaşı, əsasən məhz bu region üçün səciyyəvi olan "Yetim Aydın", "Səfilli Məmməd" və s. kimi dastanlar fəal yer tutmuşdur. Bu dastanlar hər şeydən əvvəl, Azərbaycan dastan yaradıcılığının mövzu, obrazlar sistemi, poetika baxımından nə qədər zəngin, çoxşaxəli və rəngarəng olduğunu göstərməkdədir. Kitaba daxil edilmiş dastanlar Dərbənd folklorunun özünəməxsusluğunu səciyyələndirən bir cəhət kimi qəbul edilə bilər. Bunlardan "Yetim Aydın" dastanı şifahi xalq ədəbiyyatımızın, dastan yaradıcılığımızın, folklor araşdırıcılarının məlum səbəblərə görə nəzər diqqətindən kənarda qalmış dini dastanlar qolunu təmsil edir. Məlumdur ki, dastanlarımızda qəhrəmanın bu və ya digər şəkildə buta alması onun ictimai inkişafını təyin edir. Haqqında danışdığımız dastanda isə buta almaq məsələsi Şahi-Mərdandan dini bilik almaq epizodu ilə əvəzlənir. Qəflət yuxusundan (məcazi mənada) oyanan dastan qəhrəmanı doxsan min kəlməyə vaqif olduqdan sonra urfan əhli səviyyəsinə yüksəlir, dini intellektual sınaqlardan çıxır. Dastan qəhrəmanının adına gəlincə isə belə ehtimal etmək olar ki, burada işlənən "yetim" epiteti onun sosial vəziyyətindən daha çox sufilik anlamı yerindədir.

Göründüyü kimi, "Dərbənd folkloru" adlanan bu cild Azərbaycan şifahi xalq ədəbiyyatının əsas janrlarını əhatə etmişdir. Cildin tərtibi Dərbənd ərazisindən toplanmış folklor nümunələrinin səciyyəsindən, janr və mövzu müxtəlifliyindən doğmuşdur.

Ən sonda fürsətdən istifadə edərək bu kitabda yer alan mətnlərin kompyuterdə yazılmasında, yazılı mətnlərin sonrakı təshihində yaxından iştirak etmiş "Klassik folklor" şöbəsinin elmi əməkdaşları – filologiya üzrə fəlsəfə doktoru, böyük elmi işçi Aynur Hüseynova, elmi işçi Vildan Əsgərova, kiçik elmi işçi Nurlana Məmmədova və böyük laborant Samirə Cəfərliyə dərin təşəkkürümüzü bildirməyi özümüzə borc bilirik.

## İNAMLAR (1)

*** Vəfat etmiş əziz adamdan söhbət düşəndə kimsə qəfildən asqırsa, yanındakılar onun paltarının ətəyindən üç dəfə dartıb deyərlər: "Bizimsən, bizimsən, bizimsən!"

*** Dilinə düyün düşəndə yanındakı adama üç dəfə deməlisən: "Dilimə düyün düşüb". Həmin adam da üç dəfə təkrar etməlidir: "Tüpür yerə, düşsün!". "Onda düyün dildən düşər", – deyərlər.

*** Uşağı oynadanda deyərlər:

– Gözləri şam-şam çıraq
Qada-bala bundan uzaq.

*** Uşaq gec dil açanda axura saman töküb, at yüyənini uşağın boynuna keçirər, sonra onu axura aparıb deyərlər: "Adamsan adam ol, heyvansan heyvan ol, ye bu samanı". Belə edilsə, uşaq tez dil açar.

*** Xırman döyülən vaxt yel əssə yaxşıdı, döyülmüş taxılı yerdə sovurar. İşdi, yel əsməsə, onda yeli çağırarlar. Yeli çağırmağın da öz qaydası var. Ağsaqqallar əllərinə şana alıb, sovuruq ata-ata belə deyərlər:

– Heydər, Heydər, əsə gəl.
Xırmanları basa gəl.
Oğul-uşaq qırıldı,
Dayanma, dur yasa gəl.

Taxılı samandan arıtdıyanda da deyərlər: "Heydər, Heydər, gəl atına saman apar". Yel baba da bu çağırışları eşidib gələr, xırmançının işi avandına düşər.

*** Qorxu çəkmiş adamın qorxusunu götürmək üçün bir yumurta, bir manat pul, bir də bir şüşə su götürüb, həmin adamı Eldar Xatının qəbri üstünə aparırlar. Onu qiblə tərəfə dayandırıb əl-ayağının dırnaqlarını kəsər, kirpiklərindən bir-iki tük çəkər, üç dəfə boynunu iplə ölçəndən sonra ipi xırda-xırda kəsərlər.

Sonra həmin adamın arxasında yumurtanı sındırıb, şüşədən onun başına su tökə-tökə dua oxuyar, axırda şüşəni daşa çırpıb sındırarlar. Bundan sonra isə həmin adam arxasına baxmadan evinə gedər. Onda inanarlar ki, qorxu basmış adam sağalacaq.

*** Keçmiş vaxtlarda kəndli tuma getməmişdən əvvəl üç gün evindən çölə çıxmazmış. Üçüncü gün hamama gedib çimərmiş. Səhəri gün tum kisəsini çiyninə atıb, əkin yerinə gedərmiş. Hər dəfə kisədən tum götürüb atanda məhsulun bol olması üçün belə deyərmiş: "Ya pərvərdigar, mərdi namərdə möhtac eləmə". Axırda da belə deyərmiş: "Bu da bizim payımız". Kisədə tum qurtaranda kisəni başışağı çevirib, qalan tumu yerə töküb deyərmişlər: "Bu da qarışqanın payı". Onda məhsul bol olarmış.

*** Tuma çıxmamışdan qabaq kişilər yuyunardılar, saç-saqqallarını qırxdırırdılar ki, əkin də "təmiz" olsun, alaq olmasın. Xatınlar isə yeddi gün qalmış "tuma hörmətdir" deyib, halva, fəsəli bişirib, ev-ev paylayardılar ki, taxıl bol olsun. Tum səpəndə "birə min olsun" deyərdilər.

*** Təndirdə çörək bişirəndə deyərlər: "Bismillahir, ər-rəhmanir ər-rəhim". Çörək bişirən əlini üç kərə kündə yığılan teştə, sonra da təndirə vurar. Sonra üzünə salavat çəkib, üç dəfə deyər: "Allahun məsəlli vəli Məhəmmədən Rəsulullah. Allah, sən min bərəkət ver təndirimə, çörəyimə. Ya Rəbb, bu neməti halal et evimə, ailəmə".

*** Süddən kəsilən qadın su dolu vedrə ilə örüşdən qayıdan naxırın qabağına çıxıb deyər: "Al suyum, ver südüm!" Belə desə, qadının südü yerinə qayıdar, mal-qara isə süddən kəsilər.

*** Bir şey itib tapılmayanda "Allah şeytana lənət eləsin, şeytanın tükünü bağladım", – deyibən dəsmala, ya da ipə düyün vurarlar. İtkini tapandan sonra düyünü açmaq gərəkdir.

*** İlanı görəndə deyərlər: "Ay heyvan, mənə dəymə, dəysən, Süleyman peyğəmbərin, Həzrəti Fatimənin yanına üzüqara gedərsən".

*** Siftə doğulan uşağın qırxı çıxan kimi onun qırxını kəsərlər ki, azar-bezardan, bəd nəzərdən uzaq olsun. Odur ki, onu bir tasın içində oturdub başından qırx açar camından su axıda-axıda deyərlər: “Bismillahir-ər rəhmanir ər-rəhim. Mən niyyət elədim bu uşağın qırxını kəsməyə –

Bunun bəndi bəndindən,
Ruzi damarından
Başının tükündən
Ayağının tozundan
Cəsədindəki xəstəlikdən
Bəd nəzər adamdan
Cindən, şeytandan
İlandan, əqrəbdən.
Amin, amin bir də amin!”

Suyu axıdıb tökdükcə onu üç dəfə qayçıyla kəsərlər. Uşağın qırxı töküləndən sonra deyərlər:

Su aşağıda olsun,
Sən yuxarıda.

Belə deyib, uşağı anasına verərlər. Anası da onu geyindirib-keçindirib bayıra çıxarar. Bundan sonra ona daha bir xətər dəyməz.

*** Sol gözün səyriməyinin düşər-düşməzi var, atdanan gözün üstünə qırmızı parça qoyub üç dəfə deyərlər:

Şaddığa gəlibsən –
bucağa düş.
Bəddiyə gəlibsən –
Ocağa düş.

*** Ev tikmək istəyəndə binə yerinə uşaq beşiyi qoyar, dövrəsinə buğda səpər, ağ pul atarlar. Bunun səhəri günü gedib binə açarlar. Binənin ilk daşının altına at nalıynan qurd aşığı qoyarlar ki, özülü möhkəm olsun.

*** Evdə çox azar-bezar olsa, hər yatağın altına qırmızı əskiyə bükülmüş at nalı, bir də bişmiş yumurtaynan sarımsaq qabığı qoyar, üç gündən sonra nalı kənara atar, yumurtanı daşa çırpar, sarımsaq qabığını da ocaqda yandırarlar. Ocaq sönəndən sonra bir ovuc kül götürüb, sübh obaşdan onu axar suya səpə-səpə deyərlər:

Mahnısı bu olsun,
Köməyi su olsun.

Sınayıblar ki, belədə azar-bezar çıxıb gedər....

*** Çuvaldan unu üç dəfə alıb, bir də qayıdıb içinə boşaldıb deyərlər: "Bərəkətin içində qalsın". Bundan sonra unu çuvaldan alıb işlədərlər.

*** Südü bişirib kərpic üstə qoyar, bir az həniri alınandan sonra içinə çalası töküb deyərlər:

Dovşan kimi yat,
Kərpic kimi qat.

Bir para yerlərdə belə deyərlər:

Kərpic kimi gələsən...

Bu inam-istəklə də çalası tökülən südü ta gəlinciyə qədər kərpic üstə saxlarlar.

*** Bir evdə gec ayaq açan uşaq olsa, cümə günü danüzü onu qapıdan yellədə-yellədə deyərlər:

Adaq-badaq istəyirəm,
Şilə ayaq istəyirəm.
Bəsdi qucaqda durduğu,
Bəsdi bucaqda durduğu.
Ay Tanrı, buna kömək ol,
Qol-qıçına dirək ol.

Sınayıblar ki, bunnan bir az keçənnən sonra uşaq ayaq açıb yeriyər.

*** Uşaq dişəyəndə düşən süd dişini qoz qabığının arasına qoyub, sonra verərlər özünə ki, aparsın bu ətrafdakı ən

uzunömürlü adamın evinin damına atsın. Atan zaman da belə desin:

Qollu-budaqlı olum,
Mən də onun çağlı olum.

Deyildiyinə görə, belədə həmin uşaq uzunömürlü olur.

*** Külək kəsmək bilməyəndə yeltutara un atıb deyərlər:

Çat payıva
Get öyüvə.

Belə eləsən, külək yavaşıyıb çəkilər.

*** Uşağın boğazı gələndə ilan öldürmüş bir kişi yüngülcə uşağın boğazını sığayıb üç kərəm deməlidi:

Govur qayıt,
Govur qayıt,
Govur qayıt.
Bu hovur qayıt,
Bu hovur qayıt,
Bu hovur qayıt.
Gündüz gəlibsən,
Gündüz qayıt,
Gecə gəlibsən,
Gecə qayıt.
Lap indicə qayıt.

Sınayıblar ki, belədə boğazgəlməsi qayıdar.

*** Mal-qara davaq olanda köhnə kişilər davaq tutan yerə kəndəlaş suyunu töküb deyərlərmiş:

Gəndalaş, ay gəndalaş,
Gəl dalaş, ay gəl dalaş.
Yetiş, yara qovuşsun,
Bəla burdan sovuşsun.

Üstündən bir-iki gün keçəndə baxıb görərlərmiş ki, budu ha, davaq qurtarıb.

*** Mal-qara çöldə qalıb gəlməyəndə qurdun ağzın bağlamaq gərəkdi ki, sədəmə yetirməsin. Bir ip götürüb, ona yeddi düyün vurarlar, düyün vurduqca da xançalı qından çıxarıb təzədən yerinə qoyallar. Axırda da deyərlər:

Zağladım, yağladım,
Qurdun ağzın bağladım!

*** Yağış yağmayıb quraq keçəndə bir adamı söyüd yarpaqlarıyla bürüyüb, üstünə su ata-ata qapı-qapı gəzdirər, yol boyu oxuyarlar:

Güdül, güdül, xoş güdül,
Əl-ayağı yaş güdül.
Qoy yağsın yağış, güdül.
A göylərin buludu,
Zəmilərin umudu.
Tez ol, bir yağış yetir,
Əkinnərim qurudu.
Çax daşı, çaxmaq daşı
Əndər gəlsin yağışı...

Hər qapıda güdülə pay verib, onu razı salarlar, güdül də alxış edər. Bundan sonra yağış yağar.

*** Uşağın qırx günündə mamaça gəlib, qırx suyu tökə-tökə alxış oxuyardı:

Qənədi quşdan alsın,
Muradı Tanrıdan alsın!
Yaxşılara tən dursun,
Yamanlardan gen dursun!
Ağrısı axıb getsin,
Acısı çıxıb getsin!
Bax bu bir,
Bu iki,
Bu üç olsun,
Düşmənnəri puç olsun.

Su tökün qırx olsun,
Bədnəzərə ox olsun.

Bundan sonra uşağa sədəmə toxunub nəzər yetişməzdi.

*** Uşaq olanda mamaça gələrdi, uşağı bələyib alardı qucağına. Doğan xatından üç kərə soruşardı:

– Ağırsan, yüngül?

– Yüngül.

Mamaça xeyir-dua verib uşağı verərdi anasına. İyirmi gündən sonra mamaça gəlib uşağın adını qulağına qışqırardı. Sonra deyərdi:

– Adını mən verdim, ömrünü Tanrı versin.

## SINAMALAR (2)

*** “Böyük su içən vaxt əgər kiçik istəyib verməsə, yeddi bulaq quruyar”, – deyərlər.

*** “Gecə qonşuya qatıq, un, pul verməzlər, yoxsa evin bərəkəti gedər”, – deyərlər.

*** “Körpəni güzgü qabağına qoymazlar, uşaq güzgüyə baxsa, gec dil açar”, – deyərlər.

*** Bıçaq yerə ağzı üstə düşəndə “ət kəsmək istəyir”, – deyərlər.

*** “Soğan, sarımsaq qabığını oda atmazlar, yoxsa qış soyuq olar”, – deyərlər.

*** Bir adam hıçqıranda deyərlər ki, kimsə sənin adını tutur.

*** “Xalı çox olan adamın qəbri işıqlı olar. Hər xalı bir ulduza dönər”, – deyərlər.

*** Deyərlər ki, əliuşaqlı xatın hirsli vaxtı uşağını əmizdirsə, uşağı da hirsli olar. Belə olanda südü gərək bir yerə sağsın, sonra uşağını əmizdirsin.

*** Deyərlər ki, axşam vaxtı uşağı çimizdirəndən sonra suyu atmaq olmaz. Suyun içinə yanar kibrit atıb “şeytanı yandırdım” deyərlər. Uşaq yatıb ayılandan sonra – səhər suyu atarlar. Yoxsa uşağa sədəmə toxunar.

*** İki xatın bir vaxtda uşağa yatsa, gərək qırx gün birbiriylə kəlmə kəsməyə. Danışsalar, uşağın üstünə qırx düşər. Qırx düşsə, qırx açar gətirib, onun başı üstdən üç dəfə su tökər, qırxı götürərlər.

*** Təzə ev tikəndə evin özülünə xırda pul, düyü atarlar ki, evdə xeyir-bərəkət olsun.

*** “Səhər tezdən evdən küçəyə çıxanda qabağına dolu vedrəli adam çıxsa, xeyrə çatarsan”, – deyərlər.

*** “Yaz vaxtı siftə göy guruldayanda axar çaydan evə bərəkət daşı gətirsən, evindən xeyir-bərəkət əskik olmaz”, – deyərlər.

*** Bəd yuxu görəndə yuxunu suya danışıb, itə yeddi qırıq çörək tullayarlar ki, yuxu çin olmasın, puç olsun.

*** “Əgər inəyin bulamasını təzə doğulmuş dişi balasının başına töksən, o gələcəkdə südlü olar”, – deyərlər.

*** Qurban ətinin sümüyünü atmazlar, qurudub saxlarlar. Bərk külək əsib kəsmək bilməyəndə həmən sümüyü yandırib, külünü atarlar evin damına. El bu inamda olub ki, belədə külək kəsər.

*** Çərşənbə günü baş yumaz, dırnaq tutmaz, üz qırxmazlar, yoxsa bədlik olar.

*** “Gün dalınca qapı süpürmək günahdır”, – deyərlər.

*** “İnəyin yelini gələndə qaraquş caynağını ona sürtsən, keçib gedər”, – deyərlər.

*** Təzə doğulmuş inək balasına “bərk dırnaqlı olsun” deyərlər.

*** “Günbatandan sonra bıçaq itiləsən, qapındakı heyvanın ölər”, – deyərlər.

*** Malın itəndə bıçağın ağzını bağlasan, qurdun ağzını da bağlamış olarsan.

*** “Odunu ocağa tərs qoysan, qonşun dövlətli olar”, – deyərlər.

*** “Körpənin ilk dəfə çıxan dişini kim görsə, ona hədiyyə almalıdır”, – deyərlər.

*** Əziz adamın evə qonaq gəlməyini istəyəndə şişi qızdırıb, həyətin küncündə yerə basdırarlar. İnanarlar ki, həmin adam şiş soyuyana kimi gəlib çıxmalıdır.

*** “Köynəyi tərs geyinəndə evə qonaq gələr”, – deyərlər.

*** “Ocağa odunu tək qoymazlar, peyğəmbərin ocağında odun tək yanmayıb”, – deyərlər.

*** Əgər uşaq gözdəymədən ağlağan olsa, "bismillah, qulhuvallah" deyib, kağızla iynə götürərlər. İynəni kağıza batırıb yandırarlar. Sonra da kağızın külünü uşağın alnına sürtərlər ki, ağlamasın, bəd nəzər puç olsun.

*** İlaxır çərşənbəsi heyva ağacının budağından balaca bir parça kəsib, gözmuncuğu kimi uşağın biləyinə sapla bağlarlar ki, ona göz dəyməsin.

*** "Körpəyə yatan yerdə çox baxmazlar, yoxsa uşağa göz dəyər", – deyərlər.

*** Xəmiri yoğurub qurtarandan sonra "qoy atası evinə gedib gəlsin" deyibən bir qədər gözləyərlər ki, xəmir gəlsin, bişməyə yararlı olsun.

*** Tum əkəndə "birə min əvəzin alasan" deyərlər ki, xeyir-bərəkət olsun.

*** Uşaq yatan vaxt yuxuda qorxmaması üçün bıçaqla onun ətrafında bir çevrə çəkərlər.

*** Uşağın nədən qorxduğunu bilməkdən ötəri qurğuşunu əridib, suya tökərlər. Qurğuşun suda nəsə bir heyvanın, ya qurd-quşun şəklini alar. Bundan bilərlər ki, o nədən ürpənib.

*** "Körpəni yük üstündə çox oturtsalar, gec yeriyər", – deyərlər.

*** "Gecə qatıq kəssən, ağartın kəsilər", – deyərlər.

*** Şər vaxtı qonşuları gəzən xəta-bəlaya rast gələr.

*** "Atın kəllə sümüyünü saxlasan, bərəkət gətirər", – deyərlər.

*** Əgər bir nəfər kəsilmiş çörəkdən təsadüfən yenidən bir tikə kəssə, deyərlər kiminsə acdır.

*** Birinin mal-qarası, qoyunu itəndə gedərmiş mollanın yanına. Molla da xəncərini tərs taxıb qurdun ağzını bağlarmış. İtmiş heyvan səhər gəlib çıxanda gedib mollaya xəbər verərlərmiş ki, qurdun ağzını açsın. Yoxsa günah olar, qurd ac qalar.

*** Xeyir-bərəkət olması üçün birinci xırmanı evə gətirməzdilər, yetim-yesirə paylayardılar.

*** "Bir adam ağır xəstələnəndə həmin adamın adını tutub ağacın kökünü burallar. Ağac quruyanda həmən adam da sağalar", – deyərlər.

*** Ocaq pis yananda odun üstünə duz atarlar ki, yaxşı yansın.

*** Xırman döyəndə axırıncı xırmanı yetimlərə, əlsiz-ayaqsızlara, dullara verərlər ki, bərəkəti artıq olsun.

*** "Uçaq düşərkən taxıllar baş-başa verib bir-birinə sarmaşanda qurban kəsmək gərək ki, xeyir-bərəkət görəsən. Kəsməsən, uçaq yiyəsi xeyir görməz", – deyərlər.

*** "Tuma çıxandan üç-dörd gün keçincəyə kimi heç kimə evdən od verməzlər, yoxsa əkini bərəkətli olmaz", – deyərlər. Tum bitəndən sonra evdən od verərlər.

*** Bayram günü çəmənlikdə yelləncəkdə yellənərlər ki, günahlar tökülsün.

*** Həyətin iti arxasını evə qarşı döndərib yatsa, deyərlər ki, kimsə o ailənin qeybətini qırar. Dərhal ev adamlarından biri itə bir şey atıb onu yerindən durğuzar ki, evin qeybəti edilməsin.

*** "Körpə uşağın üstünə çiy ət gətirməzlər. Onda uşaq xəstələnər", – deyərlər.

*** "Evin qapısının üstündən deşikli daş asanda o evdə söz-güz olmaz", – deyərlər.

*** Evə təzə gəlin gələndə siftə ona duz əzdirərlər ki, əlitamlı olsun.

*** Ayağı geyimli un çuvalının ağzını açmazlar, deyərlər, ayaqqabı darlıqdır.

*** Nehrə çalxayanda altına balta, bıçaq qoyarlar ki, yağı çox olsun, bədnəzərin gözü dəyməsin.

*** Gecə çaydan su götürəndə deyərlər ki, ay su, vaxtsız qonağım gəlib.

*** İlaxır çərşənbədə evin işığını sübhəcən söndürməzlər. Deyərlər ki, həmin gecə ulucuların ruhu sübhəcən yuxuda baş çəkməyə gəlir.

*** Tum səpərkən "Allah bərəkət versin, sətinə düzəlsin", yəni uğurlu olsun deyərlər ki, xeyir-bərəkət olsun.

*** Qayçını boş yerə çaqqıldatmazlar, yəni açıb bağlamazlar, yoxsa evin xeyir-bərəkəti olmaz.

*** Yuxunu danışmazlar, danışsalar da deyərlər ki, damda dana var.

*** Qırxlı körpəni bayıra çıxarmazlar. İşdi çıxartsan, onda gərək başının altına çörək tikəsinin içində kömür, ya da köz qoyasan ki, göz dəyməsin.

*** Adam xəstələnəndə, sınıxanda, mal-qara süddən kəsiləndə deyirdilər ki, "göz dəyib". Gedərdilər falçı və yaxud cindarın yanına. O da şit xəmirdən göz boyda xırda yumrucuqlar düzəldərdi. Sonra bədnəzər adamların adını çəkdikcə bu yumrucuqları bir-bir ocağa atardı. Hansı yumrucuq partlasa, deyərdi: "Sənin adamına, mal-qarana filankəsin gözü dəyibmiş. İndi puç oldu getdi".

*** "Uşağa göz dəyəndə Göz pirinin torpağını suda qarışdırıb ona içirdərdilər. Onda uşaq sağalar", – deyərdilər.

*** "Əliuşaqlı gəlinin südü kəsiləndə gərək o, su ilə dolu vedrələri götürüb, naxırın qabağına çıxa, sonra da evinə qayıda. Belə etsə, südü yerinə qayıdar", – deyərlər.

*** Uşaq xəstəliyə tutulanda onu aparardılar uşaq pirinə. Üç kərə pirin ətrafında dolandırıb, yenə də evə gətirərdilər. Uşaq azar-bezardan qurtarardı.

*** Quraqlıq vaxtı dərin quyudan su götürülsə, yağış yağar.

*** Qızdırmalı adamı İsitmə bulağına aparıb, suyundan ona içirdər, torpağından üzünə sürtərdilər ki, sağalsın.

*** Yağış yağmayanda kağıza səkkiz keçəlin adını yazarlar. Deyərlər ki, onda yağış yağar.

*** Yağış yağdırmaq üçün qəbirdən baş ağacını götürüb, suya atarlar ki, yağış yağsın.

*** Çox güzgüyə baxsan, deyərlər ki, sevəninə düşməzsən.

*** "Adam səfərə çıxanda yolda qabağına su ilə dolu səhənginən qız, gəlin çıxsa, işin düzələcək, boş çıxsa, əliboş qayıdacaqsan", – deyərlər.

*** "Həyətə kirpi gəlsə, bərəkət gətirər", – deyərlər

*** "Yaş ağacı ocağa atan adam kasıb olar", – deyərlər.

*** "Qoyun tükündən iyrənməzlər, o, qurban tüküdü", – deyərlər.

*** Gecə qızdırmalısına yeddi evdən pay yığarlar ki, sağalsın.

*** Uşağın qorxuluğunu tökmək üçün atın köhnə nalını suya salıb, ona içirərlər.

*** Uşaq qızılca çıxaranda ağzına dəmir qoyarlar ki, azar-bezardan qurtarsın.

*** "Quyu özünün torpağınnan dolsa, bərəkətli, dolmasa, bərəkətsizdi", – deyərlər.

*** Əgər uşaq haradasa, nədənsə qorxmuşsa, onda həmən yerdən torpaq götürüb suda qarışdırar və ona içirərlər. Sonra da sudan uşağın bədəninə sürtərlər. Belə olsa, uşağın qorxusu gedər.

*** İşdi-şayəd, inəyin südü çəkilsə, qaratikanı incil yarpağına keçirib sərnicin altına qoyarlar. Belədə süd qayıdıb əvvəlki qaydasına düşər.

*** Sağ gözün səyriməsi xeyirliyədi, şadlıq tapasısan, amma bu şərtlə ki, gərək səyriyən gözün üstünə bir tikə çörək qoyub, ürəyindən xoş bir dilək keçirəsən.

*** Həftənin birinci günü ağac kəsmək günahdı. Deyirlər ki, həmən gün ağacların ruhu ziyarətə gedir. Kim o gün ağac kəssə, ağacın ziyarətdən qayıdan ruhu hansı bir günsə ona sədəmə toxundurar.

*** "Yağış yağmayıb quraqlıq keçəndə dərin quyudan torpaq götürər, sonra onu aparıb bulağın axarına səpərlər, belədə yağış yağar", – deyərlər.

*** "Yağış daşını kölgədə saxlarlar ki, quraq olmasın. Çox yağış yağıb kəsmək bilməyəndə yağış daşını çevirərlər, onda yağış kəsər", – deyərlər.

*** Təzə gəlin gəldiyi vaxt evin kandarına ayaq basmazdan qabaq gərəkdi ki, baş barmağını bala batırıb, astanaya sürtə. Sınayıblar ki, belədə ömrü-günü şirin keçər, özüynən xoş güzəran gətirər.

*** Gəlini bəy evinə yola salanda arxasınca su, un, bir də daş atarlar. Su aydınlıq istəyidi – gedib aydınlığa çıxsın. Un atmaq da odur ki, qədəm basdığın ocağa özü ilə ruzu, bərəkət aparsın. Daşı da o qəsdinən atırlar ki, geri qayıtmasın, getdiyi yerdə qayım-qədim olsun.

*** Qurdu öldürəndə onun cəhəngini çıxarar, qurudub göy əskiyə bükər, qorxmuş uşağın boynundan asıb qorxuluğunu alarlar. Qurd ağzı azar-bezarı da qovur. Oduku, kefsizləyən uşağı həmən göy əskiyə bükülü cəhəngdən – qurd ağzından keçirərlər, o da sağalıb olar anadangəlmə.

*** İlaxır çərşənbədə sübh obaşdan bulaqdan su götürmək lazımdı. Bu, mübarək sudu. Onunçun da hamı həmən sudan üz-gözünə vurmalıdı, qapı-bacaya, bərəkətin üstünə səpməlidir. Deyirlər, belədə il ruzulu olar, bərəkət artar.

*** Səhər çağı qəcələ evin qabağındakı ağacın başına qonub oxuyanda gərək çıxıb deyəsən: "Can qəcələ, xeyir xəbər!" Bundan sonra o çıxıb gedər, bir-iki günə şad bir xəbərin sorağı gələr. Qəcələni öldürməzlər, öldürsən, sədəmə yetər.

*** Qaramalı kəsəndə, ya da satanda quyruğunu kəsib evdə saxlayıb deyərlər: “Qoy bərəkəti evdə qalsın”.

*** “Təndirdən çıxmış siftə çörəyi onu bişirən yesə, başı ağrıyar”, – deyərlər.

*** Təndirdən təzə çıxmış çörəyi “qoy çörək namaz qılsın”,– deyə o saat yeməzlər, –“yoxsa təndirin bərəkəti yox olar”, – deyərlər.

*** Xana quranda iş üstə toyuq gətirərlərmiş ki, iş quşa dönüb tez qurtarsın.

*** “Sağ əl gicişəndə xeyir gələcək, sol əl gicişəndə ziyanlıq olacaq”, – deyərlər.

*** “Ayağın altı gicişsə, yol gedəcəksən”, – deyərlər.

*** Uşaq dombalıb, ayaqlarının arasından baxsa, bilərlər ki, evə qonaq gələcək.

*** Qonşuda ölü olanda evdəki suların hamısını dəyişdirərlər. Deyərlər ki, Əzrayıl can almağa gələndə zəhərli qılıncını qonşuların sularına sala-sala gəlir.

*** Uşaqlar asqıranda qocalar inciməsin deyə belə deyərlər:

– Min yaşa,
Qocalarla, qarılarla,
Sən yaşa!

*** Əgər yuxunu işığa danışsan, deməlisən: “Aydınlığa yoz”.

*** Havalar quraqlıq keçəndə Ullu çaya daş atardılar, pirlərdə şirin çörək paylayardılar ki, yağış yağsın.

*** “Göz dəymiş inək süddən kəsiləndə Göz pirindən göz daşı deyilən daşı götürüb onun əmcəklərinə sürtərlər. Belə edilsə, inəyin südü geri qayıdar”, – deyərlər.

*** “Ay işığında kəsilən odun quru, bərk olar”, – deyərlər.

*** İnəyin südü bol olanda axşamlar içinə köz atarlar ki, göz dəyməsin.

## MÖVSÜM VƏ MƏRASİM FOLKLORU

### SAYAÇI SÖZLƏRİ (3)

Qoyun deyər: – kür mənəm,
Hər qapıdan girmənəm.
Girdiyim qapıları
Bərəkətsiz görmənəm.

Qoyun deyir: – qoyunam,
İçi dolu oyunam.
Qışda geyən kürkümü
Yaz olcağın soyunnam.

Canım qoyun qarası,
Yunu məfrəc arası.
Yağlı südün sağaram
Yazın-yayın arası.

### HOLAVARLAR (4)

Qoşquda kəl öküzüm,
İmana gəl, öküzüm
Şumla yeri, çıx başa
Sonra dincəl, öküzüm.

Hayda, a balım, hayda,
Kotanım, kalım, hayda.
Qara şumu vur başa,
Dincələk gələn ayda.

Qara kəl samandadı,
Əyəsi amandadı.

Tərpən, şumu qurtaraq
Kotanın dabandadı.

Boyunduruğunu yondurmuşam,
Samanlığı doldurmuşam.
Haydı, haydı, gecə yoldaşım
Gündüz qardaşım,
Haydı, haydı, haydı....

Hoha, babam öküzü,
Götür-götür buynuzu,
Əkin başa yetincə
Göydə salaq ulduzu.

Kəlimi qaşoylaram,
Könlünü xoş eylərəm.
Əkini əfsəl olsa,
Hamıdan baş eylərəm.

Qara kəl boynundadı.
Buynuzu oyundadı
Qara kəlin kallığı
Otunda, suyundadı.

* * *

Haydı, qara kəllərim, haydı,
Kotan sürüb səpim dəni
Amandı, bu yerdə qoyma məni
Boynu boyunduruqlu kəllərim,
Dalı çubuqlu kəllərim.
Gecə yalqız daş idim
Gündüz kəllərimə yoldaş idim.

## EYDİRMƏLƏR (5)

Ceyran inək sağ olsun,
Örüşü yaylaq olsun.
Badya dolu süd versin,
Çox payı qaymaq olsun.
Anam, ay inəyim,
Sonam, ay inəyim.

Quyruğunu bulama,
Üst-başımı bulama,
Qoy südünü sağım mən,
Tez bişirim bulama.
Quzum, ay inəyim,
Duzum, ay inəyim.

Çəmənlərdən keçibsən,
Çiçəklərdən biçibsən.
Məmələrin dolubdu
Bulaq suyu içibsən.
Balam, ay inəyim,
Alam, ay inəyim.

Maral, maral inəyim,
Qarnı xaral inəyim,
Qatığın bıçaq kəsməz,
Südü yarar inəyim.
Gülüm, ay inəyim,
Sonam, ay inəyim.

Nənəm, nənəm, nənəm eyyy....
Səni sağan mənəm eyyy...

Bircə hovur rahat ol,
Tərpənmə farağat ol,
Nənəm eyyy....

Qaymağı şirinim ey,
Ayranı sərinim ey,
Balası göyçək nənəm,
Qatığı çiçək nənəm,
Nənəm, nənəm, nənəm eyyy...
Səni sağan mənəm eyyy ...

## NEHRƏ NƏĞMƏSİ (6)

Nehrəm gəl, nehrəm gəl,
Çox payı kərəm gəl.
Bir qaşıq ayran gəl.
Külfəti doyran gəl.
Nehrəm gəl, nehrəm gəl,
Ocaqda aş durur,
Üstdə lavaş durur,
Nehrəm gəl, nehrəm gəl,
Tərpən gəl, tərpən gəl.
Gör bir nə zamandı,
Uşaqlar yavandı.
Qab dolu yağ eylə,
Üzümü ağ eylə,
Kefimi çağ eylə,
Tərpən gəl, tərpən gəl,
Nehrəm gəl, nehrəm gəl.

# TOY ADƏTLƏRİ

## Dərbənddə qız toyu (7)

Dərbənddə deyərlər: “Qız toyunun gül yeri xınayaxdı gecəsidi”. Bir para oymaxlarda “Qızlar gecəsi” də deyirlər. Ərgən qızlar axşamnan cəm olarlar gəlin gedəsi qızın başına. Deyə-gülə xına yaxar, qızı alnan-şalnan bəzəyib, eləyərlər ay parçası. Sonra çal-çağır başlanar. İlk əzəl gəlinə tərif deyəllər. Qızlar dəxi bir ağızdan belə oxuyar:

Bəxtin mübarək, gəlin,
Taxtın mübarək, gəlin.
Ağ əllərə əlvan həna
Yaxdın, mübarək, gəlin.

Sonra şirinsəsli dilavər bir qız irəli yeriyib ərköyün-ərköyün oxuyar:

Almanı atdım xarala,
O xaraldan bu xarala,
Gəlin dönübdü marala.
Bəxtin mübarək, gəlin,
Taxtın mübarək, gəlin.

Qızın biri gəlinə bəzək vura-vura söz atar, qız məclisinə oğlan sözü gətirər:

Öyləri havar-havar,
Ceyran ceyranı qovar.
Qızbahası yüz tümən,
Oğlan xəyalınla var.

Bayaqdan sözü dilinin ucunda gəzən almayanaxlı qız nazlana-nazlana gileylənər:

Papaxı var buxarı,
Çiyni mahud çuxalı,
Getmişdim evlərinə
Demədi gəl yuxarı.

Qaydadı ki, toy xınasını oğlanın anası gətirsin, gəlinin baldızı da yaxsın.

Digər qızlar dəxi aman verməz, qabağa düşüb xınanı özləri yaxarlar. Oğlan evindən gələn əlixonçalılar bir onda başlarını qaldırırlar ki, gəlin çoxdan xınalanıb. Onlar da borclu qalmaz, xına üstdən bir də xına yaxarlar. Bu da bir cür şuxluqdu ki, camaatın ürəyincədi.

Oğlan evindən xınayaxdıya gələnlər də sözlə, düzgüylə qarşılanar. Görərsən ki, budu, qızın biri qol açıb oynaya-oynaya üzünü tutdu gələnlərə:

Əlində toy xınası
Gəlir oğlan anası.
Evinə gəlin gedir
Elin gözəl sonası.

Sözün bu yerində oğlan evindən gələnlərdən biri xonça götürüb, oynaya-oynaya söz deyər...

Neçə belə şirin-şəkər sözlə-söhbətlə məclis baş alıb gedər. Çalıb-çağıran kim, deyib gülən kim... Bir belə çal-çağırın, sındırhasındırın qabağında deynən heç yoruldum, usandım deyən tapılar?

Yığnaq boyu xınayaxdıya gətirilən pay-ürücü, sor-sovqatı bəh-bəhlə əldən-ələ alar, baxıb-baxıb öyərlər. Ərgən qızlar ürəklərində bir oğlan adını murazlayıb, gəlinin sağ əlini tellərinə toxundurarlar. Gəlinnər tapşırmasıdı, qızlar o teli cığalandırıb yeddi gün şax saxlasalar, murazlarına yetəsidilər...

Xınayaxdı gecəsinin bir özgə sınağı da var; ortalığa böyük bir nimçə qoyurlar, hər qız bir almanı nişanlayıb atar nimçəyə. Xırda bir uşağı çağırıb deyərlər ki, bəyəndiyin almanı götür. Uşaq hansı almanı götürsə, o almanın yiyəsi tez bir zamanda ürəyində tutduğu istəyə çatmalıdır.

Beləcə, gecənin bir yarısına kimi çal-çağır uzanar. Oğlan evindən gələnlər yır-yığış eləyib getmək istəyəndə qapıdan cıxa-çıxa belə tapşırma tapşırarlar:

Qızıl üzüyün taxın,
Əlvan hənasın yaxın.
Bizim əmanətimizə
Bu gecə yaxşı baxın.

Ən axırda qapıdan çıxan üzünü xınayaxdıya toplaşanlara tutub razılıqlarını, könlü xoş getməklərini yaraşıxlı bir düzgünün boyuna biçər:

Dərya qırağı qumlar
Dəmir qapılı damlar.
Daha biz gedər olduq,
Siz sağ olun, adamlar.

Adətdi, xınayaxdıdan qayıdan oğlan adamları öz doqqazlarından içəri girən kimi gərək bir yarpaq bəzəkli söz desinlər. Tutalım, gəlini gətirəcikləri qız dərzi qızıdı, onda çırtıx çala-çala oxuyarlar ki:

Öyləri ağdı oğlanın.
Dörd yanı bağdı oğlanın.
Almışıq dərzi qızı,
Damağı çağdı oğlanın.

Oğlanın bacısı yerə-göyə sığmaz, şadlığından bilməz ki, neyləsin, uçmağa bir cüt qanad istər. Ürəyi atdana-atdana, qolları qanaddana-qanaddana yaz çiçəyinə bənzər təzə-tər sözlərnən belitoqqalı, telisığallı gəlinin tərifin yetirər qardaşa:

Dəyirman üstü çiçək,
Gəl gedək, onu biçək.
Qardaşımın gəlini
Uzunsaç, qarabirçək.

...Hə, xınayaxdıdan sonra gəlir "qız yola saldı"nın söz-söhbəti. Elə ki oğlan evinin adamları dəstə tutub özlərini yetirlər qız evinin qapısına bəli, baxasan, nə dəm-dəstgah düzəlir. Üst-üstdən gələn ismarışlar zurnaçını pul kimi gözərdir bir hovurdaca. Hələ zarafata salıb yanıx verənləri, qız evindən ələ

yetən dəmir-dümürü, qab-qacağı çırpışdırıb aranı qarışdıranları demirəm. Qız evinin adamları belədə gərəkdi ki, özlərini şax tutsunlar, cırnayb cızıxdan çıxmasınlar. Yox, işdi cırnadılar, tavanasız tərpənib haray-həşir saldılar, onda oğlan adamlarının şuxluğu day da artasıdı.

Özü də bu şuxluğu oynaq-oynaq məzəli kəlmələrnən naxışlamağa məqam gəzərlər ki, əllərinə fürsət düşən kimi deyələr:

Daş-daşa,
Dırnaq daşa.
Siz savaşa,
Biz tamaşa.

Gəlinin belini bağlayıb ona oğullu-qızlı, odlu-ocaqlı halal bir güzəran diləyərlər. Özü də kəmər bağlamazdan əvvəl oğlanın bacısı irəli durub deməlidi:

Gəlinə bax, gəlinə
Xına yaxıb əlinə.
Aparmağa gəlmişik,
Kəmər vurun belinə.

Yan-yörəsindəki qızlar kövrəlmiş gəlini dilə tutub ovudarlar:

Uzun-uzun yollarınan
Uzadarıq, qız, səni.
Güzgü qoyub güllərinən
Bəzədirik, qız, səni.

Gəlini taxtından durğuzub, xeyir-dua verərlər. Bu xeyir-duaların bir parası ata-ana adından, bir parası bacı-qardaş, bir parası da yar-yoldaş adından söylənər. Qardaş dilindən gələn xeyir-duaların yeri ayrıcadı. Bu arzu-diləklərdəki qardaş mehri ipistidi, könül təpərrəndirən, göz nurrandırandı.

...Suya gedərsən, bacım,
Quma batasan, bacım,
Gəlin getdiyin yurdda
Binə atasan, bacım.

Get, bacım, yola, yola...
Gözlərin dola-dola.
Təki sənin üstündə
Tanrı göz ola, ola.

Uçasan havva, bacım,
Dönəsən qova, bacım.
Bu qonduğun budaqda
Tutasan yuva, bacım.

Gəlin öz oymaxlarından aralı bir oymağa köçəndə tay-tuşları onu dövrəyə alıb belə deyərlər:

İstəkanın ağ olsun,
İçi dolu yağ olsun,
Uzaq yerə köçürsən,
Təki canın sağ olsun.

Toy toydu, onun yaraşığı da könül oxşayan dodaqqaçdıdı, duzlu-məzəli ərkyanalıqdı. Yoxsa toyun nə dadı, nə ləzzəti? Gəlin köçən qızı yola salanda qız adamının oğlan adamlarına şirincə bir düzgünü ərkyanalıqla deməyi də elə bu səbəbdəndi.

Əlində var cam bu qızın,
Qolunda mərcan bu qızın.
Biz sənə qız vermişik –
Can sizin, can bu qızın.

Bax beləcə deyə-gülə, çal-çağırnan gəlini atlandırıb üz tutarlar oğlan evinə sarı. Qabaqca çapar salarlar ki, muştuluğa getsin.

Qız evindən beş addım aralanmamış oğlan adamından birinin dili dinc durmaz. Qayıdar ki: –

Gəlmişdik aparmağa,
Ağ cehiz qoparmağa,
Yığılın, ay tay-tuşu,
Qoymayın aparmağa.

Bir ayrısı da ehmal tərpənər, dilinin şirin yerinə salıb işin sonrasına işarəynən belə deyər:

Həyətində var tənək,
Dolanar çərxi-fələk,
Aman quda, can quda,
Qonaqlıq eylə, gələk.

Söz düzməkdə geri qalmayanın biri də dilavərriknən, mehr-ülfətnən sağollaşar:

Biz aş olaq, siz yağ olun, qudalar.
Biz gedirik, siz sağ olun, qudalar.

Hə, muştuluqçu yolun əhədini kəsib özünü yetirər oğlan evinə. Sözdən necə təkan alıb qanad götürmüşdüsə, o havaynan da şaddığın sorağını nağdılayar.

Söyüdlər birçəkləşdi,
Dörd yanı göyçəkləşdi.
A bəy, gəlmişəm deyəm,
Gəlinin gerçəkləşdi.

Bir də görərlər ki, bir qovhaqov, bir hay-haray, bir çal-çağır var ki, kefindən keçən... Gəlini araya alıb, qabağında oynaya-oynaya gətirərlər, doqqazdan girən kimi kəkilli, xınalı, burma-buynuzlu bir qoç kəsib, gəlini adladarlar üstündən. Başına şirni, noğul səpərlər. Evin kandarına çatanda ayağının altına saxsı atarlar, gəlin onu vurub sındırar, baş barmağını da bala batırıb astanaya sürtər, sonra keçib gedər bəy otağına. Bəy otağı dönüb olar gəlin otağı. Gəlini yuxarı başda baxımlı bir yerdə əyləşdirərlər. Yengə gəlib özünü nişan verə-verə sığallı sözlərlə gəlinin xətrini xoşlar:

Xoş gəldin, bizim gəlin,
Əzizim, gözüm gəlin.
Sənə gümüş yaraşmaz,
Geyərsən qızıl, gəlin.

Beləcə, xınayaxdı gecəsindən bu yana ürəyi uçuna-uçuna yol gələn ağduvaqlı gəlin binə qurub, ev-eşik olmaqdan ötəri seçib bəyəndiyi ocağa qədəm basar. Gəldiyi yerdə qayım-qədim olsun, övlad toyu, nəvə toyu görsün. Ağbirçək öyüdüncə oturub dursun.

## Göndər gəlsin elçini... (8)

Dərbəndin Qaradağlı adında bir tərəkəmə kəndi var. Camaatı dilli-dilavərdi. Deyirlər ki, bu kənddə oğlan qızın ona könlü olub-olmadığını bilmək niyyətiylə zarafata salıb belə deyir:

Ay qız, Qaradağlısan,
Könlü gülə bağlısan.
Elçimi göndərirdim,
Eşitdim adaxlısan.

Qız da oğlan ürəyincədisə, səsində göyərçin ədası cilvələndirə-cilvələndirə sözün cavabını belə yetirir:

Qaradağlı deyiləm,
Gülə bağlı deyiləm.
Göndər gəlsin elçini,
Mən adaxlı deyiləm.

## Qapıda durub elçilər (9)

Yağış yağar, nəm çilər,
Qapıda durub elçilər.
Anam deyir: – Gəl verək,
Atam deyir: – Qoy görək.
Dilinə qurban, dayı,
Sən də bir dillən barı.

## Mübarək olsun (10)
**(*Bəy tərifi)***

Bu gün biz toyuva sənin gəlmişik,
Təzə bəyin toyu mübarək olsun.
Eşidibən toy xəbərin bilmişik,
Təzə bəyin toyu mübarək olsun.

Qızılgül dəstəsi, nərgiz butası,
Giyov olsun doqquz atası.
Sizdən uzaq olsun düşmən xatası,
Təzə bəyin toyu mübarək olsun.

Şükür olsun haqqa, yetişdi dada,
Pirimin əlindən verildi bada.
Çatmayanlar çatsın belə murada,
Təzə bəyin toyu mübarək olsun.

Aşıq olub soraq sallam hər yana,
Bülbül olub mən oxuram gülşana.
Allah sizi heç salmasın hicrana,
Təzə bəyin toyu mübarək olsun.

Qızılgülü dəstə-dəstə dərərlər,
Dəribəni sinən üstə sərərlər.
Toya gələnlərin payını verərlər,
Təzə bəyin toyu mübarək olsun.

Çağırın giyovun gəlsin bacısı,
Dünyada görməsin qardaş acısı.
Giyovlar bəzəyi, bəylər ucası,
Təzə bəyin toyu mübarək olsun,

Çağırın gəlsin bu giyovun anasın,
Qucağına alsın oğul balasın.
Bizlərin də nəmərini yollasın,
Təzə bəyin toyu mübarək olsun.

## Ömrü uzun olsun bu giyovlarin (11)
***(Bəy tərifi)***

Gecə-gündüz ol xudadan istərəm,
Ömrü uzun olsun bu giyovların.
Cavabında beş kəlməni deyərəm
Ömrü uzun olsun bu giyovların.

Mən dərərəm bağda qızılgülləri,
Sağ olsun bu giyov, həm nökərləri.
Gecə-gündüz dilimdədi əzbəri,
Ömrü uzun olsun bu giyovların.

Təzə bəyin taxtı olsun mübarək,
Oğlanları doqquz olsun biz görək.
Hər zaman dilində belə bir dilək:
Ömrü uzun olsun bu giyovların.

Təzə bəyim, dayanmısan arada
Şükür olsun haqqa, yetişdi dada.
Çatmayanlar çatsın belə murada
Ömrü uzun olsun bu giyovların.

## Dərbənddə qadınların toylarda oxuduqları mahnılar (12)

Quda, gəlmişiz biz sizə, hürmət ediniz bizə.
Bu gecə qız sizdədir, sabah aparaq bizə.

Qırmızı yastıq üzü, siz nə tanırdınız bizi?
Sövdəsiz oturmuşduq, sövdəyə saldız bizi.

Kəfkiri düz qoy, quda, aşını süz, qoy, quda.
Biz ki qızı apardıq, yana-yana qal, quda.

Gəlin gəldi, düşürün, ləziz təam bişirin.
Gəlin özü düşməsə, vurun boynun düşürün.

Ətəyi çin-çin gəlin, çigni göyərçin gəlin,
Gəlinlər arasında hamıdan göyçək gəlin.

İşi kəsərik fay kimi, qollar ox-yay kimi,
Bizim bir qızımız var, bədirlənmiş ay kimi.

Həyətimizdə var çinar, yaprağı dinar-dinar.
Bizim bir qızımız var, saxlasın pərvərdigar.

Dar küçədən keçmişiz, qan-tərə biləşmişiz,
Giyindirin qızıyızı, aparmağa gəlmişiz.

Xoş gəldin, bizim gəlin, əzizim, gözüm gəlin,
Sənə gümüş yaraşmaz, taxarsan qızıl, gəlin.

Dərbəndin yollarında, gizləndim kollarında
Bir cüt bez bənd oleydim yarımın qollarında.

Dərbənd üstü baridi, əl çatmaz yuxarıdı.
Ağlama, mənim yarım, Allah bizim saridi.

Dərbəndin küçələri, banlayır beçələri.
Mən sənsiz necə yatım bu uzun gecələri.

Sərim sərməgə gəldi, gülüm dərməyə gəldi.
Dərbəndi mahna edib, yarın görməyə gəldi.

Su gəlib bəndə dəyər, kekil kəməndə deyər.
Mənim bir sevgilim var, külli Dərbəndə deyər.

## AĞILAR (13)

Nazbalış baş altdadı,
Sürmə göz-qaş altdadı.
Hayına yetəmmirəm,
Qollarım daş altdadı.

Ay mənim fağır balam,
Qul balam, sağır balam.
Dərdin dərmansız oldu
Yastığı ağır balam.

Qalam vay!
Astanam vay, qalam vay!
Qırılıbdı qoşunum,
Alınıbdı qalam vay!

Hara getdi gör gedən?
Köynəyi qan-tər gedən?!
Fələk qarğış eylədi
Balam qaldı cərgədən.

Aman naşı əlindən,
Namərd daşı əlindən.
Külli-aləm bezardı
Gözüm yaşı əlindən.

Fələk quşum aparır,
Ağıl, huşum aparır.
Özgədən biri gedir,
Bizdən beşin aparır.

Gedirəm yolum budu,
Sağım bu, solum budu.
Baş-gözümə döyməkdən
Qurudu qolum, budu...

Başımın ağlı balam,
Sinəsi dağlı balam,
Xəbərin hardan tutum,
Qapısı bağlı balam.

Cırmaq atıb üzümnən,
Qan axıtdım gözümnən.
Bacın qurban, ay qardaş,
Apar məni özünnən.

Mən aşıq arxa haray!
Su dəydi çarxa haray!
Cənazəm yerdə qalıb
Amandı, arxa haray...

## BAYATILAR (14)

Dərbənd yolu şüşədi,
Dərbəndə gün düşədi.
Dərbənddəki yarımın
Gözləri bənövşədi.

Su gəlib bəndə dəyər,
Gümüş kəməndə dəyər
Sənin bir kəlmə sözün
Cümlə Dərbəndə dəyər.

Dərbənd bizim olaydı,
Daşı qızıl olaydı,
Qardaşım bəy duranda
Gecə uzun olaydı.

Ay Mirağa, Mirağa,
Nöyüt tökün çırağa.
Saçım sünbülə dönüb,
Barmaqlarım darağa.

Mən aşıq üzəngini,
Asta bas üzəngini.
Tanrı canım alaydı
Yardan əl üzən günü.

Bir yaralı qoçam mən,
Yerim yoxdu qaçam mən.
Ürək dükan deyil ki,
Hər yetənə açam mən.

Əzizim yüz il qala,
Yüz il yığ, yüz il qala.
Bədəsil əsil olmaz
Boyunca qızıl qala.

Abı don, abı daraq,
Yarımı gördüm bayaq,
Qaçdım, çata bilmədim,
Sınasan belə ayaq.

Dəryadan ləpə gələr,
Ağ yağış səpə gələr.
Mənim ayovlu yarım
Atını çapa gələr.

Qəriblik yaman olar,
Sovrulub saman olar.
Qürbətlərdə qalanın
Dərdi hər zaman olar.

Yolla gedən üç ilan,
Yumurtası puç ilan,
Məndən qeyri də varmı
Cavan ömrü puç olan?

Gəlin dursun yerisin,
Ayağın gül bürüsün.
Sayası burda qalsın
Başın dövlət bürüsün

Əzizim sinə incə,
Bel incə, sinə incə.
Saxsı sənək bel qucar,
Olmadım sənəyincə.

Eyvanım həsir mənim,
Ürəyim əsir mənim.
Toyumu tez eləyin,
Yarım tələsir mənim.

Bostançıyam, cuvaram,
Suyum yoxdur suvaram.
Yetişmişin dərmişəm,
Kalına da cumaram.

Bağında var boyana,
Dərbənd yolu hayana...
Hərə bir layla çalsın
Bəlkə yarım oyana.

Çalıda çapar atlar,
Ağzında cilov çatlar.
Oğlan deyir, dur gedək
Qız deyir, bağrım çatlar.

Dağlar, necə dağlarsan?
Çiskin, duman bağlarsan.
Dağlanmamış yerim yox
Sən haramı dağlarsan?!

Maralın dizi qanlı,
Topuğu, dizi qanlı,
Bizə fələk eylədi,
Biz tutduq sizi qanlı.

Dağların çiskinidi,
Dumanı, çiskinidi,
Özünü mənə yetir,
Ömrümün pis günüdü.

Bu dərə buz bağladı,
Dibi nərgiz bağladı,
Bir evə qonaq oldum,
Atımı qız bağladı.

Alma atdım, al, oğlan,
Al cibinə sal, oğlan,
Al deyəndə almadın,
Yana-yana qal, oğlan.

Çirkin çəkin ilmeyi,
Qardaşın köynəyliyi,
Qardaşımçın qız aley,
Uca dağlar kəkliyi.

Uzun qovaq, dal qovaq,
Mən ölüm, sən qal, qovaq.
Qardaş bağa girəndə
Ona kölgə sal, qovaq.

Köynəyim yaxa qaldı,
Açmadım yaxa qaldı,
Bağbanı sel apardı,
Bağ baxa-baxa qaldı.

Ana, ana, canım ana,
Canı mərcanım, ana,
Baş qoyum dizin üstə,
Qoy çıxsın canım, ana.

Pəncərədən baxdı yar,
Baxdım gördüm yoxdu yar,
Nə özündə can qoydu,
Nə də məndə ixtiyar.

Bənövşəyəm, bitmişəm,
Kol dibində itmişəm,
Qürbət günü dərdimdən
Boynumu yan tutmuşam.

A qardaş, ağa qardaş
Dolan gir bağa, qardaş.
Bağdakı qızılgüllər
Sənə sadağa, qardaş.

Qızılgül dəstəsiyəm,
Dərmişəm ustasıyam.
Hicran əyməzdi məni
Dərdinin xəstəsiyəm.

Bu yola yol salardım,
Karvanım bol salardım,
Bilsəydim ayrılıqdı,
Boynuna qol salardım.

Bağa girdim bağbansız
Dəvə gördüm sarvansız,
Aləmə dərman payladım,
Özüm qaldım dərmansız.

Dəryada çıraq yanar,
Baxdıqca iraq yanar,
Bu dünya qəm şərbəti,
İçdikcə ürək yanar.

Ləyən, ləyən, ləyəndə
Güllər boynun əyəndə
On iki qurban kəsərəm
Əlin əlimə dəyəndə.

Qulağında tanası,
Üstün örtüb şanası.
Qonşu qızı sevirəm,
Vermir zalım anası.

Üzüm, üzüm ağacı,
Üzüm, düzüm ağacı,
Bağa baltalı girdi,
Kəsdi bizim ağacı.

Üzüm tənəyi haça,
Əlim dolaşdı saça.
İgid ona deyərəm,
Məni götürüb qaça.

Dağlara dolu düşər,
At gəlsə nalı düşər,
Qəbrim qazın yol üstə,
Qardaşın yolu düşər.

Dəryada sicim gördüm
Sicimin ucun gördüm
Mən səndən ayrılmazdım
Fələyin gücün gördüm.

Aşıqam aşıqlara,
Zülfü dolaşıqlara.
Əgər səni tapmasam,
Qoşullam aşıqlara.

Pəncərədə şüşə var,
Sürüşübən düşə var.
O məhlədə bir qız var,
Qardaşıma düşə var.

Çəkməsi cıq-cıq eylər
Evimizi palçıq eylər,
Qonşu qara geyinsin,
Yar gələndə söz eylər.

Ay qız, gəl alım səni
Bağda gül alım səni,
Qız, vaxtında gəlmədin,
İndi dul alım səni.

Mişmişin bağdan gələr
Sovuq su dağdan gələr.
Tələsmə, cavan oğlan,
Qismət Allahdan gələr.

Elə bir gün olaydı,
Sazla düyün olaydı,
Sizin kəndin qızları,
Bizə sürgün olaydı.

Samavar bizim olaydı
Lüləyi qızıl olaydı,
Girəydim yar qoynuna,
Gecələr uzun olaydı.

Bağ bağçalar şam olsun,
Ya çinar, ya şam olsun,
Gec gəlib tez gedirsən,
Otur, qoy axşam olsun.

Əzizim güzgüsünə
Baxdım yar güzgüsünə
Ürəkdən bir ah çəkdim
Az qaldı güzgü sına.

Bağça barsızdı, gülər.
Heyva narsızdı, gülər.
Könlüm evi virandır,
Üzüm arsızdı, gülər.

Ovun ovutmaz məni,
Meylin soyutmaz məni.
Ovudursan sən ovut,
Kimsə ovutmaz məni.

Axşam arada qaldı,
Xəncər yarada qaldı.
Mənim vəfasız yarım,
Bilməm harada qaldı.

Qızılgülü dərəllər,
Xəlvət yerə sərəllər.
Səndən ötrü sarallam,
Qızdırmadan görəllər.

Gedirəm yollar ilə,
Dürlü xəyallar ilə
Qucaydım yar boynunu
Tamarzı qollar ilə.

Dərbəndin dağı birdi,
Düzü çox, dağı birdi.
Balama dəymə, fələk,
Gözümün ağı birdi.

Dağlar başı qardandı,
Yolum sizin sardandı.
Səni xəlvətdə tutam
Məndə o bəxt hardandı?

Əzizinəm, başda mən,
Dəryada mən, daşda mən.
Yazıldı qara yazı
Genə yazıq başda mən.

Yol üstündə var çinar,
Yarpağı dinar-dinar.
Mənim nazlı yarımı
Saxlasın pərvərdigar.

Mən aşiqəm Dərbəndə,
Su gəlib dolub bəndə
Fələk bir tor qurubdu,
Gül yarım düşüb bəndə.

Aşıq bu gündə məni,
Toyda, düyündə məni.
Fələk də rəhmə gələr
Görsə bu gündə məni.

Su üstə sərincə bax,
Yuyunca, sərincə bax.
Yara belə baxmazlar,
Ay zalım, sərincə bax.

Suya gedən igidi,
Su dolduran ilkidi.
Bulaqda su olaydım,
Su qızların yüküdü.

Əlimdə ələmim var,
Qızıldan qələmim var,
Əzrayıl, alma canım,
Uzaqdan gələnim var.

Göyərçinəm, uçdum, gəl,
Yar bağına düşdüm, gəl,
Yaxşı günün yaxşısı,
Yaman günə düşdüm, gəl.

Göyəm yerlər,
Göy yerlər, göyəm yerlər,
Könlümə qan ağladır,
Ayağın dəyən yerlər.

Yetimin yekə dərdi,
Yüklənib lökə dərdi,
Mən dərdi çəkəmmirəm,
Kim gəlib çəkə dərdi?!

Dağların qaşı duman,
Dibi göy, başı duman.
Bir qoymaz yar görünə,
Çəkilməz naşı duman.

İncidənsən,
Dürdənsən, incidənsən.
Kəsərəm, dilim, səni
Bilsəm, yar incidənsən.

Kağızın ağına bax,
Çevirib sağına bax.
Mən yadına düşəndə
Dərbəndin dağına bax.

Eləmi yatan qarı,
Dağların yatan qarı.
Kişini tez qocaldır
Axşamdan yatan qarı.

Ağ alma allanıbdı,
Budaqda ballanıbdı.
Qardaşın quzu kürkü
Çiynindən sallanıbdı.

İpək çəkib çarxlardan,
Atılaydım arxlardan
Qardaşa qız alaydım
Alagözlü şıxlardan.

Nədi diləyin, qardaş,
Ağdı biləyin, qardaş.
Quzu qurban kəsərəm
Bitsə, diləyin, qardaş.

Arpa biçib gedeydim,
Ağ su içib gedeydim,
Yar yadıma düşəndə
Göynən uçub gedeydim.

Dərbənd üstü düz olur,
Dəstə-dəstə qız olur.
Getməsəm, bağrım çatlar,
Gedəndə də söz olur.

Muncuq düzdüm möhrədən,
Naxış vurdum dövrədən.
Sən ki belə deyildin,
Ölsün səni öyrədən.

Canım kotana qurban,
Maçın tutana qurban.
Şumda kəsib əhədin
Yorğun yatana qurban.

Yar-yar demək ayıbdı,
Yarın adı Qayıbdı.
Desə gəlinlər desin,
Qızlar desə ayıbdı.

Dəryada dəryalıqlar,
Qalxıb oynar balıqlar,
Nə elə görüş olsun,
Nə belə ayrılıqlar.

Ağ alma, qızıl alma,
Tabağa düzül, alma.
Səni yar göndəribdi
Saxlaram yüz il, alma.

Ağ dəvə çatıb gələr
Quyruğun atıb gələr.
İstəkli yar itirən
Qəmlərə batıb gələr.

Dəyirman üstü çiçək,
Gəl gedək onu biçək.
Qardaşa gəlin gəlsin
Uzunsaç, qarabirçək.

Dərbəndin küçələri,
Bar verər beçələri.
Səslədim qardaşımı
Hay verdi neçələri.

Günəş göy qırağında,
Qızlar toy qırağında.
Mən yarımla görüşdüm
Pünhan çay qırağında.

Əzizim gözdə məni,
Kiprikdə, gözdə məni.
Bu çölün ceyranıyam
Gəl ovla güzdə məni.

Xalını qoydum yükə,
Yeddi qat bükə-bükə
Yarımın düşmənləri
Doğransın tikə-tikə.

Süd üzü qaymaq gərək,
Qaymağı yaymaq gərək.
Yardan əl götürənin
Gözlərin oymaq gərək.

Əmimoğlu, xasa gəl,
Mən ölmüşəm, yasa gəl.
Qəbrim yol üstündədi,
Torpağımı basa gəl.

Bulağın başı dayım,
Üzüyün qaşı dayım,
Sənə mən qurban olum,
Anam qardaşı, dayım.

Gedirəm yolum budu,
Dərd budu, zülüm budu.
Sevəsən, yad apara
Əcəlsiz ölüm budu.

Bu gələn özün bilməz.
Danışar, sözün bilməz.
Hər gəlib su dolduran
Çeşmənin gözün bilməz.

Dərbənd üstə qala var,
Ürəyimdə yara var.
Mən ölürəm dərmansız,
Bəs deyirdin çara var?

## ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR (15)

Alma tərəyinin dibinə armud düşməz.
Ağlaya bilməyənin ölüsü gorbagor olar.
Ağıl ev yiyəsidir, bilik qonaq.
Axıra qalan axura qalar.
At görəndə axsayır, su görəndə susayır.
Allah deyən ac olmaz, xurcununda çörək olsa.
Avalçı cücə yumurtada civildər.
Atın arpası çox olanda yüyəni şaq-şaq vurar.
Artıq atı olan yorulmaz.
Ata arpa, igidə aş.
Atı olana nisyə qamçı da verərlər.
Atı atın yanına bağlasan ya vurağan olar, ya qapağan.
Ağılsız baş şamsız fənər kimidir.
Ahnan abad olan zülümnən bərbad olar.
Ac Tanrıdan güclü olar.
Açılan süfrənin min eybi olar, açılmayan süfrənin bir.
Analı qız güllü qız,
Anasız qız küllü qız.
Aşağıda yatırsan sel aparır, yuxarıda yatırsan yel.
Bəyin qabağına keçmə, atın dalından.
Bilənə cibin də sazdır, bilməyənə zurna da azdır.
Bişincə gözləyən düşüncədə gözləyər.
Bəxtin durdu sən də dur, bəxtin yatdı sən də yat.
Böyük deyənə qulaq asmayan böyüməz.
Quş yuvasından quş əskik olmaz.
Qapını möhkəm bağla, qonşunu oğru tutma.
Qoyunu saxlayan dəridi, xatunu saxlayan əridi.
Qaradan qaş olmaz, özgədən qardaş.
Qart da gedər dünyadan,
Yaş da gedər dünyadan.

Qaynayan qazana milçək oturmaz.
Qohumunla bostan əkmə.
Qazan daşanda çömçə mil altından çıxar.
Qurd yaşadığı yerə toxunmaz.
Qərib itin quyruğu qısılı olar.
Qaymağı üzdən, balı dibdən yeyərlər.
Qanan qanmayana borcludur.
Qorxaq daşın böyügündən yapışar.
Qonağını əzizləyən itinə də sümük atar.
Qəbirdə yatacağın gün evində yata bilməzsən.
Qızı saldın beşiyə,
Cehizini sal eşiyə.
Qar yağmaqla qarğa ağarmaz.
Düzlük divardan keçər, əyrilik otaq içində qalar.
Dağa dağ demək olmaz, yanında dərə olmasa.
Daş düşdüyü yerdə ağır olar.
Döymə taxta qapımı, döyərlər dəmir qapını.
Darğanda yağmasa, xırmanda yağar.
Dəli qız deyər anasız olaydım, bədəsil gəlin deyər qaynanasız.
Dinənin bağrını dinməyən partladar.
Düşmənini çöldə axtarma, evdə axtar.
Dostsuz adam köksüz ağac kimidir.
Deyən dəlidirsə, eşidən ağıllı olmaıdır.
Dost atan daş ağır olar.
Evində yoxdur urvalıq,
Könlündən keçir darğalıq.
El tikəni sel sökə bilməz.
Elə çalmağın da belə oynamağı olar.
Əməksiz yemək olmaz.
Əmiyə qalan dəmiyə qalar.

Ərə getmək gələndə böyük bacı olursan, ev süpürmək gələndə kiçik bacı.
Ər tutanı el tutar, ər atanı el atar.
Ərinəni ər almaz, alsa da saxlamaz.
Ərlə xatunun savaşı, yaz gününün yağışı.
Zəmidə izi olmayanın, süfrədə üzü olmaz.
İt aşı, balıq başı.
İnsanı bir dəfə gördün yoldaşdı,
İki dəfə gördün qardaşdı.
İnək sağa bilməyənə həyət də əyridir.
İt özünü murdar bilməz.
Yarmadan aş olmaz, özgədən qardaş.
Yaxşı olsa xanımdan, pis olsa qaravaşdan.
Yatmağına baxanda gördüyü yuxuya min şükür.
Yaxşı bez arşınsız da satılar.
Yağ yağa qarışar, yarma yavan qalar.
Yaxşı qoca olmayan yerdə yaxşı cavan da olmaz.
Yüz dəfə peyğəmbərə yalvarınca bir dəfə Allaha yalvar.
Yayda çəkər zəhməti, qışda görər ləzzəti.
Yamanlıq etdin, yaxşılıq gözləmə.
Yaman mal yiyəsinə qayıdar.
Yola çıxan adama silahla çörək ağır olmaz.
Yeddi qazanda bişəni aldatmaq isdəyir.
Yaman atın yalı uzun olar.
Yumruq vurana xəncər vurallar.
Yol tanıyan yolda qalmaz.
Küthəkütnən it saxlayanın bir təknə əppəyi gərək.
Kim atasından baş alsa, barmaqla göstərəllər.
Keçəl düzünü desə, başına qapaz dəyər.
Kişi evin fəhləsi, qadın evin bənnası.
Kim əkdi, kim becərdi, kim də dedi – “bağ mənimdi”.
Kötüksüz koldan meşə olmaz.

Kiçik olmayan yerdə böyük də olmaz.
Kərə qoyun yaylaqdan geri qayıdanda yığılar.
Kasıbın könlü gen olar.
Köhnə göndən təzə çarıq çıxmaz.
Kasıb çıxarını bilsə, geydiyi atlas olar.
Kor öz ölkəsini çapar.
Kasıb nədən olmusan – bilməməzlikdən.
Giyov da birdir, gavur da.
Günortanı bərkit, şamı tərk et.
Malın mal olsun, bazardan qorxma.
Naxır yerli-dibli yoxdur, bu, ala dana axtarır.
Nə daş atdın ki, qolun da ağrısın.
Ortalığı yad adamla elə, dostluğu az adamla.
Pisdən yaxşı da törənər, pis də.
Pişik öz balasını külə boyayıb yeyər.
Rəhmət qazana, lənət pozana.
Saxla samanı,
Gələr zamanı,
Dağrandır qışın yamanı.
Sonalıyanın axrı ya kara, ya keçələ.
Su gələn arxa bir də gələr.
Sonalıyan sonsuz qalar.
Süfrəyə yaxın, davaya uzaq.
Söyləyənə baxma, söylədiyinə bax.
Səliqəli adamın iti, səliqəsiz adamın pişiyi kök olar.
Su təzə, bardaq təzə,
İçərlər məzə-məzə.
Səndən daş yaxşıdır, şarbata özü ilə qoymağa.
Südlü qoyun sürüsündən çıxmaz.
Tülküdən bic heyvan yoxdur, amma tələyə düşəndə dörd ayağından düşər.
Tərəyi kiçikliyində əyərlər.

Tüpürə-tüpürə getdi,
Yalaya-yalaya gəldi.
Tərək bəhər tutsa, başını yerə əyər.
Ürəkdə açmayan dil deməz.
Fərli oğul atasının gövşənini əkər.
Xatun var, arpa deyər – aş elər ,
Xatun var, kişini külbaş elər.
Hər işin budala-budala, bu işin lap budala.
Hər tərək öz kökü üstə bitər.
Hala incələr, üzülməz
Haram gedər gəlməz.
Haqq var, divan yoxdur.
Çörəyin qədrini bilməyən çörəksiz qalar.
Şaxta tənbəli burnunnan tutar, çalışana baş əyər.

## TAPMACALAR (16)

Zər gəbə, zəngir gəbə,
Götürə bilmirəm, ağırdır.
**(Yer)**

Ayağı var, əli yox,
Ağızı var, dili yox.
Soyuqlarda gərəkdir,
Boğazı lap dirəkdir. **(Soba)**

Arazın ləpəsindən,
Süd sağdım təpəsindən.
İki əli var belində,
Ağızı var təpəsində.
**(Sərnic)**

Hazar hazara gedər,
Bu yol bazara gedər.
Atası beşikdədir,
Oğlu bazara gedər.
**(Arı balı)**

Nədəndi ha nədəndi,
Bağrım başı zədəndi.
Yarpağında od yanar,
Ağacı göynədəndi.
**(Böyürtkən)**

İynəsi çox,
Tikəni yox.
Əti dərman,
Özü heyvan.
**(Kirpi)**

Ay haca gedən kişi,
Əlində yulğun kişi,
Mənə bir şal al gətir,
Nə ərşi olsun, nə arğacı.
**(Gecə)**

Bizdə bir kişi var,
Hər gələnə əl verir.
**(Qapı dəstəyi)**

Şappaz ha şappaz,
Qayadan qopmaz.
Nə yük götürməz,
Nə pula getməz.
**(Kərtənkələ)**

– A quş, hardan gəlirsən?
– Qanlı qaya dibindən.
– Qanın niyə qurumuş?
– Allah belə buyurmuş.
**(Kəklik)**

Araba gedər, izi yox,
Ulğun yaxar, gözü yox.
Zirzəmidə gizlənib,
Qabığı var, gözü yox.
**(İlan)**

Evdən-evə qızıl yaylıq.
**(Od)**

Bizim gül beçə verdi,
Sana gör neçə verdi?
Yarpaqsız ağac gördüm,
Torpaqsız beçə verdi.
**(Maral buynuzu)**

Cərgə-cərgə söyüdlər,
Belibağlı igidlər.
**(Dəyə)**

Çilə, bülbülüm, çilə
Şeh düşüb qızılgülə.
Quşlardan necə quşdur,
Yumurtası qalar ilə.
**(Bal arısı)**

Uzun hoqqar,
Sarı saqqal.
Onu tapmayan
Olsun baqqal.
**(Hacıbuğda, qarğıdalı)**

Çölü gündən,
İçi undan.
**(İydə)**

Əziziyəm, dən gəlir,
Dəyirmana dən gəlir.
Toxunmamış çuvalda
Üyünməmiş dən gəlir.
**(İydə)**

Dağda-damda bitəndi,
Yaşıl yaxdım, qırmızı çıxdı.
Heç bilmədim nədəndi.
**(Xına)**

Göydə körpü var
Yeddi rəngi var.
**(Göyqurşağı)**

İrəlidən dörd qardaş gəlir:
Birinin beli bükülü,
Birinin əli belli,
Birinin əli güllü,
Birinin də dili fülli.
**(Qış, yaz, yay, payız)**

Qara oğlanı qulağından
asarlar.
**(Qazan)**

Ata atdandı,
Qayış qatdandı.
Qumu ələndi,
Suya bələndi.
**(Un)**

Əkdim palıd,
Bitdi şabalıd.
Ortasından bir zoğ çıxdı,
Nə palıddı, nə şabalıd.
**(Qatır)**

Bir öküzüm var, mıx yüklü.
**(Kirpi)**

Hacılar hacı idi,
Başmağı narıncı idi.
Şiv atır, yarpaq açmırdı,
Tap görüm, nə ağacı idi?
**(Maral buynuzu)**

Bir balaca özüdür, səksən səkkiz gözüdür.
**(Üskük)**

Dığır-dığır Gülpəri,
Dama çıxır Gülpəri.
Kündəni aparsınlar,
Bir də yoğur, Gülpəri.
**(Dəyirman)**

Suya girər millənər,
Sudan çıxar dillənər.
**(Buxov)**

Bir təndirim var
İki fətir tutar.
**(Qoz)**

O nədir ki, altı cəhənnəm, üstü su.
**(Samovar)**

Ayı ay altda gördüm,
Əcəb zülmətdə gördüm.
İyirmi dörd ulduzu,
Dörd ayın altda gördüm.
**(At nalı)**

Hər daban, hür daban
Altı ayaq, iki daban.
**(Tərəzi)**

Bir tövlədə min öküz var, ancaq tövlə bir qucaq ot tutmur.
**(Arı pətəyi)**

Al atım, almaz atım,
Qırx qayadan qorxmaz atım.
Yükləərəm, yük götürməz,
Sataram, qiymət gətirməz.
**(İlan)**

Təkər başında sarı yumaq.
**(Yuva)**

Ələy ha vələy olar,
Dəyirmana dən dolar.
Usta əli dəyməmiş,
Xərməndə gərəy olar.
**(Külək)**

Kilid pambıq içində
Pambıq sandıq içində.
Binaya bir od düşdü,
Biz də yandıq içində.
**(Güzgü)**

Ağacdan atı, dəmirdən qatı
İnsan əməli, tanrı qüdrəti.
**(Gəbə)**

Bir atım var, at eylərəm
Ölsə, qiyamət eylərəm.
Ətin ataram ətə
Sümüyündən xeyrat eylərəm.
**(Düyü)**

Bir quşum var sərində,
Yuva tikər dərində.
Gecə-gündüz yol gedər
Yerindədi, yerində.
**(Dəyirman)**

Ləyən, ləyən, ləyəndə
Ləyən göyə dəyəndə.
Yeyilər kal vaxtı,
Yeyilməz dəyəndə.
**(Xiyar)**

Bir ipim var,
Kəsən qədər uzanar.
**(Yol)**

İki qardaş bir-birini görməz.
**(Göz)**

Gəl deyəndə gəlmiyəydi,
Gəlmə deyəndə gələdi.
**(Dodaq)**

Salam əleyk, qəssabbaşı
Əleyk salam, yüzbaşı.
Səndən bir çərək ət istərəm,
Nə dişi olsun, nə erkək.
**(Doğulmamış uşaq)**

Daşdandır, dəmirdəndir,
Yediyi xəmirdəndir.
Aləmi doyursa da,
Özü doymaz nədəndir?
**(Dəyirman)**

Uzunboylu sarısaqqal,
Onu bilməyən çaqqal.
**(Qamış)**

Tərək başında nohur,
Onu bilməyən kovur.
**(Əzgil)**

O nədir ki, içi dəri, üstü ət?
**(Pətənə)**

Uzun qız uzanar,
Özünə köynək qazanar.
**(Oxlov)**

Tap tapış,
Yerə yapış.
**(Xalça)**

Yol üstə yağlı qayış.
**(İlan)**

İlmi, ilmi düyməsi
İlmi gəlin düyməsi,
Hər kim onu açmasa,
Yüz manatdı cəriməsi.

**(Üzük)**

Bizim evdə quyu var,
Quyunun içində suyu var.
Suyun içində ilan var,
Onun dilin bilən var.

**(Lampa, piltə)**

Həstədi ha həstədi,
Əlim kitab üstədi.
Yemişlərdən hansıdı,
Qəltəyi lap üstədi.

**(Nar)**

Bir balaca fit daşı,
Yandırar dağı, daşı.

**(İstiot)**

Babamın bir donu var,
Qəttəmək olmaz.
Cibindəki pulları,
Cüttəmək olmaz.

**(Göy və ulduzlar).**

Ağca qız evdə, saçları bayırda.

**(Tüstü)**

Bir kürküm var, ataram,
Harda gəlsə yataram.

**(Yuxu)**

Gedən leylək,
Gələn leylək,
Bir qıçı üstə
Duran leylək.

**(Qapı)**

Başın kəssən, qanı yox,
Cücələrin sayı yox.

**(Xaşxaş).**

Səkkiz ayaq, iki baş
Üstü taxta, altı daş.

**(Vəl, öküzlər)**

Bizim evdə kəndi var,
Kəndinin kəməndi var.
Uçub gedən quşların
Ayağının bəndi var.

**(Hörümçək və toru)**

Ara-ara, lək-lək
Nə soğan bitməz, nə sarımsaq.

**(Tavan, iki tir arası)**

Keçirdim bağ arası,
Tapdım bir göl pərisi.
Öpülməmiş  qız gördüm,
Üzündə diş yarası.

**(Ay)**

Bir ipim var, yığammaram.

**(Yol)**

Qutu qutunun içində,
Qutu da qutunun içində.
Nəvəmin göy muncuğu,
O qutunun içində.

**(Soğan)**

Aşıq mara bənd olar
Telli mara bənd olar.
Yüz yetmiş iki taxta,
Bir mismara bənd olar.

**(Göbələk)**

Otlardan necə otdur,
Nə dişi var, nə ağzı.
Dişləyir heyvan kimi.

**(Gicitkən)**

Qara at qapıda yatar,
Qolu əyilib belinə batar.

**(Qıfıl)**

Bir şahım var çuxalı,
Həm də qızıl yaxalı.
Şahlar ona nökərdi,
O şahlardan səxalı.

**(Gün, ay, ulduzlar)**

Qara atı yağladım,
Qaya dibinə bağladım.

**(Tüfəng)**

Qırağı yaşıl, suyu qırmızı, balıqları qara.

**(Qarpız)**

Qulağını burarsan,
Dilini çıxarar.

**(Lampa)**

Qutu-qutu içində,
Nərgiz qutu içində.
Babamın bir quşu var,
O da qutu içində.

**(Ağız)**

Atası tüklü qoca,
Anası yayma xatın.
Qardaşı dəli-divana,
Bacısı şəhdi-şəkər.

**(Üzüm)**

Dörd ayağı, başıbağlı,
Saqqalı çox, əlləri yox.

**(Çardaq)**

Ucunda var neştəri,
Cümlə-aləm müştəri.
Geydiyi qaftan qara,
Köynəyi var dümsarı,
Anası var içində,
Yüz yaşında bir qarı.

**(Şabalıd)**

Bir dağda bir cam qatıq.
**(Ay)**

Yol üstə yorğun abay.
**(Təndir)**

Anası qara, qızı qırmızı,
Oğlu qıvrımca-qıvrımca.
**(Ocaq, od, tüstü)**

Hədiy avanı, hüdüy avanı,
Altı ayağı var, iki dabanı.
**(Tərəzi)**

Hürər, hürər, burnu şişər.
**(Cəhrə)**

Tərək başında sarı yumaq.
**(Heyva)**

Dağdan gəlir, daşdan gəlir
Bu qudurmuş hardan gəlir?
**(Sel)**

Ağamın bir xəlbir aşığı var,
içində də bir şaqqası.
**(Ulduz və ay)**

Mənim beş qardaşım var,
Biri hər gün danışar,
İkisi qulaq asar,
İkisi durub baxar.
**(Ağız,qulaq, göz)**

Bir anası var, beş balası,
Onu tanımayan at balası.
**(Əl və barmaqlar)**

Beş dərviş bir quyuya daş atar.
**(Ağız və barmaqlar)**

Canım onda,
Qanım onda.
Bir gün yoxsa
Nə canım var,
Nə qanım.
**(Çörək)**

Yayda donar, qışda əriyər.
**(Qurud)**

Evə girəndə boşalar,
Evdən çıxanda dolar.
**(Ayaqqabı)**

Dağdan atdım sınmadı,
Daşdan atdım sınmadı,
Bir yumruğa sındı.
**(Soğan)**

Evimiz altı baxçalar,
Sürməli sandıqçalar.
Nənəmin bir donu var,
Gah geyər, gah boxçalar.
**(Göy qurşağı)**

Göy üzündə yarım əppək.
**(On büş günlük ay)**

Alçaq kişi çəpər toxur.
**(Biz)**

Alçaq kişi allanar,
Qızılları sallanar.
**(Zoğal)**

Gecə qaravaş,
Gündüz bikə.
**(Yorğan-döşək)**

Gecə bikə,
Gündüz qaravaş.
**(Süpürgə).**

Altı camış, üzü keçi,
Qucaqda çayı keçdim.
**(Çarıq)**

Bəngi-bəngi, başını tut,
Döngü-döngü, döşünü tut.
Qılman qoca, əl-ayaq ver,
Hüseyn qoca, quyruğun tut.
**(Yəhər, cilov, üzəngilər, quşqun)**

Dörd qardaşıq, nə qədər qaçırıq
Bir-birimizi tuta bilmirik.
**(Təkər)**

Bir dərədə iki oğlan güləşir.
**(Dəyirman daşları)**

Hay gedər, hul gedər,
Bircə qarış yol gedər.
**(Beşik)**

Sarı-sarı sandıqlar
İçi dolu fındıqlar.
**(Qabaq)**

Əzizim heyva nədir?
Yeməyə heyva nədir?
Başı ləl, dibi gövhər
Ortası heyvanadır.
**(Sünbül)**

Quyruğu pambıqdan.
**(İynə)**

Püstədi ha püstədi,
Dil-dodağı üstədi.
O, necə yemişdir ki,
Çərdəyi üstədir.
**(Fındıq)**

Qırağı qıldır açılmaz
Ağzı açıqdır tökülməz.
**(Göz)**

Üstü yanıb dağıldı,
Altı hələ çiy qaldı.
**(Dil)**

Mən aşıq başa axar,
Görmüşəm başa axar.
Aşıq bir çeşmə gördü,
Ayaqdan başa axar.

**(Qan)**

Qara dəvə çökdü yerə,
Bağırsağı tökdü yerə.

**(Alaçıq)**

Bir qoyunum var axsağ,
Dörd ayağı sapasağ.
Gündə neçə dəfə sağırsan sağ.

**(Motal)**

Bir atım var,
Canı poladdan.
Təpəsindən od çıxar,
Burnundan su tökülər.

**(Samovar)**

Əyrim-üyrüm, hara gedirsən?
Təpəsi dəlik, sən nə deyirsən?

**(Baca və tüstü)**

Bir qapağı
Min yarpağı.

**(Kitab)**

Gəzir dərəni, düzü,
Bir burnu var, qırx gözü.

**(Çarıq)**

Mən aşiqəm, düz bağlar,
Əyri çəkər, düz bağlar.
Aşıq bir hikmət görüb,
Od içində buz bağlar.

**(Qaymaq)**

Çıxar ağaca sallanar,
Dərin dama tullanar.

**(Əriştə)**

Alaca mənzər,
Obanı gəzər.

**(Ələk).**

– Çıxaram, – deyər anası.
– Çıxma! – deyib, qoymaz balası.

**(Arabanın təkəri və çüyü).**

Ağca qoyundan süd sağdım.

**(Doşab)**

Bir atım var sərsəri,
Səksən-doxsan tağı var,
Özü əski palaz parçası,
Yengi noxta, bağı var.

**(Çarıq)**

Meşənin kötüyü, kəndin koxası.

**(Sabı – ağacdan düzəldilmiş ölçü vahidi: 20 kq. buğda tutur)**

Ağac başında gözü palçıqlı qarı.

**(Əzgil)**

Burdan vurram qılıncı,
Fələkdə oynar ucu.

**(Şimşək)**

İynə gözündən baxaram,
Dağa-daşa od yaxaram.

**(Tüfəng)**

Bir kisə unum var,
İçində oxlovum var.

**(İydə)**

Dağdan gəlir dağ ola,
Qolları budaq ola.
Əlin gözünə soxsan,
Ağzı ayrılıb qala.

**(Qayçı).**

Atam atlı, mən yayaq,
Əlində dəmir tayaq.
Qurşağacan su,
Dizəcən palçıx.
Çapsa toz çıxar.

**(Dəyirman)**

Tapmacadı, tapançadı,
Nə yerdədi, nə göydədi,
Bədircahan içindədi.

**(Güzgü)**

Yarığıva yumruğum. **(Cib)**

Qırmızı çubuq üstdə ağ fərələr.

**(Damaq və dişlər)**

Qara toyuq şaqqıldar,
Od alıban çaqqıldar.

**(Kömür)**

Özü tox, kölgəsi yox.

**(Quyu)**

Bənd dolu,
Dən dolu.
Yüz min ağac
Bir mismara bənd olur.

**(Gəmi)**

Bir atım var ahanı,
Gəzər cümlə cahanı,
İstərəm başın kəsəm
Nə əti var, nə qanı.

**(Külək)**

Bir toyuğum var,
Yer altında yumurtlar.

**(Qarışqa)**

İynəsi çoxdur,
Sap yeri yoxdur.

**(Kirpi).**

Bir bardaqda iki rəng su.
**(Yumurta)**

Zər zərə yapışdı,
Zər divara yapışdı.
Zərgər əyəsi gəlməmiş
Zər divardan düşmədi.
**(Qıfıl)**

Ay gedər adamnan
Bir xonça badamnan.
Nə dili var, nə ağzı
Danışır hey adamnan.
**(Quran)**

Aldım bir dənə,
Açdım min dənə.
**(Nar)**

Bir qızıl öküzüm var,
Harda yatsa, ot bitməz.
**(Od)**

Özü əyri, yolu düz.
**(Kotan)**

Uzun qızın kölgəsi yox,
Müştərisi hər şeydən çox.
**(Axar su)**

Bir evim var tək dirəkli.
**(Göbələk)**

Bir kürküm var,
Beş qardaş bürünər.
**(Əlcək)**

Ağac başın oydular,
Kəndə koxa qoydular.
**(Çanaq)**

Bağda bitər, tağı yox,
Ha sıxırsan, suyu yox.
**(Şabalıd)**

Dağdan gəlir ərəblər,
Ayağında corablar.
Elimizə qoymayın,
Obamızı xarablar.
**(Sel)**

Bilmədim hardan gəldi
Ətdən, sümükdən gəldi?
Oraqla ha doğradıq,
Təzədən bir də gəldi.
**(Saqqal)**

Ağzı aşağı qoyaram, dolar.
Üzü yuxarı qoyaram, boşalar.
**(Papaq)**

O nədir, gəzər obanı,
Səkkiz qıçı, iki dabanı.
**(Tərəzi)**

Aşığam, bayı keçdim,
Kasıbı, bayı keçdim.
Al atım, almaz atım,
Qırx qayadan qorxmaz atım.
Yüklərəm, yük götürməz
Sataram, qiymət götürməz.

**(İlan)**

Alaca mənzər
Obanı gəzər.

**(Ələk)**

Allahın əlindədi,
Bəndənin felindədi.
Altı ayaq canavarın
Quyruğu belindədi.

**(Tərəzi)**

Alçaq kişi çəpər toxur.

**(Biz)**

Ağam ərimaz,
Kürkə bürünməz.
And içibdi,
Piyada yeriməz.

**(Səhəng)**

Ağamın bir xəlbir aşığı var,
İçində də bir şaqqası.

**(Ulduzlar və ay)**

Dəryada balıq,
Başı da yanıq.

**(Piltə)**

Bizim evdə bir tülkü var,
Dəlik-deşik kürkü var.

**(Badam)**

Bir atım var səməndi,
Nə bərəsi, nə bəndi.
Öz-özünə açılıb-bağlanır.
Heç kəs bilməz bu fəndi.

**(Göz)**

Ay novhanı, novhanı,
Çaxmaq hanı, qov hanı?
Səksən səkkiz dəyirman,
Doxsan doqquz nov hanı?

**(Bədəndəki damarlar)**

Bizim evdə bir şey var,
Gələn də öpür onu, gedən də.

**(Calğa-dolça)**

Dilim-dilim dilimbar,
Dillərəcən qar.
Uçdu sədəflər,
Qaldı dilim var.

**(Xırmanda döyülüb hazırlanmış buğda)**

Evinizdə bir kişi var –
Gecələr durub baxar bığları-
nı sora-sora.

**(Nöyüt lampası)**

Yağış yağsa, düzülər,
Gün çıxar, büzülər.
Altı var, üzü yox,
Çəksəm, bağı üzülər.

**(Çarıq)**

Həsənəli xəstədir,
Zəncirli qəfəsdədir.
Nə yerdədir, nə göydə,
Çərxi-fələk üstədir.

**(Hörümçək)**

Əzizim şaşdan olsun,
Donu qumaşdan olsun,
Mənə bir silah verin,
Gülləsi daşdan olsun.

**(Sapand)**

İzləri var atadan,
Gözləri var anadan.
İstər oğlan, istər qız
Bığlı olar anadan.

**(Pişik balası)**

Balaca kişi quyu qazır.

**(Damcı)**

Qala qapı,
Zəncir sapı.
Dörd yarpağı
Bir budağı.

**(Sırğa)**

Ayı ay altda gördüm,
Əcəb zülmətdə gördüm.
İyirmi dörd ulduzu
Dörd ayın altda gördüm.

**(At nalı və mıxları)**

Altdan yeyər,
Üstdən qusar.

**(Rəndə)**

Bəzəyi var özündə,
Quyruğu var gözündə.

**(İynə, sap)**

Babamın bir donu var
Qəttəmək olmaz
Cibindəki pulların
Cüttəmək olmaz.

**(Göy və ulduzlar)**

Bizim evdə bir tülkü var,
Dəlik-deşik kürkü var.

**(Badam)**

Bizim evdə quyu var,
Quyunun içində suyu var.

Suyun içində ilan var
Onun dilini bilən var.
**(Lampa, piltə)**

Bir dərədə iki oğlan güləşir.
**(Dəyirman)**

Bir ipim var, kəsən qədər uzanar.
**(Yol)**

Bir tövlədə min öküz var, ancaq tövlə bir qucaq ot tutmur.
**(Arı pətəyi)**

Burdan vurram qılıncı,
Fələkdə parlar ucu.
**(Şimşək)**

Qara toyuq şaqqıldar,
Od alıban qaqqıldar.
**(Kömür)**

Qoca baba dağdan ilxı yendirir.
**(Ülgüc)**

Evdən evə qızıl yaylıq.
**(Od)**

İki qardaş bir-birini görməz.
**(Göz)**

İynə gözündən baxaram,
Dağa-daşa od yaxaram.
**(Tüfəng)**

İki dağ arasında bir yaylıq sərilib, heç vaxt qurumaz.
**(Dil)**

Yol üstə yorğun abay.
**(Təndir)**

Özü əyri, yolu düz.
**(Kotan)**

Kilid pampıq içində,
Pambıq sandıq içində.
Binəyə bir od düşdü,
Biz də yandıq içində.
**(Güzgü).**

Meşənin kötüyü
Kəndin koxası.
**(Sabı)**

Nə dərd bilər, nə kədər,
Mən gedərəm, o gedər.
**(Kölgə)**

O nədir ki, dörd qardaş dənizə ox atır?
**(İnsan əmcəyi)**

Təpəsindən od çıxar
Burnundan su tökülər.

**(Samovar)**

Üstü yanıb dağıldı,
Altı hələ çiy qaldı.

**(Dil)**

Hay gedər, huy gedər,
Bircə qarış yol gedər.

**(Beşik)**

Həstədi ha həstədi,
Əlim kitab üstədi.
Yemişlərdən hansıdı,
Qəltəyi lap üstədi.

**(Nar)**

Hiri-hiri, kəhər at,
Hiri, gözəl kəhər at.
Ortasında bir düyünü var,
Düyünü gözəl kəhər at.

**(Qızılgül)**

Çəpərə dırmaşıbdı,
Mənim maral inəyim,
Qarnı xaral inəyim.

**(Balqabaq)**

Çil toyuq qaqqıldar,
Qanadları şaqqıldar.

**(Göy gurultusu)**

Tərək başında qarğa,
Ağzı dolu qovurğa.

**(İtburnu)**

# ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## Başmaqtəpə (17)

Bu yerlərdə Başmaqtəpə deyilən bir təpə var. Vaxt o vaxt, əyyam o əyyamıymış ki, Teymurləngin qılıncının dalı da kəsirmiş, qabağı da. Gəzdiyi yer, dolaşdığı diyar qalmayan Teymurləngin güzarı Dərbənddən də keçəsi olur. Deyir, oymaxlara yaxın bir yerdə qoşun dayanıb dincini alırmış. Teymurləng harasa uzaq bir səfərə hazırlıq gördürür, tədbir tökürmüş. Qoşun əhlinə də tapşırığı buymuş ki, bu oymaxların el-camaatıyla işləri olmasın, bir kimsəyə dəyib dolaşmasınlar.

Amma bir sərbaz tamahına qul olur, gözü düşür bir tərəkəmənin ayağındakı təzə başmağa. Zora salıb başmağı alır. İş elə gətirir ki, ayaqyalın tərəkəmə seyrə çıxan Teymurləngə tuş gəlir, əhvalatın üstü açılır. Qəzəblənmiş Teymur qoşunu cəm eləyib, tərəkəmənin gözü qabağında həmən sərbazı cəzalandırır. Cəzası da bu olur ki, qoşun əhlinin hərəsi bir başmaq torpaq götürüb cızığından çıxan sərbazın başından töksün. Deyir, bir hovurun içində o qədər torpaq yağışır ki, dönüb olur iri bir təpə. Başmaqla tökülən torpaqdan düzəldiyi səbəbdən də adı qalır "Başmaqtəpə".

## Şıx Heydər dağı (18)

Bizim bu Şıxheydər dağı var ha, mübarək olmuşun adı uzun bir hekayətə bağlıdı. Belə nağıl eliyirlər ki, ötənnərdə Şeyx Heydər adında görüb-götürmüş, başlı-bilikli dərvişmisal bir mürşid bu tərəflərə güzar eləyibmiş. Dövrəsinə də özü kamalda, özü tutarda adamlar yığıbmış. Gəzib dolaşdığı oymaxlarda dünyanın gəliş-gedişindən, olub-olmuşlardan söhbət açar, o yerlərin adamlarına haqdan-divandan dərs verib onları öz tərəfinə çəkərmiş. Şeyx Heydərin əsas qəsdi-niyyəti elin əlbirliyinə-dilbirliyinə çatmağıymış. El-camaat da bir ucdan ona inanıb iman gəti-

rirmiş. Hə, bu, burda qalsın, eşit söhbətin o biri ucundan, kafir ölməmişdi ha! Baxıb gördü ki, belə getsə, hamı şeyxin başına cəm olasıdı. O səbəbdən də özü imanda olanlarnan oturub tədbir tökür ki, fitnə-fəsadlı bi fəndinən şeyxi aradan götürsünlər. Tədbirləri də bu olur ki, bir gün sübhün gözü açılar-açılmaz, yuxunun şirin çağında xəlvəti şeyxin çadırına basqın düzəldirlər. Onu ölümcül yaralayıb aradan çıxırlar, hay-haray düşür. Nə qədər dava-dərman, təbib-loğman tökürlərsə bir şey çıxmır. Şeyx Heydər son nəfəsdə yerdən bir ovuc qanlı torpaq götürüb, öpəndən sonra üz tutub dövrəsindəkilərə belə deyir:

– Məni elə buradaca basdırın. Özünüz də bu mən öpən torpağa and-qəsəm eləyin ki, inamnan, imannan dönməyəcəksiz.

Dövrəsindəkilər qanlı torpağı öpüb, and-qəsəm eləyirlər. Şeyxi də öz vəsiyyətincə orada basdırırlar. Sonra güc toplayıb niyyətlərinə çatır, Şeyxin oğlunu da taxta çıxardırlar. O da atasının qəbrini burdan köçürdür dədə-baba yurduna. Amma qəbrin yeri, bir də üstündəki başdaşı indi də durur. Özü də o yer pirdi, kimin nəzir-niyazı varsa oraya aparır. O vaxtdan bəri Şeyxin qanı tökülən bu dağ "Şıxheydər dağı" adıynan tanınır. Dağın ətəyindən keçən yola "Şıxheydər yolu", dörd tərəfdə qaynayan bulaqlara da "Şıxheydər bulaqları" deyirlər.

**Qeyd: "**Şıxheydər dağı" ilə bağlı rəvayət tarixi qaynaqlarla səsləşir. Qaynaqlardan bəllidir ki, Şeyx Heydər 1488-ci ildə bu ətraflarda qətlə yetirilib. Səfəvilər nəslindən olan Şeyx Heydər Şah İsmayıl Xətainin doğma atasıdır. Xətainin babası, Şeyx Heydərin atası olan şeyx Cüneyd də XV əsrin əvvəllərindən Qubada Ələvilik təbliğatı apararkən öldürülüb. Qubanın Həzrə kəndindəki "Şeyx Cüneyd məqbərəsi" onunkudur. Lakin nə bu məqbərədə, nə də Şıxheydər dağının ətəyindəki türbədə cənazə yoxdur. Şah İsmayıl Xətai öz hakimiyyəti illərində atasının da, babasının da sənduqəsini Ərdəbilə − Şeyx Səfi məqbərəsinə apartdırıb.

## Narınqala (19)

Narınqalanı bir atayla oğul tikdirib. Deyirlər ki, tikilib başa çatmağı düz yüz il çəkib. Onu görməyə atanın ömrü çatmayıb. Qalanını oğlu tikdirib. Qala xırda narın kərpiclərdən hörülüb. O zamanın ən başlı-bilici ustaları, memarları bu qalanın ucalmağında əllərindən gələni əsirgəməyiblər. Hörgüsündə palçıq yerinə əhəngnən yumurta sarısının qarışığını işlədiblər. Qala divarının möhkəmliyi də elə bu səbəbdəndi. Xırda, narın, incə daşlardan hörüldüyünə görə qala tikilib başa çatandan sonra gəlib ona tamaşa eləyənlər özlərini saxlaya bilməyib deyiblər:

– Nə narın qaladı, nə gözəl qaladı!

Beləcə, yaraşıqda, gözəllikdə tayı-bərabəri olmayan bu qalanın adı olub “Narınqala”.

## Göz daşı (20)

Dəmir qapı Dərbəndin alınmaz-basılmaz bir qala nisbətində olan vaxtlarıymış. Bir gün Nadir şah Əfşar eşidir ki, bəs deməzsənmi, yadlar-yağılar hücum çəkib, dörd bir tərəfdən Dərbəndin üstünü alıb. Bir az keçmiş dəxi bir xəbər də gəlir ki, Dərbəndi yağmalayıb dağıdırlar. Nadir şah qoşun götürüb, üz qoyur Dərbəndə. Gəlib yetəndə görür ki, yağılar onun torpağında darğalıq eləyir. Fərman verir, qoşun döyüşə girir. Üç gün, üç gecə qan su yerinə axır. Uzun hərbə-zorbadan sonra yağı basılır. Nadir şahın qorxusundan yad-yağıdan nə qədər sağ qalan varıydısa, hərəsi bir dalda tapıb gizlənir.

Qala-şəhərinin küskün görkəminə baxıb qəlbi qubarlanan Nadir şahın qəzəb atı şahə qalxır, nə qalxır! Əmr eləyir ki, nə qədər sağ qalan varsa, özlərinin də başları bədənlərinə ağırlıq eləmirsə, Cümə məscidinin qabağında cəm olsun. Möhlət də verir. Deyilən vaxta yağıların bir parası gəlir. Bir parasısa ürək eləyib giz-

ləndiyi yerdən çıxmır ki, bəlkə, tapa bilmədilər, sağ qaldım. Belə olanda şah göstəriş verir ki, ara-bərəni axtarıb cəmi gizlənənləri tutub gətirsinlər. Bir xeyli axtarışdan sonra yağıların yerdə qalanlarını tutub, əl-qolu bağlı gətirirlər şahın hüzuruna. Şah əmr eləyir:

– Kimlər ki öz xoşuyla gəlib onların bir gözünü, kimlər ki zorla gətirilib onların iki gözünü cəllad çıxarsın.

Şahın buyruğu yerinə yetirilir. Deyilənə görə, Nadir şahın qəzəbinə yetən yağıların çıxarılan gözlərinin çəkisi nə az, nə azacıq – düz üç pud yarım olub. Cəllad işini başa yetirəndən sonra şahın əmriylə elə oradaca – Cümə məscidinin həyətində dərin bir quyu qazılıb, çıxarılan gözlər oraya tökülüb. Sonra quyunu torpaqlayıb üstünə otuz igidin zorla tərpədə bildiyi iri bir sal daşı nişangah qoyublar. Söylədiyinə görə, Nadir Əfşar həmin sal daşın üstünə çıxıb belə deyib:

– Qoy görənlər görsün, eşidənlər eşitsin! Yadlara-yağılara soraq getsin. Dəmirqapı Dərbəndin torpağında gözü olanın axırı hər zaman belə olacaq. Mən bu "Göz daşı"nı görk üçün, ibrət üçün qoydurdum!

## "Nənəvay" dərəsi (21)

Çalğan dağından üzü Sabnava kəndinə sarı enəndə göz qaraldıb bağıryaran bir dərəyə tuş gəlirsən – "Nənəvay" dərəsinə. Deyir, bir qızla bir oğlan bir-birinə könül verib, əhd-peyman eləyiblərmiş. Hərdən vədələşib, dağ döşündə görüşürlərmiş. Həmən bu dərənin yeri allı-güllü bir talaymış. Oğlanla qız buranı özlərinə seyrəngah eləyiblərmiş. Günlərin bir günü yenə də seyrə çıxıblarmış. Birdən dağ tərpənir, yer yarılır, qızla oğlanın gəzdiyi tala uçurum bir dərəyə dönür. İş elə gətirir ki, oğlan qıraqda bir qaya parçasının üstündə qalır, qız dərə aşağı yuvarlanır. Oğlan yanından yoxa çıxan qızın səsinicə eşidə bilir:

– Nənə vay, nənə vay!!!

Sevən könüldə tab-tavana hardanıydı? Oğlan da özünü istəklisinin dalısınca atır... Deyilənə görə, qızın "nənə vay" harayının əks-sədası obada da eşidilir. Çox soraqlayıb axtarıblar, di gəl oğlanla qızdan bir nəm-nişanə tapmayıblar. O vaxtdan da bu göz qaraldan dərəni "Nənəvay" dərəsi adıynan çağırmağa başlayıblar.

## Qanlı dərə (22)

Vaxt o vaxtıymış ki, yurdun başını qara bulud alıbmış. Qolunda tutar, dizində təpər olan nə qədər cavan-comrul varıymışsa, hamısı yaraqlanıb-yasaqlanıb çıxır düşmən qənşərinə. Yağı qoşunu da o çağacan basılıb eləmək nə olduğunu bilməyibmiş. Qərəz, bərk vuruş başlayır. El igidlərindən də qırılan az olmur. Amma qandan qorxmayıb yağıya doy gələ bilirlər. Düşmən qoşununun bir parası gücnən qaçıb canını qurtara bilir. Söyləndiyinə görə, döyüşdə o qədər adam qırılıb, o qədər qan tökülüb ki, Çalğan dağının ətəyindəki böyük dərəynən elə biləsən çay axırmış. O vaxtdan həmən dərənin adı qalır "Qanlı dərə".

## Qırxqız mağarası (23)

Dərbəndin yaxınlığında "Qırxqız" deyilən bir yer (mağara) var. Əfsanəyə görə, Dərbənddə ötən keçmiş illərdə var-dövləti başdan aşan, cahi-cəlallı bir xaqan yaşayırmış. Bu xaqanın belə bir adəti var imiş ki, hansı ölkəyə yürüş etsə, oradan gözəl qızları gətirib öz hərəmxanasına qatarmış.

Bir gün o eşidir ki, Bizans şəhərinin qul bazarında qırx gözəl qız satırlar. Bu xəbəri eşidər-eşitməz o, sərkərdələrindən birini çağırıb bir dəstə atlı ilə Bizans şəhərinə göndərir.

Sözün qısası, xaqanın sərkərdəsi Bizans şəhərinə çatıb bu qırx qızı alıb geri qayıdır. Deyirlər, sərkərdə başındakı dəstə ilə

gecəyə yaxın Dərbəndə çatır. Gəlib görür ki, şəhərin qapıları bağlıdır. Günbatandan sonra Dərbəndin bütün qapıları bağlanarmış ki, düşmən gecə qaranlığında şəhərə basqın etməsin. Sərkərdə nə qədər hay eləyirsə, tanışlıq verirsə, qaravulçular şəhərin qapısını açmırlar. Görəndə ki, bunları şəhərə buraxmadılar, sərkərdə əmr edir ki, qızları yaxınlıqdakı mağaraya aparıb səhərə kimi orada saxlasınlar, yoxsa haramıya, quldura qismət olarlar. Əsgərlər qızları mağaraya ötürüb mağaranın ağzına da yekə bir sal daş qoyub geri qayıdırlar.

Sərkərdə yenə əmr eləyir ki, qapını döysünlər. Bu zaman leysan yağışı tək göydən üstlərinə ox yağmağa başlayır. Sən demə, qalanın qaravulçuları gecənin qaranlığında bunları düşmən bilibmişlər.

Səhər açılanda qalanın qapıları açılır. Qaravulçular baxıb görürlər ki, bəs qaranlıqda düşmən bilib oxladıqları xaqanın əsgərləri imiş.

Mağaradakı qırx qızdan isə bir xəbər verən olmayır... Deyirlər, indi də oradan keçəndə mağaradan qırx qızın qışqırtı səsləri eşidilir.

## İsgəndər səddi (24)

Belə ixtilat edirlər ki, Dərbənd şəhərinin binasını İsgəndər padşah qoyub. Bir gün İsgəndər padşah baxıb, görür şəhərin qapısını bir dəstə atlı kəsdirib. O saat fərraşlarından birini çağırıb dedi:

– Get öyrən, o atlılar nə niyyətlə gəliblər?

Fərraş atlıların qabağına çıxıb, ixtilat edib, bir azdan geri döndü. Gəldi İsgəndər padşahın yanına. Padşah xəbər aldı:

– Öyrəndin, nə istəyirlər?

– Bəli, öyrəndim, qibleyi-aləm. Bu gələn Xəzər xaqanının elçiləridi.

İsgəndər padşah xəbər aldı:

– Xaqanın bizə sözü nədi?

Fərraş dedi:

– Xaqan deyir ki, İsgəndər padşah bizim torpaqda şəhər tikəndə gərək bizdən icazə alaydı. İsgəndər padşah gərək şəhəri boşaldıb getsin öz torpağına.

İsgəndər padşah çox adlı-sanlı padşah idi. Bütün padşahlar ondan qorxurdu. Fərraş belə deyəndə İsgəndər padşah özündən çıxdı, aşıb-coşdu.

Fərraşa dedi:

– Fərraş, qoy elçilər xaqana desinlər ki, İsgəndər padşahın yeri möhkəmdi. Heç yerə gedən deyil. Bu torpaq elə mənim torpağımdı.

Fərraş onun dediyini elçilərə çatdırdı.

Ertəsi gün səhər İsgəndər padşah gördü şəhərdə bir vəlvələ var, gəl görəsən. Demə, xəzərlər şəhəri üzük qaşı tək mühasirəyə alıblar. O saat əmr edib vəzirini yanına çağırtdırdı. Vəzirə dedi:

– Get xaqana de, bizə bir ay vaxt versin, şəhəri boşaldaq.

Vəzir xəzərlərin xaqanının yanına gedib dedi:

– İsgəndər padşah səndən bir ay möhlət istəyir. Bir aydan sonra gəlib şəhərə sahib durarsan.

Xaqan vəzirə qulaq asıb dedi:

– Padşahına de ki, bir aydan sonra yenə gələcəm.

Xaqan bunu deyib qoşununa işarə elədi ki, geri çəkilsin. Axır xəzərlər çıxıb getdilər. İsgəndər padşah xəzərlər gedən kimi əmr elədi ki, şəhər əhli çıxıb şəhərin yan-yörəsinə daş-kəsəkdən bir sədd çəksinlər.

Dərbəndlilər böyükdən-kiçiyə gecəni gündüzə qatıb şəhərin yan-yörəsinə keçilməz bir sədd çəkdilər.

Bir ay da keçdi. Xəzərlər qayıdıb gəldilər. Baxıb gördülər ki, Dərbəndin qabağına sədd çəkilib.

Xəzərlərin xaqanı indi bildi İsgəndər padşah onu aldadıb. Odur ki, kor-peşiman qoşununu geri göndərib getdi.

## Dərbəndin alınması (25)

Belə deyirlər ki, keçmişdə Dərbəndin əhalisi atəşpərəst idi, oda sitayiş edirdi.

Bir gün şəhərdə belə xəbər yayıldı ki, nə durmusunuz, ərəblər qoşun yığıb gəlirlər Dərbəndin üstünə. Gəlirlər buranın camaatına müsəlman dinini qəbul elətdirsinlər.

Doğrudan da, heç iki-üç gün keçməmişdi ki, gördülər ərəblər Dərbəndi üzük qaşı kimi dörd yandan araya alıblar. Bir tərəfdən də ərəb əmiri xəbər göndərdi ki, şəhərin qapılarını açsınlar, yoxsa hamınızı qılıncdan keçirəcəyəm.

Bunu görübən Dərbəndin xaqanı əmr elədi ki, Göy dayını tövlədən gətirsinlər. Xaqan ata minib, Bayat qapısından çıxdı ərəblərin qabağına. Gəlib dayandı əmirin tuşunda. Göy day döyüş sevincindən xaqanın altında oynayırdı. Xaqan bir ərəblərin saysız-hesabsız qoşununa, bir də arxaya dönüb şəhər qalasına baxdı...

– Sənə nə şəhəri təslim edəcəyik, nə də dininizi qəbul edəcəyik. Öz dinimizdə qalacayıq. Sözümüz budur.

Sözünü deyib çaparaq geri qayıtdı. Əmr etdi ki, şəhər əhli böyükdən kiçiyə kimi şəhərin müdafiəsinə qalxsın. O vaxtlar Dərbəndi kim ala bilərdi.. Dərbənd Dərbənd idi!..

Ərəblər "Ya Allah" deyib keçdilər hücuma. Burda bir qan töküldü ki, gəl görəsən. Qan su yerinə axdı.

Gördülər ki, silah işlətməklə Dərbəndi ala bilməyəcəklər. "Silah işləməyən yerdə fənd işləyər!", – deyib bu işə bir çarə axtarmağa başladılar.

Günlərin bir günü bir ərəb sərkərdəsi qalanın ətrafında gəzişirdi, görsün harda bir əlverişli yer tapa bilər ki, oradan qalanı almaq mümkün olsun. Birdən gördü ki, qayaların dibilə dağlardan şəhərə üstüörtülü bir su arxı enir. Sərkərdə "hə, deyəsən, tapmışam", – deyib arxın yolun izləyə-izləyə dağ yuxarı qalxmağa başladı.

Dağın başına gəlib çatanda gördü ki, arx suyu gur bir bulaqdan alır. O saatca yanındakılara əmr elədi ki, bir sürü qoyun-quzu, mal-qaranı kəsib qanını, içalatını töksünlər arxa.

Bir gün dərbəndlilər gördülər ki, şəhəri bir üfunət basıb, gəl görəsən. Arxlardan da su yerinə qan axır. Başını tut qaç, görüm hara qaçırsan.

Gəlib hökmdara dedilər ki, bəs hal-qəziyyə belədi. Məsələdən hali olandan sonra hökmdar bildi ki, belə getsə, şəhər əhli gec-tez susuzluqdan, xəstəlikdən həlak olacaq. Əmr etdi ki, gecəynən camaat şəhərdən çıxsın.

Səhər ərəblər baxıb gördülər ki, Dərbənd qalasının Carçı qapısı açıqdır. Qoşun girdi şəhərə. Baxdılar ki, şəhərdə durmaq mümkün deyil.. Qoşunun sərkərdəsi əmr elədi ki, qoşun şəhərdən çıxsın.

## İlanbalığı (26)

Rəvayətə görə, Süleyman peyğəmbər yer üzündə nə ki canlı varmış, hamısının dilini bilirmiş. Bir dəfə o, dərya kənarında oturub özünün qarğıdan düzəltdiyi tütəyi çalırmış, birdən tütək əlindən sürüşüb suya düşür. Peyğəmbər hirsindən yanıb-qovrulur, tütəyin dalınca baxıb, gileyli-gileyli deyir:

– Səni görüm, quyruqlu, qulaqlı balıq olasan, niyə əlimdən düşdün?

Deyilənə görə, ilanbalığı deyilən balıq Süleyman peyğəmbərin əlindən düşən həmin qarğıdan çevrilib balıq olub. Onun da ağzı tütək kimidir, yanlarında da deşiklər var.

## Toyuq (27)

Bir gün Süleyman peyğəmbər göy çəmənlikdə oturub dəstəmaz alırmış. Bahalı üzüyünü çıxarıb, bardağın yanına qoyur.

Dəstəmazı alıb qurtarır. Yadından çıxır üzüyü orda alır. Geri dönəndə nə görsə yaxşıdır?! Baxır ki, bir toyuq üzüyü udur. Süleyman peyğəmbər toyuğun dalnca nə qədər qaçırsa, onu tuta bilmir. Odur ki, belə deyir:

– Allah sənin qarnını heç doyurmasın. Həmişə ağzın yerdə qalsın, gözün də doymasın!

O səbəbdən də toyuq nə qədər eşələnib yem tapıb yeyirsə, qarnı-gözü doymur.

## Süleymanla qoca dünya (28)

Belə rəvayət edirlər ki, Süleyman peyğəmbər bir gün qoca dünyanın səyahətinə çıxıbmış. Gəzə-gəzə gəlib bir bağa çıxır. Bir də baxır ki, bir hovuzun yanında bir nazənin sənəm oturub, gözəlliyi hər yana işıq saçır. Süleyman peyğəmbər bir könüldən min könülə gözələ vurulur. Yaxınlaşıb salam-kəlamdan sonra ürəyini açır bu gözələ. Xanım deyir ki, özündən mənə bir nişan ver. Peyğəmbər dünyada ən qiymətli sehrli üzüyünü ona bağışlayır. Xanım üzüyü ondan alıb, yanındakı mücrüsünə qoyub, üzünü ona çevirəndə peyğəmbər nə gördü?! Qoca, saçı, qaşı ağarmış, dişləri tökülmüş, üzünü qırışlar örtmüş, Nuh əyyamından qalmış bir qarı. Süleyman peyğəmbər naçar qalıb dedi:

– Üzüyümü mənə qaytar.

Qarı mücrünü peyğəmbərin qabağına qoyub dedi:

– Götür üzüyünü.

Süleyman peyğəmbər mücrünü açıb baxdı ki, paho, burada o qədər üzük var ki, gəl görəsən. Özü də hansı üzüyü götürürsə, üstündə Süleyman adı yazılıb. Qaldı məəttəl, nə etsin.

Qarı dedi:

– Mənə "qoca dünya" deyərlər. Sənin kimi neçə süleymanlar gəlib gedib. Üzüyün birini götür. Bayaq yaz-bahar idim, indi qarlı qışam.

## Qayıb piri (29)

Bir kişi qəbristanlığın içiylə yol gedirmiş. Birdən görür ki, qarşıdan adama oxşayan nəsə tuluq kimi bir şey gəlir. Kişi bərk qorxur. Ayaq saxlayıb geri çəkilir. Sovutunu çıxardıb onu vurmaq istəyir. Bu zaman həmən tuluğabənzər şey dilə gəlib deyir:

– Mən burada yatmışdım. Qəbirdən çıxıb qayib olmuşam, məni qəbrimin yan-yörəsini bağlayın.

Kişi qəbri nişanlayıb evinə qayıdır. Səhər kənd adamlarını başına yığıb, qəbristanlığa gedir. Gecə gördüyü kişinin qəbrinin yan-yörəsini bağlayıb geri qayıdırlar.

O gündən həmən qəbirə "Qayib piri" ("Qayib övliya") deyilir. Ora ürəyində nə niyyətnən gedib nəzir desən, yerinə yetər.

## Şıxlar piri (30)

Deyirlər ki, bir vaxt Dəliçoban kəndinin əhalisi quraqlıqdan olmazın əziyyətini çəkirmiş. Çaylar, bulaqlar qurumuş, solub saralmışdı. Uşaqlar susuzluqdan qışqırıb ağlayırdılar.

Qızmar günlərin birində yoldan ötən üç qoca kişi bir qapını döyüb, içməyə su istədilər. Ev sahibi qapını açıb dedi:

– Qonaq qardaşlar, Allah düşmənin üzünü qara eləsin. Bizim də üzümüz sizin yanınızda qaradır. Neçə vaxtdır kəndimizdən yağış kəsilib. Susuzluqdan ölürük. Bir cam suyum var, onu verim, için.

Qocalar kişidən suyu alıb içdilər. Qocalardan biri dağın ətəyindəki tək ağacı əlilə göstərib dedi:

– Kişi, gördüyün o ağac pirdir. Qoy kənd əhli yığışıb, o ağacın yanında sadağa paylasın, Allah kərimdir, yağış yağar.

Qocalar bunu deyib getdilər. Deyilənə görə, qocalar əməlisaleh şeyxlərdən imişlər.

Qocalar gedəndən sonra ev sahibi kənd əhlini başına yığıb, o tək ağacın yanına getdilər, sadağa payladılar, dua etdilər. Heç bir az keçməmiş bir də gördülər ki, göy guruldadı, şimşək çaxdı, leysan yağışı yağdı. O vaxtdan o yerə "Şıxlar piri" dedilər.

## Şıxzamın bağı (31)

Dəliçoban kəndinin Şıxzamın bağında bir bağban olurmuş. Bir gün bağban axşam vaxtı süfrə açıb şam edəndə görür ki, üç nəfər pirani qoca bağın içilə gedir. Bağban da süfrəsi açıq adam imiş. Tez ayağa qalxıb qocaları süfrəsinə çağırıb deyir:

– Deyəsən, yol adamısınız, gəlin bir yerdə Allah verəndən şam edək.

Qocalar əyləşib, bağbanla şam edib, gedəndə deyirlər:

– Kimin dərdi-azarı olsa, bura gəlib sadağa versə, üç dəfə buranı aylansa sağalar, diləyinə çatar.

Demə, pirani qocalar şeyxlər imiş. Deyilənə görə, həmən gündən bura pir olub. Camaat pirə gəlib, sadağalar paylayır, pirin tərəklərinə cürbəcür əskilər bağlayırlar ki, diləkləri yerinə yetsin. Gecə aparıb bağa kotan qoyurlar, səhər gedib baxırlar ki, bağ sürülüb. Deyilənə görə, Allah-təala tərəfindən gələn keyiklər kotana qoşulub bağı sürürlər.

## "Kar daşı" piri (32)

Belə söyləyirlər ki, keçmişdə Rükəl kəndində Gülsənəm adında gözəl, göyçək bir qız varmış. Gülsənəmin gözəllikdə bircə eybi karlığı imiş. Deyirlər ki, uşaqlıqda qızılcaya tutulubmuş.

Bir gün Gülsənəm baxdı ki, tay-tuşları ərə gedib, oğul-uşaq yiyəsi olublar. Amma ona yaxın düşən də yoxdur. Bu dərd qızı yaman sıxdı. Dərd əlindən baş götürüb evdən çıxdı. Gəlib bir dağa çatdı. Çıxdı dağın başına. Öz-özünə dedi: "Belə yaşa-

maqdansa, ölmək daha əfzəldi”. Özünü elə dağdan atmaq istəyirdi ki, bir səs eşitdi:

– Qızım, əl saxla!

Baxdı ki, ixtiyar bir qocadır. Qoca xəbər aldı:

– Qızım, nə dərdin var ki, özünə belə qəsd edirsən?

Qız dərdini açıb qocaya danışdı. Qoca dedi:

– Qızım, yerdən bir daş alıb, ürəyində bir dilək tut. Daşı at qayanın üstünə. Daş qayanın üstündə qalsa, diləyin yerinə yetəcək.

Bunu deyibən qoca gözdən itdi. Qız qocanın dediyi kimi elədi. Bir də gördü qulağı açıldı. Şad-xürrəm evinə qayıtdı.

Həmən gündən o yerə “Kar daşı” piri deyirlər.

## “Deşikli daş” piri (33)

Belə söyləyirlər ki, mal-dövləti başından aşan varlı-hallı bir kişi varmış. Amma nə fayda, bu binəsibin oğul-uşaq deyilən-dən heç kimi yox imiş. Bir gün kişi baxır ki, günlər, illər keçib gedir. Qocalıq da qapını kəshakəsdi. Arvadını çağırıb deyir:

– Arvad, özün görürsən ki, daha saqqalıma dən düşüb. Bu var-dövlətə məndən sonra yiyə duranım yoxdur. Başına bir çarə qıl. Belə getsə, gərək özümə bir arvad da alım.

Yazıq arvad ağlaya-ağlaya ərinin yanından çıxıb, çöllərə üz qoyur. Gəlib bir uca dağa çatır. Birdən bir pirani qoca onun qənşərinə çıxıb soruşur:

– Qızım, niyə ağlayırsan? Başında nə qəziyyə var belə?! Arvad əhvalatı başlı-bütünlü ona danışır. Qoca ixtilatdan agah olub, arvadın qolundan tutur və gəzə-gəzə bir qayanın yanına gətirir. Əlindəki əsanı qayaya vurub, oradan bir deşik açır.

– Qızım, bu deşikdən keç, inşallah ürəyindəki murazına yetərsən.

Arvad elə də eləyir. Qayanın deşiyindən keçir. Dönüb geri baxanda qocanı yerində görmür. Oradan qayıdıb əhvalatı necə

varsa, yəni əvvəldən axıra birbəbir ərinə söyləyir. Əri o saat anşırır ki, bu işə Xızır Nəbi əl qoyub. Allahın köməyilə uşaqları olacaq. Elə də olur. Düz doqquz ayın tamamında arvad gözəl-göyçək bir oğlan dünyaya gətirir. Kişi də, arvad da uşağı götürüb, deşikli daşın yanına gəlir, qurban kəsib paylayır, var-dövlətlərinin bir parasını sadağa verirlər. Həmən vaxtdan bu daş pir yerində bilinir. Uşağı olmayan xatınlar muraza yetməkdən ötəri gəlib onun arasından keçirlər. Pir də onların murazını gözündə qoymur.

## Səbirsizlik (34)

Allah insanı yaradanda siftə başından başlayıb. Hər bir əzanı yerli-yerində, qaydasınca düzəldib. Elə ki, gəlib topuğuna çatıb, həmin məqamda insan dözməyib, tez ayağa durub. Tanrı da hirslənib, onun topuğuna toxunmayıb. Ona görə də insanın ayağı tez-tez topuğundan burxulur.

## Təkgöz xatın (35)

Deyilənə görə, keçmiş vaxtlarda Mitəyi mülkündə Ramazan adında mallı-dövlətli bir kişi olub. Ramazan kişinin Hürnisə adında bir xatını, iki də oğlu varmış. Ramazan kişinin mal-qarası qoyun-davarı çox olduğundan kənddə yaşamırdı. Mitəyi mülkündə bir yer qazması düzəldib orada qalırdı.

Payız axşamıydı. Çobanlar mal-qoyunu çöldən gətirib, yatağa salmışdılar. Hürnisə xatının bişirdiyi ətli xəngəldən yeyib, hərə yatağın bir kənarında yatmağa getdi. Ramazan kişi şam yeməyindən sonra xatınına dedi:

– Ay xatın, mənim də yerimi sal, səhər malı işıq açılanacan çölə çıxardacağam. Mallarımız payız bəhrini yaxşı yeməlidir. Bu gün, sabah qış gəlir. Balalayan qoyunlarımız var, balalayan mallarımız var, sonra balaları sısqa olar. Bir dənəsini də saxlaya bilmərik.

Səhər tezdən hələ işıqlaşmamış mal-qaranı, qoyun-davarı sağıb, yataqdan çölə ötürdülər. Ramazan kişi də oğlanlarıyla çobanlara qoşulub getdilər.

Hürnisə xatın da səhər sağılan südü bir tiyan qazana töküb, bişirməyə başladı. Bir kürsü də alıb, süd tiyanının yanında oturdu, çömçəylə südü sovurmaqda oldu. Bir zaman qulağına səs gəldi, o yana baxdı, bu yana baxdı, amma bir şey görmədi. Elə bildi oğlanları gəlib. Üç ağız çağırdı, səsinə səs verən olmadı. Hürnisə xatın bir zaman gördü ki, insanabənzər, bütün cəmdəyi tüklü, saçları dağınıq, əmcəkləri bir nəhrə qədər möcüz bir məxluq tiyana yaxınlaşır. Bu bəni-insanın qaşqasında bir tək gözü də varıydı.

Hürnisə xatın özünü itirməyib kürsüdən durdu, təkgöz xatına yer göstərdi, əlindəki çömçəni də tiyanın qırağına qoydu. Təkgöz xatın çömçəni alıb, kürsüdə oturdu, sonra başladı südü sovurmağa. Hürnisə də gözünü ondan çəkmir, canını qurtarmağı fikirləşirdi. Birdən Hürnisə baxıb gördü ki, təkgöz xatun oturduğu yerdə mürgiyə getdi, çömçə də əlindən düşdü. O, daha fürsəti əlindən buraxmayıb çömçəni götürüb, astaca qaynayan südü çömçəyə doldurdu. "Allah sən kömək ol!", – deyib çömçəni var gücüylə xatının təkgözünə çırpdı. Təkgöz xatın kürsüdən yerə yıxılanda süd tiyanını da onun üstünə aşırdı. Qaçdı əriylə oğlanlarını axtarmağa. Hürnisə onları tapıb, başına gələn əhvalatı danışdı. Ramazan kişi hamıdan əvvəl özünü qazmasına çatdırdı. Baxıb gördü ki, doğrudan da, tək gözü olan çılpaq bir qadındır, özü də haçandı ölüb. Kənd camaatı da əhvalatı eşidib gəldi. Kəndin kənarında dərin quyu qazıyıb, təkgöz xatını orada basdırdılar. Camaat dağılışıb gedəndən sonra Hürnisə Ramazan kişiyə dedi:

– Ay kişi, ömrümüzün çox payını çöllərdə, qoyun dalınca gəzməkdə keçirmişik. Bəsdir, daha çöldə qalmayaq, kəndə qayıdaq. Təkgöz bəni-insanlar bizdən əl çəkməyəcəklər, gözümüzün ağı-qarası iki oğlumuz var. Onların başına bir xəta gələr. Mal-

dövlət əl çirkidir. Gəl mallarımızın çoxusunu satıb, azını saxlayaq, biz də gedib camaata qoşulaq.

Ramazan kişi xatınına qulaq asıb dedi:

– Ay xatın, sən deyən olsun. Bu mal-dövləti sənin ayağınnan qazanmışam.

Ramazan kişi dediyi kimi də elədi. Bir neçə günə mallarının çoxunu satıb, azını saxladı. Gedib kənddə yaxşı bir ev tikib, orada yaşamağa başladı.

## Qırxlar (36)

Belə söyləyirlər ki, günlərin bir günü ərəblərin xəlifəsi öz sərkərdələrindən birini yanına çağırıb deyir:

– Bir dəstə atlı götürüb, Dərbəndə gedərsən. Mənim adımdan Dərbəndin xaqanını öz xoşuna dinimizə çağırarsan. İşdi əgər razı olmasa, qılınc gücünə məcbur edərsən.

Sərkərdə "baş üstə" deyib gedir.

Xülasə, ərəblər Dərbəndə yetişirlər. Bir gün Dərbənd əhli səhər oyanıb görür ki, ərəblər Bayat qapısının ağzını kəsib durublar. Xaqana xəbər gedir ki, bəs hal-qəziyyə belədi. Xaqan vəzirlərindən birini ərəblərin qabağına göndərir ki, öyrənsin, ərəblər nə istəyirlər.

Vəzir ərəb sərkərdəsinin yanına gedib onunla bir ixtilat eləyir. Ərəb sərkərdəsi xəlifənin sözünü ona çatdırır. Vəzir geri qayıdıb, məsələdən onu xəbərdar edir. Xaqan vəzirdən bunu eşitcək əmr eləyir ki, qoşun sabah davaya hazır olsun.

Səhər xəzərlərin qoşunu yaraqlı-yasaqlı qala qapısından ərəblərin qabağına çıxırlar. Bir döyüş olur, gəl görəsən. Qan su yerinə axır. Ərəblər dərbəndlilərdən çoxunu qırıb çatırlar. Amma ərəb qoşunundan bir adamın da burnu qanamır. Onlara nə nizə batır, nə də qılınc kəsir. Xəzərlərin sərkərdəsi yaman təşvişə düşür. Əmr eləyir ki, qoşun qalaya qayıtsın. Xəzərlər qalaya qayıdıb, qalanın qapısını bağlayırlar.

Bu işin üstündən bir neçə gün keçir. Günlərin bir günü bir oğlan dənizin qırağıyla gedirdi. Gördü ərəb əsgərləri dava libaslarını soyunub, dənizdə çimirlər. O da əlində bıçaq dənizə baş vurdu. Suyun altıyla üzə-üzə gəlib, onlara yaxınlaşdı. Bir ərəb əsgərini bıçaqla baldırından yaraladı. Sonra yenə də tez qayıdıb dənizdən çıxdı. Oğlan düz xaqanın yanına gedib, əhvalatı ona ixtilat elədi. Xaqan o saat ərəblərin üstünə qoşun göndərdi. Xəzərlərin qoşunu dənizdən çıxıb, hələ dava libasını geyməmiş ərəblərin başlarının üstünü aldılar. Bütün ərəbləri qırdılar.

Dava qurtarandan sonra xaqan əmr elədi ki, ərəblərin qırxını bir yerdə dəfn etsinlər.

Ərəblər axır gəlib Dərbəndi alandan sonra qırx şəhidin qəbri ziyarətgah oldu.

## Ullu çay (37)

Deyilənə görə, keçmiş çağlarda tərəkəmə elinin Məmməd adında varlı-karlı bir bəyi varmış. Məmməd bəyin Hüseyn adında bir oğlu, Səltənət adında da bir qızı varmış. El arasında Səltənətin gözəlliyi, şirinliyi adnanmış.

Belə söyləyirlər ki, Məmməd bəy Qaradağlı Fətəli bəylə bir vaxtlar dostluq edib çörək kəsiblərmiş. Elə o vaxtdan da Fətəli bəyin oğlu Mahmudun gözü Səltənətdə imiş. Elə Səltənət də özünə Mahmud kimi comərd, gözəl-göyçək bir nişanlı arzusunda imiş. Amma gün gəldi, Məmməd bəylə Fətəli bəy qanlı-bıçaq oldular. Mahmudla Səltənətə gün kimi aydın oldu ki, bu işdən sonra bir-birinə qovuşa bilməyəcəklər. Cavanlar zamanın bu gərdişindən yaman xiffət çəkirmişlər.

Günlərin bir günü elə-elata xəbər yayıldı ki, Məmməd bəy qızı Səltənət xanımı dəliçobanlı Hüseynqulu bəyin oğluna ərə verir. Bu xəbər Mahmuda çatar-çatmaz atına minib, Məmməd bəyin qışlamasına yola düşdü. Mahmud o vədə çatdı ki, Hüseynqulu bəyin adamları Səltənət xanımı arabaya mindirib aparırlar.

Mahmud baxdı ki, Səltənət əldən gedir, tez atını sürüb arabaya yaxınlaşdı. Səltənəti arabadan götürüb, tərkinə mindirdi. Atına bir qamçı vurub, oradan uzaqlaşdı. O saat xəbər yayıldı ki, bəs gəlini qaçırtdılar. Hüseynqulu bəyin atlıları onların dalına düşüb qovmağa başladılar. Mahmud geri baxıb gördü ki, atlılar çat-haçatdadı. Atını bir də qamçıladı. Gəlib axarı qurumuş bir çayı keçəndə gördü atlılar lap yaxınlaşıb. Üzünü Allaha tutub dedi:

– Ya Allah, özün kömək ol! Hüseynqulu bəyin atlıları bizə çatsa, qızı əlimdən alacaqlar.

Mahmud elə bunu demişdi ki, çayın suyu aşıb daşdı, lap az qala bir dərya oldu.

Hüseynqulu bəyin atlıları çaya çatdılar, amma keçə bilməyib geri döndülər.

Deyirlər, o gündən həmən çayın adını Ullu çay çağırdılar.

## Əmcəkli pir (38)

Deyilənə görə, əski çağlarda Mehrağa kəndində şorgöz, zalım bir bəy varmış. Bir gün bu bəyin gözü Sayalı deyilən əliu-şaqlı cavan bir gəlinə düşür. O, bu gəlinə göz verir, işıq vermir. Elə bir fürsət axtarır ki, onu birtəhər ələ keçirsin, addımbaaddım gəlini izləyir. Bir gün bir qoca qarıynan xəbər də göndərir ki, "öz xoşunla mənə gəlirsən gəl, yoxsa səni götürüb qaçırda-cağam". Yazıq qız bilmir nə etsin. Ərinə də deməyə qorxur ki, araya qan düşər.

Bir gün Sayalı qucağında da uşağı çöldən – ərinin yanın-dan qayıdırmış. Bir də görür budur, bəy kəsdirib yolun ağzını durub. Sayalı işi belə görüb üz tutur qaçmağa. Axır gəlib çatır bir dağın yastanına. Arxaya dönüb baxanda görür ki, budu, bəy ona çataçatdadı. Onda üzünü göyə tutub, başlayır yalvarmağa.

– Ay Allah, qurtar məni bu namussuzluqdan, qoyma biabır olum!

– Sən də, a dağ, gizlət məni!

Elə bunu demişdi ki, bir də gördü qabağındakı dağ şaqqıltı ilə parçalanıb aralandı. İşi belə görəndə Sayalı özünü vurdu dağın arasına. Dağ da, elə bil, bunu gözləyirmiş. Yenə də şaqqıldayıb bağlandı. Sayalı uşağıynan qaldı dağın içində.

Deyirlər, onlar elə indi də ordadır. Elə o vaxtdan həmin yerə "Əmcəkli pir" deyərlər. Arvad, gəlin süddən kəsiləndə uşaqlarını götürüb pirin ətrafında dolanarlar ki, südə gəlsinlər.

## Halal tikə (39)

Deyirlər, bir vaxtlar keçmişdə Cüneyd Bağdadi adlı bir ədalətli padşah olub. Əhalisi də bu padşahı çox istəyir, xatirini saxlayırdı.

Bir gün Cüneyd padşah namaz qılanda baxır ki, damdan səs gəlir.

Padşah soruşdu:

– Ey adam, kimsən?

Damda gəzən dedi:

– Mənəm.

Padşah soruşdu:

– Damda nə axtarırsan?

Damdakı kişi dedi:

– Dəvəmi axtarıram.

Cüneyd padşah əsəbləşib dedi:

– Nə axmaq adamsan. Mənim damımda sənin dəvən nə qayırır?

Damdakı kişi cavab verdi:

– Axmaq mən deyiləm, sənsən. Axmaq olsaydım, sənin kimi qov tükündən olan döşəkcənin üstündə oturub, yumşaq yerdə ibadət edərdim.

Padşah fikrə getdi. Baxdı ki, düz deyir. Səhər bütün camaatını yığıb xəzinədə nə var idisə, hamısını payladı onlara. Dedi:

– Ay camaat, daha mən sizin padşah deyiləm. Özünüzə padşah axtarın. Sağ olun! Salamat qalın!

Cüneyd padşah bunu deyib, getdi cölli-biyabana. Camaat bir yerə yığışıb, belə qərara gəldi ki, bizə bir də belə rəhmli, ədalətli padşah düşməz. Gəlin gedək onu geri çağıraq.

Hamı getdi Cüneyd padşahı axtarmağa. Axtara-axtara gəlib dəniz qırağına çatdılar. Baxdılar ki, Cüneyd padşah əlində iynə şalvarının yırtığını yamayır. Salam verib dedilər:

– Ey padşah, gəl taxtında otur.

Padşah dedi:

– Yox, daha məndən sizə padşah olmaz.

Cüneyd padşah əlindəki iynəni ipdən çıxarıb dedi:

– Baxın, mən bu iynəni dənizə atacağam.

Elə də elədi. Bir müddət keçəndən sonra bir balıq başını sudan çıxarıb ona baxdı. Cüneyd padşah dedi:

– İynəmi səndən istəyirəm.

Balıq gözdən itdi. Bir azdan balıq yenidən göründü. Balıq ləpədöyənə çıxıb iynəni yerə qoydu. Sonra yenə quyruq vurub girdi dənizə.

Camaat bu işə mat qaldı. Cüneyd padşah dedi:

– Gördünüz ki, dənizdəki balıqlar da mənə tabedirlər, əmrimə müntəzirdirlər. Ancaq mən daha padşah olmayacağam, məndən əlinizi üzün. Özünüzə başqa bir padşah tapın.

Camaat kor-peşiman qayıtdı şəhərə. Cüneyd padşah isə oradan yol tutdu düz Məkkəyə. Gəlib çatdı Məkkəyə. Əlindəki qəpik-quruşa bir eşşək, bir də balta aldı. O gündən eşşəklə odun daşıyıb iyirmi qəpiyə satıb dolanırdı. Hər gün beş qəpiyə xurma alıb yeyir, qalan on beş qəpiyi isə camaata paylayıb, ibadətlə məşğul olurdu. Deyirlər ki, o, ibadət edib, namaz qılanda mələklər də onu dövrəyə alıb ibadət edərmişlər.

Bir gün Cüneyd padşah yenə ibadət edirmiş. Mələklərdən biri digərindən soruşdu:

– Ya Rəbb, görəsən bu kişinin diləyi, duası qəbul olunurmu?

Digər Mələkə dedi:

– Yox.

O biri Mələkə soruşdu:

– Nə üçün?

– Çünki o, dükandan xurma alanda öz xurmasına haram xurma qoşub yeyib. Haram yeyənin isə duası göyə uçmaz. Çünki dua quş kimi şeydir, uçub göyə qalxsın gərək. Onun qanadları halalla düzlükdən güc, qüvvət alır. Kim haram yeyib, yalan danışsa, ömründə bir dəfə də olsa o adamın duası göyə uçub qalxmaz, qəbul olunmaz!

Cüneyd Bağdadi mələklərdən bu sözü eşidib ayağa durub, getdi xurma aldığı dükançının yanına. Xəbər aldı:

– Satdığın xurma öz bağındandır?

Dükançı dedi:

– Xeyr, ya Cüneyd! Dünəndən özgəsinin xurmasını satıram. Cüneyd Bağdadi xurma gətirənin yerini-məskənini dükançıdan nişan alıb, getdi onu axtarmağa. Gəzə-gəzə gəlib, həmən adamı tapdı. Demə, o, həramiliklə məşğul olan bədəvi ərəblərdənmiş, Cüneyd Bağdadi özünü ona nişan verib başına gələni danışdı. Hərami diz çökərək onun əbasının ətəyindən öpüb, dedi:

– Ey əməli-saleh Cüneyd, günahımdan keç! Tövbə edirəm ki, bir də həramiliklə məşğul olmaram.

Cüneyd Bağdadi həraminin yanından geri gönüb, o gündən həmən dükandan daha xurma almadı. Gedib başqa dükandan xurma alıb yeməyə başladı.

Bir gün o, yenə məsciddə ibadətlə məşğul idi. Ətrafındakı mələklərdən biri dedi:

– Ya Cüneyd, ürəyini sıxma, indi duan Allah-Təalaya çatıb müstəcəb oldu. Hərami də tövbəsinə əməl edib bəd əməlindən əl çəkdi.

# NAĞILLAR

## Kərim (40)

Dərbənddə Kərim adlı bir kişi oluf. Kasıb oluf. Oturuf evində başlayıf dua eləməyə:

– Ya Allah, sənin də adın Kərim, mənim də adım Kərim. Niyə məni kasıf eləmisən. Bu otağın küncündə qalmışam, bir qəpik də pulum yoxdu. Bizim məmləkətin padşahının da adı Kərimdi. O da mənim adaşımdı. Axı Sən bütün göylərin, yerlərin hakimisən. Adaşın Kərim də bu məmləkətin padşahıdı. Nə olar məni də varlı eliyəsiniz.

Bu vaxt padşah dərviş paltarında şəhəri gəzirmiş. Birdən bir evdən səs eşidir:

– Ey Allah, sənin də adın Kərim, padşahın da adı Kərim, mənim də adım Kərim. Axı mən sizin adaşınızam. Siz özünüz bu dünyada kef elyirsiniz, məni isə kasıf yaratmısız.

Padşah həmin evi yadında saxlayır. Sabah açılır, üzünüzə xeyirri sabahlar açılsın. Padşah əmr edir ki, adamlarına filan yerdə bir kişi var, tez onu gedin gətirin. Padşahın adamları Kərimi tez saraya gətirirlər.

Padşah soruşur:

– A kişi, sən kimsən?

Kərim cavab verir:

– Padşah sağ olsun, sizin adaşınız.

Padşah o saat barmağını dişləyir. Bilir ki, bu, Kərimdi. Deyir:

– Adaş, nə qədər ki, mən bu dünyada varam, ye-iç, kef çək. Qoymaram mənim adaşım kasıb qala.

Padşah xəzinədara əmr eləyir:

– Xəzinədə olan ən qiymətli üzüyü ver bu kişiyə.

Bəli, xəzinədə olan ən qiymətli üzüyü verirlər Kərimə. Padşah deyir:

– Adaş, bu üzüyü istiyirsən dənizin dibinə at, istiyirsən sat, nə eliyirsən elə, nəyə də ehtiyacın olsa gəl yanıma, qorxma, qoymaram bir şeydən korluq çəkəsən.

Kərim üzüyü də götürüb saraydan çıxır. Yol gələ-gələ o tərəf bu tərəfə baxır ki, görsün ona baxan yoxdu ki. Tez üzüyü qoynunda gizlədir ki, görən olmasın. Gəlir evinə. Axşam olur, heç kimə üzüyü göstərə bilmir. Gecə yarı olur yata bilmir. Fikirləşir ki, oğrular gəlib üzüyü oğurlayar. Axır qərara alır ki, üzüyü evin bir küncündə gizlətsin. Elə də edir. Evin bir küncünü qazıb üzüyü ora basdırır, amma yenə də gecələr gözünə yuxu getmir.

Üzüyü çıxarıb ikinci küncə, üçüncü, dördüncü küncə basdırır. O gündən Kərimin rahatlığı olmur. Yemək yemir. Yuxusu də ərşə çəkilir. Qorxur ki, kimsə üzüyü əlinnən alar. Bu burda qalmaxda olsun, xəbəri xəbərdən, görək padşah nə eliyir.

Bir gün padşah taxtında oturmuşdu. Öz-özünə fikirləşdi ki, görəsən adaşım Kərim indi hardadı? Mənim məmləkətimdədi, yoxsa dünyanın harasındasa kef edir. Tez bir adam göndərif əmr edir:

– Get gör adaşım hardadı, gəzib kef eliyirsə qoy eləsin, yox evindədirsə, çağır yanıma.

Həmin adam gəlif Kərimin evinə görür ki, qapı açıxdı. Deyir:

– Kərim!

Bir zəif səs çıxır:

– H ..ay.

– Padşah adaşın səni çağırır.

Kərim deyir:

– Siz gedin, mən gələrəm.

Kərim üzüyü gizlətdiyi yerdən çıxarıb gəlir saraya. Padşah Kərimi görəndə tanımır. Görür ki, adaşının hay-hayı gedib, vay-vayı qalıf. Təəccüblənir ki, görəsən bu yazığa nə oluf. Deyir:

– Adaş, necəsən?

Kərimdən zəif bir səs çıxır:

– Necə olacağam, bu üzüyü sata bilmirəm, bir kəsə göstərə bilmirəm, qalmışam belə.

Padşah xəzinədarı çağırır. Kərimə deyir:

– Ver üzüyü xəzinədara.

Sonra deyir:

– Çıx get gözümün qabağından, sənin kimi adaşdan olmamağı yaxşıdı.

Kərim suyu süzülə-süzülə evinə gəlir. Nağıl da burada qurtarır.

## Şələçi (41)

Oladı olmuyadı bir şələçi oladı. Bu şələçinin altı qızı oladı. Şələçi hər gün meşədən odun gətirib satır, bir qarnı ac, bir qarnı tox ailəsini dolandırırdı. Bu kişi bir gün yenə odun şələsini satıb bazara gəldi ki, bir şey alsın aparsın. Gördü ki, yaxşı balıx var. Onun cibində cəmi 3 qəpik vardı. Gördü ki, pulu çatmır balıx almağa. Odu ki, qarnı şiş bir balıx vardı, onun qiymətini soruşdu. Balıxçının ona yazığı gəldi. Həmin balığı 3 qəpiyə şələçiyə satdı. Sabah o yenə getdi meşədən odun gətirməyə. Xatunu balığın qarnını yaranda gördü ki, bir yumurta boyda daş var. Bilmədi ki, bu nədi. O saat hər tərəf işığa qərq oldu. Axşam şələçi gələndə gördü ki, hər tərəf tamam işığa qərq olub. Baş açmadı ki, bu nədi. Çünki bu şələçinin evində belə lampa yox idi. Onlar fitil yandırırdılar. Şələçi soruşdu:

– Arvad, bu nədi, işıx hardan gəlir?

Şələçinin xatunu əhvalatı ona söylədi. Ər-arvad sevindi ki, elə lampa almağa pulumuz yoxuydu, yaxşı oldu bu daşı tapdıq. Bu daşdan lampa kimi istifadə edərik. Elə də elədilər. Şələçinin bir yəhudi qonşusu var idi. Bu yəhudi tacirbaşı idi. Tacirbaşı gördü ki, qonşusu şələçinin evindən çox gur işıx gəlir. Tacirbaşı arvadına dedi:

– Arvad, bir öyrən gör qonşunun evindən gələn işıx nədi?

Tacirbaşının arvadı şələçinin arvadınnan soruşdu:

– Qonşu, evinizdəki işıx nədən gəlir. Gecələr neçə lampa yandırırsınız?

Şələçinin arvadı dedi:

– Bacı, biz lampanı hardan alırıq, həmişə fitil yandırırıx.

İndi kişi bir daş tapıb, işıx ordan gəlir.

Tacirbaşının arvadı gəlib, əhvalatı kişisinə danışdı. Tacirlər çoxbilmiş olar.

Tacirbaşı dedi:

– Arvad, apar şələçinin arvadına ətdən, düyüdən ver və de ki, axşam sizə qonağıq.

Tacirbaşının arvadı elə də elədi. Axşam tacirbaşı ilə arvadı şələçinin evinə gəldilər. Yemək-içməkdən sonra tacirbaşı soruşdu:

– Qonşu, bu nə işıxdı?

Şələçi arvadına dedi:

– Arvad, o daşı gətir.

Onlar daşı bir badyanın içinə qoymuşdular. Tacirbaşı daşın üstünü açanda daşdan elə bir işıx gəldi ki, tacirbaşının gözləri qamaşdı. Bildi ki, bu yumurta boyda daş qiymətsiz ləldi, dünyada bərabəri yoxdu.

Dedi:

– Qonşu, min qızıl verim, bu daşı ver mənə.

Şələçi başladı gülməyə. Tacirbaşı elə bildi ki, şələçi razı deyil, dedi:

– Yaxşı, iki min qızıl verirəm, daşı ver mənə.

Şələçi yenə başladı gülməyə. Axı bu daşı onun uşaxları yumurta kimi əllərində oynadırdı. Tacirbaşı gör necə ağılsızdı ona bu qədər qızıl verir. Bu dəfə tacirbaşı dedi:

– Qonşu, üç min qızıl verirəm, bu daşı ver mənə.

Şələçi gördü ki, yox, tacirbaşı doğru danışır, zarafat eləmir, razı oldu.

Bəli, bir neçə günnən sonra tacirbaşı getdi başqa bir şəhərə mal alıb satmağa. Şələçi köhnə evini sökdürüb, yerində saray kimi bir ev tikdirdi. Xeyli vaxt keçdi. Bir gün şələçi çay içə-içə pəncərədən baxırdı. Bir də gördü ki, tacirbaşı budu, qırx dəvə yükünnən gəlir. Tacirbaşı gəlib şələçiyə çatıb dedi:

– Qonşu, bax bu qırx dəvə yükü tamam qızıldı. Sənnən aldığım daşı verib almışam.

Şələçi xeyli gülüb dedi:

– Mən o daşı üç qəpiyə almışdım.

Bu sözləri eşidən kimi tacirbaşının halı dəyişdi. Dəvənin üstünnən tirtap yıxılıb, ürəyi partladı. Şələçi qapını açıb, dəvələri içəri saldı.

Qırx dəvə yükü qızıl da ona qismət oldu. O günnən şələçi xoşbəxt ömür sürüb gün keçirdi.

Siz gedin o yana, biz bu yana. İki fındıq bir qoz, ixtilatı poz.

## Ağılbənd və Nağılbənd (42)

Dərbənddə Kəblə Cəfər deyilən bir tacirbaşı, bunun da Ağılbənd və Nağılbənd adlarında iki oğlu varmış. Bir gün bunların atası Allah rəhmətinə gedir. Ataları ölən gündən bu yazıqların güzəranı günbəgün pisləşir.

Bir gün tacirbaşının xatını baxır ki, belə getsə, yeməyə bir şeyləri olmayacaq. Odur ki, ərinin tacir dostlarını çağırıb deyir:

– Bu uşaqlar dostunuzun oğullarıdı. Onları da özünüzlə ticarətə aparın. Qoy ticarətə öyrənib gündəlik ruzilərini qazansınlar.

Tacirlər uşaqların anasının sözünə, – “əhsən!”, – deyib söz verdilər ki, hərəsi uşaqlara mal yüklü dəvə verəcəklər.

Bir neçə gündən sonra Ağılbəndlə Nağılbənd anaları ilə sağollaşıb, tacirlərlə özgə vilayətə ticarətə yola düşürlər.

Bir aydan sonra bunlar gəlib bir vilayətə çatdılar. Axşam olduğundan şəhərin qapıları bağlı idi. Odur ki, şəhərin kənarında

çadır qurub gecələməli oldular. Səhər açılanda Ağılbənd kiçik qardaşını göndərdi ki, çaydan su gətirsin. Nağılbənd vedrəni götürüb, çaydan su gətirməyə getdi. Oğlan su götürən dəmdə çayda üzən gəmidən ona bir boxça atdılar. Oğlan birtəhər boxçanı tutdu və çox təəccübləndi ki, görəsən, bu, nə deməkdi? Oğlan boxçanı alıb qardaşının yanına gəldi. Əhvalatı ona danışdı. Ağılbənd tacirləri də işdən hali edib soruşdu:

– Görəsən, bu nədi?

Qaldılar məəttəl nə desinlər. O, boxçanı açanda içindən yaylıq, bir parça qənd, bir saman, bir də iynə çıxdı. Ağılbənd bir qədər fikirləşib dedi:

– Hə, tapdım. Yaylıq qız nişanəsidi, qənd şirinlikdi, saman Səmərqənd şəhəridi, iynə isə dərzi dükanı deməkdi. Demək, yaylığın sahibi dərzi dükanının yanında olur.

Heç bir az keçməmiş şəhərin də qapıları açıldı.

Qardaşlar kirə ev axtarmağa getdilər. Gəlib bir qarının evinə kirə durdular. Axşam oldu. Ağılbənd qardaşına dedi:

– Qardaş, şəhər əhlindən bizə kömək edən olmasa, biz yaylığın sahibini tapa bilməyəcəyik. Bir fikrim var, görək ondan nə çıxır.

– Məsləhət sənindi, qardaş, – deyə Nağılbənd onu göndərdi ki, qarını çağırsın. O, qarıya dedi:

– Qarı nənə, biz bu şəhərə gəlmişik ki, bir az xırdavat alveri edək. Amma şəhəri hələ tanımırıq. Bəlkə, bizə kömək edəsən? Bunu deyibən Ağılbənd qarıya bir qızıl onluq verdi. Deyirlər, qarılar pulgir olar. Bu qarı da qızılı görən kimi gözləri siçan görmüş pişiyin gözləri kimi işıldamağa başladı. Dedi:

– Canım sizə qurban, niyə kömək etmərəm. Allah qoysa, sabahdan malınızı şəhərə çıxardaram.

Ertəsi gün səhər qarı gəldi oğlanın yanına. Ağılbənd bir səbət götürüb, içini xırdavatla, iynə, sap, oymaqla doldurdu. Səbətin içinə yaylığı, qəndi, samanı, iynəni də qoydu.

Qarı nənə bu şeyləri götürüb, o gündən başladı alverə. Qardaşlar da qarıdan bir xəbər gözləyirdilər. Günlərin bir günü qarı "ay xırdavat alan, ay iynə-sap alan", – deyə-deyə gəlib çıxdı bir dərzi dükanının yanına. Sən demə, bu vilayətin padşahının sarayı da bu dükanla qabaq-qabağa imiş, padşahın qızı da öz yaruşları ilə sarayın bağına gəzməyə çıxıbmış. Padşahın qızı qarının səsini eşidibən birini onun dalınca göndərdi. Qarı bağa girəndə gördü ki, padşahın qızı qabağında dayanıb. Padşahın qızı soruşdu:

– Qarı nənə, xırdavatdan satmağa nəyin var?

Qarı dedi:

– Qarı nənə sənə qurban, xırdavatçının iynə-sapdan qeyri nəyi olar. Buyur, özün bax.

Qarı bunu deyib, səbətin üstündən örtüyü götürdü. Qızın gözü o saat öz yaylığına sataşdı. Yaylığı əlinə alıb soruşdu:

– Qarı nənə, bu yaylığı neçəyə deyirsən?

– Bu çox bahalı yaylıqdı, pulun çatmaz.

Qarıdan bu sözü eşitcək padşahın qızı çox qəzəbləndi. Yaruşlarına əmr elədi ki, nar çubuğu gətirib, qarını yaxşıca döysünlər. Bunu deyib, padşahın qızı öz otağına keçdi. Qarı baxıb gördü ki, meydanda tək qalıb. Dedi ki, nə qədər baş-gözüm sağ-salamatdı, qaçsam yaxşıdı. Elə də elədi. Qarı birtəhər tənginəfəs gəlib evinə çatdı. Ağılbənd qarını bu halda görüb soruşdu:

– Qarı nənə, nə xəbər, nə olub sənə?

Qarı başına gələnləri ona danışıb dedi:

– A bala, al matahını. Nə satmaq istəyirəm, nə də döyülmək. Ağılbənd qarıya bir qızıl onluq verib könlünü aldı. Sonra qardaşını yanına çağırıb əhvalatı ona danışdı. Dedi:

– Bu gecə qız səni nar bağında gözləyir. Nəbadə yatasan!

Nağılbənd sevindiyindən bilmədi nə eləsin. Gecənin düşməyini gözlədi. Gecə düşmüş Nağılbənd padşahın bağına yollandı. Gəlib padşahın bağını tapdı. Axır gəlib nar bağına çıxdı.

Bağda gəzə-gəzə gəlib bir evə çatdı. Baxıb gördü ki, evin içində nə nemət desən var. Yaxşıca yeyib-içəndən sonra dedi ki, bir az yatım, yorğunluğum çıxsın. Elə bu yatmaqla yatdı. Bir də ayılıb baxdı ki, səhər açılıb, qız da gəlməyib. Oğlan kor-peşiman qarının evinə qayıtdı. Gəlib evdə Ağılbəndlə bir dava da elədi. Dedi:

– Nə oldu, bəs deyirdin qız gələcək?

Ağılbənd kiçik qardaşına acıqlanıb dedi:

– Sən əvvəl danış görək nə olub?

Nağılbənd başına gələni danışandan sonra Ağılbənd dedi:

– Bir ciblərini axtar, gör nə tapırsan?

Nağılbənd əlini cibinə salıb bir cüt aşıq çıxardı. Bunu görüb Ağılbənd dedi:

– İndi gördün? Demə, qız gəlibmiş. Qız demək istəyir ki, "sən hələ uşaqsan, get aşıq-aşıq oyna!"

Bu işin üstündən üç gün keçəndən sonra Ağılbənd qarını yola gətirdi ki, səbəti götürüb yenə alverə getsin. Qarı gəzə-gəzə gəlib padşahın bağına çıxdı. Baxdı ki, budur, padşahın qızı dayanıb elə bil onu gözləyir. Qız qarını görüb dedi:

– Qarı nənə, yaylığı neçəyə deyirsən?

Demə, qarı da tərsin biri imiş. Yenə dediyini dedi. Padşahın qızı yaruşlarına bu dəfə əmr etdi ki, ərik bağından çubuq gətirib qarını döysünlər. Padşahın qızı sözünü deyib, öz otağına çəkildi. Qarı nənə də bu dəfə də macal tapıb canını burdan qaçmaqla qurtardı. Evə gəlib əhvalatı Ağılbəndə danışdı. Ağılbənd bu dəfə qardaşını ərik bağına göndərdi. Nağılbənd gecə gəlib ərik bağına çıxdı. Bağın bir başında yeyib-içib yatdı. Gecədən bir qədər keçmiş padşahın qızı gördü ki, zalımın oğlu yenə xorhaxor yatır. Cibindən cıqqılı bıçaq çıxardıb, oğlanın sinəsinin üstünə qoyub, qayıtdı. Səhər oğlan ayılanda bıçaq yerə düşər. Oğlan bıçağı götürüb, yenə də kor-peşiman qardaşının yanına gedib, əhvalatı ona söylədi. Ağılbənd qardaşına qulaq asıb dedi:

– Qardaş, qız deyir ki, bir də səni yatmış görsəm, bu bıçağı ürəyinə sancacam. Hə, qardaş, bu gecə padşahın bağına getməlisən!

Kiçik qardaş çarnaçar razı oldu. Bıçaq məsələsi onu, deyəsən, bir az qorxurmuşdu. Gecə düşdü. Nağılbənd getməyə hazırlaşırdı ki, qardaşı Ağılbənd onu çağırıb dedi:

– Bir əlini mənə göstər baxım!

Nağılbənd sağ əlini qardaşına göstərəndə o, həmən saat bıçaqla onun çeçələ barmağını bir az çərtdi. Yaraya bir az duz da basdı. Dedi:

– Qardaş, özgə çarəmiz yoxdu. Bunu elədim ki, yatmayasan. Bax yatma ha!

Biçarə Nağılbənd ağrıdan ufuldaya-ufuldaya getdi qızla görüşə. Oğlan gəlib çıxdı ərik bağına. Bir baş gedib girdi evə. Gördü ki, bu gün burada dünənkindən də artıq naz-nemət var. Bir saat gözlədi, iki saat gözlədi. Qız gəlmədi ki, gəlmədi. Gecədən bir xeyli keçmişdi ki, bir də gördü qapı açıldı, bir nazənin gözəl otağa qədəm basdı. Qızın gözəlliyi hər yana işıq saçırdı. Nağılbəndin dili-ağzı tutulmuşdu, qızdan gözünü çəkə bilmirdi. Oğlanı bu halda görüb dedi:

– Oğlan, gəl bir az qəlyanaltı eləyək.

Yeyib içəndən sonra qol-boyun olub yatdılar.

Qız padşahın vəzirinin oğlunun istəklisi idi. Amma o, vəzirin oğlundan uzaq gəzirdi. Səhər vaxtı vəzir qızın otağının yanından keçəndə gördü ki, otağın qapısı açıqdı. İçəri girdi. Gördü ki, padşahın qızı bir oğlanla qolboyun yatıbdı. Vəzir otağın qapısını arxadan bağlayıb başıalovlu cumdu padşahın dərgahına.

Qızla oğlan yuxudan duranda gördülər ki, qapı bağlıdı, çıxa bilməyəcəklər. Qız pəncərədən baxıb gördü ki, uşaqlar mal-qaranı otarmağa aparırlar. O, uşaqlardan birini çağırıb, pul verib dedi:

– Ay uşaq, qarının evinə gedib Ağılbəndə deyərsən ki, Nağılbənd bəndə düşübdür, qoy gəlsin.

Uşaq pulu qızdan alıb qarının evinə qaçdı. Qızın sözünü Ağılbəndə çatdırdı. Ağılbənd məsələnin nə yerdə olduğunu bilib, düz gəldi bağa. Ağılbənd baxıb gördü ki, bir kəndistanlı bir cüt öküzlə gəlir. Oğlan xəbər aldı:

– Əmican, hara gedirsən?

Kəndistanlı dedi:

– Mən bu pirə nəzir demişdim. İndi, Allah qoysa, öküzü kəsib, paylayacağam camaata.

Ağılbənd dedi:

– Əmican, sən ağsaqqal adamsan, mən razı olmaram ki, mən dura-dura, sən belə əziyyət çəkəsən. Allah nəzirini qəbul eləsin. Buyur külfətinlə bu otağa, istirahət elə!

O, bunu deyib otağın kilitini sındırdı. Kəndistanlını arvad-uşağı ilə otağa saldı. Padşahın qızına isə dedi:

– Xanım, sən isə tez get saraya. Görək bu işin axırı nə olur.

Padşahın qızı bir söz deməyib saraya getdi. Ağılbənd qardaşını da qarının evinə yola salandan sonra kamali-qayda ilə öküzü kəsdi. Camaatı başına yığıb, ət paylamağa başladı.

Eşit vəzirdən. Vəzir padşahın yataq otağının qapısını kəsdirib gözləyirdi ki, nə vaxt yuxudan oyanacaq. Bir azdan padşah yuxudan oyandı. O, vəziri qapıda görüb soruşdu:

– Vəzir, xeyir ola? Deyəsən, səndə bir xəbər var?

Vəzir dedi:

– Qibleyi-aləm, sənin qızın oğlumu istəmir, amma yaman nalayiq işlər görür. Sənin adını bədnam eləyir.

Bunu deyib vəzir əhvalatı padşaha danışdı. Padşah bir söz deməyib bağa getdi. Bağa gəlib çatanda gördülər ki, kabab iyi ətrafı bürüyüb, cavan bir oğlan da camaata ət paylayır. Padşah Ağılbənddən soruşdu:

– Oğul, sən kimsən, burada nə qayırırsan?

Ağılbənd dedi:

– Padşah sağ olsun, mən əmimin nəzirini paylayıram.

– İndi əmin hardadı?

Ağılbənd dedi:

– Padşah sağ olsun, əmim külfətilə bu otaqda istirahət edir.

Yoldan yorğun düşüb yatıblar.

Padşah vəzirlə otağa girib gördü ki, kəndli arvad-uşağı ilə çarpayıda yatıb. Padşah vəzirin yaxasından tutub silkələyə-silkələyə dedi:

– Vəzir, hirsindən indi qızıma qara yaxırsan? Sənin cəzanı mən özüm verəcəyəm.

Padşah bunu deyib saraya tərəf üz tutdu. Ağılbənd də günortaya nəziri paylayıb qarının evinə gəldi. Qardaşını çağırıb dedi:

– Qıza de, hazırlaşsın. Cümə günü qızı qaçıracağıq.

Axşam Nağılbənd bağa gedib, qızı işdən hali etdi. Nağılbəndlə qız bir az bağda gəzişib ayrıldılar.

Cümə günü gəldi. Nağılbənd gecə bağa gələndə gördü ki, padşahın qızı iki at hazırlatdırıb onu gözləyir. Bunlar elə "Ya Allah" deyib atlara minmək istəyəndə vəzirin adamları bunları tutdular. Deməyəsən, vəzir adamlarına tapşırıbmış ki, qızı güdsünlər. Adamlardan biri Nağılbənddən soruşdu:

– Oğlan, kimsən?

Nağılbənd dedi:

– Bu şəhərdə bir nənəm var. Kəndistandan gəlmişəm onu görməyə. Yolu-izi tanımıram. Mən nə bilim, bura padşahın bağıdı.

Oğlan birtəhər vəzirin adamlarının əlindən canını qurtarıb qaçdı. Gəlib qardaşına dedi ki, bəs başımıza belə iş gəldi. Ağılbənd bir qədər fikirləşib qarı nənəni çağırıb dedi:

– Ay qarı nənə, tez bir əlli dənə yuxa, bir də halva bişir.

Yuxalar hazır olandan sonra Ağılbənd qarıya dedi:

– Yuxaları, halvanı götürüb, gedərsən padşahın bağına. Bağın içində bir daş görəcəksən, qabağında da əsgərlər. Yuxaların içinə halva qoyub fərraşlara paylarsan, deyərsən, "adamımız ölüb, onun ehsanıdı". Sonra fərraşlardan icazə alıb,

girərsən dama, orda cavan bir qız var. Qızla paltarını dəyişərsən. Qız çıxıb gedər evinə, sən qalarsan damda. Sonrası ilə daha işin yoxdu.

Qarı nənə bir az nəm-nüm eləyəndə Ağılbənd bir kisə qızıl pul verib onu razı saldı. Qarı bağa gircək gördü ki, damı dövrəyə alıblar. Fərraşlar yaxınlaşıb, Ağılbəndin dediyi kimi elədi. Padşahın qızı qarının paltarında çıxıb qaçdı.

Səhər tezdən vəzir padşahın yanına gəlib dedi:

– Qibleyi-aləm, bu gecə fərraşlar sənin qızını bir oğlanla qaçan yerdə tutublar.

Bunu eşidib padşah çox pərt oldu. Vəzirə dedi:

– Məni apar qızın yanına, baxım görüm!

Padşahla vəzir getdilər bağa. Gəlib girdilər qızın otağına.

Vəzir fərraşlardan birini çağırıb dedi:

– Qibleyi-aləmin qızını çağırın gəlsin!

Fərraşlar qızı gətirəndə padşahla vəzir baxıb gördülər ki, bu, qoca bir qarıdı. Padşah işi belə görüb çox sevindi. Dedi:

– Vəzir, görürəm ki, sən qızımı qaralamaqdan əl çəkmirsən. Özünü gözlə!

Padşah bunu deyib, saraya qayıtdı.

Bu işin üstündən üç gün keçdi. Bir gün Ağılbənd çox fikirləşib götür-qoy etdi ki, bu işləri necə yerinə qoysun. Nağılbəndi yanına çağırıb dedi:

– Qardaş, bu işi birtəhər yoluna qoymaq lazımdı. Yoxsa, belə getsə, qızın başından xata əksik olmayacaq. Odur ki, mən bir fənd fikirləşmişəm, gəl onu edək.

Ağılbənd bazara gedib qəşəng bir qız paltarı alıb gəldi. Sonra Nağılbəndin saç-saqqalını qırxıb, qız paltarını əyninə geyindirdi. Bir sandıqça da qoltuqlarına vurub, padşahın sarayına yola düşdülər. Padşahın sarayına gəlib, padşahın hüzurunda dayandılar. Ağılbənd dedi:

– Qibleyi-aləm sağ olsun! Biz bacı-qardaş kəndistandan gəlmişik, qalmağa yerimiz də yoxdur. Əgər icazə versən, bacım bir neçə günlüyə sarayda yanında qalardı. Çünki üç günlük səfərim də var.

Padşah dedi:

– Oğul, qoy bacın qalsın sarayda, qızımla bacılıq eləsin. Bacından da arxayın ola bilərsən. Bizdə əmanətə xəyanət olmaz. Gedib qayıdarsan, bacını da götürərsən.

Ağılbənd qardaşını sarayda qoyub çıxıb getdi. Padşah qızının kənizlərindən birini çağırtdırıb, Nağılbəndi qızının yanına göndərdi. Nağılbənd gördü ki, padşahın qızı saray xanımları ilə oturub söhbət eləyir. Padşahın qızına təzim edib bir tərəfdə oturdu. Nağılbənd rübəndi üzündən götürən kimi padşahın qızı onu tanıdı. Qaldı məəttəl, görəsən, bu, nə işdi? Odur ki, başındakı qızlara dedi:

– Qızlar, azadsınız, gedə bilərsiniz. İstəyirəm bu təzə gələn bacımızla bir az söhbət edim.

Qızlar təzim edib dağılışandan sonra padşahın qızı soruşdu:

– Nağılbənd, bir məni agah elə, bu nə məsələdi?

Nağılbənd dedi:

– Xanım, bir az səbrin olsun, özün görəcəksən. Qardaşım işimizə bir çarə edəcək.

Xəbəri xəbərdən, vəzirin bir yaramaz oğlu var idi. Vəzir oğlunun ağlına salmışdı ki, padşahın qızını sənə alacağam. İndi də vəzirin oğlu qıza gün verirdi, işıq vermirdi, dalınca düşüb izləyirdi. Bir gün padşahın qızı Nağılbəndlə bağda gəzdiyi yerdə vəzirin oğlu kəsdi bunların qabağını, başladı hırıldamağa. Padşahın qızı onu görüncə ovqatı təlx oldu. Nağılbəndin qulağına pıçıldayıb dedi:

– Bu haramzada oğlu, görəsən, haradan gəldi çıxdı?

Nağılbənd dedi:

– Xanım, halını pozma! Onun tədbirini mən çözmüşəm.

Onlar vəzirin oğluna salam verib, ötüb keçdilər. Nağılbənd qızla gəzə-gəzə gəlib təsadüfən bir quyunun başına çatdılar. Nağılbənd baxdı ki, quyu dedikcə çox dərin quyudu. Ürəyində fikirləşdi ki, bura əsl vəzirin oğlunun yeridir. Daha qıza bir söz demədi. Gecə Nağılbənd həyətə düşüb, quyunun üstünü ağac budaqları ilə örtdü.

Ertəsi gün axşam Nağılbənd gördü ki, vəzirin oğlu bağda gəzir. Tez onun yanına gəlib dedi:

– Ağa, xanım sizi gözləyir.

Vəzirin oğlu bunu eşidib, çox sevindi. Ona dedi:

– Tez apar məni xanımın yanına.

Nağılbənd qabağa düşüb getdi. Gələ-gələ gəlib quyunun üstünə çatdılar. Nağılbənd ətrafına göz gəzdirib baxdı ki, adamzad yoxdu. Daha fürsəti əldən verməyib, vəzirin oğlunu quyuya itələdi. Nağılbənd quyunun üstünü yenə əvvəlki qaydada örtüb, bağdan qaçdı. Qarının evinə gəlib, əhvalatı qardaşına danışdı. Ağılbənd qardaşına dedi:

– Gəl bir neçə gün gözləyək. Görək başımıza nə gəlir.

Bu gedişlə bu işin üstündən bir neçə gün də keçdi.

Ertəsi gün şəhərə xəbər yayıldı ki, vəzirin oğlu padşahın qızının bacılığı ilə itib. Vəzir hər yerə xəbər saldırdı, amma oğlundan ona bir xəbər gətirən olmadı. Vəzirin ürəyinə dammışdı ki, oğlunun itməsində padşahın qızının əli var... Odur ki, yana-yana qalmışdı. Bir tərəfdən də padşahın qızı Nağılbənddən bərk narahatçılıq keçirirdi... Padşah da fikirləşirdi ki, qızın qardaşına nə cavab verəcək. Axı demişdi ki, bizdə əmanətə xəyanət olmaz.

Əlqərəz, bir neçə gündən sonra Ağılbənd gəldi padşahın hüzuruna. Padşaha xəbər verdilər ki, bəs qızın qardaşı səni görmək istəyir. Dedi:

– Buyursun içəri.

Ağılbənd təzim edib gəlib durdu padşahın qabağında. Dedi:

– Qibleyi-aləm, vədə tamamdı, izin versən, bacımı aparmağa gəlmişəm.

Belə deyəndə Ağılbənd gördü ki, padşahın ovqatı yaman təlx oldu. Amma Ağılbənd özünü o yerə qoymadı. Padşah dedi:

– Oğul, üzüm sənin yanında yaman qaradı. Əhdimə əməl edə bilmədim. Bacın neçə gündü ki, itib, tapa da bilmirik. Qızım da bu işi bilib dəli-divanə olub.

Ağılbənd bu xəbəri eşitcək başladı ağlamağa. Dedi:

– Biz iki qardaşıq. Bir bacımız var idi. İndi biz nə edək..?

Padşah yaman tutuldu, başını aşağı saldı. Dedi:

– Oğul, mən görürəm sən ədəbli, qeyrətli oğlana oxşayırsan. Gəl qızımı verim sənə. Sənə həm arvad olar, həm də bacı.

Ağılbənd dedi:

– Qibleyi-aləm, Allah ömrünü uzun eləsin! Atamız rəhmətə gedəndən sonra əhd eləmişdi ki, qardaşımı evləndirəndən sonra evlənim. Əgər məsləhət bilsən, qızını qardaşıma verərsən.

Padşah dedi:

– Oğul, qardaşını çağır gəlsin!

Ağılbənd sevincək dedi:

– Bu saat çağıraram, gələr hüzurunuza.

Bunu deyib Ağılbənd tələsik qarının evinə getdi. Gəlib məsələni ona danışdı. Bir az keçmiş hər ikisi padşahın hüzurunda müntəzir dayandılar. Padşah Nağılbəndi yanına çağırıb, bir az hal-əhval tutdu, söhbət elədi. Gördü ki, o, qeyrətli, fərasətli oğlandır.

Ürəyində dedi: "Qızıma yaxşı taydı. Görünür, elə qisməti bu imiş".

Eşit vəzirdən. Vəzir Nağılbəndi görən kimi barmağını dişlədi: "Ay aman, axtardığımı tapmışam. Padşahın qızının məşuqu elə bu oğlandı". Vəzir padşaha yaxınlaşıb, qulağına pıçıldadı:

– Qibleyi-aləm, qızınla otaqda gördüyüm oğlan elə həmin bu oğlandı.

Vəzirin sözündən padşahın qanı yaman qaraldı. Dedi:

– Vəzir, şəhər əhlini uçara yığ!

Axşam şəhər əhli toplaşdı uçara. Padşah əmr elədi ki, qızını da çağırsınlar. Bir az keçmiş padşahın qızının gəcavəsi gəlib, dayandı atasının yanında. Qız gəcavədən baxanda gördü ki, Ağılbənd dayanıbdır atasının yanında. Bu da gəcavədən düşüb, gəldi durdu onlarla bir yerdə. Padşah dedi:

– Ey camaat, məlumunuz olsun ki, vəzir qızıma qara yaxır... Padşah bunu deyib, qızına yanan bir şam verdi. Qız şamı əlinə alıb dedi:

– Ey şam, əgər buradakı oğlandan başqa bir oğlanın əli mənə dəyibsə, qoy səninlə bir yanım.

Qız bunu deyən kimi şam söndü. Padşah sevincindən gəlib qızının alnından öpdü. Sonra fərraşlara əmr elədi ki, vəziri vilayətdən çıxarıb qovsunlar. Padşah Ağılbəndi çağırıb dedi:

– Oğul, qardaşının toyuna hazırlıq gör!

Ağılbənd dedi:

– Qibleyi-aləm, mən hazır. Rüxsət versən, elə sabah toy çaldıraram. Amma padşah sağ olsun, səninlə təklikdə bir ixtilatım var.

Padşah dedi:

– Buyur, oğul! Qulağım səndədi.

Padşahla Ağılbənd bir tərəfə çəkilib ixtilat eləməyə başladılar. Ağılbənd hər şeyi necə vardısa padşaha ixtilat elədi. Başını aşağı salıb durdu. Padşah dedi:

– Oğul, sözüm sözdü. Sən toya tədarük gör!

Ertəsi gün Ağılbənd qardaşına bir toy elədi ki, gəl görəsən. Axır qızı oğlana tapşırandan sonra qonaqlar dağlışıb getdilər. Bir neçə gündən sonra Ağılbənd padşahın yanına gəlib dedi:

– Qibleyi-aləm sağ olsun, rüxsət versəydin, biz gedərdik öz vilayətimizə. Anamızın gözü yoldadı.

Padşah dedi:

– Ağılbənd, eybi yoxdur, qoy Nağılbəndlə qızım getsin! Amma sən qal mənim yanımda. Mənə sənin təkin ağıllı vəzir gərəkdi.

Ağılbənd padşahın sözünü yerə salmayıb razı oldu. Padşah var-dövlətlə Nağılbəndi və arvadını öz vilayətinə yola saldı. Ağılbənd də padşahın yanında qalıb, ona vəzirlik etməyə başladı.

## Üç arzu (43)

Bir gün Şah Abbas vəziri ilə dərviş libasında şəhəri gəzməyə çıxmışdı. Bir öyün qabağından keçəndə üç nəfərin ixtilatını eşitdi. Birinci kişi deyirdi:

– Noloydu, şah qızını mana verəydi. Dünyada dərdim olmazdı.

İkinci kişi dedi:

– Noloydu, şah mənə on qızıl vereydi.

Üçüncü kişi dedi:

– Mən şahdan heç nə istəmirəm.

Şah bunun sözünü eşidib çox qəzəbləndi, dedi:

– Yaxşı, sənin atanı yandıraram.

Sabah oldu. Şah öz taxtına çıxdı. Əmr elədi, o üç nəfər gəldi. Şah birinci kişiyə dedi:

– Dünən gecə nə istədin?

Birinci kişi dedi:

– Şah sağ olsun, mən istədim ki, şah öz qızını mənə versin.

Şah dedi:

– Arzunu yerinə yetirrəm.

İkinciyə dedi:

– Sən nə istəyirdin?

– Şah sağ olsun, mən dedim, noloydu, şah mənə on qızıl verəydi.

Şah dedi:

– Sənin də arzunu yerinə yetirdim.

Üçüncü kişiyə dedi:

– Bəs sən nə arzuladın?

Kişi gördü ki, şah hər şeyi bilir. Ona görə də olanını dedi:

– Şah sağ olsun, mən dedim ki, şah kimdi, mən öz ruzumu Allahdan istəyirəm.

Şah bunu eşidən kimi əmr elədi, cəllad gəldi:

Dedi:

– Vur bunun boynunu.

Vəzir irəli gəlib dedi:

– Şah sağ olsun, bunu öldürtməyin. Qoy bunun da arzusunu yerinə yetirək, görək nə olur.

Vəzirin sözlərinə şah qulaq asdı, kişini öldürtmədi. Şah qızını birinci kişiyə verdi.

Geri qayıtmağa başladılar. Gəlib bir çayın qırağına çatdılar. Onlar çayı keçməli idi. Birinci və ikinci kişi özünü vurutdu çaya. Hər ikisini su aparıtdı. Ruzusunu Allahdan istəyən kişi çayaşağı getdi, şah qızı da yanında. Səhər açıldı. Onlar dayaz bir yerdən çayı keçdilər. Onlar kişinin kasıb komasına gəldilər.

Kişi dedi:

– Şah qızı, bu gündən biz olduq bacı-qardaş.

O gündən onlar kişinin kasıb komasında yaşamağa başladılar. Hamı onları bacı-qardaş bildi. Kişi şələçilik eliyirdi. Bir qalın meşə vardı, oradan odun qırıb gətirib satırdı. Onlar birtəhər dolanırdılar. Kişi bir gün meşəyə gedəndə birdən başının üstünü bir şir alıb dedi:

– Qırx ildi burda hökmdaram. Heç kim bura ayaq basmayıb. Niyə buraya gəlibsən?

Kişi qorxusundan titrəməyə başladı. Dedi:

– Odun satıb dolanıram.

Şir onu öldürmədi. Dedi:

– Filan ağacın dibini gedib qazarsan, ruzuna yetərsən.

Kişi şirin dediyi yerə getdi. Ağacın dibini bir qədər qazdı. Gördü ki, qızıl dolu küp çıxdı, sonra biri, sonra biri, düz qırx

küp qızıl çıxdı. O, qızıl dolu küplərin hamısını gizlətdi. Tezliklə, ustaları çağırıb, başı bulutdan, dibi dəryadan nəm çəkən bir saray tikdirdi. Bacı-qardaşın adı hər tərəfə səs saldı. Qıza hər yerdən elçilər düşdü. Ancaq o, bütün elçiləri rədd elədi.

Bir gün şahla vəziri burdan keçirdi. Onlar gəlib kişinin sarayına çıxdılar. Buradakı cah-cəlalı görüb, heyran qaldılar. Şah qızı görən kimi ona vuruldu. O, öz istəyini bildirdi.

Kişi dedi:

– Qız özü bilər.

Bunu eşidən kimi qız başlarına gələn bütün əhvalatı vəzirə danışdı. Sonra dedi:

– Heç şah da öz qızına vurularmı?

Şaha hər şey agah oldu. Bunu görən kişi dedi:

– Şah sağ olsun, mən öz ruzumu Allahdan istəmişdim, o da yerinə yetdi.

Şah bu işə heyran qaldı. Qızı da həmin kişiyə verdi. Onlar xoşbəxt yaşayıb ömür sürdülər.

## Ağılla bəxt (44)

Günlərin bir günü ağılla bəxt yola çıxır. Söhbət eliyə-eliyə gəlif iki yol ayrıcına çatırlar. Ağıl deyir:

– Mən sənsiz də keçinərəm. Onsuz da hamı elə dolanır.

Bəxt deyir:

– Yox, bir adamın ki bəxti olmadı, o tək heç nə eliyə bilməz.

Ağıl deyir:

– Yaxşı, indi ki belə oldu, gəl onda bu yolla birimiz gedək, ikinci yolla o birimiz. Görək hansımız insanlara lazımıx. Onda kimin üstün olduğunu da bilərik.

Bəli, bunlar hərəsi bir yolla getməyə başlayırlar.

İndi bunlar burada qalsın, sizə kimdən deyim, bir kasıf oğlandan. Bu oğlanın adı Qərib idi. Qərib bütün günü yer şum-

layar, ancax yenə də bir şey qazana bilməzdi. Bir gün belə, iki gün belə, axırda oğlan görür ki, yox, belə getsə, daha dolana bilməyəjəy. Öz-özünə deyir ki, gedim elə padşahın yanında bir işə düzəlim, həm asan iş olsun, həm də bir az pul qazana bilim. Bəli, Qərib gəlib çatır saraya. Nə üçün gəldiyini xəbər verir. Onu sarayda odun yaran qoyurlar. Qərib hər gün odun yarıf, haqqını da artıqlaması ilə alır. Günləri, dolanışığı da getdikcə yaxşılaşmağa başlayır. Bir gün padşahın qızı xəstələnir. Camaat arasında car çəkilir, bəs kim padşahın qızını sağaltsa, padşah qızını da ona verəjəy, üstəlik taxt-tacı da həmin adamındı. Hansı həkim qızın üstünə gəlir, qızı sağalda bilmir, o saat da dar ağacınnan asılır. Qərib öz-özünə deyir, ya bəxt, qoy mən də gedim. Elə, bəlkə, mənə yar oldu, qız öz-özünə sağaldı.

Bəli, padşahın hüzuruna gəlir. Qəribi buraxırlar, qızın yataq otağına. Qərib görür ki, qız bir qızdı ki, adam elə deyir bütün günü yemə, içmə, bu qıza tamaşa elə. Onlar oturur qızın taxtının kənarında. Qızın da xəstəliyi o imiş ki, nə danışırdı, nə yeyirdi. Oğlan başlayır danışmağa: "Ay qız, gəl mən sənə nağıl söylüyüm, sən də qulax as". Qız başı ilə razılıq işarəsi verir.

Oğlan deyir: "Biri var idi, biri yox idi, bir ölkə var idi, bu ölkənin də bir padşahı var idi. O yatanda gərək bir keşikçi otura idi onun yanında, ta ki səhərə kimi. Bəli, bu padşah üçün gündə biri keşik çəkirdi. Bir keşikçi bir dəfə darıxır. O bir adam düzəldir, özü də dülgəriymiş. Vaxt tamam olanda həmin ağacdan düzəlmə adamı qoyur özü gedir. Səhərisi o biri keşikçi gəlir. Görür ki, burada bir ağacdan adam şəkli var. O da əvvəllər dərzi imiş. Götürür həmin adama paltar tikir. Bəli, bunun da vaxtı tamam olur. Adamı burda qoyuf gedir. Üçüncü günü başqa bir keşikçi gəlir, o da görür ki, burada bir ağacdan düzəlmiş adam var. Bu da molla olubmuş. Götürür bir ovsun oxuyur. Həmin ağac böyüyüf, qəşəng və canlı bir qız olur. Səhər açılır, əvvəlki iki keşikçi də gəlir, görür ki, işləri nə cür oluf. Görürlər ki, bəli

həmin ağac adam dönüf canlı insan oluf. Özü də qəşəng bir qız. Molla da qızı götürüf aparır evinə. Əvvəlki keşikçilər mollanın qavağını kəsif deyirlər ki, nə yaxşıca qızı götürüf gedirsən, bəs bizim də burda əməyimiz oluf. Başlıyırlar mübahisəyə, biri deyir, qız mənimdi, o biri deyir, yox, mənimdi".

Oğlan nağılını qurtarıf, padşah qızınnan soruşur:

– Ay qız, qız kimə düşür?

Padşah qızı deyir:

– Mollaya.

Qərib soruşur:

– Niyə?

Qız deyir:

– O qıza nəfəs verməsəydi, qız canlı insan olmazdı.

Oğlan deyir:

– Yaxşı, o qız mollaya düşür, bəs sən kimə düşürsən?

Qız deyir:

– Sənə.

Bəli, padşaha xəvər gedif çatır ki, qızın danışır.

Padşah oğlanı çağırıf, çoxlu xələt verəndən sonra yola salır. Qərib qızı istəmir. Öz-özünə deyir ki, padşah söz verif, deməli, sözünə əməl edəjəy. Belə-belə beş gün keçir, on beş gün keçir, bir ay keçir. Qərib görür ki, yox, padşahdan bir səs-səmir çıxmır. Elə bil, həmin söz verən padşah deyil. Ona görə də Qərib deyir, bəlkə, padşahın yadınnan çıxıf, gedim yadına salım. Qərib gəlir padşahın yanına. Padşah o saat Qəribin nə üçün gəldiyini başa düşür. Deyir:

– Qərib, bilirəm nə üçün gəlmisən, ancax mənim qızım sənə yaraşmaz, pulunu artıraram, nejə istəyirsən elə də yaşayarsan.

Qərib sözünnən dönmür. Padşah qəzəblənir:

– Deməli, sən mənim sözümnən çıxırsan. Cəllad!

O saat cəllad hazır olur.

– Tez bunu dar ağacınnan as!

Bəli, o saat təbillər vurulur, dar ağacı hazır olur.

Qəribi gətirirlər dar ağacı meydanına. Padşah qırmızı geyinib, çıxır taxtına. Camaatın da hamısı yığılıb, Qəribin necə asılacağını gözləyir. Cəllad hazır oluf, padşahın əlini yuxarı qaldırmasını gözləyir. Birdən nəsə fikirləşif, öz-özünə deyir, mən qocalmışam, mənim qızımı bunnan yaxşı oğlan almaz. Qoy elə qızımı verim Qəribə, taxt-tacıma da onu oturdum. Bunu fikirləşən kimi cəllada deyir:

– Əl saxla!

Bu vaxt ağıl dayanıbmış həmən yerdə, bir də görür ki, budu, bəxt qan-tər içində çatıb soruşur:

– Nə olub? Niyə bura bu qədər adam yığılıf?

Ağıl bütün əhvalatı əvvəldən axıra qədər danışır və deyir:

– Oğlan ağlına görə padşahın yanına getdi. Ancax axırı bu dar ağacı oldu. Bilmirəm, padşah nə fikirləşifsə fikrinnən daşındı. Hələ bir qərara gələ bilmir.

Bəxt dedi:

– Özümü yaxşı çatdırmışam.

Doğrudan da, oğlanı dar ağacınnan düşürürlər. Padşah qızını oğlana verir, üstəlik taxt-tacını da ona tapşırır. Qırx gün, qırx gejə toy elədikdən sonra öz muradlarına çatırlar.

Bu vaxt ağıl deyir:

– Doğurdan da, biz gərək heç vaxt ayrılmayax. Hər ikimiz insanlara lazımıx.

O günnən ağılla bəxt bir-birinnən heç vaxt ayrılmadılar.

## Şahzadə ilə sövdəgər (45)

Biri vardı, biri yoxdu, keçmiş zamanlarda bir padşah vardı, onun da iki oğlu. Günlərin bir günündə, padşah öz vəzir-vəkilini, oğlanlarını yanına çağırıb dedi:

– Mənim sağalmağıma ümid yoxdu, bu gün-sabah öləcəyəm. Mən vəsiyyət eləyirəm ki, padşahlığım böyük oğluma çat-

sın. Bir də vəsiyyətim odu ki, oğlanlarım həmişə mehriban dolansınlar.

Padşah bu vəsiyyətini eləyib, canını tapşırdı. Onu necə lazımdısa dəfn elədilər. Padşahın ölümündən sonra böyük oğlunu taxta çıxardılar. Padşahın böyük oğlu paxıl, həm də ağılsız idi. Vəzir də çox hiyləgər idi. O, kiçik qardaşın ağıllı, həm də igid olduğunu bilirdi. Odu ki, necə olursa-olsun, onu aradan götürməyə çalışırdı. Ondan sonra padşahlığı böyük qardaşın əlindən almaq asan idi. Hiyləgər vəzir padşahın qulağını doldurdu ki, kiçik qardaşı padşahlığı ələ keçirmək istəyir. Ağılsız qardaş vəzirin şirin dilinə aldandı. Hökm elədi ki, kiçik qardaşını ölkədən çıxartsınlar. Bəli, padşahın əmrini yerinə yetirdilər. Kiçik qardaşı padşahın torpağından çıxardılar. Ona atasından heç bir pay düşmədi, bircə pişikdən başqa. Bu pişik onnan əl çəkmədi. Kiçik qardaş pişiyi də götürüb düzəldi yola. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Gəlib çıxdı bir böyük ağacın dibinə. O, ağacın altında oturub dağı arana, aranı dağa köçürürdü. Bir də gördü ki, uzaqdan bir karvan gəlir. Karvan gəlib padşah oğlu dayandığı yerə çatdı. Karvanbaşı oğlandan kim olduğunu, hara getdiyini soruşdu. Padşah oğlu başına gələni mənim sizə nağıl elədiyim kimi ona danışdı. Karvanbaşı nurani bir kişi idi. O, oğlanın ağıllı bir cavan olduğunu görüb dedi:

– Oğlum, gəl sən də bizə qoşul.

Padşah oğlu razılaşdı. Onlar düzəldilər yola. Gəlib bir şəhərə çatdılar. Karvanbaşı oğlana üç tümən verib dedi:

– Oğlum, gedərsən filan küçəyə, orda görəcəksən ki, bir qoca, qabağında da bir xoruz dayanıb. Bu üç tüməni verib, xoruzu onnan alarsan.

Padşah oğlu heç bir söz demədi. Karvanbaşının dediyi küçəni gedib tapdı. Gördü ki, doğurdan da, karvanbaşının nişan verdiyi yerdə bir qoca dayanıb, qabağında da bir xoruz. Dedi:

– Baba, bu xoruzu neçiyə satırsan?

Qoca dedi:

– Üç tümənə.

Padşah oğlu üç tüməni verib, xoruzu aldı, qayıtdı. Ancaq karvan artıq yola düzəlmişdi. Padşah oğlu da yola düzəldi, amma karvan bir tərəfə getdi, oğlan başqa bir tərəfə. Padşah oğlu az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib bir kəndə çıxdı. Artıq hava qaralmışdı. Padşah oğlu bir kişiyə rast gəldi. Bu kişi xəsis bir sövdəgər idi. Sövdəgər dedi:

– Oğlum, bura nə yaxşı gəlmisən?

Padşah oğlu dedi:

– Xoş günün olsun, əmi, səyahətə çıxmışam.

Sövdəgar dedi:

– Oğlum, gedək bizə, çörəkdən-zaddan yeyərsən, gecəni qalarsan, sonra yenə düzələrsən yola.

Padşah oğlu gördü ki, bu kişi heç ürəyinə yatmır. Ona görə istədi getməsin, amma sövdəgər qırsaqqız olub əl çəkmədi ki, əl çəkmədi.

Onlar sövdəgərin evinə gəldilər. Sən demə, bu sövdəgər cadugər imiş. O, padşah oğlunun xoruzunun içində nə gizləndiyini bilirdi. Sövdəgər öz-özünə fikirləşdi ki, xoruzu necə eləsin, bu oğlanın əlindən çıxarsın. Bir azdan o xatununu çağırıb, dedi:

– Bizə bir şey ver, yeyək.

Sövdəgərin xatunu xoşxasiyyət, əliaçıq bir xatun idi. O saat evdə nə vardısa, hamısını gətirib, düzdü süfrəyə. Sövdəgərin oğlu başladı ağlamağa. Nə qədər elədilərsə, o daha da bərk ağladı, səsini kəsmədi, çünki sövdəgər öyrətmişdi ki, belə eləsin. Soruşdular:

– Niyə ağlayırsan?

Uşaq dedi:

– Qonağın xoruzunu kəsin, yeyək.

Uşağın ağlamağı padşah oğlunu lap boğaza yığmışdı. Dedi:

– Xoruz neyimə gərəkdi, kəsin, bəlkə, uşaq sakit oldu. Daha padşah oğlu bilmirdi ki, bu, sövdəgərin hiyləsidi. Sövdəgərə elə bu lazımdı. Tez xoruzu kəsdi. Sonra xatununa dedi:

– Dur, xoruzu bişir.

Sövdəgərin xatunu xoruzu təmizləyib, qazanın içinə qoydu, ocağı yandırdı, amma artıq gec idi. Yemək hazır olanda artıq gecəyarıdan keçmişdi. Hamı yatdı.

Səhər tezdən xəbər gəldi ki, padşah sövdəgəri çağırır. Sövdəgər tez saraya yola düzəldi. Padşah oğlu ayılıb gördü ki, sövdəgər evdə yoxdu. Dedi:

– Bacı, mən tələsirəm. Yolum uzaqdı.

Sövdəgərin xatunu onu dilə tutdu ki, yemək yesin, sonra getsin.

Padşah oğlu razı olmadı:

– Sağ ol, bacı. Gərək tez yola çıxım.

Sövdəgərin xatunu çox yumşaqürəkli, təmiz bir arvad idi, dedi:

– İndi ki, gedirsən, onda bişmiş xoruzu verim, yolda yeyərsən.

Sövdəgərin xatunu bir az çörək, bir də bişmiş xoruzu büküb, verdi padşahın oğluna. Padşah oğlu xudafizləşib yola düzəldi. Bir azdan sövdəgər gəldi, əhvalatdan xəbərdar olub xatununu – arvadı döydü. Sonra tez qonağın dalınca götürüldü.

Sövdəgər qaçmağında olsun, görək padşah oğlu nə elədi.

Padşah oğlu az getdi, çox getdi, gəlib bir bulaq başına çıxdı. Fikir elədi ki, bir az burda oturub, dincini alsın, yemək yesin, sonra yoluna davam eləsin. O, süfrəsini açıb, başladı yeməyə. Yeməyi qurtarmağa az qalmışdı. Birdən xoruzun sümüyünün arasından bir üzük çıxdı. Padşah oğlu maraqla üzüyə baxırdı. Bu vaxt sövdəgər gəlib oğlana çatdı. Dedi:

– Bəs niyə məni gözləmədin?

Sövdəgər oğlanı bir qədər ixtilata tutdu. Onun məqsədi üzüyü ələ keçirmək idi. İxtilatın şirin yerində sövdəgər bıçağı oğlanın kürəyinə sancdı. Üzük padşah oğlunun əlindən düşdü. Sövdəgər tez üzüyü barmağına taxdı. O saat iki qara qul hazır olub dedi:

– Bizə görə qulluq?

Sövdəgər dedi:

– Bu saat bu oğlanı aparıb atın meşənin ortasına.

Söz sövdəgərin ağzından çıxan kimi qara qullar oğlanı aparıb, qalın bir meşəyə atdılar.

Oğlan burada qalmaqda olsun, görək sövdəgər nə elədi. Sövdəgər arxayın oldu ki, padşah oğlu öldü. Əlini üzüyə çəkdi. O saat qara qullar hazır olub, baş endirdilər:

– Bizə görə qulluq?

Sövdəgər dedi:

– Bu saat dənizin ortasındakı adada bir saray hazır eləyin, məni də padşah qızı ilə birlikdə ora aparın.

O saat sövdəgərin dedikləri yerinə yetirildi. Bəli, sövdəgər kefdə olsun, görək padşah oğlunun başına nə iş gəldi.

Oğlan bir də ayılıb gördü ki, ürəyində ağrı var. Nə qədər elədisə ayağa qalxa bilmədi, gözlərini zorla açıb, gördü ki, zülmət kimi qaranlıq bir meşədədi. Padşah oğlu hər şeyi yadına salmağa başladı, amma heç nə yadına düşmədi, huşunu itirdi. Pişik üç gündən sonra gəlib, onu yaralı gördü. Başladı miyoldamağa.

Bir qoca kişi var idi. Həmin qoca hər gün bu meşəyə gəlib, odun qırıb, bazarda satar, bu minvalla gündəlik ruzisini qazanardı. Bu gün də qoca meşəyə gəlmişdi. Pişiyin miyoltusunu eşidib, səs gələn yerə tərəf getdi. Gördü ki, bir cavan oğlan yıxılıb qalıb, yanında da bir pişik. Oğlanın nəfəsi zorla gedib gəlir. Qoca bildi ki, kimsə oğlanı öldürmək istəyib. Qoca birtəhər oğlanı kasıb daxmasına gətirdi. Qarı oğlanı yaralı halda görüb, göz yaşları tökdü. Bu qocaların dünyada heç bir kimsəsi yoxdu. Övlad

üzünə onlar həsrət idi. O gündən qoca ilə qarı padşah oğlunun qulluğunda dayandı. Qarı otların, çiçəklərin nə dərdə, azara məlhəm olduğunu yaxşı bilirdi. Odur ki, başladı oğlanı müalicə eləməyə. Qırx gündən sonra padşah oğlu başladı özünə gəlməyə. Bir xeyli müddət də keçdi, padşah oğlu oldu sapsağlam, anadangəlmə. Öz-özünə fikirləşdi ki, gərək, bu qocalara dayaq olam, oğulluq eləyəm. Bir gün qoca soruşdu:

– Oğlum, sən kimsən? Kim bu hala salmışdı səni?

Padşah oğlu başına gələn əhvalatı onlara nağıl elədi.

Qoca dedi:

– Oğlum, o sövdəgər cadugərdi, yaxşı ki onun əlindən salamat qurtarmısan.

Padşah oğlu, necə olursa olsun, sövdəgərdən intiqam almaq istəyirdi. Bir gün o qocalara üz tutub dedi:

– Siz məni ölümdən qurtardınız. İndi görək mən dünyanı gəzib dolanım, bəlkə, o cadugər sövdəgəri tapıb intiqamımı ala bildim. Sağ-salamat qayıdıb gəlsəm, mən sizə oğul ollam, siz də mənə ata, ana, qayıtmasam, Allah özü sizə kömək olsun.

Padşah oğlu qocalarla xudahafizləşib, pişiyini də götürüb düzəldi yola. Az getdi, üz getdi, dərə-təpə düz getdi, axırda gəlib bir kəndə çatdı. Axşam düşmüşdü. Padşah oğlu bir qapını döydü. Ev sahibi qapını açıb soruşdu:

– Kimsən?

– Allah qonağıyam. İcazə verin bir gecəliyə sizdə qalım.

Ev sahibi dedi:

– Gəl, Allaha da qurban olaq, onun qonağına da.

Padşah oğlu keçdi içəri. Bir az keçmişdi ki, ortalığa yemək gətirdilər. Bu vaxt dörd nəfər bığıburma oğlan əllərində də dəyənək, hərəsi otağın bir güncündə hazır dayandı. Padşah oğlu təəccüb etdi. Öz-özünə fikirləşdi: “Yaxşı yerdə axşamladım, burdan sağ-salamat qurtarsam, böyük işdi”. Ev sahibi gördü ki, qonaq onların bu hərəkətindən şübhələnibdi, onu sakit etmək üçün dedi:

– Səbir elə, bir azdan hər şey sənə aydın olacaq.

Yemək ortaya gələn kimi siçanlar hər tərəfdən yeməklərə cumdular. Bu zaman oğlanlar başladılar dəyənəklə siçanları vurub qovmağa. Padşah oğlu bunu görən kimi cəld pişiyi buraxdı siçanların üstünə. Pişik bir dəqiqənin içində bütün siçanları qovdu, öldürdüyünü də öldürdü. Hamı bu işə təəccüblə baxırdı. Sən demə, burada bir dənə də pişik yox imiş. Padşah oğlu bir neçə gün bu kənddə qaldı.

Ev sahibi arxayınca yeyib-içirdi. Bir siçan da pişiyin qorxusundan başını çıxara bilmirdi. Bu kəndin bütün siçanları yığışıb, siçanlar padşahının yanına gedib dedilər:

– Ey padşah, bizim kəndə filan padşahın oğlu qonaq gəlib, özü ilə də bir zəhimli pişik gətirib, heç birimiz qorxumuzdan yuvadan çıxa bilmirik, bizə kömək elə, acınnan qırılırıq.

Siçanlar padşahı bir neçə siçanı seçib padşah oğlunun yanına göndərdi. Həmin siçanlar gəlib öz padşahlarının sifarişini ona söylədilər: “Ey şahzadə, könlündən hər nə keçirsə istə, verək, amma pişiyini götürüb bizim yerlərdən get”.

Padşah oğlu yanına gəlmiş siçanlara belə cavab verdi:

– Mənim üzüyümü filan sövdəgər oğurlayıb. İndi o dənizin içində adada yaşayır. Üzüyümü sövdəgərdən alıb mənə versəniz, şərtinizə əməl edərəm.

Siçanlar gəlib, öz padşahlarına bu xəbəri çatdırdılar. O saat siçanlar padşahı bir neçə siçan ayırıb göndərdi ki, padşah oğlunun üzüyünü birtəhər ələ keçirib, gətirib versinlər sahibinə. Həmin siçanlar dənizin altı ilə özlərinə yol aça-aça gəlib çıxdılar sövdəgər yaşayan imarətə. Gecə divarı deşib, keçdilər imarətə. Gördülər ki, sövdəgər yatıb. Sövdəgər həmişə üzüyü dilinin altında saxlayırdı. Siçanlar çox axtardılar. Üzüyü tapa bilmədilər. Bir də baxıb gördülər ki, üzük sövdəgərin dilinin altındadı. Siçanlardan biri quyruğunu soxdu sövdəgərin ağzına. Sövdəgər asqırdı, bu vaxt ağzından üzük düşdü. Siçanlar tez üzüyü götürüb, aradan çıxdılar.

Siçanlar gətirib üzüyü padşah oğluna verdilər. Padşah oğlu sözünə əməl elədi. Pişiyini də götürüb, bu yerdən uzaqlaşdı. Gəlib bir səhraya çıxdı. Tez üzüyü barmağına taxdı. O saat qarşısında iki qara qul hazır olub dedi:

– Bizə görə qulluq?

Padşah oğlu dedi:

– Gedin dənizin içindəki adaya, sövdəgəri sürüyüb dənizə tullayın.

O dəqiqə padşah oğlunun tapşırığı icra olundu. Padşah oğlu gəlib qocaları tapdı. Qoca ər-arvad oğlanı görüb, çox sevindilər. Bir neçə gün mehriban yaşadılar. Bir gün padşah oğlu qocaya dedi:

– Ata, istəyirəm səndən bir xahiş edim, amma gərək məndən incimiyəsən.

Qoca dedi:

– Oğlum, nə sözün varsa söylə.

Oğlan dedi:

– İstəyirəm ki, gedib mənimçün padşahın qızına elçilik eliyəsən.

Qocanın canına qorxu düşdü. Dedi:

– Ay oğul, dəli-zad olmamısan ki? Padşah qızı hara, biz hara? Padşahın bizə qəzəbi tutar, dərimizə saman təpər, ağlını yığ başına, ay oğul, qoy bir parça çörəyimizi yeyib, Allaha şükür eliyək.

Qoca ilə qarı çox dedi, çox yalvardı, oğlan elə dediyini dedi.

Oğlan dedi:

– Gedib elçilik eləməsəniz, onda baş götürüb gedəcəyəm.

Qoca ilə qarı çarəsiz qaldı. Onlar oğlanı çox istəyirdilər. O getsəydi, yaşaya bilməzdilər. Qoca dedi:

– Yaxşı, gedib elçilik eliyərəm. Görək nə olur. Allah bizə kömək olsun. Onsuz da mənim heç nədən qorxum yoxdu. Padşah boynumu vurdursa da elçilik eləyəcəyəm.

Bu sözləri deyib qoca saraya tərəf yollandı. Gəlib padşahın elçi daşının üstündə oturdu. Padşahın adamları gəlib xəbər aldılar:

– Qoca, nə istəyirsən?

Qoca dedi:

– Padşahın yanına gəlmişəm. Ondan bir xahişim var.

Gedib padşaha xəbər çatdırdılar ki, ey padşah, qoca səni görmək istəyir.

Padşah dedi:

– Qoyun gəlsin. Görək qocanın istəyi nədi?

Gedib qocanı padşahın yanına gətirdilər. Qoca padşaha baş əydi.

Padşah xəbər aldı:

– Qoca, məndən nə istəyirsən?

Qoca dedi:

– Padşah sağ olsun, səndən bir xahişim var, amma deməyə cürətim çatmır.

Padşah dedi:

– Ey qoca, sözünü söylə.

Qoca dedi:

– Padşah sağ olsun, gəlmişəm ki, qızını oğluma verəsən. Mənim arzum budu.

Padşah dedi:

– Razıyam, qızımı sənin oğluna verərəm, amma şərtim var. O şərtə əməl edə bilməsən, boynunu vurduracağam. Bir gecənin içində mənim imarətim kimi bir imarət tikdirin. Mənim şərtim budu.

Qoca kor-peşman kasıb komasına qayıtdı. Oğlan soruşdu:

– Ata, padşah nə dedi?

Qoca dedi:

– Oğlum, padşah elə bir şey tələb etdi ki, bu ağlasığan iş deyil.

Oğlan dedi:

– Ata, qorxma, niyə qəm dəryasına batırsan? De görüm, padşahın tələbi nədi?

Qoca dedi:

– Oğlum, padşah deyir ki, bir gecənin içində mənim imarətimə bərabər bir saray tikdirməlisiniz. Tikdirməsəniz, boynunuzu vurduracağam. Oğlum, indi bizi ölüm gözləyir. Bir gecənin içində də belə bir saray hazır etmək olarmı?

Oğlan dedi:

– Ata, heç qəm yemə, hər şey yaxşı olacaq.

Qoca inamsız halda dedi:

– Allah ağzından eşitsin, ay oğul, görünür, bizim də taleyimiz belə imiş.

Padşah oğlu üzüyü barmağına taxdı. O saat iki qara qul hazır oldu:

– Bizə görə qulluq?

Padşah oğlu dedi:

– Səhər açılan kimi elə bir imarət hazır eləyin ki, dünyada tayı-bərabəri olmasın.

Qullar dedi:

– Baş üstə.

Səhər açıldı. Qoca ilə qarı gördüklərinə mat qaldılar.

Yazıq qoca ilə qarı heç yuxuda da belə şey görməmişdilər. Evlərinin yerində elə bir imarət ucalmışdı ki, dünyada tayı-bərabəri yoxdu.

Padşah oğlu dedi:

– Ata, saray xoşunuza gəlirmi? İndi get padşaha söylə ki, dediyin imarət hazırdı.

Qoca dedi:

– İndi padşah qızını sənə verər.

Qoca padşahın yanına yollandı. Gəlib yenə elçi daşının üstündə oturdu. Padşah qocanı gördü, bildi ki, qoca qızından ötrü gəlib. Padşaha həm də xəbər çatdırmışdılar ki, artıq dediyin imarət hazırdı. Bütün saray əhli bu işə mat qalmışdı. Necə ola bilərdi? Bir gecədə bu böyüklükdə imarət tikmək olardımı?

Padşah adamlarını göndərdi ki, gedib qocanı saraya gətirsinlər.

Padşahın əmrini yerinə yetirdilər.

Qocanı görən kimi padşah dedi:

– Nədi, qoca, qızı aparmağa gəlmisən?

Qoca dedi:

– Hə.

Padşah dedi:

– Görürəm, oğlun bir gecənin içində gözəl bir imarət tikdirib. Bir tələbim də var, onu da yerinə yetirə bilsə, qızımı verirəm.

Qoca soruşdu:

– Ey padşah, nədi əmrin?

Padşah dedi:

– Qızıma elə bir don tikdirin ki, nə iynə ilə, nə də sapla tikilməsin, qayçı ilə kəsilməsin.

Qoca yenə bikef geri qayıtdı.

Padşah oğlu soruşdu:

– Ata, padşah indi nə tələb edir?

Qoca dedi:

– Eh, ay oğul, bu dəfə padşah elə bir şey istəyir ki, heç ağlagələsi deyil.

Qoca padşahın istəyini oğlana çatdırdı. Qoca ümidsiz halda səhərin açılmasını gözləyirdi. Oğlan dedi:

– Heç fikir eləmə, ata, paltar da hazır olacaq.

Bu sözləri deyib, oğlan üzüyü taxdı barmağına, o saat qullar hazır oldular:

– Ağamız, nədi əmrin?

Oğlan dedi:

– Mənə elə bir qız paltarı gətirin ki, nə iynə, nə də sapla tikilməsin, qayçı ilə də biçilməsin.

Səhərin gözü açılmamış oğlan dedi:

– Ata, padşah istədiyi paltar hazırdı, dur get padşahın qulluğuna.

Qoca birbaş padşahın sarayına yollandı, gəlib oturdu elçi daşının üstündə. Qocanı görən kimi götürüb apardılar padşahın hüzuruna. Padşah soruşdu:

– Nədi, qoca, qızı aparmağa gəlmisən?

Qoca padşahın xasiyyətinə bələd idi. Bildi ki, indi də başqa bir bəhanə gətirəcək. Odu ki, heç bir söz demədi. Padşah gördü ki, qoca dinmir, dedi:

– İki şərtimə əməl edibsiz. Atalar üçəcən deyib. Bu şərtə də əməl eliyə bilsəniz, qız oğlunundu. Yox, əgər bu şərtə əməl eliyə bilməsəniz, ikinizin də boynunuzu vurduracağam.

Qoca dedi:

– Yaxşı, razıyam.

Padşah dedi:

– Elə bir xalça toxutdurun ki, mənim sarayımdan sizin evə kimi uzansın.

Qoca yenə bir söz deməyib kor-peşiman evə qayıtdı. Oğlan gördü ki, yenə qocanın qanı qaradı. Soruşdu:

– Ata, nə olub?

Qoca dedi:

– Oğlum, indi də padşah elə bir şey tələb edir ki, heç ağlabatan deyil. İndi də elə bir xalça istəyir ki, öz imarətindən bizim evə qədər uzansın. Heç bu böyüklükdə də xalça olarmı?

Oğlan dedi:

– Ata, fikir eləmə.

Belə deyib oğlan üzüyü barmağına taxdı, o saat iki qara qul hazır oldu:

– Bizə görə qulluq?

Oğlan dedi:

– Elə bir xalça istəyirəm ki, padşahın sarayından bizim imarətə kimi uzansın.

Dedilər:

– Baş üstə.

Səhər padşah ayılıb gördü ki, onun sarayından başlayaraq göz işlədikcə bir xalça uzanır ki, ucu-bucağı görünmür. Gördü ki, daha qızı verməkdən başqa əlac yoxdu.

Oğlan dedi:

– Ata, xalça hazırdı. Get padşahın yanına.

Qoca dedi:

– Gedirəm, oğlum.

Qoca tez-tələsik yollandı saraya.

Padşah dedi:

– Qoca, mən razıyam. Qızımı verirəm sənin oğluna.

Qoca tələsik qaçdı evinə.

– Oğlum, padşah qızını verməyə razıdı.

Onlar saraya gəldilər. Padşah qızını verdi bu oğlana. Qırx gün, qırx gecə toy elədilər. Yeyib-içib kef elədilər. Toy qurtarandan sonra qızı da götürüb, gəldilər öz evlərinə.

Padşah oğlu qoca ilə qarıya oğul oldu, onların hər arzusunu yerinə yetirdi. Allah da ona xoşbəxt ömür-gün verdi. Padşah qızı ilə ömür-gün keçirdi. Siz də xoş gün keçirib ömür sürəsiniz.

## Hazırcavab qız (46)

Biri var imiş, biri yox imiş, bir padşah var imiş. Bu padşahın vəziri çox tüğyan eləyirmiş. Bir gün padşah vəzirindən soruşur:

– Vəzir, qazan qaynayanda niyə pık-pık eləyir? Bu nə deməkdi?

Vəzir xeyli fikirləşib deyib:

– Padşah sağ olsun, izin ver, gedim fikirləşim.

Padşah izin verir. Vəzir evə gəlib, hazırlıq görür. Səfərə yola düşür. O, az gedir, üz gedir, dərə-təpə düz gedir, gəlib bir kişiyə rast olur. Vəzir ondan soruşur:

– Qardaş, eviniz uzaqdadırmı?

Kişi deyir:

– Bəli!

Vəzir deyir:

– Onda bir nərdivan da götürək.

Kişi təəccüblənir, amma heç nə demir.

Bir qədər yol getdikdən sonra onların qarşılarına biçilməmiş zəmi çıxır. Vəzir soruşur:

– O zəmini biçiblər, yoxsa biçməyiblər?

Kişinin təəccübü daha da artır.

Onlar yollarına davam eləyirlər. Bir az da getmiş, görürlər ki, qarşıda ölü basdırırlar. Vəzir soruşur:

– Onlar ölü basdırırlar, yoxsa diri?

Kişi tamamilə inanır ki, yol yoldaşı dəlidir. Odur ki, kişi evə çatan kimi qızına deyir:

– Qızım, qonağımız dəlidir, çay-çörək hazırla, yeyib-içsin, sabah gedəcək.

Qız soruşur:

– Ata, niyə dəlidir?

Kişi deyir:

– A qızım, məndən soruşdu ki, yolunuz uzaqdırmı? Dedim:

– Hə.

Dedi ki, onda bir nərdivan götürək.

Qız deyir:

– Ata, yolun nərdivanı söhbətdi.

Kişi deyir:

– Qarşımıza biçilməmiş zəmi çıxanda soruşdu ki, onu biçiblər, yoxsa biçməyiblər?

Qız deyir:

– Ata, bu o deməkdi ki, həmin zəminin sahibi bir kəsə borcludursa, zəmini biçibdi, borc yeməyibsə biçəcəkdi.

Sonra kişi deyir:

– Qızım, qabaqda ölü basdırırdılar. Soruşdu ki, ölü basdırırlar, yoxsa diri?

Qız deyir:

– Ata, bununla yol yoldaşın demək istəyib ki, o adam yaxşılıq eləyibsə, övladı varsa, diri basdırıblar, adı deyiləcəkdir.

Vəzir də qızın cavablarını eşidir. Qızın çox ağıllı olduğunu bilir. Başına gələnləri qıza danışır. Sonra da padşah verdiyi sualın cavabını ondan soruşur.

Qız deyir:

– Qonaq, qazan qaynayanda ona görə pık-pık eləyir ki, tüğyan eləmə, daşaram səni söndürərəm.

Vəzir gəlib bu əhvalatı padşaha söyləyir. Padşah qızın yerini öyrənib onun yanına gəlir. Bu vaxt qız qapını süpürürmüş, padşah qapıya çatanda qız hiss eləyir ki, arxada adam var, deyir:

– Dağılasan kor qapı, qulaqsız qapı.

Padşah soruşur:

– Ay qız, qapının qulağı olarmı?

Qız cavab verir:

– Qapının qulağı itdi, bir kəs gələndə hürərdi, mən də eşidib arxaya baxardım.

Padşah qızın cavabını bəyənir. Atasından izin alıb onu saraya gətirir, bütün işlərdə onunla məsləhətləşir.

Nağıl burda bitdi. Nağıl qaldı orda, biz də burda.

## Hərəmi Cəlal (47)

Bir var idi, biri yox idi, keçmiş zamanlarda Cəlal adlı bir oğlan var idi. Tifillikdən ata-anasını itirib yetim qalmışdı. Cəlalın at minmək, qılınc çalmaq, ox atmaqnan arası saz idi. Gününün çoxunu çöldə, ovda keçirərdi. Bir gün gördü ki, yolnan bir karvan keçir. Məzələnməkdən ötəri elə-belə karvana basqın elədi, karvanbaşı qorxuya düşüb, başının adamları ilə qaçdı. Əli-

nə keçən karvanı taladı, qarşısına çıxanı soyub buraxdı, oldu "hərəmi Cəlal".

Cəlal bir gün yenə karvan çapmağa çıxmışdı, hər tərəfi gəzdi, əlinə heç nə keçmədi, bir də gördü ki, uzaqda bir çadır görünür. Gəlib gördü çadırda bir qoca arvadnan, bir gözəl qızdan savayı heç kəs yoxdur.

Arvad onu görən kimi başladı qara-qışqırıq salmağa:

– Heç utanmırsan, kişi olmayan çadıra ayaq basırsan.

Cəlal dedi:

– Yaxşı, bir az su verin, çıxıb gedirəm.

Qız su verdi. Cəlal gördü ki, bu kasanın qiyməti bir padşahın xəzinəsinə dəyər. Öz-özünə dedi: "Necə olur-olsun, gərək bu qızı alam". Üzünü qıza tutub soruşdu:

– Buralar adamına oxşamırsınız, kimsiniz, nəkarasınız?

Qız dedi:

– Ey oğlan, mən filan padşahın qızıyam. Əmimoğlu gətirib bizi bura qoyub. Özü də bağ qalada atamın qoşunuyla vuruşur. Atam məni ona verməyə razı deyil.

Cəlal öz-özünə fikirləşdi ki, gərək gedim o qalaya, görüm bu nə əhvalatdı. Elə bu vaxt gördü ki, bir göy atlı oğlan gəlir. Oğlan onu görən kimi qışqırdı:

– Ey namərd, adını da kişi qoymusan, kişi də gəlib naməhrəmnən danışarmı kişi olmuyan yerdə?!

Cəlal dedi:

– Kişi dilə ban verməz, ələ can verər.

Başladılar döyüşməyə, əvvəl kürzdən başladılar, bir şey hasil olmadı, sonra kəməndə əl atdılar, bir şey çıxmadı. Əl atdılar qılınca. Cəlal gördü ki, fənd işlətməsə, bu oğlan ona zor gələcək. Necə elədisə oğlan aldandı, Cəlal altdan yuxarı qılıncını çəkib, onun başını bədənindən ayırdı. Atını sürdürdü düz qalaçaya. Gördü ki, böyük bir qoşunla iyirmi-otuz nəfərlik bir dəstə vuruşur. Öz-özünə fikirləşdi: "Əgər qoşunun tərəfinə keçsəm,

deyərlər, qorxub çox olan tərəfə kömək elədi, o iyirmi-otuz nəfərə kömək eləsəm, deyərlər, lovğalıq elədi". Belə fikirləşib vurdu özünü qoşuna, qabağına kim gəldi qılıncından keçirdi. Padşah gördü bir nəfər gəlib, baxmır kimdi, nəçidi, qılıncından keçirir. Əmr elədi, ağ bayraqlar qaldırıldı. Padşah xəbər aldı:

– Oğlan, kimsən, bura gəlməkdə məqsədin nədi?

Cəlal dedi:

– Qibleyi-aləm sağ olsun, mən gəlmişəm qızını verəsən mənə.

Padşah dedi:

– Oğlan, qızımı əmisi oğlu qaçırdıb, ona görə onunla vuruşuram.

Cəlal dedi:

– Onu öldürmüşəm.

Padşah dedi:

– Lap yaxşı, düşmənimi öldürmüsən. Bir qız bir oğlanındı. Qızı verdim sənə, amma bir şərtlə. Bir qarış uzunu, bir qarış eni olan kərpic boyda qızıl gətir, qızı apar, yeddi gün sənə möhlət verirəm.

Cəlal gəldi bütün qızıllarını yığdı, xalı-xalçasını, nəyi vardısa satıb qızıla çevirdi, həmin qızılları əridib, bir kərpic düzəltdirdi. Qaldı dörd divar. Gəldi padşahın yanına.

Padşah dedi:

– Cəlal, gəldin ?

Dedi:

– Padşah sağ olsun, gəldim.

Dedi:

– Qız sənindi, apar.

Cəlal baxdı qız çarşabdadı, başında da ağ duvaq. Gətirdi evinə, öz-özünə fikirləşdi ki, bə bunun cehizi-zadı yoxdumu, daha namusa boğulub üstünü vurmadı.

Qızın üzünü açanda nə gördü? Dizdiyindən başqa əynində heç nə yoxdu. Dedi:

– Ay qız, bu nə haldı?

Qız dedi:

– Bizdə adət belədi, hələ atam sənə hörmət eləyib bu dizdiyi verib. Oğlan nə gətirsə, qıza onu geyindirib yola salarlar.

Cəlal daha heç nə demədi. Keçəyə salıb qızı gətirdi evə. Evdə heç nə yox, dörd divar. Dedi:

– Bax bu ev, bu da sən. Mən gedirəm. Günorta namazına gəlib çatdım-sahibinəm, yox, gəlmədim – onda özün ixtiyar sahibisən.

Atlanıb çıxdı. Hər yanı gəzdi, dolandı, qarşısına çıxan olmadı, heç bir qara qarğaya da rast gəlmədi vurub gətirsin. Desin ki, ay qız, al bişir, bu, qırqovul ətidi. Əli hər yerdən üzüldü. Evə necə qayıtsın? Yeməyə-içməyə heç nə yox. Bir də gördü ki, uzaqda bir at otlayır, dedi: "Elə yaxşı oldu, aparıb atı sataram, həm qıza pal-paltar alaram, həm də yemək-içmək". Bu fikirnən irəli getdi, gördü ki, atın yanında bir oğlan uzanıb. Gözəl bir yəhərin üstünə başını qoyub, ayağını da ayağının üstünə aşırıb. Yanında da iki heybə, oğlan öz-özünə dedi: "Nə axtardığımı tapdım". Elə bu fikirnən əlini heybəyə atdı ki, götürsün. Oğlan dedi:

– Ey oğlan, o heybənin yiyəsi ölmüyüb, qoy heybələri yerə, yolunnan çıx get.

Cəlal heybələri qoydu yerə. Bir də dedi ki, yaxşı, mən bura nəyə gəlmişəm. Yenə uzatdı əlini heybələrə ki, götürüb atsın atının üstünə. Oğlan dedi:

– Ey oğlan, sənə dedim ki, heybələrə əl vurma, canına yazığın gəlsin, yolunnan çıx get.

Cəlal yenə heybələri yerə qoydu. Bu dəfə öz-özünə fikirləşdi: "Yaxşı mən bura gəlmişəm çalıb-çapmağa. Çox da ki bu deyir heybələrə əl vurma. Ya bunu soyub apararam, ya da bu məni öldürər, canım qurtarar". Yenə əl atdı heybələrə. Oğlan

yerinnən durub tutdu Cəlalın kəmərindən, qaldırıb başının üstünə fırlayıb, fırlayıb çırpdı yerə. Cəlal gözünü açanda gördü ki, oğlan dizini dirəyib sinəsinə, qılıncını az qalıbdı ki, çəksin boğazına. Cəlalın gözlərinnən iki damla yaş axdı. Oğlan dedi:

– Ay məlun, neçə başlar kəsmisən, indi murdar qanınnan ötrü yaş tökürsən ?

Cəlal dedi:

– Güman eləmə ki, canımın dərdinnən ağlayıram.

Cəlal başına gələnləri mən sənə nəql elədiyim kimi oğlana danışdı. Oğlan dedi:

– Bax bu heybələrdə dörd pud qızıl var, onları verirəm sənə. Üç gün də sənə möhlət verirəm. Ancaq elə güman eləmə ki, qaçacaqsan, canını mənim əlimdən qurtaracaqsan. Harda olsan da axtarıb səni taparam. İndisə get, üç günnən sonra səni burda gözləyirəm.

Cəlal bir söz deməyib gəldi evə. Nə lazımdırsa aldı, xalıdan-xalçadan, yeməkdən-içməkdən, paldan-paltardan. Padşah qızına yeddi kəniz də tutub dedi:

– Bax, bu ev-eşik sənin, bu da qızılların qalanı. Xərcləyib kef eliyərsən, nə ürəyindi elə, bir namussuzluqdan savayı.

Cəlal qıza barmağını da vurmayıb gəldi oğlanın yanına. Gördü oğlanı necə qoyub getmişdisə, eləcə də uzanıqlıdı. Atdan düşüb gəldi, yerə uzandı ki, oğlan onun başını kəssin. Oğlan əl atıb Cəlalı qaldırdı. Dedi:

– Heç insaf deyil ki, sənin kimi oğlanın başı kəsilsin. Adın nədir?

– Cəlal.

Dedi:

– Mənim də adım Məhəmməddi. Bu gündən olduq qardaş. Atını min, gəl arxamca.

Onlar atlanıb yola düşdülər. Az getdilər, üz getdilər, dağlar aşdılar, dərələr keçdilər, gəlib bir qalaçaya çıxdılar. Qalada-

kıların hamısı Məhəmmədə baş əyirdi. Sabahısı Məhəmməd hamıyı yığıb dedi:

– Bu gündən sonra başçınız Cəlaldı.

Bunu deyib Məhəmməd çıxıb getdi. Cəlal da başqa birisini öz yerinə qoyub Məhəmmədin dalınca yollandı. Sübh açılanda gəlib bir şəhərə çatdı. Gördü şəhərdə qeyli-qaldı. Bir qocanın yanına gedib, xəbər aldı:

– Əmi, bu nə həngamədi?

Qoca dedi:

– Oğlum, padşah öz qardaşı oğlunu asdıracaq, camaat ona görə çaxnaşır. Bu padşahlıq Məhəmmədin atasınındı. Atası ölən-də Məhəmmədin on iki-on üç yaşı olardı. Əmisi ona demişdi:

– Oğlum, sən padşahlıq eliyə bilməzsən. Vaxt tamam olanda taxt-tacı da, qızımı da sənə verərəm.

O keçdi qardaşının yerinə. Vaxt tamam oldu, Məhəmməd xəbər göndərdi ki, əmi, əhdinə vəfa elə. Padşah əmr elədi:

– Tutun, salın bunu zindana. Məhəmməd qaçıb getdi. O vaxtdan on-on iki il keçir. Məhəmməd gah padşahın xəzinəsini yarıb, gah qoşununu dağıdıb, gah karvanını talayıb. Məhəmmədi dünən tutublar, bu gün dara çəkəcəklər.

Cəlal dedi:

– Əmi, bu şəhərdə Məhəmmədə canı yanan varmı?

Qoca dedi:

– Anasınnan özgə bir kəsi yoxdu.

Cəlal axtarıb Məhəmmədin anasını tapdı. Xatun onu görən kimi dedi:

– Oğlum, Cəlal, gəldinmi?

Cəlal mat qaldı:

– Ana, məni hardan tanıdın?

Xatun dedi:

– Dünən Məhəmməd sənin haqqında mənə danışıb. Deyib ki, ana, mənim Cəlal adlı bir qardaşım var, o gəlsə, mənə ölüm yoxdu.

Cəlal soruşdu:

– Məhəmmədin işi nə yerdədi?

Dedi:

– Bax, o yanan odu görürsənmi? Onu Məhəmməd üçün qalayıblar. Uca bir mançanaq da qoyublar. Atacaqlar odun üstünə.

Cəlal dedi:

– Ana, sən tez üç at tapıb, yəhərləyib hazır saxla. Qalanı ilə işin yoxdur. Bunu deyib Cəlal bütün üz-gözünü, atını cövüz yağı ilə yağlayıb gəldi meydana. Gözlədi, elə ki Məhəmmədi atdılar oda, Cəlal atını çapıb Məhəmmədi götürüb aradan çıxdı. Hamı qışqırdı: "O oddan sağ çıxan olmaz". Cəlal Məhəmmədi də götürüb gəldi. Gördü atlar hazırdı. Dedi:

– Tez çıxıb qaçaq.

Məhəmməd dedi:

– Qardaş, qollarım açıx, sən də yanımda, nədən qorxacam? Bu mənim bura axırıncı gəlişimdi. Gərək əmim qızını da aparım.

Cəlal dedi:

– Bu şəhərdə səni hamı tanıyır, qoy mən gedim.

Məhəmməd razılaşdı, Cəlal paltarını dəyişib, gözlədi axşamı. Elə ki, qaranlıq çökdü, düzəldi yola. Özünnən bihuşdarı da götürmüşdü, kimə rast gəldisə bihuşdarı verib keçdi, gəldi qızın yanına. Qız dedi:

– Ey naməhrəm, nə cürətlə bura gəlibsən?

Cəlal dedi:

– Mən Məhəmmədin qardaşıyam, tez ol hazırlaş, bu da Məhəmmədin üzüyü. Qız üzüyü taxıb dedi:

– Sən bir az gözlə, mən hazırlaşıb gəlirəm.

– Getdi o biri otağa, bir az keçmiş qız gəldi.

Cəlal gözlərinə inanmadı, qız nə qız. Başdan ayağa polada qərq olub, əlində qalxan, daha nə, nə... Bir əlində də iki boxça.

Onlar tez gəldilər Məhəmmədin yanına. Atlar hazır idi. Atlanıb üz tutdular getməyə.

Az getdilər, üz getdilər, gəlib çıxdılar bir bulağın başına.

Məhəmməd dedi:

– Gəlin burda bir az dincələk.

Tez iki çadır qurdular. Cəlal dedi:

– Qardaş, çadırın biri anamızın olsun, o biri də sizin. Siz dincələrsiniz. Mən də qaravul çəkərəm.

Xəbəri xəbərlərdən, xəbəri padşahdan. Padşah bir də ayıldı ki, qızı yoxdu, bildi ki, onu Məhəmməd qaçırdıb.

Tökdü qoşunu onların dalınca.

Cəlal bir də gördü ki, bir tozanaq qalxdı. Baxdı ki, qoşun gəlir. Gəldi Məhəmmədin çadırına ki, xəbər versin. Gördü Məhəmməd başını qoyub qızın dizinin üstünə yatıb.

Qız dedi:

– Səni and verirəm o Allaha, qoy qoşunun qabağına mən özüm çıxım, ürəyim yanıxlıdı.

Qız özünü vurdu qoşunun qabağına. Bu vaxt Məhəmməd ayıldı, xəbər aldı:

– Qız hanı ?

Cəlal dedi:

– Padşah qoşunu bizim izimizə gəlib, onunla vuruşur.

Məhəmmməd dedi:

– Özün burda dayanıbsan, qızı qoşunun qabağına göndəribsən?

Cəlal dedi:

– Qardaş, o mənə and verdi ki, nə səni oyadım, nə də özüm gəlim.

Məhəmməd dedi:

– Qardaş, sən burda anamı qoru, mən də gedim.

Cəlal qaldı çadırda. Bir az keçmiş öz-özünə fikirləşdi: "Yaxşı, mən gəlmişdim ölməyə. Bu mənə bu qədər yaxşılıq elədi. Ölümdən qurtardı. Ölməyə getdi. Orada mən olmalıyam". Cəlal da vurdu özünü qoşuna. Sağdan vurdu, soldan çıxdı, soldan vurdu, sağdan çıxdı. Gördü yox, qoşunun ardı-arası kəsilmir. Əl atdı hiyləyə. Atını çapıb bir tərəfə qışqırdı: "Əhməd, qoyma, sağdan vurun, ay buradan qırın" deyib, qoşunun içinə vəlvələ saldı. Qaranlıqda qoşun başladı bir-birini qırıb çatmağa. Cəlal bir də gördü ki, bir nəfər cumub üstünə. Baxdı ki, bu qızdı, qışqırdı:

– Ey qız, mənəm dayan.

Qız əl saxladı. Soruşdu:

– Qardaş, bəs əmimoğlu hanı?

Cəlal dedi:

– O da vuruşurdu.

Qız dedi:

– İndi bildim. Yarım saat əvvəl qaranlıqda düşmən bilib onu öldürdüm. Qılınc dəyəndə düz ürəyim sızıldadı.

Axtarıb-axtarıb Məhəmmədi tapdılar. Cəlal gördü ki, doğurdan da, Məhəmməd ölüb. Onu götürüb çadıra gətirdilər. Anası, qız vay-şüvən qopartdılar. Qız Cəlala dedi:

– Qardaş, sən bir az kənara çəkil. Biz ağlayıb ürəyimizi boşaldaq.

Cəlal çadırdan aralandı. Padşah qızı dedi:

– Əmioğlu, öz əlimlə səni öldürdüm. Bundan sonra mənə dünyada yaşamaq haramdı.

Belə deyib qılıncını ürəyinin başına dayayıb uzandı, qılınc kürəyindən çıxdı... Bunu görüb, Məhəmmədin anasının da ürəyi partladı.

Cəlal geri qayıdanda gördü ki, iş işdən keçib. Qız da, Məhəmmədin anası da ölüb. Gözlərinə qaranlıq çökdü. Huşunu itirib, yerə yıxıldı, bir də ayıldı gördü ki, başının üstündə göy atlı nurani bir qoca dayanıb. Dedi:

– Oğlum, bunlar kimdi?

Cəlal bütün əhvalatı mən sizə nağıl elədiyim kimi başdan ayağa söylədi.

Qoca dedi:

– Oğlum, onlara ölüm yoxdur.

Sonra atdan düşüb əlini Məhəmmədin, qızın, anasının üstünə çəkdi. Üçü də asqırıb ayağa qalxdı. Məhəmməd dedi:

– Nə çox yatmışam, qılıncım hanı?

Cəlal başlarına gələni ona söylədi. Hamısı qocanın ayaqlarına döşəndi.

Qoca dedi:

– Gedin, axırınız xeyir olsun.

Onlar əvvəlcə gedib Cəlalın nişanlısını da özlərilə götürdülər. Gəldilər Məhəmmədin şəhərinə. Padşahı cəhənnəmə vasil elədilər. Camaat şadlıq edib, Məhəmmədi özlərinə padşah seçdi. Məhəmməd taxta çıxıb ölkəni ədalətlə dolandırmağa başladı. Cəlalı da özünə qoşun başçısı seçdi. Qırx gün, qırx gecə toy çaldırıb, əmisi qızını özünə, padşahın qızını isə Cəlala aldı.

Mən özüm də orada idim, bir yaxşıca kef elədim. Qayıdanda toydan üç alma da gətirdim. Biri sənin, biri mənim, biri də bacadan baxanların.

## Yaxşılığa yaxşılıq (48)

Biri var idi, biri yox idi. Qədim zamanlarda bir padşah var idi. Onun aman-zaman bir oğlu var idi. Padşah qocalmışdı. Elə oldu ki, padşahın gözləri tutuldu. Təbiblər buyurdular ki, padşahın gözünün dərmanı dəryada qızıl balıqdır. Əgər həmin balığın qanı padşahın gözlərinə çəkilsə, açılar. Padşah əmr elədi balıqçılar həmin balığı tutsun. Padşahın oğlu da onlarla getmişdi. Balıqçılar xeyli tor atdılar, ancaq qızıl balığı tuta bilmədilər. Günortadan xeyli keçmiş, nəhayət, qoca balıqçının toruna par-

par parıldayan bir qızıl balıq düşdü. Padşahın oğlu gəlib balığın o üzündən, bu üzündən öpüb, dəryaya atdı. Həmin gün qoca balıqçı üç dəfə qızıl balığı tutdu, padşahın oğlu onu dəryaya adı. Balıqçı hirslənib, bu əhvalatı padşaha söylədi. Əhvalatdan xəbərdar olan padşahın hirs başına vurdu. O saat qırmızı geyinib, taxta çıxıb, dedi:

– Cəllad, vur bunun boynunu.

Bunu eşidən vəzir gördü ki, doğurdan da, padşah aman-zaman bircə oğlunu öldürmək istəyir. Baş əyib deyir.

– Qibleyi-aləm, gəl sən onun boynunu vurdurma, torpağınnan çıxar, qoy getsin.

Padşah vəzirin sözlərinə qulaq asdı. Oğlunu öldürmək fikrindən daşındı. Əmr elədi ki, oğlunu torpağından çıxartsınlar. Padşah oğlu Məlikməmməd cəlayi-vətən oldu. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Gəlib bir bulağa rast gəldi. Oturub, bir az dincəldi. Elə yoluna davam etmək istəyirdi ki, bir səs eşitdi:

– Məlikməmməd, əylən, mən də gəlim.

Məlikməmməd geri çevrildi, ancaq heç kimi görmədi. Bu səs bir də gəldi. Gördü ki, cavan bir oğlan dayanıb. Məlikməmməd xəbər aldı:

– Hara gedirsən? Mən də sənə yoldaşam.

Onlar gedib bir şəhərə çatdılar. Şəhərdə eşitdilər ki, padşahın qızının dili tutulub. Heç kim onun dilini aça bilməyib. Oğlan gəlib elçi daşının üstündə oturdu. Onu padşahın yanına gətirdilər. Padşah dedi:

– Ey oğlan, əgər sən qızımın dilini açsan, onu sənə verəcəm, özünü də dünya malından qəni eliyəcəm.

Oğlan dedi:

– Mən qızın dilini açaram. Amma otaqda ikimizdən başqa heç kim olmamalıdır.

Padşah razı oldu. Bəli, oğlan qızın otağına daxil oldu. Qız dinib-danışmırdı. Oğlan üzünü qapıya tutub, danışmağa başladı.

– Qapı qardaş, günlərin bir günündə üç yoldaş səfərə çıxır. Onlar bir meşədə gecələməli olur. Növbə ilə keşik çəkirlər. Birinci dəfə xarrat keşik çəkir. Xarrat ağacdan bir xatun heykəli düzəldir. İkinci dəfə dərzi növbə çəkir. O görür ki, xarrat gözəl bir xatun heykəli düzəldib. Dərzi də xatun heykəlinə layiq gözəl bir paltar biçib-tikir. Üçüncü dəfə molla növbə çəkməli olur. Molla görür ki, bir gözəl xatun heykəli var, əynində də gözəl paltar. Molla əlini göyə ucaldıb deyir:

– Ya Allah, buna dil ver.

Mollanın arzusu da yerinə yetir. Heykəl canlı xatuna çevrilir. Allah-təala ona dil verir, o da olur xatun adam, onlar olurlar dörd nəfər.

Söhbətin bu yerində oğlan üzünü qapıya tutub dedi:

– Qapı qardaş, indi de görək, xatun kimə düşür?

Qapıdan səs gəldi:

– Dərziyə.

Qız qəzəbləndi. Dedi:

– Xatun mollanındı.

O saat padşaha xəbər çatdı:

– Padşah sağ olsun, hər günün mübarək olsun, qızın dili açıldı.

Padşahın eyni açıldı. Çox şad oldu.

İkinci gün yenə oğlan qızın otağına daxil oldu. Yenə də qız dinmədi. Oğlan üzünü bu dəfə də şamdana tutub söhbətə başladı:

– Şamdan qardaş, sənə bir hekayət danışım, qulaq as. Günlərin bir günündə padşahın xatını hamama gedəndə yerə düşmüş bir boyunbağı gördü. O, boyunbağını yerdən götürmədi, keçib getdi. Sonra həmin yoldan vəzirin xatunu gəlib keçdi. O da boyunbağını gördü, amma götürmədi, keçib getdi. Mollanın xatunu həmin yerdən gəlib keçəndə yerə düşmüş boyunbağını gördü. Əyilib boyunbağını götürdü, hər üçü qayıdıb evinə getdi. Padşahın xatunu dedi:

– Əvvəl boyunbağını mən görmüşəm. Boyunbağı mənə çatır.

Vəzirin xatunu dedi:

– Bu boyunbağı mənə çatır.

Mollanın xatunu dedi:

– Bu boyunbağını mən götürmüşəm, mənə çatır. İndi ki razılaşmırsınız, onda hərəmiz bir əhvalat danışaq, ərlərimizi aldatmağımız barədə, kiminki güclü olsa, deməli, boyunbağı onundu.

Əvvəl padşahın xatunu ixtilata başladı: "Mən qırx hərami-başını çağırdım. Onları bir otağa apardım. Onlara çərgə ilə ayaqqabılarını düzdürdüm. Padşaha xəbər çatdı. Padşah gəldi. Tez açarları ona verib dedim: "Mərci apardım". İkinci vəzirin xatunu ixtilata başladı:

– Ərim yatmışdı, gecə nökərlərə tapşırdım, yorğan-döşəkli aparıb qoydular onu bir hambalın yerinə, hambalı da gətirib qoydular onun yerinə. Vəzir axşama kimi hamballıq elədi, hambal da vəzirlik elədi. Sabahısı vəzir bu əhvalatı danışanda onu inandırdım ki, yuxu görüb. Vəzir də naəlac qalıb, bir söz deyə bilmədi.

İndi mollanın xatunu ixtilata başladı:

– Bir cavan oğlan götürüb, getdim qazının yanına.

Qazı dedi:

– Ay oğlan, bu qızı alırsan?

Oğlan dedi:

– Alıram.

Bir də qazı gördü ki, qarşısındakı öz arvadıdı. Tez qaçdı evinə. Mən ondan qabaq evə gəlib, başladım qabağıma düyü töküb təmizləməyə. İkinci dəfə yenə hadisə təkrar oldu. Üçüncüdə qazı məcbur olub kəbinimizi kəsdi.

– Şamdan qardaş, boyunbağı kimə çatır?

Şamdan dedi:

– Vəzirin xatununa.

Qız o saat qışqırdı:

– Mollanın xatununa.

Padşaha xəbər apardılar ki, gözlərin aydın olsun, qızının dili açıldı. Padşah qızının dilinin açılmasına çox sevindi. Şərtinə əməl etdi. Qızı oğlana verdi. Qızı ilə birlikdə qırx dəvə yükü cehiz də verdi. Məlikməmməd, oğlan, bir də şah qızı gəlib həmin bulağın başına çatdılar. Oğlan dedi:

– İndi biz ayrılmalıyıq. Bu dövləti də, qızı da bölməliyik.

Şahzadə razı oldu. Hər şeyi böldülər. Ancaq bölünməmiş bir dəvə, bir padşahın qızı qaldı. Oğlan dedi:

– Bunları da gərək bölək.

Qılıncını çəkib əvvəl dəvəni böldü. Sonra iki ağac basdırıb, qızı bu ağaclara sarıdı. Məlikməmməd çox yalvardı ki, qızı bölməsin. Bütün dövlət qoy oğlanın olsun, təkcə qız bunun olsun. Oğlan yenə razı olmadı. Belə olduqda Məlikməmməd təklif elədi ki, qızı bütöv götür. Yenə də oğlan razı olmadı. Qılıncını çəkib yüyürdü ki, qızın təpəsinə endirsin, qız qorxusundan qusdu, ağzından bir ilan da yerə düşdü. Oğlan ilanı öldürdü, qılıncını qınına qoyub Məlikməmmədə dedi:

– Məlikməmməd, sən məni ölümdən qurtarmısan. Mən balıqlar şahının oğluyam. Balıqçı məni üç dəfə tutdu, sənsə o üzümdən, bu üzümdən öpüb, dəryaya atdın. Onda mən toy hamamına çıxmışdım. İndi mən sənin yaxşılığının əvəzini verdim. Oğlan öz qanından da Məlikməmmədə verib tapşırdı ki, onu atasının gözlərinə sürtsün. Onun gözlərinin dərmanı budu. Məlikməmmədlə qız məəttəl qalmışdı. Oğlan bir də Məlikməmmədi qucaqlayıb bərk-bərk öpdü, sonra birdən yoxa çıxdı, Məlikməmmədlə qız sanki yuxudan ayıldılar.

Onlar gəlib atasının padşahlıq etdiyi şəhərə çatdılar. Gördülər ki, şəhərin kənarında bir cütçü şumlayır, özü də başdan ayağa kimi qara geyinib.

Məlikməmməd dedi:

– Get, padşaha muştuluğa.

Cütçü qaça-qaça gedib oğlunun gəldiyini padşaha çatdırdı.

Padşah dedi:

– Məni istəyən bu kişiyə xələt versin.

Cütçüyə o qədər xələt verdilər ki, xələtin altında itib-batdı. Padşahın adamları Məlikməmmədi qarşılamağa çıxdı. Padşah oğlunun qayıtmasından çox şad oldu. Məlikməmməd oğlanın verdiyi qanı atasının gözlərinə sürtdü, padşahın gözləri açıldı. Padşah toy-düyün qurdurdu. Onlar mətləblərinə çatdılar. Allah hamının mətləbini versin.

Göydən üç alma düşür, biri mənim, biri nağıl söyləyənin, biri də qulaq asanların.

## Bəxtini axtaran oğlan (49)

Qədim zamanların birisində Rüstəm adlı bir cavan oğlan olur. Bu oğlan qazanardı, amma sabaha heç nəyi qalmazdı. Bir gün o qocaman bir kişinin yanına gəlib deyir:

– Ay əmi, mən görürəm ki, sən yaxşı yaşayırsan, mən necə edim ki, mənim də bəxtim olsun.

Qoca görür ki, bu oğlan ağıldan bir az kəmdir. Deyir:

– Oğlum, yeddi dağ aşarsan. Səkkizinci dağ axıri-zamandır. Gözəgörünməz xuda ordadır. Gedib ora bəxtini istəyərsən, o, sənə bəxt verər.

Oğlan birinci dağı aşır, ikinci dağı aşanda görür ki, uzaqdan bir canavar gəlir. Oğlan qalxır ağaca. Canavar başlayır hərlənməyə. Oğlan deyir:

– Ey canavar, mən gedirəm o gözəgörünməz xudadan bəxt istəməyə. Qoy gedim.

Canavar deyir:

– Ey oğlan, o gözəgörünməz xudaya deyərsən ki, filan yerdə bir canavara rast gəldim. O da özünə bəxt istədi.

Bu sözləri deyib canavar oğlana yer verir. Oğlan ağacdan düşüb yoluna davam eləyir. Üçüncü dağı aşıb, dördüncü dağı

aşanda görür ki, bir qocaman kişi durub. Gəlib salam verir. Qocaman kişi soruşur:

– Oğlum, hardan gəlib, hara gedirsən?

Oğlan deyir:

– Gedirəm o gözəgörünməz xudadan özümə bəxt istəməyə.

Qocaman kişi deyir:

– Oğlum, o gözəgörünməz xudadan mənim də bəxtimi istəyərsən. Bax bu yeri əvvəl təpmişəm, sonra səpmişəm. Bir dənə də sünbül hasilə gəlməyib. Bunun sirri nədir, bilmirəm.

Oğlan dedi:

– Baş üstə, babacan.

Oğlan yenə başladı yola, beşinci dağı aşıb, altıncı dağa çatanda qabağını nizəli, qılınc-qalxanlı adamlar kəsir. Oğlan deyir:

– Yol verin, gedim.

Deyirlər:

– Gedək paccahımızın dərgahına. O, səni görmək istəyir.

Oğlanı gətirirlər paccahın dərgahına. Görür ki, bir cavan əyləşib. Paccah soruşur:

– Ey oğlan, hardan gəlib, hara gedirsən?

Oğlan deyir:

– Ey paccah, o gözəgörünməz xudadan bəxtimi istəməyə gedirəm.

Paccah deyir:

– Ey oğlan, o gözəgörünməz xudaya deyərsən ki, mən filan paccahın torpağından keçdim. O da öz bəxtini istədi.

Oğlan deyir:

– Baş üstə.

Yenə başlayır yol getməyə. Yol gedə-gedə öz-özünə fikirləşir ki, ay balam, bu paccahın nəyi əysikdi. Bunun ki hər şeyi var. Bu nə istəyir. Oğlan yeddinci dağı aşıb, səkkizinci dağa çatır. Görür dağlar yoxdu. Başdıyır qışqırmağa:

– Ey xuda, dərgahına gəlmişəm mənim üçün bəxt.

Xudadan səs gəlir:

– Ay oğlan, get bu gündən səndən bəxtli insan yoxdu. Bəxtini verdim.

Oğlan deyir:

– Ey xuda, yolda bir canavara rast gəldim. O da özünə bəxt istədi.

Xudadan səs gəlir:

– Ey oğlan, o canavara deyərsən, bu gün qabağına nə çıxsa, ye, sabah ruzunu xuda verəcək.

Oğlan deyir:

– Ey xuda, yolda gəlirdim, bir qocaman kişiyə rast gəldim. O da özünə bəxt istədi. O, qocaman kişi deyirdi ki, əvvəl təpib, sonra səpib, amma bir sümbül də hasilə gəlməyib.

Xudadan səs gəlir:

– O qocaman kişiyə deyərsən ki, torpağın altında qayalar var. O qayaları çıxarsın. Onun da bəxtini verdim. Qoca vaxtında xoşbəxt olacaq.

Oğlan deyir:

– Ey xuda, yolda bir cavan paccahın torpağından keçdim. O da özünə bəxt istədi. Xudadan səs gəlir:

– Ey oğlan, o paccah qızdı. Atası ona vəsiyyət eləyib ki, kim sənin sirrini açsa, ona ərə gedərsən. Gedib o paccaha deyərsən ki, ey paccah, bəsdi tac altında gizləndin, sən qızsan, xuda sənin də bəxtini verdi.

Oğlan başladı geri qayıtmağa. Altıncı dağa çatanda gəlib girir saraya.

Paccah deyir:

– Oğlan, mənim də bəxtimi gətirdinmi?

Oğlan deyir:

– Ata-anam sənə qurban olsun, qorxuram danışmağa.

Paccah deyir:

– Ey oğlan, qorxma, sən nə desən yerinə yetəcək.

Oğlan deyir:

– Ey paccah, o gözəgörünməz xuda dedi ki, o paccaha deyərsən ki, bəsdi, kişi paltarında tac altında gizləndin, sən kişi paccah deyilsən, qız paccahsan. Oğlan bunu deyən kimi paccah tacını başından çıxardır. Hamı baxıb görür ki, paccahları gözəl bir qız imiş. Paccah dedi:

– Ey oğlan, atam mənə vəsiyyət eləyib ki, sənin sirrini kim açsa, ona ərə gedərsən. İndi gəl məni al. Buranın da paccahı ol.

Oğlan qəh-qəh çəkib deyir:

– Ey paccah, mənim sənin torpağında nə işim var? Mənim bəxtim Dərbənddədir.

Oğlan başlayır geri qayıtmağa. Gəlib görür ki, dördüncü dağda qocaman kişi onu gözləyir. Kişi deyir:

– Oğlum, mənim üçün də bəxt istədinmi?

Oğlan deyir:

– Bəli, babacan, istədim. Gözəgörünməz xuda dedi ki, o qocaman kişinin bəxti elə həmin torpaqdadır.

Başlıyırlar yeri qazmağa. Daşları-qayaları çıxarıb atırlar. Bir də görürlər səs gəlir, həmin yerdən düz 40 kisə qızıl çıxır. Qocaman kişi deyir:

– Oğlum, bu qızılların 20 kisəsi mənim, 20 kisəsi sənin bəxtindir. Götür öz payını. Oğlan deyir:

– Babacan, mən bu qızılları neyləyirəm? Məni Dərbənddə ləl-cəvahir gözlüyür.

Qoca deyir:

– Oğlum, yaxşı-yaxşı fikirləş.

Oğlan deyir:

– Babacan, mənim bəxtim Dərbənddədi.

Oğlan başlıyır yenə geri qayıtmağa. Gəlib görür canavar yoxdur. Deyir, qoy gözlüyüm, canavar yazıxdı. Onun da bəxtini deyim. Bir də görür ki, budur, canavar ulaya-ulaya gəlir. Oğlan canavardan qorxmur. Sinəsini irəli verir.

Canavar deyir:

– Ey oğlan, xudadan mənim də bəxtimi istədinmi?

Oğlan deyir:

– Ey canavar, xudadan sənin də bəxtini istədim. Gözəgörünməz xuda dedi ki, bu gün qabağına nə çıxsa ye, sabah xuda köməyin olar.

Canavar deyir:

– Ey oğlan, sən gedəli dilimə heç nə dəyməyib, bir dovşan da tuta bilməmişəm. Mənim bəxtim elə sənsən.

Bunu deyib canavar oğlanı ayaqları altına aldı. Parçalyıb yedi.

Siz gedin o yana, mən bu yana. Nağıl burda tamama yetdi.

## Tacir qızı (50)

Biri var idi, biri yox idi, keçmiş zamanlarda bir tacir, onun da bir qızı var idi. Bu tacirin var-dövləti başından aşıb-daşırdı. Aylar, illər gəlib keçdi, tacirin qızı gəlib on səkkiz yaşına çatdı. Tacir çox çalışdı ki, qızını ərə versin, ancaq qız razı olmadı, bu minvalla beş il gəlib keçdi. Bir gün bir şirəçi oğlan tacirin evinin yanından keçirdi. Oğlan bərk susamışdı. Odu ki, tacirin qapısını döydü. Tacirin qızı qapını açdı. Oğlan dedi:

– Bacı, bir içim su ver.

Qız oğlana su verdi. Oğlan suyu içib getdi. Şirəçi oğlan yaraşıqlı bir oğlan idi. Qız bir könüldən min könülə şirəçi oğlana vurulmuşdu. Bir gün atası söhbət salanda qız dedi ki, mən filan oğlanı sevirəm.

Bəli, axtarıb şirəçi oğlanı tapdılar. Oğlan əvvəlcə işi başa düşmədi. Qorxub dedi:

– Ağa, mənim heç bir günahım yoxdu. Bərk yanmışdım, ona görə də sizin qapını döyüb, su istədim.

Tacir dedi:

– Oğlum, qorxma, mən qızımı sənə verirəm.

Şirəçi oğlan dedi:

– Ağa, mən bir kasıb, kimsəsiz oğlan, siz varlı tacir, bizimki tutmaz.

Tacir dedi:

– Oğlum, mənim bütün var-dövlətim sənindi, nə qədər lazımdısa pul da verəcəm, hazırlaş toya.

Bəli, tacir oğlana nə qədər lazımdırsa pul verdi, onlar hazırlaşdılar toya. Üç gün, üç gecə toy eləyib, tacir qızını bu oğlana verdi. Bir müddət keçdi, tacir ömrünü bağışladı qızına. Tacirin var-dövləti oğlana çatdı. Oğlan tacirin bütün işlərini əlinə aldı. Doqquz ay, doqquz gün tamam oldu, şirəçi oğlanın gözəl-göyçək bir oğlu dünyaya gəldi.

Atalar yaxşı deyib, sən saydığını say, gör fələk nə sayır. Elə oldu ki, oğlanın bazarı kasadlaşdı. Bir dükanını oğurladılar, bir karvanını taladılar, bir gəmisi dəryada batdı, xülasə, tacirdən qalan bütün var-dövlət havaya sovruldu. Dərd azmış kimi oğlan özü də xəstələndi və bir qədər keçəndən sonra öldü. Tacir qızı uşağı ilə kimsəsiz qaldı, elə oldu ki, qız bir parça çörəyə möhtac qaldı. Qızla uşağı burda qalmaqda olsun, xəbəri verək şah Abbasdan.

Bir gün şah Abbas vəziri ilə dərviş libasında şəhəri gəzməyə çıxmışdı. Gördülər ki, bütün evlərdə işıqlar sönüb, hamı yatır, təkcə bir evdən işıq gəlir.

Şah Abbas dedi:

– Vəzir, gedək bu evə, görək kim var burda.

Şah Abbasla vəzir gəlib tacir qızının qapısını döydülər. Şah Abbas dedi:

– Ay ev yiyəsi, aç qapını.

Qız dedi:

– Ey qonax, evdə sizin qabağınıza çıxası başıpapaqlı yoxdu, qapını necə açım.

Şah Abbas dedi:

– Qızım, aç qapını, qorxma, biz dərvişik.

Tacir qızı qapını açdı. Şah Abbasla vəziri içəri girib gördülər ki, bir gözəl xatun, bir də uşaqdan başqa evdə heç kim yoxdu. Şah Abbas soruşdu:

– Qızım, sən kimsən, nəçisən, niyə bu hala düşübsən ki, gecələr də yatmırsan?

Tacir qızı başına gələnləri mən sizə nağıl elədiyim kimi şah Abbasa, vəzirinə danışdı. Şah Abbas qıza bir qədər pul verdi. Sonra isə təsbehini ona verib dedi:

– Qızım, bilirəm, gec-tez pul qutaracaq. Nə vaxt pulun qurtarsa, bu təsbehi satarsan, ancaq onu min tüməndən ucuz verməzsən.

Şah Abbasla vəziri çıxıb getdi. Bəli, nağıllarda vaxt tez keçir, bir gün, beş gün axırda qızın pulu qurtardı. Tacir qızı dərvişlərin verdiyi təsbehi götürüb, bazara çıxdı. Kim soruşdusa, tacir qızı dedi ki, təsbehin qiyməti min tüməndi. Tacirlər gördü ki, doğrudan da, təsbehin qiyməti yoxdu. Bu şəhərdə Əfrayim adında çox zalım bir tacir var idi. O, hiyləyə əl atdı. Camaatı inandırdı ki, təsbeh onun babasından qalıb, bu qız onu oğurlayıb. Tacir Əfrayim qızı döydürüb təsbehi əlindən aldı, bundan da sakitləşməyib qızın sağ qolunu kəsdirdi. Tacir qızının dərdi birdisə, oldu min.

Tacir qızı uşağı ilə burda qalmaqda olsun, xəbəri verək xəbərdən, görək şah Abbas nə etdi.

Bir gün şah Abbas öz-özünə fikirləşdi ki, gedim görüm yazıq qızın başına nə iş gəldi. Gəlib nə gördü, onun yaxşılığı qızı bədbəxt edib. Qan onun beyninə vurdu. Səhər açılan kimi Şah Abbas taxtına çıxdı. Əmr elədi:

– Filan küçədə yaşayan qızı tez yanıma gətirin.

O saat tacir qızını şahın hüzuruna gətirdilər. Şah Abbas xəbər aldı:

– Qızım, kim səni bu hala salıb?

Tacir qızı başına gələnləri Şah Abbasa nağıl elədi.

Şah Abbas dedi:

– Qızım, həmin taciri görsən tanıyarsanmı?

Qız dedi:

– Bəli.

O saat şah Abbas əmr elədi, nə qədər tacir varsa, yığın gətirin hüzuruma. Bu xəbəri eşidən Əfrayim tacirin canına titrətmə düşdü. Özünə yalançı şahidlər tutmağa başladı. Ancaq hansı tacirə ağız açdısa, heç kəs razı olmadı. Heç kəs başını şah qılıncının altına vermək istəmədi. Əfrayim tacir fikirli gedirdi. Bir də gördü ki, üç nəfər hambal qarpız kəsib yeyir. Fikrini onlara bildirdi. Hamballar razı olub şahidlik edəcəklərinə söz verdilər. Əfrayim tacir hambalları pulla ələ aldı.

Tacir qızı Əfrayim taciri görən kimi tanıdı.

– Şah sağ olsun, qolumu kəsib təsbehi əlimdən alan bu tacirdi.

Şah Abbas qəzəbini gizldib sakitcə dedi:

– Əfrayim tacir, bu qızın qolunu niyə kəsdiribsən?

Tacir dedi:

– Şah sağ olsun, bu qızı çağırdım ki, evdə çörək bişirməyə kömək etsin. Bu isə mənim babamdan qalan təsbehi oğurladı.

Şah dedi:

– Şahidlərin varmı?

Tacir dedi:

– Şah sağ olsun, şahidlərim var.

Şah hambalları bir-bir dindirdi. Birinci hambal dedi:

– Bu təsbeh, həqiqətən, Əfrayim tacirindi.

İkinci hambal dedi:

– Bu təsbeh, həqiqətən, Əfrayim tacirindi.

Üçüncü hambal həm ağıllı, həm də ürəyiyumşaq adamdı. Odu ki, dedi:

– Şah sağ olsun, bizim heç nədən xəbərimiz yoxdu. Bu tacir bizi pulla tutub.

Şah Abbas dedi:

– Sənə görə yoldaşlarını da bağışlayıram. Əfrayim tacir, qaldı ki təsbehə, təsbeh mənim babamındı. Sən bu təsbehə görə günahsız qızı şikəst edibsən. Gərək sənə elə cəza verəm ki, sənin kimilərə görk ola.

Şah Abbas əmr elədi, qızılı əridib Əfrayim tacirin boğazına tökdürdü. Əfrayim tacir cəhənnəmə vasil oldu.

Şah dedi:

– Qızım, günahkar öz cəzasına çatdı. Sənin bu hala düşməyində mənim də günahım var. De görüm, mənim günahımdan keçirsənmi?

Tacir qızı dedi:

– Şah baba, taleyim beləymiş.

O gündən Şah Abbas tacir qızını özünə qızlığa götürdü. Onlar xoşbəxt yaşamağa başladılar.

Göydən üç alma düşdü, biri mənim, biri sənin, biri də nağılı söyləyənin.

## Əziz Sövdəgər (51)

Gəl sana handan deyim, Təbri-zamandan deyim, darayı bitər Quba corabından deyim. Öyü xəlvət görüb geridə əyalı gəlinə, əlini əlinə vurdu. Ətəyini belinə. Demə xəlvətdə görüb siçanı darı pişik. Çıxdım bayıra gördüm bir dovşan nə dovşan, altından adam keçər. Adam, bəlkə, balacaydı, adam helə böyüküydü kü, əyilib su içeydi. Quyu, bəlkə, dayazdı, quyu helə dəriniydi ki, sabah daş atanda axşam dibinə çatırdı. Günnər, bəlkə, qıseydı, günnər helə uzunuydu ku, inəkinən xörək yiməyə yanında balasıynan gərəkdi. Keçi deyər mənim adım Abdül Kərimdi, nağaralarda bərk səs verən mənim dərimdi, qış olcaq dərd-sərimdi, yaz olcaq çoban çıxmaz qəyələrim var mənim.

Gəlin indi sizə Əziz Sövdəgərdən deyim. Əziz Sövdəgər də elə adam olub ki, padşahnan bərabər. Bu elə sövdəgər olub

ki, hər şəhərə gələndə bir xatın alıb. Bir gün də Əziz Sövdəgər gəlib Dərbənd şəhərinə çıxır. Burada bir xatun alır. Xatun gəlib həmli olur. Bu vaxt Əziz Sövdəgər səfərə çıxır. Xatuna bir bazubənd verib deyir:

– Əgər qızım olsa, satıb xərcləyərsən, yox, oğlum olsa, verərsən qoluna bağlıyar.

Bu sözləri deyib Əziz Sövdəgər başqa şəhərə gedir. Vaxt tamam olur. Xatunun bir oğlu olur. Adını qoyurlar Məhəmməd. Bir il, iki il, üç il, beş il, yeddi il keçir, Məhəmməd gəlib çatır on beş yaşa. Bir gün o, məhəllə uşaqları ilə aşıq-aşıq oynuyurmuş. Bu zaman bir qarı bulaqdan su gətirirmiş. Məhəmməd vurub onun küpünü sındırır. Qarı deyir:

– Ay atasından xəbərsiz, mənim küpümü niyə sındırdın?

Məhəmməd deyir:

– Ay qarı nənə, məni bu məhəllə uşaqlarının yanında niyə söyürsən? Küpün neçiyədi?

Qarı deyir:

– Üç köpük.

Məhəmməd deyir:

– Al bu altı şahını, özünə on dənə küp al.

Qarı sevinə-sevinə çıxıb getdi. Məhəmməd də kor-peşiman anasının yanına gəldi.

Məhəmməd gəlib anasının boğazından yapışdı.

– Ana, mənim atam kimdi?

Anası dedi:

– Oğul, sənin atan Əziz Sövdəgərdi.

Anası çox dedi, Məhəmməd az eşitdi. Axırda Xatun sandığı açıb Əziz Sövdəgər verdiyi bazubəndi oğlunun qoluna bağladı. Məhəmməd cəlayi-vətən olub bu şəhər sənin, o şəhər mənim başladı atasını axtarmağa.

Məhəmməd atasını axtarmaqda olsun, sizə Əziz Sövdəgərdən deyim. Əziz Sövdəgər gəlib bir şəhərə çıxdı. Başladı burda bi-

nə eliyib alış-veriş eləməyə. Bu vaxt bir xatundan on dənə bişmiş yumurta aldı, amma pulunu vermək yadından çıxdı. Bu hadisədən bir gün, iki gün, bir ay, iki ay, axırı bir il keçdi. Həmin xatun gəlib padşaha şikayət elədi ki, bəs filan sövdəgər ondan on yumurta alıb, pulunu verməyib. Padşah tez vəzir-vəkilini çağırıb dedi:

– Əziz Sövdəgər bir varrı adamdı. Bu xatundan yumurta alıb pulunu vermiyib. Onun bütün mal-dövlətini alıb, verin bu xatuna. Qoy başqalarına da görk olsun.

Bəli, Əziz Sövdəgərin bütün var-dövlətini alıb, verdilər həmin xatuna. Əziz Sövdəgər qaldı tamam əlacsız. Əziz Sövdəgər bu halda qalmaqda olsun, sizə xəbər verim bu şəhərdəki yeddi keçəldən.

Bu şəhərdə yeddi keçəl vardı. Onnar cümədən-cüməyə xırmana yığışıb məhkəmə qurardılar. Bəli, yenə də həmin keçəllər yığıldı xırmana, hər tərəfi silib-süpürdülər. Keçəllərdən biri at kəlləsinin üstündə oturub "padşahlığa" başladı:

– Bu keçən müddətdə nə olub, nə keçib?

Keçəllərdən biri dedi:

– Əziz Sövdəgər adında bir sövdəgər var. Padşah onun var-dövlətini alıb verib bir xatuna.

Padşah keçəllərdən ikisinə dedi:

– Tez gedin Əziz Sövdəgəri gətirin hüzuruma.

Keçəllər gedib Əziz Sövdəgəri gətirdilər. Baş əyib padşaha təzim etdilər.

Padşah dedi:

– Əziz Sövdəgər, bu nə ixtilatdı? Padşah nə üçün mal-dövlətini alıb?

Əziz Sövdəgər başına gələnləri ixtilat etdi.

Padşah dedi:

– Əziz Sövdəgər, gedərsən padşahın yanına, deyərsən ki, padşah sağ olsun, heç bişmiş yumurtadan da cücə çıxarmı? Sonrasından işin yoxdu, amma bunu sənə kim öyrətdiyini söyləmə.

Əziz Sövdəgər gəldi padşahın hüzuruna. Padşah xəbər aldı:

– Əziz Sövdəgər, nə istəyirsən?

Əziz Sövdəgər dilləndi:

– Padşah sağ olsun, heç bişmiş yumurtadan da cücə çıxarmı?

Padşah qaldı mat-məəttəl. O saat əmr elədi, həmin xatunu gətirsinlər. Padşahın adamları gəlib gördü ki, həmin xatun barmağında brilyant üzük oturub imarətində, bir yanda qulluqçuları. Dedilər padşah səni çağırır. Onu faytona mindirib, gətirdilər padşahın hüzuruna. Padşah dedi:

– Bu kişiyə yumurtanı bişmiş vermişdin, yoxsa çiy?

Xatun dedi:

– Padşah sağ olsun, bişmiş.

Padşah dedi:

– Bütün var-dövləti qaytar sövdəgərə.

Xatun dedi:

– Baş üstə.

Bütün var-dövləti xatun qaytardı sövdəgərə. İstədi barmağındaki üzüyü də qaytara. Əziz Sövdəgər ürəyiyumşaq adamdı.

Dedi:

– Qoy üzük sənin olsun.

Bu burda qalsın. Məhəmməd də atasını axtarırdı. Padşah dedi:

– Gedin sövdəgəri çağırın.

Gəlib Əziz Sövdəgəri çağırdılar. Padşah deyir:

– Səni öyrədən var. O kimdi?

Əziz Sövdəgər dedi:

– Qibleyi-aləm sağ olsun, bu sirdi, söz vermişəm ki, gərək açmayam.

Padşah dedi:

– Onda dar ağacına çəkirəm səni.

Əziz Sövdəgər vəziyyəti belə görüb əhvalatı olduğu kimi söylədi. Bəli, sabah açıldı. Cümə günü idi. Padşah öz vəzir-vəkili, qoşunu ilə yollandı xırmana. Gəlib çatanda əlində çomax olan bir keçəl bunların qabağını kəsib dedi:

– Padşahımız məhkəmə qurub getməy olmaz.

Padşah dedi:

– Get öz padşahınıza deyinən ki, bu vilayətin padşahı gəlib öz vəzir-vəkili, qoşunu ilə. Gəlsinnərmi?

Keçəl gedib tez qayıtdı.

Dedi:

– Padşahımız deyir gəlsinlər. İzindi.

Padşah öz adamları ilə xırmana daxil oldu. Gördü ki, bir keçəl oturub at kəlləsinin üstündə, bir keçəl sağında, biri solunda, qalanları da qulluğunda. Padşahın bundan çox xoşu gəldi. Dedi:

– Qırx gün mənim yerimə padşahlıx eləyərsənmi? İndi də gedib namazımı qılıb dincəlim.

Keçəl dedi:

– Bir şərtnən.

Padşah dedi:

– O nədi?

Keçəl dedi:

– Gözlərimi çıxart, sonra padşahlıx eləyim.

Bəli, keçəlin şərtinə əməl olundu. Onun gözlərini çıxardıb taxta oturtdular. Hər yerə elan olundu ki, padşahımız kor padişahdı.

Kor padşah başladı padşahlığa. Bağı olmayana bağ verdi, pulu olmayana qızıl pul verdi. Hamı dedi, bu nə yaxşı padşahdı. Gərək elə əvvəldən bu, padşahımız olaydı. Gəlib qırx gün keçdi. Qırx birinci gün padşah gəldi.

Dedi:

-Ver tacımı.

Keçəl dedi:

– Ver gözümü.

Padşah dedi:

– Daha sən korsan, mən gözünü necə verim?

Keçəl dedi:

– Onda sən də mənim atam. Bəs mən tacı necə verim? Hamı da məni kor padşah kimi tanıyır.

Bunnan sonra köhnə padşah daha bir söz demədi. Kor padşah vilayətdə padşahlıx eləməyə başladı.

Kor padşah öz padşahlığını eləməyində olsun, görək Məhəmmədin başına nə gəldi. Məhəmməd gəlib bu şəhərə çıxdı. Gördü ki, bir oğlan ehsan verir. Soruşdu, bu kimdi? Dedilər Əziz Sövdəgərin oğludu, atasına ehsan verir. Məhəmməd dedi:

– Əziz Sövdəgər mənim atamdı.

Oğlan dedi:

– Mənim atamdı.

Onlar kor padşahın yanına getdilər. Məhəmməd dedi:

– Əziz Sövdəgər mənim atamdı, bu da qolumda bazubəndi.

Vəzir-vəkil baxıb gördülər ki, doğrudan da, qolunda bazubənd var. Üstündə də yazılıb "Əziz Sövdəgər". Kor padşah dedi:

– Əziz Sövdəgər nə vaxt ölüb?

Dedilər:

– Altı ay bundan qabax.

Dedi:

– Gedin lülə sümüyünü gətirin. Bu oğlanın da qolundan qan alın.

Padşahın əmrini yerinə yetirdilər. Sümüyü bir qaba qoyub, Məhəmməddən aldığı qanı da üstünə tökdülər. Bir-iki saat keçdi. Padşah dedi:

– Baxın qaba.

Baxıb gördülər ki, sümük qanı bütöv çəkib. Padşah dedi:

– Həqiqətən də, bu oğlan Əziz Sövdəgərin oğludu.

Bəli, Məhəmmədlə oğlan padşah sarayınnan çıxdılar.

Oğlan çox qəmgin idi. Məhəmməd öz-özünə fikirləşdi: "bu oğlan ki atama belə ürəknən ehsan verir, qoy bütün var-dövlət onun olsun". Belə fikirləşərək dedi:

– Biz oldux qardaş. Mən Dərbənddə oluram. İndi qayıtmalıyam. Bu var-dövlət də hamısı sənindi.

Onlar görüşüb ayrıldılar.

Məhəmməd pay-piyada yola düzəldi. Bir xeyli getmişdi ki, bir qoca kişiyə rast gəldi. Qoca dedi:

– Oğlum, hara gedirsən?

Məhəmməd dedi:

– Dərbəndə.

Qoca dedi:

– Yolumuz birdi.

Onlar az getdilər, çox getdilər. Axşama yaxın bir kəndə gəlib çatdılar.

Qoca dedi:

– Oğlum, mən bu evə gedirəm, sən də bax get o evin qapısını döy.

Məhəmməd qoca dediyi qapını döydü. Onu evə çağırdılar. Evdə bir xəstə oğlan yatırdı. Ev yiyəsi sevindi ki, bəlkə, qonağın ayağı düşə, oğlum sağala. Bir xeyli söhbət etdilər. Hamı yatdı. Məhəmməd də xəstə oğlanla bir otaqda idi. Gecənin bir aləmi qoluçirməkli bir kişi içəri girib çıxdı. O saat da oğlan canını tapşırdı. Məhəmməd fikirləşdi ki, bu nə iş idi başıma gəldi. Səhər oldu, Məhəmməd yola çıxdı. Gördü ki, qoca onu gözləyir. Onlar yenə gəlib axşamüstü başqa bir kəndə çatdılar.

Qoca dedi:

– Oğlum, mən bu evə gedirəm, sən də get bax o evə.

Məhəmməd qocanın dediyi evə getdi. Birinci gecəki əhvalat burda da təkrar oldu. Məhəmməd öz-özünə dedi, görünür,

ayağım ağırdı. Yenə qoca ilə yola düzəldi. Gəlib bir bulağın başına çatdı. Qoca dedi:

– Oğlum, burda biz ayrılmalıyıq. Yolumuz ayrıdır. Sənə bir sirri deyim, heç vaxt evlənmə, evlənən gecə öləcəksən.

Məhəmməd bir də baxdı ki, qoca qeybə çəkilib. Məhəmməd qəmgin oldu. Birtəhər gəlib evə çatdı. Anası, dost-aşnası şad oldu. Bir qədər keçdi. Anası dedi:

– Oğlum, gərək evlənəsən.

Bu sözləri eşidən kimi Məhəmmədin kefi pozuldu. Anası çox dedi. Məhəmməd az eşitdi. Axırdı dedi:

– Ana, filan məhəllədə kasıb bir kişi var, onun yeddi qızı var, o kişinin kiçik qızını mənə al.

Anası şad oldu. Məhəmməd öz-özünə fikirləşdi ki, onsuz da mən öləcəm. Qoy var-dövlətim bu kasıba qalsın. Anası elçi gedib, razılıq aldı. Toy günü gəlib çatdı. Məhəmməd oturmuşdu, sağdışı, soldışı də yanında. Birdən cır-cındır geyimli bir qoca qapıdan boylanıb deyir:

– Allah eşqinə.

Məhəmməd o saat qocanı içəri çağırıb, ona təzə paltar geyindirdi. Bir xeyli pul da cibinə qoydu. Bir məhəllə uşaqlarından da birini çağırıb, xeyli yemək-içmək verib dedi:

– Apar bu qocanı yola sal.

Qoca sevincək çıxıb getdi.

Gəlin də bir dəstə qızla oturmuşdu. Birdən qapı açıldı. Çarşava bürünmüş bir xatun başını içəri salıb dedi:

– Allah eşqinə.

Gəlin o saat onu içəri çağırdı. Təzə paltarlarını ona geyindirdi. Bir qazan da aş verib yola saldı. Xatun evə gəldi. Aş qazanını açdı. Aş qazanı ola, ac uşaqlar ola! Uşaxlar cumdu aş qazanının üstünə. Bunlar burda qalmaxda olsun, görək Məhəmmədin başına nə gəldi. Gecəyarı olmuşdu, ancaq Məhəmməd gəlinə

yaxın getmirdi. Gecənin bir yarısı birdən divar aralandı. Yol yoldaşı peyda olub dedi:

– Məhəmməd, əlini gəlinə ver, qorxma, sənə ölüm yoxdur.

Sonra dedi:

– Ey heyvan, çıx get.

O saat bir qara ilan həmin yarıxdan düşüb yola çıxdı.

Məhəmmədnən yoxsul qızı xoşbəxt ömür sürüb gün keçirdilər. Nağıl burda tamam oldu. Siz gedin o yana, mən bu yana.

## Armudan bəy (52)

Oladı, olmuyadı, bir kasıb ovçu oladı. Bir gun ovçu gəlib gördü ki, tələyə bir tülkü düşüb. Ovçu istədi ki, tülkünün dərisini boğazından çıxarsın.

Tülkü dedi:

– Ovçu qardaş, məni öldürmə, sənə gərək olaram.

Ovçu dedi:

– Sənin qiymətin elə dərindədi.

Tülkü dedi:

– Sən məni öldürmə, mən səni ən varlı adam edərəm.

Ovçu tülkünü açıb, buraxdı. Tülkü dedi:

– Bu gündən sənin adın oldu Armudan bəy. Dalısıynan sənin işin olmasın. Mən nə desəm, sən təsdiq elə. Axırın xeyirdi.

Kasıb ovçu fikirləşdi ki, görək bu işlərin axırı nə olur. Odu ki, tülkü nə dedisə, razılaşdı. Bir gün tülkü dedi:

– Qardaş, gərək səni şah qızı ilə evləndirim.

Bu sözləri deyib, tülkü yolu əlinə aldı. Az getdi, üz getdi, dərə-təpə düz getdi, bir çaya rast gəldi. Çayı keçdi. Gördü ki, şahın sarayı görünür. Gəlib şahın elçi daşının üstündə oturdu. Şaha xəbər çatdı ki, bir tülkü elçi daşının üstündə oturub. Şah dedi:

– Tülkü nədi ki, onun qulluğu da nə olsun.

Şah nə fikirləşdi, nə fikirləşmədisə birdən dedi:

– Çağırın gəlsin.

Tülkü şaha ədəblə baş endirib dedi:

– Şah sağ olsun, mən utana-utana gəlmişəm. Məni Armudan bəy göndərib ki, sizdən gümüşölçən sabunu alım. Gümüşünü ölçmək istəyir. Şah vəzirə dedi:

– Vəzir, sabunu ver aparsın.

Bəli, tülkü sabunu alıb gətirir. Kasıb ovçu tülkünün bu işinə məəttəl qalmışdı.

Tülkü dedi:

– Sən səsini çıxarma.

Tülkü sabunun yırtığına iki gümüş yapışdırdı ki, guya, doğrudan da, Armudan şahın xəzinəsindəki gümüşü ölçüblər. Beş gün keçdi. Tülkü şahın gümüşölçən sabununu qaytarıb dedi:

– Hələ gümüşü təmiz ölçüb qurtarmamışıq.

Baxıb gördülər ki, sabunun yırtığında iki gümüş var. Fikirləşdilər ki, deyəsən, doğrudan da, sabunnan gümüş ölçülüb. İndi də tülkü dedi:

– Şah sağ olsun, Armudan bəy indi də göndərib ki, sizin qızılölçən sabunnuzu alım.

Şah əmr etdi. Bu dəfə də qızılölçən sabunu verdilər tülküyə. Tülkü qızılölçən sabunu kasıb ovçunun evinə gətirdi. Beş gün keçdi. Tülkü sabunun yırtığına iki qızıl yapışdırıb, gətirib şaha qaytardı.

Şah fikirləşdi ki, heç mənim xəzinəmdə bu qədər qızıl yoxdu. Görünür, Armudan bəy çox dövlətlidir. Nə olaydı, onunla qohum olaydım.

Şahın gözəl-göyçək bir qızı vardı. Aya deyirdi, mən çıxanda sən çıxa bilməzsən, günə deyirdi, mən çıxanda sən çıxa bilməzsən. Bəli, aradan bir xeyli keçdi. Tülkü gəlib yenə elçi daşının üstündə oturdu. Şah böyük hörmətnən onu qəbul elədi. Tülkü dedi:

– Armudan bəy məni göndərib ki, sənin qızına elçilik eliyim.

Şah bundan çox şad oldu.

Elə ürəyində idi ki, belə varlı-dövlətli bir şahla qohum olsun. Odu ki, dedi:

– Nə deyirəm, razıyam, gətir, qoy bir-birlərini görsünlər, o günü toylarını eliyək.

Tülkü tez kasıb ovçunun yanına gəldi. Dedi:

– Tez ol, hazırlaş, gedək şahın hüzuruna.

Kişi qorxusundan bilmədi nə etsin. Nə zarafatdı şahı aldatmaq. Sonra dərisini boğazından çıxardardılar. Tülkü dedi:

– Qorxma, o gün bu gündən deyil, gedəcəyik şahın yanına.

Kişi naəlac qalıb tülkünün yanına düşdü. Ancaq onu deyim ki, bu kişi o qədər kasıb idi ki, paltarının cır-cındırından çəkinər, hürkərdi. Bir vedrə darını töksən, biri də yerə düşməzdi. Bəli, onlar gəlib çaya çatdılar. Çayı o üzə keçəndə tülkü kişiyə dedi. Paltarlarını soyun at suya.

Kişi tülkünün dediyi kimi elədi. Çayı o üzə keçəndə tülkü dedi:

– Sən burda gözlə, mən bu saat gəlirəm.

Tülkü tez şahın yanına gəlib dedi:

– Şah sağ olsun, Armudan bəy çaydan keçəndə paltarlarını su apardı.

Şah əmr elədi, Armudan bəy üçün şahanə paltar gətirdilər. Tülkü tez çayın kənarına gəldi. Şahanə paltarı kasıb ovçuya verib dedi:

– Sən heç vaxt paltarına baxma

Bəli, onlar şahın sarayına gəldilər. Şahın adamları onları böyük hörmətlə qarşıladılar. Bəli, məclis quruldu. Yemək-içmək gəldi. Hamı sümüyü süfrəyə tökür, Armudan bəy isə ətəyinə yığırdı. Çölə çıxanda başladı sümükləri gəmirməyə. Şah tülküdən soruşdu:

– Ay tülkü, Armudan bəy niyə tez-tez paltarlarına baxır?

Tülkü dedi:

– Şah sağ olsun, siz verən paltarları bəyənməyib. Tez-tez paltarlarına baxır ki, birdən üst-başında bit olar.

Şah bu sözləri eşidib daha dinmədi. Bəli, kəcavələr düzüldü. Şah qırx dəvə cehiz verdi. Şahın adamları onu yola salmağa hazırlaşdılar. Kasıb ovçu fikirləçirdi ki, görəsən, bu işlərin axırı nə olacaq. Onlar gəlib bir naxıra rastlaşdılar. Tülkü tez özünü yetirib naxırçıya dedi:

– Naxırçı qardaş, bax, o atlılar şahın adamlarıdır. Şah bu saat bərk naxoşlayıb. Təbiblər buyururlar ki, naxırçı beyni onun dərmanıdır. İndi səndən soruşsalar ki, bu kimin naxırıdır? Deynən, Armudan bəyin, onda sənə toxunmazlar.

Şahın adamları gəlib naxıra çatdılar. Gördülər, naxırın ucu-bucağı yoxdu.

Dedilər:

– Bu kimin naxırıdı?

Naxırçı dedi:

– Armudan bəy şahın.

Tülkü bütün mal-qaranı qabağına qatdı. Naxırçı çayın yanında idi. Odu ki, qaçıb aradan çıxdı. Bir xeyli getmişdilər. Gördülər bir qoyun sürüsü göy çəmənlikdə otlayır. Sürüdə qoyunların sayı-hesabı yoxdu. Tülkü tez özünü çobanın yanına yetirib dedi:

– Çoban qardaş, şah bu saat naxoşlayıb, təbiblər buyurublar ki, çoban beyni onun dərmanıdır. İndi səndən soruşsalar ki, bu kimin sürüsüdü, deynən, Armudan bəyin. Onda sənə toxunmazlar. Şahın adamları gəlib sürüyə çatdılar. Gördülər ki, qoyun-quzunun sayı-hesabı yoxdur. Dedilər:

– Bu kimin sürüsüdü?

Çoban dedi:

– Armudan bəyin.

Tülkü bütün qoyunları qabağına qatdı. Çoban öz canının hayında idi. Armudan bəy, tülkü, şahın adamları bir xeyli getdilər. Bir də gördülər ki, böyük bir saray görünür. Şahın sarayı

bunun yanında heç nədi. Sən demə, burda qırx div yaşayırmış. Div sarayının qapıları açıldı. Tülkü tez özünü yetirib dedi:

– O qoşun sizin için gəlib. Şahın ilxısına qotur düşüb. Deyirlər, div beyni xəstəliyin dərmanıdır. İndi tez gizlənin.

Divlər qorxuya düşüb tez samanlıqda gizləndilər. Tülkü şahın adamlarına dedi ki, atamız vəsiyyət eləmişdi ki, qardaşına toy eləyəndə samanlığı oda tutun. Tülkü samanlığa od vurdu. Divlərin otuz doqquzu yandı. Təkcə axsaq bir div vardı. O qaçıb, canını qurtardı. Şahın adamları elə bildi ki, bura, doğrudan da, Armudan bəy şahın sarayıdır. Tülkü kasıb ovçuya qırx gün, qırx gecə toy elədi. Şahın adamları bir neçə gündən sonra çıxıb getdi. Qaldı Armudan bəy, gəlin, bir də tülkü.

Aradan bir müddət keçdi. Bir gün tülkü fikirləşdi ki, qoy bir qardaşlığımı sınayım. Mən ona bu qədər yaxşılıq eləmişəm. Görüm qardaşlığım mənə sədaqətlidi?

Tülkü dedi:

– Qardaş, ürəyim xaşıl istəyir. Gəlin bacıya de, bir xaşıl bişirsin.

Bəli, gəlin xaşıl bişirdi. Tülkü yeməyin şirin yerində birdən qəsdən qusdu. Kişi xatununa dedi:

– Dur, yu.

Eyni hadisə ikinci, üçüncü dəfə təkrar oldu. Kişinin hirs başına vurdu.

Dedi:

– Arvadı sənin üçün gətirmişəm, yoxsa özümə? Sən məni lap boğaza yığdın. Bunu deyib, kişi tülkünü qırxıncı mərtəbədən aşağı tulladı. Tülkü ayağını çəkə-çəkə dedi:

– Ey ağılsız adam, məni xaşıldan ötrü bu hala saldın. Səni mən o dərəcəyə qaldırdım, sənsə mənim qədrimi bilmədin. Gör indi sənə neyləyəcəm.

Tülkü qaçdı axsaq divin dalınca. Aradı, axtardı, nəhayət, axsaq divi tapdı. Dedi:

– Ay evin yıxılsın, sən gəlib burda gizlənmisən, evində keçəlin biri oturub. Nə durmusan, tez ol, dur gedək.

Bu sözləri eşidən div hirsindən dodaqlarını gəmirməyə başladı. Dedi:

– Ona elə toy tutum ki.

Onlar divin qalaçasına gəlib çatdılar. Kişi gördü ki, tülkü divi də götürüb gəlir. Qorxusundan çaş-baş qaldı. Özünü toxtatdı. Elə div gəlib çatan kimi qışqırdı:

– Sənə demədimmi qırx birini gətir. Sən birini gətirmisən.

Axsaq div elə başa düşdü ki, tülkü onu öldürtməyə gətirib. Hirsini ondan çıxdı. Tülkünün qol-qabırğasını qırıb, cəhənnəmə vasil elədi. Qaçıb getdi.

Armudan bəylə şah qızı ömür sürüb murad hasil elədilər.

## Ovçu oğlu (53)

Ha orda, ha burda, xaraba karvansarada, qarpıza mindim, dəryadan keçdim, yaba ilə ayran içdim, heç belə yalan deməmişdim.

Oladı, olmuyadı, ovçu Pirimin bir ovçu dostu oladı. Öləndə xatununa bərk-bərk tapşırdı:

– Oğluna ovçuluq sənətini verməzsən. Qalan hansı sənəti istəsə öyrənsin.

Aylar, illər gəlib keçdi. Ovçunun oğlu gəlib on səkkiz yaşına çatdı. Anasına dedi:

– Ana, atam nə sənətin sahibi idi?

Anası dedi:

– Oğlum, atan yaxşı rəncbər idi.

Oğlan bir müddət bu sənətdə işlədi. Bir gün bir nəfər paxıl adam oğlana eşitdirdi:

– Atası nə sənətdə idi, bu nə sənətdədir!

Oğlan anasının yanına gəlib dedi:

– Ana, düzünü de, atam nə sənətin sahibi idi. Tez ol, atamın sənətini mənə de.

Anası bu dəfə də onu aldadıb dedi:

– Oğlum, atanın yaxşı dükanı var idi.

Bəli, oğlan bütün əkinini, kotanını, öküzünü satıb dükan açdı. Başladı alış-verişə. Bir müddət ana-bala beləcə dolandı. Ancaq bu da uzun sürmədi. Oğlan yenə bir mərdimazara rast gəldi. O, oğlana eşitdirdi:

– Bunun atasından xəbəri yoxdu. Atası nə sənətin sahibi idi, gör bu nə ilə məşğuldu!

Bu sözlərdən ovçu oğlu bərk hirsləndi. Siyirdi xəncərini, düşdü anasının üstünə:

– Ana, siftə dedin atam rəcbər idi, sonra dedin dükançı idi. İndi düzünü de görüm, atam nə sənətin sahibi idi? Düzünü deməsən, səni öldürəcəm.

Xatun gördü yox, düzünü deməsə, işi şuluxdu, oğlu bərk hirslənib. Odu ki, dedi:

– Oğlum, mən sənin atanın vəsiyyətini yerinə yetirdim. İndi ki, inad edirsən, bil, atan ovçu idi.

Oğlan başa düşdü ki, artıq anası onu aldatmır. Odu ki, sakitləşdi, başladı ovçuluq etməyə. Anası tapşırdı:

– Oğlum, ova çıxanda həmişə günçıxana get.

Oğlan dedi:

– Sən ki məni aldatdın, gün batana gedəcəm.

Ovçu oğlu az getdi, çox getdi, dərə-təpə düz getdi, gəlib bir düzənliyə çıxdı. Gördü ki, bir ceyran gəlib qarşısında dayanıb. Ceyranı vurdu. Od qalayıb kabab çəkdi. Bişən tikələr təzədən ceyrana dönürdü. Oğlan bu işə mat qaldı. Qayıdıb evə gəldi. Başına gələn əhvalatı anasına danışdı. Anası dedi:

– Get atanın ovçu Pirim adlı bir dostu olub, onun yanına. O bilər.

Ovçu oğlu ovçu Pirimin yanına yola düşdü. Gəlib bir xatuna rast gəldi.

Xatun dedi:

– Ovçu Pirimin evi buradı.

Oğlan gördü ki, ovçu Pirim daş daşıyır iki eşşəknən. Dedi:

– Salam, əmi, mənə ovçu Pirim lazımdı.

Dedi:

– Salam, oğlum, ovçu Pirim mənəm. Nədi istəyin?

Oğlan başına gələn əhvalatı mən sizə söyləyən kimi ovçu Pirimə danışdı.

Ovçu Pirim dedi:

– İndi sən qulaq as, mən öz başıma gələnləri söyləyim, sən özün nəticə çıxar:

"Mən sənin atanla birlikdə ovçuluq edirdim. Dünyada ayağım dəymədiyi yer yox idi. Ovdan da həmişə əlidolu gələrdim. Gözəl-göyçək arvadım var idi. Biz mehriban dolanırdıq. Bir dəfə ovdan evə qayıdanda gördüm ki, bir nəfər evdən çıxıb getdi. Bu cuhud idi. İynə-sap kimi şeylər satardı. Bu əhvalat bir neçə dəfə təkrar oldu. Bir gün mən ova getməyib yarı yoldan geri qayıtdım. Gördüm ki, cuhud arvadımla bir yorğan-döşəkdə yatıb. Mən istədim ki, cuhudu da, arvadımı da vurub öldürüm. Cuhud yastığın altından bir çubuq çıxardıb məni sərçə elədi. Qarışdım sərçələrə. Getdim bir qoca qarı var idi. Başladım darılarını yerə dağıtmağa. Qarının nəvəsi gələndə bütün sərçələr uçub getdi. Uşaq məni tutub nənəsinin yanına gətirdi. Qarı məni görüb o saat tanıdı. Dedi:

– Ay ovçu Pirim, sən sərçəlikdə necə yaşayırsan? Mən sənə nə kömək eləyə bilərəm?

Uçub gəldim evimizə. Gördüm ki, arvadım evdədi. Tez məni vurub itə döndərdi. Kənddən qırağa çıxdım. Gördüm dağın başında bir sürü qoyun var, xoşsifət bir çoban da sürünün yanında. Fikirləşdim ki, məni saxlasa bu çoban saxlayacaq. Çobanın ayaq-

larına sarmaşdım. Çoban məni saxladı. Gətirdi çiy ət atdı, yemədim. Bişirib verdi, yedim. O biri itləri bağlayırdı, məni açıx saxlayırdı. Gördüm sürüyə bir ayı dadanıb. Hər gecə qoyunları aparır. Ayı gəlib adam kimi fit verirdi. Bir gecə arıq bir qoyunun yanında yatmışdım. Ayı qoyunu aparanda boğazından yapışdım, ilqımını çıxardım. Gedib çobanın ayaqlarından yapışdım, gətirib ayını göstərdim. Çoban adımı qoydu "qanlı it". Adım çatdı başqa sərkarlara. Bir sərkar gəldi məni on qoyuna aldı. Orda da bir ayı öldürdüm. Daha da məşhurlaşdım. Adım hər tərəfə yayıldı. Bir paccahın qızının dili tutulmuşdu. Paccah sərkarı yanına çağırıb dedi:

– İtin qızımın dilini açsa, qızımı sənə verəcəm, açmasa onu öldürəcəm.

Çoban dedi:

– Olsun.

Məni apardılar qızın yanına. Başladım qızın yanında gözləməyə. Qız lal-dinməz uzanmışdı. Dinib danışmırdı. Gecənin bir yarısı gördüm ki, bacadan bir qarı düşdü. Başa düşdüm ki, qızın dilini bu qarı bağlayıb. Yapışdım qarının boğazından. Qarı dedi:

– Məni burax.

Qızı göstərdim. Qarı bildi ki, qızın dilini açmasa buraxmayacağam. Nə elədisə qızın dili yavaş-yavaş açıldı. Qarı and verdi ki, bu sirri heç kimə açmayım. Mən qarıya yalvardım ki, dərdimə çarə eləsin. Qarı söz verdi. Bir azdan xəbər yayıldı ki, qızın dili açılıb. Qız atasınnan danışdı. Paccah qızının dilinin açılmasından çox sevindi. Sonra çobana dedi:

– Qızı verdim sənə.

Bəli, qızı verdilər çobana. Toy başladı. Məni çoban qoydu qapının ağzına. Dayandım, dayandım, birdən qaçdım həmin qarının yanına. Dedim:

– Mənim dərdimə çarə elə.

Qarı dedi:

– Bala, sən ki mənə yaxşılıq elədin. Sənin dərdinin çarəsini deyərəm.

Qarı bir çubuq verib dedi:

– Get başını bu çubuğun üstünə qoy. Ürəyindən keçir ki, adam olasan. İstəyin yerinə yetəcək.

Qarı deyən kimi elədim. Öz əvvəlki halıma düşdüm. Çox sevindim. Tez evimizə getdim. Gördüm ki, arvadım yenə cuhudla bir yerdədi. O istədi ki, çubuğu götürüb məni vursun. Mən ondan tez tərpəndim. Hər ikisini vurub eşşək elədim. Gəldim çobanın yanına. Evə girmək istəyəndə çoban qabağımı kəsdi.

Dedim:

– Ayə, o mənim gəlinimdi.

Bundan sonra əhvalatı çobana danışdım. Çoban bizə toy elədi. Mən paccahın qızı ilə evləndim".

Ovçu Pirim hekayətini başa vurub dedi:

– Bax, o gördüyün arvad paccahın qızıdı. Onunla xoşbəxt yaşayıram. Bu eşşəklər isə biri köhnə arvadım, biri də cuhuddu. Mənim dünyada heç nəyə ehtiyacım yoxdu. Bu daşı bu eşşəklərlə o tərəf, bu tərəfə daşıtmaqda məqsədim onlara əziyyət verməkdi.

Oğlan ovçu Pirimlə xudafizləşib evlərinə qayıtdı. O gündən ovçuluğun daşını atdı. Özünə ayrı bir sənət tapıb yaşamağa başladı.

Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağılı söyləyənin.

## Şəmsəddinlə Nurəddin (54)

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşah çox ağıllı və ədalətli idi. Bu padşahın da qoca bir vəziri vardı. Vəzirin iki oğlu vardı, böyüyünün adı Şəmsəddin, kiçiyinin adı Nurəddin.

Qəzadan günlərin bir günü vəzir də, xatunu da ölür. Padşah vəziri ilə xatununun qırxını verir. Qırxdan çıxandan sonra vəzirin oğlanlarını yanına çağırıb deyir:

– Siz mənim vəzirimin oğlanlarısınız. Mənim övladım yoxdur. Mən sizi övladlığa götürürəm. Siz gərək oxuyasız.

Padşah onları məktəbə qoyur. Vəzirin oğlanları məktəbi başa vuranda padçah onları yanına çağırıb deyir:

– Oğlanlarım, gedin öz aranızda üç gün fikirləşin, biriniz atanızın yerinə vəzir olun, o birinizə də başqa bir qulluq taparıx.

Qardaşlar gəlib mehribanlıqla söhbət eliyirlər. Birdən kiçik qardaş Nurəddin deyir:

– Nə olaydı ikimiz də evlənəydik. Mənim oğlum olaydı, sənin qızın. Qızını oğluma verərdinmi?

Böyük qardaş deyir:

– Qardaş, bizi yaradıb böyüdən Allah, inşallah, bu arzumuzu da yerinə yetirər.

Kiçik qardaş deyir:

– Qardaş, əgər belə olsaydı, sən məndən nə alardın?

Böyük qardaş Şəmsəddin deyir:

– İki yüz at, beş yüz qoyun, nə bilim nə, nə…

Nurəddin təəccüblə qardaşına baxıb deyir:

– Qardaş, sən qızını mənim oğluma ömür-gün sürməyəmi verirsən, yoxsa ac qalmağamı? Sən mənə düşmənçilik edirsən ki?

Şəmsəddin deyir:

– Ay qardaş, nə düşmənçilik, söhbətdi eliyirik, bu saat nə sənin oğlun var, nə də mənim qızım.

Nurəddin deyir:

– Yox, ürəkdə olmayanı dil deməz.

Nurəddin acıq eləyib gedir. Şəmsəddin çox gözləyir, səhər olur, günorta olur, axşam olur, Nurəddin gəlmir. Şəmsəddin gəlir padşahın hüzuruna.

Padşah deyir:

– Oğlum, bəs qardaşın hanı?
Deyir:
– Hal-qəziyyə belədi, Nurəddin mənə acıx eliyib getdi.
Deyirlər:
– Harda olsa, qayıdıb gələr.
Amma üç gün keçir, yeddi gün keçir, qırx gün keçir, Nurəddin qayıtmır ki, qayıtmır.
Xəbəri xəbərdən, xəbəri Nurəddindən. Nurəddin atlanıb üz qoyur Allah yoluna. Gəlib bir şəhərə çatır. Gecələmək üçün gedir karvansaraya. Karvansaranın qulluqçuları Nurəddinin atının tərini silir, o tərəf bu tərəfə hərləyir. Nurəddin özü də dincəlir. Sən demə, bu şəhərin vəzirinin evi də karvansara ilə üzbəüz imiş. Vəzir görür ki, karvansaranın qabağında qulluqçular bir at hərləyir, amma bu atın yəhər-yüyənindən bilinir ki, onun sahibi ya padşah oğludu, ya da vəzir. Öz-özünə fikirləşir ki, mənimçün ayıb olar belə bir adam karvansarada qala. Tez qulluqçusunu çağırıb deyir:
– Get, o atın sahibinə de ki, vəzir səni qonaq çağırır.
Qulluqçu gedib vəzirin sözlərini Nurəddinə söyləyir:
– Ağa, vəzir səni qonaq çağırır.
Bəli, qulluqçu atın yüyənini əlinə alır, Nurəddin də onun arxasınca gəlirlər vəzirin evinə.
Vəzir Nurəddinin pişvazına çıxır, yemək-içməkdən sonra deyir:
– Oğlum, sən kimsən, nəçisən, hardan gəlib hara gedirsən?
Nurəddin deyir:
– Mən filan ölkənin vəzirinin oğluyam, sizin məmləkəti gəzməyə gəlmişəm.
Vəzir dünyagörmüş adamdı, hiss eliyir ki, Nurəddin sözlü adama oxşayır, deyir:
– Oğlum, səbəbsiz gəzinti olmaz. Gəzintiyə çıxmağına səbəb nədi?
Nurəddin başına gələn hal-qəziyyəni danışır. Vəzir deyir:

– Oğlum, sən düz eləmisən. Həqiqətən də, ürəkdə olmayanı dil söyləməz.

Vəzir bir neçə gün bu Nurəddini evində saxladı, gördü ki, çox ağıllı-kamallı oğlandı, dedi:

– Oğlum, mənim gözümün ağı-qarası bircə qızım var, onu istəyirəm ki, sənə verim.

Nurəddin dedi:

– Ey vəzir, mənim bir əl tutacağım yoxdu, necə toy eləyim?

Vəzir dedi:

– Oğlum, sən onun fikrini çəkmə. Mən özüm nə lazımdısa, eliyəcəyəm.

Toy məclisi quruldu. Padşah, saray adamları gəldilər toya. Padşah təəccüblənib dedi:

– Vəzir, mən neçə vaxtdı qızını istəyirəm, oğluma vermirsən, tanımadığın bir adama verirsən.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, bu oğlan məndən də ikiqat bilikli oğlandı.

Padşah bir söz demədi. Şəhərin alimlərini, bilicilərini çağırıb tapşırdı ki, oğlanı sınaqdan keçirsinlər. Başladılar Nurəddinə suallar yağdırmağa. Nurəddin də verilən bütün suallara kamal-ədəbnən layiqli cavablar verirdi. Vəzir bildi ki, bu padşahın hiyləsidi. Odu ki, toy qurtarandan sonra dedi:

– Qibleyi-aləm sağ olsun, oğlan xoşuna gəldimi?

Padşah dedi:

– Vəzir, düz deyirsən, o səndən də beş qat artıqdı.

Aradan bir xeyli vaxt keçir. Nurəddin vəzirin evində qalır, vəzir qızınnan mehriban yaşayır. Bir gün o deyir:

– Ata, nə vaxta kimi mən boş-bekar yaşayıb, zəhmətsiz yeyib-içəcəyəm.

Vəzir deyir:

– Oğlum, tələsmə.

Vaxt o vaxt olur ki, Nurəddinin bir oğlu olur. Uşağın ad-qoydu günü vəzir deyir:

– Qibleyi-aləm sağ olsun, artıq mən qocalmışam, istəyirəm ki, yerimə kürəkənim sənin vəzirin olsun.

Padşahın da oğlandan çox xoşu gəlirdi. Odu ki, razı oldu. Bu minvalla Nurəddin həmin məmləkətdə vəzirlik elədi. Gəlib oğlu Bədrəddin on səkkiz yaşa çatanda qəzadan Nurəddin vəfat elədi. Onu kamal-ədəbnən dəfn elədilər. Bir gün Bədrəddin atasının yastığının altından bir kağız tapdı. Orda yazılmışdı "Qardaşım Şəmsəddin, sənin bir kəlmə sözün məni vətəndən didərgin saldı. İndi mən qürbətdə ölürəm. Yanımda qardaşım-bacım, qohumum yox. Ancaq səndən bir təvəqqəm var, işdi şayətdi, oğlum Bədrəddin sənə rast olsa, onu özünə qardaş hesab elə". Kağızda sonra yazılmışdı ki, oğlum Bədrəddin, bu məktubu əmin Şəmsəddinə çatdırarsan.

Padşah Bədrəddinə deyir ki, atanın qırxı çıxannan sonra gəlib vəzirlik eliyərsən. Ancaq Bədrəddin atasının ölümündən sonra qəm dəryasına qərq olmuşdu, hər gün qəbristanlığa gedib, saatlarla ağlayırdı. Öz-özünə fikirləşirdi ki, əmimi mən necə tapacağam, heç onun yerini də bilmirəm. Bu minvalla qırx gün gəlib keçdi. Padşah adam göndərdi ki:

– Gəlsin, vəzirlik etsin.

Bədrəddin dedi:

– Üç gündən sonra gələrəm.

Üç gündən sonra padşah adam göndərdi ki:

– Gəlsin saraya.

Bədrəddin dedi:

– Sabah gələrəm.

Padşah hirslənib əmr elədi:

– Gedib onu gətirin, boynunu vurun.

Bu yandan da Bədrəddinə atasını, babasını istəyənlər xəbər göndərdi ki, tez qaçsın, yoxsa boynunu vurduracaq.

Bədrəddin qaçıb gəldi qəbristanlığa. Yıxıldı atasının qəbrinin üstünə o qədər ağladı ki, huşdan getdi. Bu vaxt burdan bir yəhudi taciri geçirdi. Gördü ki, bir gözəl oğlan yıxılıb bir qəbrin üstünə, huşdan gedib. Oğlanı ayıldıb dedi:

– Oğlum, sənə nə olub?

Bədrəddin dedi:

– Əmi, padşaha iki min dinar borcluyam, istəyir ki, başımı vurdursun.

Tacir dedi:

– Oğlum, sənin atanın-babanın var-dövləti başlarından aşıb daşırdı. Niyə onlardan satıb canını qurtarmırsan.

Bədrəddin dedi:

– Kimdi bu qədər pul verən?

Tacir dedi:

– Mən verərəm.

Bunlar burada qalsın, xəbəri xəbərdən, xəbəri iki ifritədən verək. Onların biri məqribdən, biri məşriqdən idi. Bir gün onlar dünyada olanlardan söhbət eliyirdilər. Biri dedi:

– Filan yerdə bir qız var, misli-bərabəri yoxdu, amma bu gecə toyudu.

O biri dedi:

– Filan yerdə bir oğlan var, onun tayı-bərabəri yoxdu.

Bu dedi: oğlan gözəldi, o dedi qız gözəldi. Axırda dedilər, aparaq qoyaq oğlanı qızın yanına, görək hansı gözəldi.

Bunlar qalsın burda. Xəbəri xəbərdən, xəbəri Şəmsəddindən. Şəmsəddinin də bir qızı olmuşdu. Qız gəlib on səkkiz yaşına çatmışdı. Baxanda adamın ağlı başından çıxırdı, çünki qız çox gözəliydi. Padşah qızı oğluna istəyirdi, amma Şəmsəddin deyirdi:

– Mən qardaşıma söz vermişəm, gərək qızı onun oğluna verəm, hərgah qardaşımın oğlu olmasa, qızı verərəm sənin oğluna.

Padşah öz-özünə fikirləşdi: "Mən bunlara bu qədər yaxşılıq elədim, indi bu qızını mənim oğluma vermir. Yaxşı sənə göstərərəm ki, padşahın sözündən çıxmaq nə deməkdi".

Bu şəhərdə qozbel, kifir bir oğlan vardı. Padşah dedi:

– Vəzir, qızını verməlisən bu oğlana.

Vəzir dedi:

– Yox, verməərəm.

Padşah dedi:

– Verəcəksən.

Bəli, padşah zorla toy məclisi qurdurdu. İfritələrin dediyi toy bu toy, təriflədiyi qız da Şəmsəddinin qızı idi, oğlan isə bu qızın əmisi oğlu Bədrəddin idi.

Bəli, bəyi hamamdan gətirib istədilər ki, qızın yanına salsınlar, ifritənin biri qozbelin boğazından yapışıb gizli bir otağa saldı, Bədrəddini isə qızın otağına.

Şəmsəddin qıza tapşırmışdı ki, əgər o qozbelin barmağı sənə dəysə, özünü ölmüş bil. Bəli, qozbel qaldı ağzıbağlı otaqda. Bədrəddin isə əmisi qızının – toy olan qızın otağına girdi.

Bədrəddin otağa girəndə görür qız əlində bir şüşə zəhər tutub, soruşdu:

– Bu nə əhvalatdı?

Dedi:

– Mənə dedilər səni qozbel bir oğlana verirlər. Mən də and içmişəm ki, əgər onun barmağı mənə dəysə, özümü öldürəcəm. İndi görürəm ki, sən qozbel-zad deyilsən.

Bədrəddin dedi:

– Ona görə belə deyiblər ki, biz bədnəzərdən uzaq olaq.

Şəmsəddin də gözləyirdi ki, ha bu saat, ha o saat qız özünü öldürəcək, amma səhərə kimi nə öldürən, nə də ölən xəbəri çıxmadı.

Xəbəri xəbərdən, xəbəri ifritələrdən. Elə ki, Bədrəddinlə qız xeyli söhbət eliyib, bir yataqda kef elədilər, sonra isə yatdı-

lar, ifritələr oğlanı yataq paltarında aparıb başqa bir şəhərin kənarına atdılar.

Bəli, səhər açıldı, sübh namazı vaxtı gəldi, camaat gördü ki, bir oğlan alt tuman-köynəkdə küçədə yatıb. Dedilər, bu, ya qumarbazdı, ya da oğrudu, nə isə düz adam deyil, başladılar bunu döyməyə. Oğlan gördü ki, onu öldürəcəklər başladı qaçmağa. Qaça-qaça gəlib girdi bazarın içində bir yeməkxanaya. Bu yeməkxananın sahibi bir dünyagörmüş, sözü ötən adam idi. Gördü ki, bir oğlan yataq paltarında qaçıb gəlib, camaat da az qalır onu öldürsün. İrəli yeriyib dedi:

– Ay camaat, bir dayanın görək bu kimdi, niyə bu kökdədi?

Camaat dağılıb getdi. Kişi xəbər aldı:

– Oğlan, sən kimsən, qumarbazsan?

Dedi:

– Yox.

– Sərxoşsan?

Dedi:

– Yox.

Dedi:

– Bəs onda bu nə haldı düşmüsən?

Dedi:

– Əmi, bu uzun əhvalatdı. Mənə bir köhnə pal-paltardan ver geyinim, sonra danışaram.

Yeməkxana sahibi oğlana paldan-paltardan verib, dedi:

– Oğlan, indi de görüm, sən kimsən?

Bədrəddin dedi:

– Əmi, mən filan vəzirin oğluyam.

Sonra o başına gələnləri necə mən danışmışdımsa, o cürə danışmağa başladı.

Kişi dedi:

– Oğlum, əlindən nə gəlir?

Oğlan dedi:

– Əmi, mən vəzir oğluyam, əlimdən nə gələr?

Kişi dedi:

– Yaxşı, eybi yoxdu, nə bacararsan onu da edərsən.

Oğlan başladı qab-qacax yumağa. Üç gün, beş gün, on beş gün. Bir gün dedi:

– Əmi, gündə sən nə qədər qazanırsan?

Dedi:

– On manat qazancım olur, yeddi manat xərcim.

Dedi:

– Mən elə bir yemək bişirərəm ki, sənin qazancın birə-beş artar.

Kişi dedi:

– O nə yeməkdi?

Bədrəddin dedi:

– Vallah, atam mənə bir yemək bişirmək öyrədib. Bunun üçün lazımdı: bal, istiot, ədva, nar. Axşama kimi bişirərik satarıq.

Kişi dedi:

– Yaxşı, o yeməkdən bişirib satarıq. Onu atan hardan öyrənmişdi?

Bədrəddin dedi:

– Atam ərəb ölkələrinə getmişdi, bu yeməyi də ordan öyrənmişdi.

Bəli, yeməkxana sahibi baldan, nardan, ədvadan alıb gətirdi. Oğlan başladı həbbül-rümman bişirməyə. Getdikcə onların qazancı birə-beş artdı. Bu yeməkdən bir yeyən bir də yeyirdi. Onlar alverində olsun, indi xəbəri xəbərdən, xəbəri Şəmsəddin vəzirdən.

Şəmsəddin vəzir gördü yox, qızınnan ölüm xəbəri gəlmədi, öz-özünə fikirləşdi ki, yəqin qızı qozbellə yaşamağa razılıq verıb. Qızın otağına girdi, qız başladı gülməyə.

Şəmsəddin vəzir dedi:

– Utanıb ölmürsən, hələ bir gülürsən də.

Vəzir istədi ki, xəncərini çıxarıb qızını öldürsün, qız dedi:

– Ata, mən nə pis iş tutmuşam ki, məni öldürürsən?

Vəzir dedi:

– Çünki sən qozbellə yaşamağa razı olmusan.

Qız dedi:

– Ata, nə qozbel, mənim nişanlım ay parçası kimi bir oğlandı.

Vəzir təəccübləndi:

– O hanı?

Qız dedi:

– Paltarı budu, özü isə yoxa çıxdı.

Vəzir qardaşının ona yazdığı kağızı da paltarların arasından tapıb qıza tamam inandı. Axtarıb qozbeli başqa bir otaqda başına vedrə keçirilmiş halda tapdılar. Qozbel dedi:

– Siz Allah, mənə heç nə lazım deyil, qoyun çıxım gedim.

Soruşdular:

– Bu nə işdi?

Qozbel başına gələnləri söylədi. Əhvalatdan padşah da xəbər tutdu. Bu padşah çox ağıllı bir padşah idi, dedi:

– Qoy oğlanın paltarları necə var eləcə qalsın, qız da gəlinlik paltarlarını soyunub onun yanına qoysun. Qızını apar evinə, o qapını da bağlı saxlayın. Oğlan ya özü gəlib çıxar, ya da biz axtarıb taparıq. Qıznan oğlanın kəbini ərşdə kəsilib.

Padşah sözünə davam eyləyib dedi:

– Əgər biz elan eləsək ki, sənin kürəkənin kimdi, yüz lotu gəlib deyəcək ki, o mənəm. Yaxşısı budu, gözləyək.

Şəmsəddin vəzir qızını köçürdür evinə. Günlər, aylar ötüb keçir. Doqquz ayın tamamında vəzirin qızı yükünü yerə qoyur. Onun bir oğlu olur. Uşaq gəlib məktəb yaşına çatır. Onu məktəbə qoyurlar. Bu uşaq yaman dəcəl uşaq imiş. Birinin başını yarır, birinin gözünün altını qaraldır, birinin qol-qıçını sındırır, axır uşaqlar cana doyub bir gün mollaya deyirlər:

– Daha biz oxumaq istəmirik. Həsən bizə göz verib, işıq vermir. Vəzir oğlu olduğu üçün biz də bir söz deyə bilmirik.

Bu molla yaman çoxbilmiş imiş. Deyir:

– Sizin işiniz olmasın, mən ona göstərərəm. Sabah mən hamınızdan atanızın adını soruşacam. Qalanınnan işiniz olmasın.

Sabah molla başladı bir-bir uşaqların ata-babasının adını soruşmağa. Növbə Həsənə çatanda molla dedi:

– Oğlum, sənin atanın adı nədir?

Həsən dedi:

– Şəmsəddin.

Molla dedi:

– Oğlum, Şəmsəddin vəzir sənin babandı, mən atanın adını soruşuram.

Həsən yenə dedi:

– Mənim atamın adı Şəmsəddindi.

Uşaqların arasına pıçhapıç düşdü. Hər tərəfdən qışqırdılar:

– Bic oğlu, bic oğlu olduğu üçün bizim baş-gözümüzü vurub dağıdır.

Həsən ağlaya-ağlaya evə gəldi. Anasının üstünə düşüb dedi:

– Ana, mənim atam kimdi?

Dedi:

– Şəmsəddin.

Həsən babasının xalçanın üstündən asılmış xəncərini götürüb dedi:

– Ana, düzünü deməsən, səni bu saat öldürəcəm, mənim atam kimdi?

Anası dedi:

– Oğlum, onda baban gələr, o sənə hər şeyi danışar.

Vəzir gəldi. Qızı dedi:

– Ata, Həsən atasının kim olduğunu soruşur. Olmasa öldürərəm deyir.

Vəzir deyir:

– Oğlum, mən sənin atanam.

Həsən deyir:

– Yox, sən mənim babamsan.

Vəzir görür ki, yox, aldada bilməyəcək. Gəlib əhvalatı padşaha söyləyir, deyir:

– Qibleyi-aləm sağ olsun, izin verin, qardaşım oğlunu axtarım.

Padşah qoşunnan, silahdan vəzirə verib deyir:

– Vəzir, harada onu tapsan, "mənim padşahımın xəzinədarıdı", – deyib əl-qolunu bağlatdırıb gətirərsən.

Vəzir nəvəsini, qoşun-ləşkəri də götürüb yola düzəldi, az getdilər, düz getdilər gəlib həmin Bədrəddin həbbül-rümman satan şəhərin kənarına çatdılar. Qoşun dayandı, çadırlar quruldu.

Həsən dedi:

– Baba, izin ver gedim şəhəri gəzim.

Vəzir bir neçə adamla Həsəni şəhərə yolladı. Onlar gəzə-gəzə gəlib həbbül-rümman dükanına çıxdılar. Gördülər hamı həmin yeməkdən alır, bunlar da aldılar. Bədrəddin də bunlara baxırdı, Həsənə yaman qanı qaynayırdı. Onlar yeməklərini yeyib yola düşəndə bu da düşdü onların arxasınca. Gördü ki, bu adamlar bu şəhərdən deyil, gəlmədilər. Bir xeyli baxdı, gördü ki, onlar şəhərdən çıxıb getdi, bu, geriyə qayıtdı.

Səhəri Şəmsəddin vəzir öz adamları ilə bütün şəhəri ələk-vələk elədi, amma Bədrəddindən bir xəbər tuta bilmədi.

Üz qoydular yenə getməyə, az getdilər, üz getdilər, o şəhər sənin, bu şəhər mənim, gəlib çatdılar Nurəddin vəzir olan şəhərə. Dedilər:

– Nurəddin vəzir harada olur?

Cavab verdilər:

– Nurəddin vəzir çoxdan ölüb, amma arvadı filan yerdə olur.

Axtarıb həmin yeri tapdılar. Qabaqlarına qulluqçu-qaravaşlar çıxdı. Şəmsəddin vəzir dedi:

– Mən sənin qaynınam, sənin oğlun hardadı?

Xatun dedi:

– Hardaydı məndə o bəxt, Allah ərimi əlimdən aldı, oğluma da padşah ölüm hökmü vermişdi, ona görə də qaçıb canını qurtardı.

Şəmsəddin vəzir dedi:

– Biz oğlun Bədrəddini axtarırıq, hərgah tapmadıq, tapsaq, gələndə burdan gəlib səni də götürərik.

Xatun dedi:

– Mən daha burda qalıb neyləyəcəyəm, mən də sizinlə gedirəm.

Razılaşdılar. Satmalısını satdılar, yükləməlisini dəvələrə, qatırlara yüklədilər, birlikdə yola düzəldilər. O şəhər sənin, bu kənd mənim, gəzə-gəzə gəlib yenə həmin Bədrəddin həbbül-rümman satan şəhərə çatdılar. Yenə də Həsən dedi:

– Baba, qoy gedim şəhəri gəzim.

Babası yenə bir neçə nəfərlə ona izin verdi ki, gedib şəhəri gəzsinlər. Onlar yenə həbbül-rümman satılan dükana gəlib, həbbül-rümman alıb yedilər, geri qayıdanda yenə Bədrəddin qeyri-ixtiyari onların dalınca düşdü. Həsən öz adamlarına dedi:

– Bu, yenə bizim arxamızca düşüb. İstəyirəm ki, xəncəri soxub, bunun qarnını cırım.

Dedilər:

– Düşüb düşsün, o bizə nə eləyir ki?

Bu tərəfdən də Həsənin nənəsi, Nurəddinin xatunu, həbbül-rümman bişirib Həsəni gözləyirdi. Qayda beləydi, o gəlməmiş qazanın ağzı açılmazdı. Həsəngil gəldi. Nənəsi dedi:

– Hardasan, mənim balam, yaxşı həbbül-rümman bişirmişəm, gəl yeyək.

Həsən gülüb dedi:

– Biz elə bu saat həbbül-rümman yeyib gəlirik.

Xatun dedi:

– Ola bilməz. Bu yeməyi bizdən başqa heç kəs bişirə bilməz.

Həsən dedi:

– Bu saat mən gedib həmin yeməkdən alıb gətirərəm.

Həsən yenə öz adamlarilə həbbül-rümman dükanına getdi, bir qədər həbbül-rümman alıb, geri qayıtmağa başladılar. Bədrəddin yenə biixtiyar onların dalınca düşdü. Həsən bir daş götürüb, vurdu onun alnına. Bədrəddin yıxılıb, huşunu itirdi. Bir azdan özünə gəlib, başını sarıdı və dükana qayıtdı.

Həsən gətirib dükandan aldığı həbbül-rümmanı nənəsinə verib dedi:

– Bax, budu.

Nənəsi o dəqiqə dedi:

– Bu yeməyi bişirən mənim oğlum Bədrəddindi.

Şəmsəddin vəzir tez bir dəstə döyüşçü götürüb, həmin dükana yollandı. Çatan kimi dedi:

– Bağlayın bunun qollarını.

O saat Bədrəddinin qollarını bağlayıb, xüsusi hazırlanmış sandığa saldılar ki, hara apardıqlarını bilməsin. Dükan sahibi dedi:

– Bunu niyə aparırsız?

Şəmsəddin vəzir dedi:

– Həbbül-rümmanın istiotunu artıq eləyib, padşah yeyəndə xəstələnib.

Onlar yola düşüb öz şəhərlərinə səmt getməyə üz qoydular, az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, gəlib öz şəhərlərinə çatdılar. Bədrəddini gətirib əmisi qızının otağına saldılar. Padşah, vəzir-vəkil hamısı qapının dalından onlara qulaq asmağa başladılar.

Qız dedi:

– Oğlan, bu neçə vaxtdı hardasan?

Bədrəddin dedi:

– Bu neçə vaxtda mənim başıma çox əhvalatlar gəlib. Mən dünən filan şəhərdə idim, bu gün sənin yanındayam.

Qız dedi:

– Ay oğlan, nə başqa şəhər, nə əhvalat, deyəsən, sən yuxu görürsən?

Bədrəddin dedi:

– Yaxşı, bunların hamısı yuxudu, bəs yeddi-səkkiz yaşlı bir uşağın başımı yarması da yuxudurmu?

Bu vaxt qapını açıb Həsəni içəri buraxdılar. Bədrəddin dedi:

– Bax, bax, mənim başımı yaran bu uşaqdı, ancaq o, başımı burda yox, filan şəhərdə yarıb.

Bu vaxt qapını açıb içəri girdilər, öpüşüb görüşdülər.

Şəmsəddin vəzir dedi:

– Bax, bu, sənin əmin qızıdı, bu da sənin atanın yazdığı kağız, bu da sənin iki min pulun.

Onlar təzədən öpüşüb görüşdülər. Qırx gün, qırx gecə toy vurdurub xoşbəxt ömür sürdülər.

Onlar qaldı orda, biz də burda.

## İki kosa (55)

Dərbənddə bir kosa, Qubada da bir kosa vardı. Bunlar çox istəyirdilər ki, qarşılaşalar. Günlərin bir günü onlar bir-birini görməyə gedillər. Dərbəndli kosa yola düşər Qubaya, qubalı kosa da yola düşər Dərbəndə. Elə olar ki, onlar yolda qarşılaşarlar. Bir qədər söhbətdən sonra yemək üçün girərlər bir yeməkxanaya. Yemək-içmək gələr. Yeyib-içib qurtarandan sonra qubalı kosa deyir:

– Bir dəqiqəyə gəlirəm.

Dərbəndli çox gözlüyür, amma qubalı gəlib çıxmır. Axırda dərbəndli kosa car-nacar qalıb, yeməyin pulunu verir. Öz-özünə fikirləşir, “yaxşı, sən ol qubalı kosa, mən də olum kəllə dərbəndli”, o üç qəpıyi sənnən çıxarmasam, dədəmin oğlu deyiləm.

Bəli, dərbəndli kosa yol alır Qubaya. Xəbər verim qubalı kosadan. Qubalı kosa gəlir evə, arvadına tapşırır ki, kim gəlib məni soruşsa, de ki, mən ölmüşəm. Elə bu vaxt dərbəndli kosa gəlib qapını döyür. Deyir:

– Ay bacı, bəs dostum hanı?

Qubalı kosanın arvadı deyir:

– Gərək mən onu dəfn eləyim.

Dərbəndli koşa içəri girib görür ki, doğurdan da, qubalı kosa otaqların birində uzanıb, üstünə də mələfə çəkilib. Dərbəndli kosa başlayır bir qazan su qızdırmağa. Bir qazan da soyuq su götürür. Gəlib durur qubalı kosanın başının üstündə. Əvvəlcə bir qab isti suyu qubalı kosanın başına tökür. Qubalı kosa dik atılıb durur. Dərbəndli kosa deyir:

– Ver üç qəpiyimi.

Qubalı kosa deyir:

– Mən ölmüşəm. Ölü də pul verərmi?

Qubalı kosa yenə uzanır. Bu dəfə dərbəndli kosa bir qab soyuq suyu götürüb onun başınnan tökür. Qubalı kosa yenə də dik attanıb durur. Yenə də dərbəndli kosa deyir:

– Ver üç qəpiyimi.

Qubalı kosa deyir:

– Ölü də pul verərmi?

O, yenə də uzanır. Bu hadisə bir neçə dəfə təkrar olunur. Axırda dərbəndli kosa görür ki, qubalı kosadan üç qəpiyi ala bilməyəcək, gecənin bir aləmi onu götürüb gəlir bir sərdabəyə. Bu zaman burdan qırx hərami keçirdi. Onlar şahın xəzinəsini yarıb gəlirdilər. Fikirləşirlər ki, elə sərdabədə gecələsinlər.

Bəli, həramilər sərdabəyə girirlər. Başlayırlar qızılları bölməyə. Bir qızıl xəncər artıq qalır. Həramilərdən biri deyir:

– Xəncər mənim olsun.

O biri deyir:

– Mənim olsun.

Axırda biri deyir:

– Üç ölünü qoyaq üst-üstə. Bir dəfəyə kim üç meyiti doğraya bilsə, xəncər onun olsun.

Meyitləri üst-üstə qoyurlar. Qubalı lap üstə düşür. Həramilərdən biri istəyir ki, xəncəri qaldırıb vursun. Dərbəndli qapının ağzında kəfənə bürünmüşdü, ordan qışqırır:

– Ay ölülər, bu dirilər bizi burda da rahat qoymurlar. Qırın bunları!

Bu sözü eşidəndə qubalı kosa da ayağa qalxıb qışqırır:

– Qırın bunları!

Həramilər qızılları qoyub qaçırlar. Kosalar qızılları bölürlər. Dərbəndli kosa deyir:

– Ver üç qəpiyimi.

Qubalı kosa deyir:

– A kişi, səni bu qədər dövlətə çatdırdım, yenə məndən üç qəpik istəyirsən? Mən hardan alım bu sərdabədə sənin üçün üç qəpiyi. Gəl bu xəncəri üç qəpiyin əvəzində götür.

Qubalı kosa çox deyir, dərbəndli kosa az eşidir. İki ayağını bir başmağa qoyub dediyini deyir.

Bunlar burda qalsın, xəbəri verək xəbərdən, görək həramilər harda qaldı.

Həramilər bir qədər getmişdilər ki, birdən biri deyir:

– Heç ölü də dirilərmi?

Biri deyir:

– Bu saat mən gedib öyrənərəm, görüm bu nə əhvalatdır.

Həmin hərami gəlib, sərdabənin qapısının ağzında dayanır. Bu vaxt dərbəndli kosa qışqırır:

– Üç qəpiyimi verməsən, səni buraxan deyiləm.

Qubalı kosa görür ki, həramilərdən biri qapının ağzında dayanıb. Tez əlini uzadıb, onun papağını başınnan götürüb, dərbəndli kosanın üstünə qışqırır:

– Al, bu da üç qəpiyinin əvəzi.

Hərəmi tez qaçıb yoldaşlarına deyir:

– Eviniz yıxılsın, tez olun burdan qaçaq. Bu saat bütün ölülər dirilib, bizim qızılları bölüb qurtarıblar, hərəsinə heç üç qəpik də düşməyib.

Həramilər qaçıb gedirlər.

## Bəxt (56)

Kasıb, fağır bir kişi nə qədər əlləşirdisə, vuruşurdusa güzəranında bir yaxşılıq əmələ gəlmirdi. Dolanışığı da gündən-günə pisləşirdi. Kişi bir gün gedir falçının yanına, görsün bu nə işdi. Falçı kitablara baxıb fal açandan sonra deyir:

– Ay kişi, filan meşədə qaratikan kolunun dibində sənin bəxtin yatır. Get onu durğuz. Sonrası ilə işin yoxdur. İşin düzələcək.

Kişi sevincək falçının yanından çıxıb, yollanır həmin meşəyə. Gəlib çatanda görür, doğurdan da, qaratikan kolunun dibində bir nəfər xorhaxorla yatıb. Hirslə bir-iki təpik vurub, onu durğuzur. Deyir:

– Sən niyə yatmısan? Mən axı əldən düşdüm. Dur ayağa!

Kişinin bəxti ayağa qalxıb, ona üç qoz verir, sonra da deyir:

– Get, daha mən yatmayacağam. İşlərim bundan sonra yaxşı gedəcək, güzəranın düzələcək.

O, qozları alıb yola düzəlir. Yolda görür ki, üç uşaq işıldayan əcayib bir daşın üstündə dalaşır. Uşaqların hərəsinə bir qoz verib, bu daşı onlardan alıb evə gəlir. Daşı arvadına verib deyir:

– Ay arvad, al bu daşı, sarımsaq-zad döyəndə sənə lazım olar.

Günlərin bir günü iş elə gətirir ki, yoldan ötən tacirlər qonşuluqda qonaq düşürlər. Bir gün qonşusu bu kişinin qapısına gəlib deyir:

– Ay qonşu, tacirlərdən yemək-içmək almaq istəyirik. Amma tərəzinin gözünü düzəltməyə daş yoxdur, bəlkə, səndə çəki daşı ola?

Kişi həmin daşı verir qonşusuna. Bir az keçmiş bir də görür ki, bir tacir əlində daş gəlir onun evinə. Kişiyə deyir:

– Bax, bu karvanın bütün malını sənə verirəm. Sən də bu daşı ver mənə..

Kişi deyir:

– Ola bilməz. Bu daş mənə baha başa gəlib.

Tacir görür ki, daşın bir tərəfində bir balaca çatlaq var. Odur ki, deyir:

– Onda heç olmasa bu çatlaq yerdən bir qoz boyda sındır, ver mənə.

Kişi razılaşıb elə də elədi. Tacir karvanını malı ilə qoyub, gedir.

Bu işin üstündən bir il dolanıb keçir. Tacir bu tikə daşdan on karvanın qiymətindən artıq mal alıb, daha da varlanır. Bir gün deyir:

– Qoy gedim kişiyə deyim ki, ay ağılsız kişi, səndən bir karvanın malının bahasına aldığım daşı satıb, on karvanın malını almışam. Bunu eşidəndə, yəqin, kişinin bağrı çatlayar, onda mən daşın qalan hissəsini də əldə edərəm.

## Tamah (57)

Bir gün bir padşah vəzir-vəkililə ova çıxdı ki, ürəyi açılsın. Gəzə-gəzə gəlib bir düzəngaha çıxdılar. Padşah baxdı ki, bu düzəngahda bir təpə var, gələn-gedən təpəyə qalxıb düşür.

Bu işdən padşah təəccüb qaldı. Yanındakı adamlardan ikisini çağırıb dedi:

– İndi qalxarsız təpəyə, təpənin o tərəfində nə əhvalat varsa bilin. Sonra gəlib mənə danışarsız.

Padşahın əyanlarından iki nəfəri baş əyib getdilər. Gəlib təpəyə dırmaşmağa başladılar. Dırmaşhadırmaş gəlib təpənin başına çıxırlar. Təpənin o biri tərəfinə baxanda gördülər ki,

burada bir bağ var, cənnət yerində. Bir tərəfdə alma tərəkləri, o biri tərəfdə isə armud tərəkləri. Hamısı da cərgəbəcərgə əkilib. Bunlar bağı gəzib doyunca alma, armud yedilər, amma bircə dənəsini də götürmədilər, qayıdıb gəldilər.

Padşah başındakı adamlarla qayıdanada gördülər ki, bir qoca əkini biçir, novura basır. Qocaya yaxınlaşıb soruşdular:

– Ay qoca, deməzsən, bu təpənin üstündəki bağ kimin ola?

Qoca hirslə deyir:

– Sizinlə danışmağa vaxtım yoxdur, yolunuzla çıxıb gedin.

Onlar qocadan ayrılıb yola düşürlər. Bir az getməmiş görürlər ki, bağda arıq keçilər yatıblar. Bir dəstə qaz onların yeməyini yeyib, qayıdıb dənizə girdilər. Buradan da ötüb keçəndən sonra gördülər ki, yolun kənarında bir it yatıb. İtin qarnındakı küçüklər yoldan ötənlərə hürür. Padşah bu işə lap təəccübləndi, amma bir söz demədi.

Yollarına davam edib getdilər. Baxdılar ki, bir dəstə adam toplaşıb, amma aralarında yaman çaxnaşma var, bir ağ yaylığı ora-bura darthadart çəkirlər. Yaxınlaşıb salam verdilər, soruşdular:

– Nəyi bölə bilmirsiniz!?

– Öz işinizdə olun, – dedilər.

Bir qədər də gedəndən sonar baxdılar ki, bir qoca quyudan su çıxarıb paylayır. Özü susuzluqdan yansa da özünə içməyə su düşmür.

Padşah bu işləri görüb, çox təəccübləndi. Saraya qayıdan kimi vəzirə dedi:

– Bu işin sirrini aç.

Vəzir dedi:

– Qibleyi-aləm, deyirlər, bizim vilayətdə dünyagörmüş qoca bir kişi var. Bəlkə, o, bizə bu işin sirrini aça bilər.

Vəzir saraydan çıxıb soraqlaşa-soraqlaşa həmən qoca kişini axtarıb tapdı. Vəzir məsələni ona danışdı. Qoca dedi:

– Oğul, mənim yüz yaşım var, mən bu işləri bilmərəm. Bizim bu vilayətin qurtaracağında məndən böyük bir qardaşım var. Onun iki yüz yaşı var. Ola bilsin ki, o, sənə bir cavab verə bilər.

Vəzir qocadan ayrılıb, getdi indi də böyük qardaşın yanına. Baxıb gördü ki, o, belibükük bir qocadır. Üst-başında tək-tək ağ tüklər var. Vəzir məsələni ona da danışdı. Qoca vəzirə qulaq asıb dedi:

– Ay bala, dediyin şeyləri mən bilmərəm, məndən böyük üç yüz yaşlı bir qardaşım var. Bilsə-bilsə o, bu işlərdən xəbərdar ola bilər. Bax, bura gəldiyin yolla bir gün də getsən, bir dağ görəcəksən, həmin dağın başında bir mağara var. Bu mağarada qardaşımı tapa bilərsən.

Vəzir qoca ilə sağollaşıb yola düşdü. Səhəri gün gəlib həmin dağa çatdı. Dağa qalxıb, mağaranı tapdı. Baxıb gördü ki, mağarada bir cavan oğlan oturub. Vəzir öz-özünə dedi: "görəsən, bu kim olar?"

Vəzir soruşdu:

– Oğul, üç yüz yaşlı filan qocanı necə tapmaq olar?

Oğlan dedi:

– Vəzir, həmin qoca mənəm. Bənd olma, sözünü de!

Vəzir baxdı ki, bunun üzündə bir ağ tük də yoxdur. Çox təəccübləndi. Amma daha bir söz demədi. Vəzir nə üçün gəldiyini oğlana danışdı. Oğlan dedi:

– Əkin biçən qoca Əzrayıldır, qocaya-cavana baxmır, hamının canını alır. Arıq keçilər yoxsullardır, qazlar varlılardır. Varlılar yoxsulların əlindəkiləri güclə alıb yeyirlər. Elə bir vaxt gələcək ki, ana qarnındakı uşaqlar danışacaq. O ki var ağ yaylıq – dünyadır. İnsanlar onu darhadart edirlər. Su paylayan tamahkar, yalançı molladır, hamıya ağıl öyrədir, özü isə əməl eləmir. Qaldı ki bağın məsələsi. Danışım, qulaq as. Bağın yeri əvvəllər meşəlik imiş, bir gün meşəliyin əyəsi yeri başqasına satır. Hə-

mən adam meşəliyi təmizləyəndə yerdən bir küp qızıl çıxır. Kişi həmin küp qızılı meşəliyin əyəsinin yanına aparıb dedi:

– Qardaş, bir küp qızıl sənə çatacaq. Çünki mən səndən təkcə yer almışam. Bunu deyib əhvalatı ona danışır. Meşəliyin əyəsi ona dedi:

– Yox, qızıl sənə çatacaq. Əgər qismətim olsaydı, mən tapardım.

Bu ixtilat gəlib vilayətin padşahına da çatdı. Padşah hər iki kişini çağırıb vəzirinə dedi:

– İndi ki, belədir, gedib küpəni alıb, xəzinəyə qatarsan.

Həmin padşahın vəziri müdrik adam idi. Dedi:

– Qibleyi-aləm, belə etsən, ayıb olar.

Padşah soruşdu:

– Bəs bu iki kişinin mübahisəsini necə həll etmək olar?

Vəzir hər iki kişidən soruşdu:

– Oğul-uşaqdan nəyiniz var?

Biri dedi:

– Qızım var.

O biri dedi:

– Oğlum var.

Vəzir dedi:

– Lap yaxşı oldu. Küpənin qızılını iki yerə bölün. Qızla oğlana verin. Sonra da qızla oğlanı evləndirib, qohum olun. Qız öz payını oğlana, oğlan isə qıza bağışlasın.

İkisi də bu sözdən razı qaldı.

Oğlan sözünə davam edib vəzirə dedi:

– Bax alma bağının binası belə qoyulub. Onun üçün də bağa girib alma yemiş adam tamah edib özü ilə alma aparmır.

Vəzir qoca ilə sağollaşıb, geri qayıtdı, hər şeyi olduğu kimi padşaha nağıl elədi.

## Əhməd Dərbəndi (58)

Biri varmış, biri yoxmuş, Dərbənd şəhərində bir kişi varmış, bu kişinin də Əhməd adlı bir oğlu varmış.

Atası Əhmədi göndərir Məkkə şəhərində oxumağa, Əhməd Dərbənd şəhərindən gəldiyi üçün ona Əhməd Dərbəndi deyirdilər. Əhməd yaxşı oxuduğu üçün Müşteyid onu uşaqlara başçı təyin etmişdi. Günlərin bir günü Əhməd Dərbəndinin hamamlanmaq vaxtı gəlib çatdı. O, paltarını götürüb, hamama getdi, hamamlanıb çıxdı ki, hamamçının pulunu versin. Əlini cibinə salanda gördü ki, pul kisəsi yadından çıxıb evdə qalıb, hamamçıya dedi:

– Pul kisəsi yadımdan çıxıb evdə qalıb, icazə ver, gedim gətirim.

Hamamçı razı olmadı. Hamam pulu bir qəpik eləyirdi, hamamçı Əhməd Dərbəndinin əbasını girov saxladı. Əhməd gedib hamam pulunu gətirib verdi, əbasını geri aldı.

Əhməd öz-özünə fikirləşdi ki, mən nə üçün oxuyuram! Oxuyub qurtarandan sonra qazancım bir hamam pulunu ödəməyəcək. Bunu fikir eləyib məktəbə getmədi. Barbarxanasını yığıb, evlərinə getməyə hazırlaşdı. Bir də gördü ki, qapı döyüldü. Yoldaşlarından biri içəri girdi. Gördü ki, Əhməd hazırlaşıb getmək üzrədi. Əhməd dedi:

– Mən daha oxumaq istəmirəm.

Həmin uşaq gəlib bu xəbəri Müşteyidə çatdırdı. Müşteyid həmin uşağa dedi:

– Get ona deginən, oxumur oxumasın. Müşteyid ağa deyir ki, yanıma gəlsin, onunla işim var.

Əhməd Müşteyidin yanına gəldi. Müşteyid heç bir söz demədən əlini atıb cibindən pul kisəsinin çıxartdı. Pul kisəsinin içindən bir dənə yumru daş götürüb, Əhmədə verib dedi:

– Oğlum, al bu pulu, get bazara. Bazardan iki göy, iki girvəngə də pendir al gətir yeyək. İşdi, bu daşı götürməsələr, onu atma, özümə qaytar.

Əhməd Dərbəndi getdi bazara, göysatana yaxınlaşıb daşı uzadaraq dedi:

– İki göy ver.

Göysatan daşın nə olduğunu bilməyib dedi:

– Mən göyü daşa vermirəm, pula verirəm.

Əhməd pendir satanın da yanına getdi, o da elə dedi.

Əhməd fkirləşdi ki, Müşteyid onu ələ salıb, daş verib, – get bazardan şey al, – deyir. Belə fikirləşib istədi ki, daşı atsın. Bir də Müşteyidin dediyi sözlər yadına düşdü. Daşı atmayıb, qaytarıb Müşteyidə verdi. Başına gələnləri də danışdı. Müşteyid həmin daşı Əhməd Dərbəndiyə verib dedi:

– Oğlum, indi apar bu daşı filan küçədə olan zərgərə ver. Deginən, Müşteyid ağa deyir ki, alsın bu daşı xırdalasın, işdi çatışmazsa, qalanını sonra verər.

Əhməd Dərbəndi daşı aparıb zərgərə verdi. Müşteyidin sözlərini də zərgərə söylədi. Zərgər daşı alıb, Əhmədə yeddi kisə qızıl verib dedi:

– Oğlum, gedəndə ağana deyərsən ki, yeddi kisə qızıl daşın qiymətinin üçdə biridir. Qalanları sonradan verərəm.

Əhməd qızılları gətirib, Müşteyidə verdi. Zərgərin sözlərini də Müşteyidə çatdırdı. Müşteyid dedi:

– Oğlum, indi götür bu pulu, get bazara, dediklərimi al, gətir. Əhməd bazardan Müşteyid dediklərini alıb gətirdi. Müşteyid dedi:

– Oğlum, zər qədrini zərgər, söz qədrini sərraf bilər.

O günnən sonra Əhməd Dərbəndi başını salıb dərslərini oxumağa başladı. Bir gün o əynini dəyişib, paltarlarını çəpərin üstünə sərərək dərslərini oxuyurdu. Bir də pəncərədən eşiyə baxanda gördü ki, bir nəhəng quş gəlib çəpərin üstünə qonub, paltarları dimdikləyir. O, nə qədər elədisə quş uçub getmədi. Axırda çap-naçar qalıb, eşiyə çıxdı ki, quşu qovsun, amma quş heç yana getmədi. Əhməd hirslənib quşun ayaqlarından yapışdı.

Quş da öz caynağı ilə onun biləyindən yapışdı. Əhməd quşla o qədər əlləşdi ki, bir də ayılıb gördü ki, ayaqları yerdən üzülüb, göyün beşinci qatındadır. Əlacsız qalıb gözlərini yumdu, quşun ayaqlarından da bərk-bərk yapışdı. Bir azdan dedi:

– Əhməd, gözlərini aç, artıq sən bizim məkandasan.

Əhməd gözlərini açanda özünü güllü-çiçəkli bir dağın döşündə gördü. Quş onu burda qoyub, uçub getdi. Quş getməkdə olsun, sizə deyim Əhməddən. Əhməd qaldı məəttəl nə eləsin. O tərəf-bu tərəfə baxıb gördü ki, nə bir kənd var, nə bir kəsək. Təkcə qarşıda bir təpə var. Öz-özünə fikirləşdi ki, gedim ora, bəlkə, bir adama rast gəldim. O, yavaş-yavaş təpəni aşdı, gördü burda bir şəhər var, amma heç bir insan da görünmür. Çox fikirləşdi ki, bu nə işdi? Əhməd çox acmışdı. Bir az aşağı enib, şəhərin kənarına çatdı. Gördü ki, şəhərin bir tərəfindən tüstü gəlir. Yavaş-yavaş tüstü gələn tərəfə üz tutdu. Gəlib gördü qapı açıqdı, amma içəridə heç kim yoxdu. O tərəf bu tərəfə boylanıb harayladı, amma səs gəlmədi. Gördü ocağın üstündə bir qazan var, qazanın içində dəmlənmiş aş, kənarda da bir samavarda çay. Aşdan götürüb yedi, çaydan da içdi. Bir az keçmiş gördü ki, bir adam gəldi, üzünün örtüyünü açdı. Əhməd baxdı ki, bu elə gözəldi ki, heç yaranmışından belə gözəl görməmişdi. Qız dedi:

– Sən məni tanıyırsanmı, mən hurilər padşahının qızıyam. Səni çəpərin dibindən götürüb gələn də mənəm. Biz həmişə başqa donda gəzirik. Mən quş donunda səni görmüşdüm. Bura göyün beşinci qatıdır. Atam isə buradan yuxarıda – altıncı qatda yaşayır. Buralar mənim məskənimdir. İstəyirsən mənimlə burda qal, istəmirsən səni endirim aşağı. Bizdə qayda belədir, heç bir şey qıfılda olmaz, kim nə qədər istəsə yeyib geyə bilər. İşdi, qalası olsan, səninlə üç şərtim var: onları qəbul etsən, qalacaqsan, qəbul etməsən, yox. Əhməd Dərbəndi dedi:

– Huriər padşahının qızı, de görüm o şərtlər hansılardır?

Qız dedi:

– Birinci, gərək heç vaxt yalan danışmayasan, ikinci, danışanda and içməyəsən, üçüncüsü, övladımız olanda yeddi yaşı olana kimi sən onunla kəlmə verib, kəlmə almayasan.

Əhməd Dərbəndi dedi:

– Xanım, o dediklərinin ikisini qəbul edirəm, ancaq üçüncüsünü yox.

Qız dedi:

– Kefinə bax, belədir. Qəbul eləsən, qalacaqsan, eləməsən, yox.

Əhməd Dərbəndi çox fikirləşdikdən sonra qızın şərtini qəbul etdi. Vaxt keçdi, bunların bir oğlu oldu. Uşaq çox gözəl idi. Aylar, illər keçdi. Uşaq dörd yaşına gəlib çatdı. Qız Əhmədi sınamaq üçün dedi:

– Əhməd, atam-anam yadıma düşüb, icazə ver, gedim onlarla görüşüm, gəlim.

Əhməd Dərbəndi razılaşıb dedi:

– Xanım, getginən, nə deyirəm.

Qız dedi:

– Yox, de görüm neçə günə icazə verirsən?

Əhməd Dərbəndi dedi:

– Üç günə.

Qız, – oldu, – deyib uçub getdi.

Əhməd oğlu ilə tək qaldı. Birinci gün o oğlunu dindirmədi. İkinci gün uşaq əl çəkmədi:

– Ay ata, anamla danışırsan, mənimlə niyə danışmırsan?

Əhmədin ürəyi yumşaldı, hər şey yadından çıxdı, başladı oğlu ilə danışmağa. Bu məqamda xanım içəri girdi, dedi:

– Əhməd Dərbəndi, şərtimizi pozdun, hazırlaş, getməlisən.

Əhməd dedi:

– Ay xanım, vallah uşaqla danışmadım.

Qız dedi:

– Əhməd, indi şərtimizin üçünü də pozdun.

Əhməd gördü olmur, əlacsız qalıb yalvarmağa başladı. Qız razılaşdı, dedi:

– Birinci dəfə olduğuna görə bağışlayıram. Bir də şərtimizi pozsan, bağışlamayacam.

Onlar iki il də belə yaşadılar. Günlərin bir günündə bağdakı ağacın başına gəlib bir quş qondu. Əhməd dedi:

– Xanım, o quş nədir?

Qız dedi:

– O mənim qardaşımdır. Deyir toyumdur, ərindən icazə al, gedək.

Əhməd dedi:

– Olmazmı mən də gedim?

Qız dedi:

– Səni aparmağa atamgil razı olmazlar.

Əhməd dedi:

– Nə vaxt gələcəksən?

Qız dedi:

– Bizdə toy qırx gün olur.

Qardaş-bacı uçub getdilər. Əhmədlə oğlu yenə tək qaldı. Günlər keçdi. Yenə uşaq Əhməddən əl çəkmədi. Axırda Əhməd öz-özünə fikirləşdi ki, nə biləcək, qoy danışım. Başladı uşaqla danışmağa. Bir gecə birdən qapı döyüldü. Əhməd uzanıb, özünü yuxuluğa vurdu. Qız içəri girib dedi:

– Əhməd, dur görüm şərtimizi niyə pozdun?

Əhməd dedi:

– Xanım, vallah pozmadım.

Əhməd nə qədər yalvardısa, mümkün olmadı. Hurilər qızı quş donuna girərək Əhmədi gətirib düz götürdüyü yerə qoydu. Əhmədə bir lələk də verib dedi:

– Əhməd, bu lələyi yandıranda Hatəm yanında hazır olacaq. Sənə ancaq o, kömək eləyə bilər.

Bunu deyib, uçub getdi. Əhməd gördü ki, çəpərə sərdiyi paltarlar çoxdan çürüyüb. Birdən yadına düşü ki, huri qızı buna lələk verib. Lələyi yandırdı. O saat Hatəm yanında hazır oldu. Hatəm dedi:

– Əhməd, vaxt gələndə sənin yanındayam. Hələ tezdir.

Bunu deyib gözdən itdi. Əhməd burda qalsın, görək Hatəm hara getdi. Hatəm az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib bir şəhərə çıxdı. Gördü yolun kənarında bir kor kişi oturub, yanında da bir uşaq. Kor gəlib-gedənə deyirdi:

– Allah yolunda mənə nəzir verin, verənnən sonra da üzümə bir şillə vurun, gözlərimə də tüpürün.

Hatəm kor kişiyə bir qızıl atdı. Getmək istəyəndə kor dedi:

– Qızılını götür.

Hatəm nə qədər elədisə, mümkün olmadı. Kor kişi onun verdiyi qızılı geri qaytardı. Hatəm öz-özünə fikirləşdi ki, mən bu sirri mütləq öyrənməliyəm. Odu ki, Hatəm düşdü bunların dalınca. Axşam gəlib kor kişinin qapısını döydü. Kor kişi dedi:

– Nə istəyirsən?

Hatəm dedi:

– Sizə qonaq olmaq istəyirəm.

Kor kişi dedi:

– Keç içəri.

Hatəm kor kişi ilə xeyli söhbət elədi. Axırda mətləb üstə gəlib soruşdu:

– Öz sirrindən məni agah elə.

Kor dedi:

– Ey qonaq qardaş, sən mənim dərdimə əlac eliyən ha deyilsən.

Hatəm dedi:

– Sən sirrini söylə, bəlkə, bir əlac elədim.

Kor kişi söhbətə başladı:

– Qonaq qardaş, mən quldurbaşı idim. Yolla ötüb keçən karvanları soyurdum. Bir gün bir dəvə karvanının yolunu kəsdim. Karvanbaşı dedi:

– Karvanda nə varsa, hamısı sizin olsun, ancaq sandığın içində iki qutu var, biri ağdır, o biri qara, onları özümə ver.

Mən dedim:

– O qutuların içində nə var? De, sonra verim.

Dedi:

– Qutuların içində nə olduğunu desəm, geri qaytarmazsan.

Mən and içdim. Karvanbaşı dedi:

– Ağ dərmanı gözə çəkəndə gözləri kor edir. Qara dərmanı çəkəndə ağrıyan gözləri sağaldır. Gözə elə bir işıq gətirir ki, yeddi ağaclıqda hər nə desən görmək olur.

Bu sözləri eşidib mən andımı pozdum. Qutudakı dərmanları geri qaytarmadım.

Karvanbaşı dedi:

– Allah bilsin, sən bil.

Karvanbaşı daha heç nə deməyib çıxıb getdi. Həmin axşam gördüm ki, gözlərim ağrıyır. Dərmanlar yadıma düşdü. Dərmanın qarasından gözlərimə çəkib yatdım. Səhər uşaqların səsinə oyandım. Dedim:

– Ay uşaqlar, nə tezdən durubsunuz? Hələ qaranlıqdı ki!

Dedilər:

– Ağa, səhər çoxdan açılıb.

Mən öz-özümə məəttəl qaldım. Əlimi gözlərimə çəkəndə gördüm gözlərim çanağından çıxıb. Dedim, artıq tamah insanın başına hər nə bəla desən, gətirər. Odur ki, mən öz-özümü bu hala salıram. Mənim var-dövlətim başımdan aşıb daşır.

Hatəm kor kişinin hekayətini dinləyib cibindən bir lələk çıxartdı. Lələyi kor kişinin gözlərinə çəkdi. Kişinin gözlərinə işıq gəldi. Hatəm dedi:

– Bundan sonra tamahkarlıq edib imanı əldən buraxma!

O gündən quldurbaşı yol kəsib karvan soymaqdan əl çəkdi. Halal zəhmətlə dolanmağa başladı. Quldurbaşı burda halal zəhmətlə dolanmağında olsun, görək Hatəmin başına nə gəldi.

Hatəm gəzə-gəzə gəlib, ayrı bir vilayətə çıxdı. Bazara girəndə gördü ki, bir kişi qızıldan qayrılmış bir qılınc satır. O, qılıncı istədiyi qiymətə satır, aradan bir az keçməmiş qılıncı geri qaytarır. Həmin qılıncı qırıq-qırıq edib, bir kisəyə doldurur. Hatəm kişinin bu hərəkətinə göz qoyub fikirləşdi ki, burda nə isə bir sirr var. İkinci gün Hatəm yenə kişinin yanına gəldi. Gördü ki, o, yenə həmin qılıncı bir adama istədiyi qiymətə satdı. Aradan bir az keçməmiş pulu verib qılıncı geri aldı. Qılıncı qırıq-qırıq edib, kisəsinə doldurdu, başladı getməyə. Hatəm də düşdü qarabaqara onun arxasınca. Evə çatan kimi Hatəm yaxınlaşıb, qapını döydü. Həmin kişi qapını açıb soruşdu:

– Kimsən, nə istəyirsən?

Hatəm dedi:

– Qərib adamam, məni bu gecəliyinə Allah qonağı et.

Həmin adam cavab verdi:

– Vallah, yerim darısqaldı, bircə taxtım var, orda da özüm yatıram. Bəs sən harda yatacaqsan?

Hatəm dedi:

– Eyb etməz, bir gecəliyinə ikimiz də bir yatarıq.

Onlar oturub xeyli söhbət elədilər. Allah verəndən yeyib-içdilər. Hatəm dedi:

– Qardaş, gərək öz sirrini mənə açasan.

Ev yiyəsi məəttəl qaldı, dedi:

– Qonaq qardaş, hansı sirri deyirsən?

Hatəm dedi:

– O sirri deyirəm ki, sən o bazarda satdığın qılıncı niyə satırdın, niyə qaytarıb qırırdın. Bir də o pərdəni niyə evin ortasından çəkmisən?

Ev sahibi dedi:

– Qonaq qardaş, neynirsən, sən ki mənim dərdimə əlac eləyib, kədərimə yoldaş olası deyilsən.

Hatəm dedi:

– Bəlkə, dərdinə bir əlac elədim.

Ev sahibi bunu eşidib başına gələnləri söyləməyə başladı: “Təzəcə evlənmişdim. Bu vaxt kənddə bir hadisə baş verdi. Bir gecə kəndxudanı öldürüb, mən qılınc satdığım yerdə ağaca sarımışdılar. Səhər xəbər yayıldı ki, filankəsi filan yerdə sarıyıblar. Mən getmək istəyəndə zənənim dedi ki, sən gəl getməginən. Səni şərə salarlar. Mən onun sözünə baxmayıb getdim. Elə də oldu. Məni, bir də məndən başqa bir neçə nəfəri tutub sürgün elədilər. Aradan uzun müddət gəlib keçdi. Məni buraxdılar. Fikirləşdim gedim öz vilayətimə, görüm nə var, nə yox. Nəhayət, öz vilayətimə gəlib çıxdım. Gördüm ki, evim öz yerindədi. Axşamacan şəhərin kənarında qaldım. Gecədən xeyli keçmiş gəlib gördüm evdə bir zənənim, bir də həddi-buluğa çatmış bir cavan oğlan var. Onlar yeyib-içdilər. Sonra isə bir yerdə yıxılıb yatdılar. Ürəyim tab gətirmədi. Gördüyün bu qılıncla hər ikisinin başını yatdığı yerdə kəsdim. Sonra gəlib bulağın başında oturub fikirləşməyə başladım. Səhər açılanda gördüm ki, qız-gəlinlər bulağa gəlirlər. Tez ağacın başına çıxdım. Gördüm onlar öz aralarında danışırlar ki, bu gecə kimsə filankəsin arvadının, bircə oğlunun başını kəsib çıxıb gedib. Mən başa düşdüm ki, həmin oğlan öz oğlum imiş”.

Söhbətini qurtaran vaxt ev sahibi pərdəni açıb, arvadı ilə oğlunu Hatəmə göstərdi. Hatəm cibindən lələyi çıxarıb, ev sahibinin arvadının, oğlunun boğazına çəkdi. Onların ikisi də asqırıb, ayağa qalxdılar.

Hatəm vilayəti gəzərək çətinliyə düşənlərin köməyinə çatırdı. Birdən Əhməd Dərbəndi yadına düşdü. Əhməd Dərbəndi də bu vaxt fikirdən ayılıb, Hatəmin verdiyi lələyi yandırdı. Hatəm o vaxt Əhməd Dənbəndinin yanında hazır oldu. Hatəm dedi:

– Əhməd, mən hazır.

Əhməd dedi:

– Məni öz sevgilimə, oğluma çatdır.

Hatəm hökm eylədi. Onlar hurilər padşahının hüzurunda hazır oldular. Hatəm hurilər padşahına dedi:

– O, bizim qanunu, adəti pozub.

Hatəm dedi:

– Ey padşah, hansı atanın ürəyi tab gətirər ki, öz övladı ilə danışmasın?

Hurilər padşahı daha bir söz demədi. Qızını, nəvəsini çağırtdırdı. Əhməd arvadı, oğlu ilə görüşüb-öpüşdü. Hatəm onlardan ayrılıb, özgə vilayətlərə yola düşdü.

Əhməd Dərbəndi şad-xürrəm ömür sürüb, burda yaşamağa başladı.

Nağıl qaldı orda, biz də burda. Siz sağ, mən salamat. Siz yüz yaşayın, mən iki əlli, hansı çoxdu sizin olsun.

Göydən üç alma düşdü, biri mənim, biri nağıla qulaq asanın, biri də bacadan baxıb "istəmirəm" deyənlərin.

## Məlik Tacirin nağılı (59)

Günlərin bir günündə Qəndəhar şəhərində padşah öz taxtında oturmuşdu, vəzir-vəkilnən söhbət eləyirdi. Birdən xəbər gətirdilər:

– Padşah sağ olsun, elçi daşının üstündə bir dərviş oturub, sizi görmək istəyir:

Padşah dedi:

– Mənim dərvişlərnən işim yoxdu. Aparın puldan-zaddan verin, çıxıb getsin.

Padşahın əmrini dərvişə yetirdilər. Dərviş dedi:

– Mən pay-pul alan dərvişlərdən deyiləm. Mən padşahın özünü görmək istəyirəm.

Dərvişi gətirdilər padşahın yanına. Padşah dedi:

– Dərviş, mənə görə qulluq?

Dərviş dedi:

– Padşah sağ olsun, mən istəyirəm sənə üç gün qonaq olam, amma bu müddətdə mənə dərviş kimi yox, başqa bir vilayətin padşahı kimi baxasan. Əgər razısansa, qalaram, yox, əgər razı deyilsənsə, çıxıb gedərəm.

Padşah öz-özünə bir qədər fikirləşdi ki, bu necə dərvişdi ki, mənim hüzurumda belə danışır. Xeyli fikirləşib dedi:

– Yaxşı, razıyam.

Padşah əmr elədi dərvişin şəninə məclis quruldu, şəhərin hörmətli adamları, alimləri çağrıldı, yemək-içmək... Axır, gəlib üç gün başa çatdı. Dərviş bir nar çıxarıb padşaha verib, dedi:

– Padşah sağ olsun, bu narı sənə bağışlayıram, amma bunu mən gedənnən sonra kəsərsən. Ancaq elə edərsən ki, heç kimin xəbəri olmasın. Bilirəm, dalımca gələcəksən. Əgər məni axtarsan, İsfahan şəhərində axtar.

Dərviş çıxıb getdi. Padşahın vəzirə qədərsiz hörməti vardı. Odu ki, dərviş verən narı götürüb, verdi vəzirə, dedi:

– Vəzir, bu narı apar, bir yaxşı yerdə saxla.

Vəzir də öz-özünə fikirləşdi ki, bu nar nə böyük şeymiş ki, padşah belə möhkəm-möhkəm tapşırır. Bir söz deməyib, bir etibarlı yerdə narı gizlətdi.

Aradan altı ay keçdi, Padşah dedi:

– Vəzir, o narı gətir.

Vəzir gedib dərviş verən narı gətirdi. Padşah bir boşqab götürüb, narı kəsdi. Nə gördü.... Narın içi ləl-cəvahiratla dolu imiş. Padşahnan vəzir mat qaldı ki, yaxşı, bu narın qabığı nar qabığı, saplağı nar saplağı, adicə bir nar, amma içi ləl-cəvahiratla dolu. Bu necə olan işdir? Padşah bir qədər fikirləşib dedi:

– Vəzir, hazırlaş, gedirik İsfahana. Ya mən öləcəyəm, ya da öz əlimlə bu nardan dərib gətirəcəyəm.

Bəli, padşahla vəzir hazırlaşdılar. Xəbəri xəbərdən, xəbəri cəlladın oğlu Ayazdan. Padşahın oğlu yoxuydu. Ayazı oğulluğa götürmüşdü. Ayaz qılınc vuran, ox atan igid bir oğlanıydı. Öz-özünə dedi ki, gərək mən də padşahla gedim. İndiyə kimi Qəndəhardan başqa bir yer görməmişəm. Gəldi padşahın yanına, o vaxt çatdı ki, artıq padşah üzəngini basıb ata minmək istəyirdi, dedi:

– Padşah sağ olsun, yolunuz uğurlu olsun. Burdan İsfahana nə qədər yol olar?

Padşah dedi:

– Altı aylıq yol olar. Nə üçün soruşursan?

Ayaz dedi:

– Padşah sağ olsun, bəs bu altı ayda sizə bir adam lazım deyilmi ki, atınızı yemləsin, suvarsın, gecələr düşərgə edəndə sizə qaravul çəksin, sizin qulluğunuzda dursun?

Padşah dedi:

– Vəzir, görürsənmi, ağıl yaşda deyil, başdadı. Ayaz doğru deyir. Oğlum, hazırlaş, sən də biznən gedəcəksən.

Bəli, hazırlaşıb yola düşdülər, az getdilər, çox getdilər, gəlib bir şəhərin kənarına çatdılar. Artıq qaranlıq düşürdü. Padşah dedi:

– Artıq axşam düşür. Bu vaxt şəhərə girmək yaramaz. Yaxşısı budu, burda düşərgə eliyək. Səhər yolumuza davam eləyərik. Gəlib bir bulağın başında düşərgə eləmək istədilər. Dedilər ki, həm özümüz burda dincələk, həm də atlarımız otlasın. Ayaz tez əlini əlinə vurdu, ətəyinə, belinə odundan-kötükdən yığdı, tez iki çadır qurdu, birini padşaha, birini də vəzirə. Padşah dedi:

– Bəs sən yatıb dincəlməyəcəksən?

Ayaz dedi:

– Padşah sağ olsun, mən də sizə keşik çəkəcəyəm.

Bular burda qalmaqda olsunlar, xəbəri xəbərdən, xəbəri bu şəhərin padşahından. Sən demə, bu şəhərin padşahı onlara tamaşa edirmiş. Onların çadır qurduğunu gördükdə bir nəfəri çağırıb dedi:

– Get onlara de ki, bizim torpaqda mıx vurub çadır quran, sabah da özünə imarət tikdirər. Padşahdan icazəsiz bu torpaqda heç kəsin çadır qurmağa ixtiyarı yoxdu.

Elçi gəlib padşahlarının sözünü bunlara çatdırdı. Padşah dedi:

– Vəzir, cavab ver.

Vəzir dedi:

– Padşah sağ olsun, nə cavab verim, bu padşah hökmüdü, ya gərək ona əməl eliyək, ya da gərək biz üç nəfər onlarla vuruşaq.

Elçi getmək istəyəndə Ayaz dedi:

– Mənim sözüm var, biz qonağıq, sizin padşah quru yerdə qalmağa da icazə vermir. Gedib ona deyərsən ki, ona ayıb olsun, biz də onun kimi bir ölkənin padşahı-vəziriyik, əgər siz bizim torpağa gəlmiş olsaydınız, ayaqlarınız altda xalı-xalça döşəyərdik, qulluğunuzda durardıq.

Elçi gedib padşaha dedi:

– Padşah sağ olsun, padşahla-vəzir çıxıb getmək istəyirdi, cavan oğlan belə dedi.

Padşah dedi:

– Yaxşı, get de ki, bu gecəliyə qalsınlar.

Elçi gəlib dedi:

– Padşahımız xanım deyir ki, bu gecəliyə qalsınlar.

Elçinin sözündən bunlar bildi ki, bu şəhərin padşahı xatun imiş. O tərəfdən də şəhərin padşahı paltarını dəyişib, başladı bunlara baxmağa. Qız nə qız, aya deyir sən çıxma, mən çıxacam, günə deyir sən çıxma, mən çıxacam. Bunlar üçü də öz-özlərinə fikirləşdi ki, nə olaydı onunla söhbət edəydim.

Padşah dedi:

– Ayaz, de görək, gecə necə növbə çəkməliyik?

Ayaz dedi:

– Padşah sağ olsun, gecənin birinci yarısı sən növbə çəkərsən, ikinci yarısı vəzir, üçüncü yarısı da yuxunun ən şirin vaxtıdı, mən çavanam, mən növbə çəkərəm.

Bəli, bunlar razılaşdılar. Hərəsi də öz ürəyində fikirləşdi ki, elə yaxşı oldu, mənim vaxtım yaxşı vaxtdı, gedib xanım padşahla söhbət edərəm. Hərəsi öz mətləbini gizli saxladı.

Vəzirnən Ayaz yerinə uzandı. Padşah bir o yana getdi, bir bu yana getdi. Gördü ki, vəzirnən Ayaz yatıb. Ancaq onlar da yalandan özlərini yuxuluğa vurmuşdular. Başladı padşahın sarayına doğru getməyə. Xanım padşah da bilirdi ki, onlardan hansı olsa, onun yanına gələcək. Odu ki, bütün adamlarına əmr elədi ki, dağılışsınlar, bütün işıqları söndürsünlər, tək özününkünnən savayı. Padşah gəlib gördü ki, bütün qapılar açıq, qaravul yox, tək bircə otaqdan işıq gəlir. Gəldi həmin otağa. Gördü otaq pərdəynən iki yerə bölünüb.

Pərdənin arxasından səs gəldi:

– De görüm, nəyə gəlmisən?

Padşah dedi:

– Xanım, biz yol adamıyıq, dedim, bir az söhbət eliyim, vaxtımız keçsin.

Xanım dedi:

– Düzünü de, məqsədin nədi?

Padşah dedi:

– Xanım, indi ki, deyirsən düzünü deyim, onda eşit, mən Qəndahar şəhərinin padşahıyam, istəyirəm səni alım.

Xanım dedi:

– Nə olar, razıyam, ancaq bu süfrəyə bax, gör padnosun içində nə var, bu nə deməkdir?

Padşah baxdı ki, bir top iynə, bir qayçı, bir sap, bir topa kağız, bir dənə də nar.

Padşah dedi:

– Xanım, mən otuz ildi ki, padşaham. Bunun nə demək olduğunu bilmirəm.

Xanım dedi:

– Qibleyi-aləm, onda öz yolunnan get.

Padşah geri qayıdıb gəldi. Vəziri təpikləyib qaldırdı ki, dur, sənin növbə çəkən vaxtındı. Vəzir durdu. Bir qədər keçməmiş padşah xoruldamağa başladı. Vəzirlər siyasətcil olur axı. Bir qədər o tərəf-bu tərəfə getdi, gördü ki, padşah yatıb. Üz qoydu saraya tərəf getməyə. O da padşah kimi gördü ki, yolda heç bir qul-qaravaş, qaravul yoxdu, bütün qapılar açıxdı. Hər yerdə işıqlar sönüb, bircə qapıdan işıq gəlir. Gəlib gördü ki, bu otaq pərdəynən iki yerə bölünüb. Vəzir otağa girən kimi pərdənin arxasından səs gəldi:

– Sən kimsən, bura gəlməkdə məqsədin nədi?

Vəzir dedi:

– Mən Qəndəhar padşahının vəziriyəm. Bura gəlməkdə məqsədim odu ki, səninlə bir az söhbət eliyim.

Qız dedi:

– Sən bir padşahın vəzirisən. Heç gecənin bu vaxtında vəzir tanımadığı bir yerə, özü də yad bir qızın yanına gedərmi? Düzünü de görüm, bura gəlməkdə mətləbin nədi?

Vəzir dedi:

– Mən istəyirəm ki, səni özümə alım.

Qız dedi:

– Nə olar, bir qız bir kişinindi. Ancaq əvvəlcə bu padnosa baxıb, bunun nə demək olduğunu de, sonra sənə getməyə razıyam.

Vəzir də padşah kimi baxıb gördü ki, padnosda bir top iynə, bir qayçı, bir sap, bir topa kağız, bir dənə də nar var. Heç nə başa düşmədi, dedi:

– Xanım, mən on il bu padşahın atasına vəzirlik eləmişəm, otuz ildi də bu padşaha vəzirlik eləyirəm, amma bu padnosun mənasını başa düşmədim.

Qız dedi:

– Onda padşahın getdiyi yolnan sən də qayıt.

Vəzir də kor-peşman geri qayıtdı, təpikləyib Ayazı oyatdı. Dedi:

– Dur, indi də sən keşik çək, sənin vaxtındı.

Ayaz qalxıb, bir az o yana getdi, bir az bu yana getdi. Gördü ki, padşahla vəzir yatıb. Üz tutdu saraya tərəf getməyə. Bu da gördü ki, yolda heç bir qul-qaravul yoxdu. Bircə qapıdan işıq gəlir, gəlib ora çıxdı. Gördü otaq pərdəynən iki yerə kəsilib. İçəri girən kimi pərdənin arxasından səs gəldi:

– Kimsən, bura niyə gəlibsən?

Ayaz dedi:

– Mən Qəndəhar padşahının cəlladının oğluyam, bura gəlməkdə də məqsədim odur ki, səninlə söhbət eliyim, vaxtım keçsin.

Qız dedi:

– Onda padnosa bax. Mənasını de, sən deyənə razıyam.

Ayaz qayçını götürüb, bir topa kağızı parça-parça doğradı, bütün iynələri nara sancdı, nardan qan kimi qıpqırmızı su tökülməyə başladı, bundan sonra narın saplağına ipi bağlayıb, tavandan asdı.

Qız dedi:

– Bunun mənası nədi?

Ayaz dedi:

– Xanım, əgər məni bu kağız kimi parça-parça doğrasalar, bu nar kimi oxlasalar, ya da boğazımdan assalar, bu gecə səninlə söhbət etməyimi heç kimə deməərəm.

Ayazın cavabını eşidib qız pərdəni çəkib dedi:

– Oğlan, gəl, söhbət eliyək.

Ayaz gördü ki, taxtda bir qız oturub hüri-mələk. Bir könüldən min könülə ona aşiq oldu. Gəlib taxtda qızın yanında oturdu, səhərə kimi şirin-şirin söhbət elədilər. Sabaha yaxın Ayaz dedi:

– Xanım, mən gedim, indi padşahnan vəzir ayılar. Biz İsfahan şəhərinə gedirik. Əgər sağ-salamat gəlsəm, qayıdanda səni də alıb özümlə apararam.

Qız dedi:

– Oğlan, ya qismət.

Ayaz qızdan ayrılıb, gəldi çadır qurduqları yerə. Bir az keçmiş padşahnan vəzir də ayıldı. Əl-ayaqlarını yudular, dəstəmaz aldılar, namaz qıldılar, yemək yedilər.

Padşah dedi:

– Oğlum, bu gecə hardaydın?

Ayaz dedi:

– Padşah sağ olsun, gecə yarıya qədər yatmışam, gecə yarıdan sonra sizə keşik çəkmişəm.

Padşah dedi:

– Oğlum, düzünü de, mən sənə atalıq eləmişəm, dizimin üstündə saxlamışam, bu gecə hardaydın?

Ayaz dedi:

– Padşah sağ olsun, istiyirsən atam olma, babam ol, mən gecə yarıya kimi yatmışam, gecə yarıdan sonra sizə keşik çəkmişəm.

Padşah dedi:

– Ayaz, baxmaram yol yoldaşı olmağımıza, səni asdırram, mənimlə cəhl eləmə, bu gecə hardaydın?

Ayaz dedi:

– Padşah sağ olsun, ixtiyar sahibisiz, mən bu gecə heç yerdə olmamışam.

Qız da pəncərənin arxasından baxırdı. Padşah dedi:

– Vəzir, get o meşədən üç paya kəs gətir. Dar ağacı qurub, Ayazı as.

Vəzir gedib meşədən üç paya kəsib gətirdi. Sacayağı kimi düzəltdilər. Yəhərləri də üst-üstə düzdülər. Ayazı çıxartdılar yəhərlərin üstə. Halqa düzəldib keçirtdilər boğazına. Padşah dedi:

– Ayaz, sonuncu kərə sənə deyirəm, bu gecə hardaydın?

Ayaz dedi:

– Padşah sağ olsun, yüz dəfə asıb diriltsən də sözüm birdi, gecə yarıya kimi yatmışam, gecə yarıdan sonra sizə keşik çəkmişəm.

Padşah dedi:

– Vəzir, götür yəhərləri, qoy dar ağacından asılsın.

Bu vaxt qız bir narı pəncərədən yerə atdı. Nar parça-parça olub dağıldı. Bunu görən kimi Ayaz dedi:

– Padşah sağ olsun, əl saxlayın, hər şeyi danışım.

Padşahla vəzir əl saxladılar. Padşah dedi:

– Ayaz, nə üçün indiyə kimi demirdin, indi hər şeyi söyləməyə razısan?

Ayaz dedi:

– Padşah sağ olsun, mən bu gecə bax o qızın yanında olmuşam, mən and içib söz vermişdim ki, bu sirri heç kəsə açmayım. Amma indi sirr sahibi narı yerə çırpıb işarə elədi ki, sirri aç. Bütün dünyaya de ki, mən bu gecə filan qızın yanında olmuşam.

Padşah dedi:

– Oğlum, bəs o padnosdakı nə idi?

Ayaz dedi:

– Kağızla nar mənim bədənimdi. Mən söz vermişdim ki, məni kağız kimi tikə-tikə doğrasalar da, nar kimi oxlaslar da, sonra boğazımdan assalar da sirri heç kimə açmaram. İndi sirr sahibi narı yerə çırpıb açmağıma izin verdi, ona görə mən də sizə söylədim.

Padşah dedi:

– Oğlum, indi get o qızın yanına, istəyirsən qal yanında, istəyirsən də bizimlə get, gələndə qızı da alıb apararıq.

Ayaz dedi:

– Padşah sağ olsun, yüz elə qız ola, mən söz vermişəm, sizinlə yol yoldaşıyam axıra kimi, ya qismət, salamat gedib qayıtsaq, sonrasına baxarıq.

Padşah izin verdi ki, Ayaz gedib qızla görüşsün. Qız da öz adamları ilə təmtəraqla onları yola saldı.

Xülasə, gəlib çatdılar İsfahan şəhərinə. Ayaz atları suladı, bağladı, vəzir yemək tədarükündə oldu, padşah əl-üzünü yudu, bir az dincəlib dedi:

– Bilirsiz nə var?

Dedilər:

– Xeyr, qibleyi-aləm.

Padşah dedi:

– Siz yemək tədarükündə olun, mən bir bazarı aylanıb gəlirəm.

Bəli, padşah yollandı bazara. Elə bazara çatmışdı ki, gördü bir xeyli adam dövrə vurub, həmin dəvriş də ortada oturub köşkülün qabağına qoyub oxuyur. Özünü tanıtmaq üçün bir qızıl atdı köşkülə. Amma dərviş nə səsini kəsdi, nə də gözünü qırpdı. Padşah öz-özünə fikirləşdi ki, dərviş niyə məni tanımadı. Qoy sözünü qurtarsın, sonra ona yaxınlaşaram. Dərviş sözünü qutaran kimi gəlib padşahın qolunnan tutub dedi:

– Gəl gedək, mənim qonağımsan.

Gəldilər dərvişin evinə. Üç gün, üç gecə yeyib içdiər. Üçüncü gün padşah dedi:

– Mən bura yeyib-içməyə gəlməmişəm. Bir nar o tərəkdən dərməliyəm.

Dərviş dedi:

– O tərək pərilərin məskənindədi. O tərəkdən nar dərməyə səndə nə səbr olmaz, nə də qüdrət.

Bunu deyib dərviş otaqların birindən bir çuval nar gətirib, yerə töküb dedi:

– Ey padşah, bunlar hamısı o nardandı, nə qədər istəyirsən götür, istəyirsən hamısı sənin olsun, amma aman günüdü o tərəkdən sən nar dərə bilməzsən, puç olarsan, əl çək bu fikirdən.

Padşah dedi:

– Ey dərviş, mənə var-dövlət lazım deyil, mən bütün var-dövlətimi də, üstəlik başımı da verməyə razıyam, təki, o tərəkdən bircə dənə öz əlimlə nar dərim.

Dərviş dedi:

– İndi ki elədi, onda özün bilərsən.

Padşahla vəzir namazlarını qıldılar, yeyib içdilər, yola düzəldilər. Az getdilər, üz getdilər, gəlib bir böyük darvazalı bağa çatdılar. Dərviş bir çubuq çıxarıb, üç dəfə qapıya vurdu, dua oxudu, qapı açıldı, dedi:

– Bax düz gedərsən, heç yana baxmazsan, bir otaqdan səs gələcək – "mən sətəlcəmin dərmanıyam", birindən səs gələcək – "baş ağrısının dərmanıyam", nəbadə dönüb baxasan, o saat daşa dönərsən, hamısı tilsimlidi. Gedib bir meydançada çarhovuza çıxacaqsan. Orda qırx səndəl düzülüb. Oturarsan o səndəllərin birində. Ora pərilər padşahının qızları gələcək. Sən sakit oturub dinməzsən, danışsalar, nə oyun çıxarsalar dinib-danışma, ta ki özləri səni danışdıranacan.

Padşah dərvişin dediyi kimi heç yana baxmayıb, düz gəldi çarhovuzun başına. Gördü burda qırx səndəl var. Sakitcə birinin üstündə oturdu. Bir az keçmiş qırx göyərçin uçub gəldi, dönüb oldular qız. Hərəsi bir səndəlin üstündə oturdu. Birinə yer olmadı, gəlib sıxıldı bacılarının yanına. Qızlardan biri dedi:

– Bacılı, ay bacılı.

O biri dedi:

– Can bacılı.

Dedi:

– Bir əhvalat danışaq, padşah gəlib, qoy qulaq assın.

Qızlardan biri dedi: – sən danış, o biri dedi: – sən danış, axırda biri söhbətə başladı: "Bir vilayətdə Məlik adlı bir tacir vardı, dövləti başınnan aşıb-daşırdı. Onun gözünün ağı-qarası bircə oğlu vardı. Vaxt gəlir, bu tacirin xatunu ölür. Aradan xeyli keçənnən sonra tacir oğlunu çağırıb deyir:

– Oğlum, sənin evlənmək vaxtındı, qoy bir halal süd əmmiş qız alaq, mən də qocalmışam, mənə də qulluq lazımdı.

Oğlu razılaşır. Bir tacirin qızına elçi gedirlər, qırx gün, qırx gecə toy, zurna-nağara çaldırıb qızı gətirirlər. Səhər tacir oğlundan soruşdu:

– Oğlum, qız xoşuna gəldimi?
Oğlan dedi:
– Xeyr, ata.
Bu minvalla qırx qız alıb toy elədi, oğlan heç bir qızı bəyənmədi. Axı tacir varrı adamdı, pul hər şeyi kəsir. Heç kim onun sözünü rədd edə bilmirdi. İş o yerə çatdı ki, kimin gözəl qızı vardısa ya gizlədirdi, ya da şəhərdən çıxıb gedirdi. Bir gün Məlik tacir dükanda tacirlərlə oturub söhbət eliyirdi.
Dedilər:
– Sən bu oğlunu evləndirib qutarmadınmı?
Məlik tacir dedi:
– Gözümün ağı-qarası bircə oğlum var, kimi alırsa bəyənmir, nə edim, o bəyənmədiyini mən də bəyənmirəm.
Dedilər:
– Bu şəhərin ucqarında bir naxırçı var, onun ağıllı, gözəl bir qızı var.
Məlik tacir dedi:
– Mən tacir, o naxırçı, mən necə elçi gedim?
Dedilər:
– Sənin işin yoxdu, biz özümüz elçilik eliyərik.
Elçilər getdilər naxırçının evinə. Dedilər:
– Məlik tacirin oğlu heç bir qız bəyənməyib, sənin qızından xoşu gəlib.
Naxırçı razı oldu. Məlik tacir hər iki toyun xərcini çəkib, təmtəraqla naxırçı qızını oğluna aldı.
Oğlan qızın duvağını açanda qız dedi:
– Oğlan, mən sən deyən qızlardan deyiləm, ananın südünə and iç ki, məni saxlayacaqsan, sonra duvağımı aç. Məsəldir, deyərlər ki, arvad ölər ər qalar, ər ölər arvad qalar.
Oğlan razı oldu. Səhər atası soruşdu:
– Oğlum, qız xoşuna gəldimi?
Oğlan dedi:

– Bəli, ata, o lap elə mən axtarandı.

Bəli, başladılar bunlar bir yerdə yaşamağa. Bir gün Məlik tacir bütün açarları oğluna verib dedi:

– Oğlum, al bu dükan-bazarın açarları. Artıq mən qocalmışam, sən mənim əvəzimə işlə, mən də istirahət eliyim.

O gündən oğlan dükan-bazar işi ilə məşğul olmağa başladı.

Xəbəri xəbərdən, xəbəri Məlik tacirdən. Məlik tacir xəstələnib düşdü döşəyə. Günlərin bir günü əcəl gəlib yazıq kişini yaxaladı, Əzrayıl sinəsinə çökdü. Kişi gördü ki, axır nəfəsidi, Gəlini səsləyib dedi:

– Qızım, tez oğlumu çağır.

Gəlin yalandan həyət-bacada fırlanıb geri qayıtdı ki, bəs oğlun heç yerdə yoxdu. Öz-özünə dedi: "Yəqin, bu məndən gizlin oğluna nəyinsə yerini söyləyəcək".

Məlik tacir oğlunun gəlmədiyini görüb dedi:

– Qızım, indi ki, oğlum gəlib çıxmadı, qoy sənə vəsiyyət eliyim, o oğlumdu, sən də qızım. Gələndə ona danışarsan. Bax həyətdəki hovuzun suyunu boşaldarsınız. İçində bir qapı görəcəksiniz, ordan aşağı düşərsiniz. Zirzəmi bütöv qızılla doludu.

Elə yazıq kişi bunu demişdi ki, gəlin onun başının altından balıncı çəkib ağzına basdı.

Elə nağılın bu yerində padşah özünü saxlaya bilməyib qışqırdı. Elə bu vaxt hər şey alt-üst oldu, bir də gözünü açanda gördü ki, nə bağ, nə qızlar, bir böyürtkan kolunun içindədi. Yarımcan yıxılıb qalıb, üst-başı cırıq-cırıq, al qanın içində. Birtəhər gəlib çıxdı dərvişin yanına.

Dərviş dedi:

– Ey padşah, sənin yüz canın ola, o nardan gətirə bilməzsən. Gəl inadından əl çək, nə qədər istəyirsən mən verim, götür apar.

Padşah dedi:

– Yox, indi nar bir yana. O nağıla axıra qədər qulaq asmasam, ürəyim partlayar.

Dərviş naəlac qalıb onu yenə gətirib həmin bağa saldı. Padşah gəlib oturdu çarhovuzun başındakı səndəllərdən birinin üstündə. Yenə pəri qızları gəlib gördülər ki, padşah yenə gəlib. Qızlardan biri dedi:

– Bacılı, padşah gəlib, nağılımızı davam elə.

Həmin qız danışmağa başladı. Axşam oğlan gəlib gördü ki, atası ölüb. Onu hörmətlə dəfn elədi.

Məlik tacirin üçü, yeddisi, qırxı çıxdı. Oğlu Məhəmməd hər gün tezdən gedib, axşam gəlirdi. Arvadı ərinin fikirli-fikirli gəzməyinnən yaman dilxor olmuşdu. Öz-özünə dedi: "Nə qədər mən evdə tək qalacağam". Qumarbazın birini tapdı. Hər gün qumarbaz onun yanına gəlirdi. Gördü ki, bu arvad yaman varlıdı. Bir gün də dedi ki, gündə bir kisə qızıl verməsən, daha gəlmiyəcəm. Naxırçı qızı bu qumarbaza hər gün bir kisə qızıl verirdi, bu da aparıb uduzurdu.

Bu minvalla altı ay keçdi. Məlik tacirin bütün var-dövləti tükəndi. Məhəmməd atasının dükanlarını da satdı. İş o yerə çatdı ki, Məhəmməd başladı hamballıq eləməyə. Bir gün Əhməd tacirin yükünü boşaldırdılar. Məhəmməd də bura gəlib yükləri boşaltmağa başladı. Axşam olanda o baxıcıdan pulunu istədi. Baxıcı dedi ki, zəhmət haqqın ayın axırında veriləcək. Məhəmməd dedi:

– Mənim yeməyə çörəyim yoxdu.

Baxıcı dedi:

– Onda get tacirin özündən istə.

Məhəmməd Əhməd tacirin yanına gəldi. Əhvalatı ona söylədi.

Əhməd tacir dedi:

– Oğlum, sən özün otur yemək ye. Axşam da evdəkinə apar.

Başladılar ordan-burdan söhbət eləməyə. Birdən Əhməd tacir soruşdu:

– Oğlum, sən kimlərdənsən?

Məhəmməd dedi:

– Məlik tacirin oğluyam.

Əhməd tacir dedi:

– Kaş mənim gözüm kor, qulağım kar olaydı, Məlik tacirin oğlunu bu halda görməyəydim.

Sonra dedi:

– Oğlum, içki içirsənmi?

Məhəmməd dedi:

– Xeyr.

– Qumar oynayırsanmı?

Dedi:

– Xeyr.

Əhməd tacir dedi:

– Ay oğul, mən Məlik tacirin 25 il hambalbaşçısı olmuşam, indi var-dövlətim başımdan aşır. Məlik tacirin var-dövləti qurtaran deyildi. Onda nə varsa sənin arvadındadı.

Məhəmməd dedi:

– Ola bilməz, arvadım namaz qılan, oruc tutan, Quran oxuyan mömin bir adamdı.

Əhməd tacir dedi:

– Oğlum, indi evə gedərsən, al bu pulu bazarlıq elə, amma arvadın nə versə yeməzsən, nə versə içməzsən, nə desə dillənməzsən, onu güdərsən. Nə görsən, sabah gəlib mənə danışarsan.

Məhəmməd gəldi evə. Arvadı onu qaşqabaqla qarşılayıb dedi:

– Kül sənin kişi başına, bir arvadı da saxlaya bilmirsən.

Məhəmməd dillənmədi. Arvad bir stəkan çay gətirib, qabağına qoydu. Eşiyə çıxanda çayı içməyib, tez pəncərədən atdı. Özünü yuxuluğa vurdu. Gözünün altınnan baxıb gördü ki, stol açıldı, min cür yemək-içmək. Bir qumarbazın biri də arvadının yanında. Səhərə kimi dinmədi. Səhər qumarbaz gedəndə dedi:

– Bir də sənin yanına gəlməyəcəm. Düz üç gündü, mənə pul vermirsən. Mən də uduzmuşam, getsəm, öldürəcəklər.

Arvad dedi:

– Ay insafsız, bu kişinin bütün var-dövlətini sən yedin. İndi ki belədi, gəl arxamca.

Onlar həyətə düşdülər. Məhəmməd də sakitcə qalxıb baxmağa başladı. Arvad hovuzun suyunu boşaldıb, bir qapı açdı. Hər tərəf gözqamaşdırıcı işığa qərq oldu. Qumarbaz ciblərini doldurub, çıxıb getdi.

Söhbətin bu yerində padşah özünü saxlaya bilməyib dedi:

– Ay namərd, bu zalım oğlu pişik kimi yatır, xəncəri soxmur bu binamusların qarnına. Elə bu sözləri demişdi ki, daha heç nədən xəbəri olmadı. Gözünü açanda özünü yenə bir böyürtkənlikdə gördü. Birtəhər dərvişin yanına gəldi.

Dərviş dedi:

– Ey padşah, sən yüz il də gedib gəlsən, o nardan gətirə bilməzsən, gəl nə qədər istəyirsən verim, götür apar.

Padşah dedi:

– Gərək mən əlimlə o nardan dərəm, həm də söhbətin davamına qulaq asam.

Dərviş üçüncü dəfə padşahı gətirib, həmən bağa saldı.

Padşah gəlib çarhovuzun başında səndəlin üstündə oturdu. Bir az keçməmişdi ki, pəri qızları gəldi. Biri dedi:

– Bacılı, padşahımız gəlib, söhbətini davam elə.

O biri dedi:

– Gərək padşahımız səbirli olsun.

Pəri qızı söhbətini davam eləməyə başladı:

Məhəmməd düz gəldi Əhməd tacirin yanına, gördüklərini danışdı. Axırda dedi:

– Atam, sən düzsən.

Tacir Əhməd dedi:

– Oğlum, gedərsən evə, elə ki gördün arvadın yenə hay-küy salır, onda deyərsən ki, daha biz bir yerdə yaşaya bilmərik. Gərək evi satıb yarı bölək.

Bunu deyən kimi arvad dedi:

– Kül sənin kişi başına, mən elə bilirdim ki, sən arvad saxlayan yetim deyilsən.

Belə deyib çarşabını başına salıb çıxıb getdi. Məhəmməd gəlib əhvalatı Əhməd tacirə çatdırdı. Əhməd tacir dedi:

– Oğlum, indi arvadın gedib qumarbaza xəbər çatdıracaq, o da evi neçəyə olsa, səndən alacaq ki, hovuzun altındakı qızıla sahib olsun. Sən evin qiymətini birə-beş qat deyərsən.

Əhməd tacir iyirmi nəfər hambala da əmr elədi, həmin gecə hovuzun altındakı bütün var-dövləti daşıtdırdı evinə.

Səhər Məhəmməd bazara çıxıb evini satdığını car çəkdi.

Naxırcı qızı gedib qumarbaza xəbər vermişdi. O saat qumarbaz Məhəmmədə yanaşıb beş qat artığına evi aldı.

Naxırçı qızı ilə qumarbaz gəlib hovuzun suyun boşaltdılar. Qumarbaz baxıb gördü ki, bura elə silinib-süpürülüb ki, diş qurdalamağa bir çöp də yoxdu. Hirslənib bıçağı soxdu naxırçı qızının qarnına. Özü də qaçıb getdi.

Xəbəri xəbərdən, xəbəri Əhməd tacirdən. Əhməd tacir Məhəmmədi yanına çağırıb dedi:

– Oğlum, mən bu var-dövləti sənin atanın köməyi ilə qazanmışam. İndi istəyirəm ki, mənim bir qızım var, onu sənə verim, hər iki dövlət sənə qismət olsun. Amma qızım gözəl deyil, bir gözü kordu, bir ayağı şikəstdi, bir qolu şildi, dili də laldı.

Oğlan başını aşağı salıb xeyli fikrə getdi.

Tacir dedi:

– Oğlum, nə fikirləşirsən?

Məhəmməd dedi:

– Qəbulumdu.

Bu vaxt tacir qızını səslədi. Otağa ay parçası kimi bir qız girdi. Məhəmməd öz-özünə fikirləşdi ki, bu qızını mənə vermir, şikəst qızını verir. Qız otaqdan çıxannan sonra Əhməd tacir dedi:

– Oğlum, mənim qızım budu.

Məhəmməd dedi:

– Bəs niyə başqa cür deyirdiniz?

Tacir dedi:

– Ona görə dedim ki, gözü kordu – sənnən qeyri kişiyə baxmaz, ayağı çolaxdı – sənnən icazəsiz bir yerə çıxmaz, əli şildi – sənnən icazəsiz mənə də bir çöp verməz, dili laldı – başqasının sözünü danışmaz.

Əhməd tacir qırx gün qırx gecə toy eləyib, qızını dostu Məlik tacirin oğlu Məhəmmədə verdi.

Məhəmmədlə qız firavan yaşamağa başladı. Altı ay bu minvalla keçdi. Bir gün tacir dedi:

– Oğlum, artıq mən qocalmışam. Gərək bütün işləri sənə təhvil verəm. Dükan-bazar işi ilə sən məşğul olasan.

Məhəmməd dedi:

– Əmi, aman günüdü, iş demə.

Tacir dedi:

– Oğlum, qorxma, mənim qızım naxırçı qızı deyil.

O gündən Məhəmməd dükana gedib alver eləməyə başladı. Amma qıza o qədər öyrənmişdi ki, dükanda darıxırdı. Tacir qızı iki qoz boyda ləl verib dedi:

– Darıxanda bunları atıb-tutarsan, fikrin dağılar.

O günnən sonra Məhəmməd dükanda darıxanda həmin ləlləri atıb tuturdu. Bu minvalla gününü keçirirdi.

Bir gün şəhər padşahının qızı qulluqçu-qaravaşı ilə bu küçədən keçirdi. Gördü dükanda bir oğlan oturub, iki ləli atıb tutur. Bir könüldən min könülə oğlana aşiq oldu. Həmin gecə bir adam göndərib ləllərdən birini gətirtdi, yerinə isə bir parça kömür qoydurdu. Məhəmməd gələndə gördü ki, ləlin biri yoxdu. Öz-özünə fikirləşdi ki, bu nə olan şeydi, yaxşı, oğru gəlib niyə ləlin ikisini də aparmayıb, yox, Allahın işidi, nə üçün ləllərin hər ikisi kömürə dönməyib? Axşam gəlib əhvalatı arvadına danışdı.

Arvadı dedi:

– Padşah qızı sənə aşiq olub, deyib ki, gecə gələrsən yanıma.

Məhəmməd dedi:

– Getmərəm.

Arvadı dedi:

– Getməzsən, səni öldürtdürər, mən onu yaxşı tanıyıram. Gedərsən,ləlini istəyib tez geri qayıdarsan. Sonrası ilə işin yoxdu.

Məhəmməd gecənin bir aləmində padşah qızının yanına gəldi.

Qız oğlanı görən kimi dedi:

– Oğlan, nəyə gəlmisən?

Məhəmməd dedi:

– Xanım, gəlmişəm ləlimi verəsən.

Xanım bir güzgünün arxasını göstərib dedi:

– Bir dəstə nar çubuğu gətirib bunu ölüncə döyün.

Məhəmməd tez qaçıb evə gəldi. Hər şeyi arvadına danışdı.

Arvadı dedi:

– Güzgünün arxasını və nar çubuğunu göstərməklə qız demək istəyir ki, atamın nar bağına gələrsən.

Məhəmməd dedi:

– Getmərəm.

Arvadı dedi:

– Əgər getməsən, səni öldürtdürər. Gərək gedəsən.

Məhəmməd gecə getdi nar bağına. Gözlədi, gözlədi, qız gəlmədi, axırda yuxu onu tutdu. Səhərin ayasına ayılıb gördü ki, gələn-gedən var. Tez bağdan çıxıb evə gəldi.

Arvadı soruşdu:

– Nə oldu?

Dedi:

– Qız gəlmədi.

Dedi:

– Bir ciblərinə bax.

Məhəmməd ciblərinə baxdı. Gördü cibində iki aşıq var.

Arvadı dedi:

– Qız demək istəyir ki, sənin gəzən vaxtın deyil, uşaqsan, get aşıq-aşıq oyna.

Sonra dedi:

– Gərək bu gecə də gedəsən.

Məhəmməd dedi:

– Yox, getmərəm.

Arvadı dedi:

– Getməzsən, səni öldürər. Gərək gedəsən.

Məhəmməd yenə getdi padşahın nar bağına. Gözlədi, gözlədi, qız gəlmədi. Onu yenə yuxu tutdu. Bir də ayıldı ki, səhər çoxdan açılıb. Tez əlini cibinə atdı, gördü ki, cibində balaca bir bıçaq var. Kor-peşman gəldi evə. Əhvalatı arvadına söylədi. Arvadı dedi:

– Bu dəfə yatsan, səni mütləq öldürəcək. Gərək bu gecə yatmayasan.

Yemək-içmək yedilər. Arvadı bir qab alma-armud gətirdi. Bir almanı kəsəndə qəsdən Məhəmmədin dörd barmağını da kəsdi. Hay-həşir saldı ki, ay mənim əlim qurusun, nə bilim nə, nə... Gətirib yaranın üstünə də duz qoyub bağladı.

Məhəmməd yenə nar bağına getdi. Gözlədi, gözlədi, əlinin yarası qoymurdu gözlərinə yuxu getsin. Gecənin bir aləmində gördü ki, ayaq səsi gəlir. Gələn padşahın qızı idi. Qız dedi:

– Oğlan, yaxşı ki, yatmadın. Yatsaydın, vay halına!

Onlar oturub bir xeyli ixtilat etdilər, qucaqlaşıb yatdılar.

Xəbəri xəbərdən, xəbəri padşahın vəzirindən. Vəzir hardansa gəlirdi. Bir də gördü ki, padşahın qızı bir oğlanla qucaqlaşıb yatıb. Tez ciyə ip tapıb onların əl-qolunu bağladı, onların yanında bir keşikçi qoyub, başıalovlu padşahın yanına cumdu. Keşikçiyə isə tapşırdı:

– Bunları möhkəm qoru, başlarından bir tük əysik olsa, dədəni yandırram.

Səhərin ayazı qızla Məhəmmədi ayıltdı. Baxdılar ki, əl-qolları bağlıdı. Bir nəfər də başlarının üstünü kəsib. Qız dedi:

– Oğlan, gedərsən filan yerə üç daş atarsan qapıya, pəncərəyə, dama, sənə bir heybə qızıl verəcəm.

Keşikçi öz-özünə fikirləşdi: "Bunların əl-qolu bağlıdı, qaça bilməzlər". Tez qaçdı deyilən yerə. Bir daş atdı qapıya. Səs gəldi: "gəlirəm", pəncərəyə bir daş atdı: "hazıram", üçüncü daşı atanda səs gəldi: "vay, evim yıxıldı". Məhəmmədin arvadı bir heybə qızıl götürüb qaça-qaça özünü nar bağına saldı. Heybəni verdi keşikçiyə. Keşikçi heybəni gizlətməyə getdi. Özü tez padşahın qızını açdı. Özü onun yerinə uzandı. Padşah qızı ər-arvadı sarıyıb, aradan çıxdı.

Xəbəri xəbərdən, xəbəri vəzirdən. Vəzir tez özünü padşahın sarayına saldı. Sübh namazına bir saat qalmışdı. Vəzir hövlank qapını döyməyə başladı. Padşah ayılıb dedi:

– Vəzir, nə olub, müharibədi?

Vəzir dedi:

– Müharibədən də pisdi, qızın bir adamla nar bağında yatıb qalıb.

O saat padşah əmr verdi ki, camaat yığılsın, məhkəmə olacaq.

Padşahla vəzir gəldilər nar bağına. Padşah gördü ki, bir kişiynən bir arvad əl-qolu bağlı yerə uzadılıb. Padşahı görən kimi xatun dedi:

– Padşah sağ olsun, bu mənim ərimdi, mən tacir Əhmədin qızıyam, bu da Məlik tacirin oğludu. Gəzməyə çıxmışdıq, yatıb qalmışıq, vəzir də əl-qolumuzu bağlatdırıb.

Padşah dedi:

– Vəzir, görən gözün çıxsın.

O saat qışqırdı:

– Cəllad, vur bu yaramazın boynunu.

Cəllad vəzirin başını bədənindən ayırdı.

Məhəmmədlə arvadı gəldi evə.

Arvadı dedi:

– Əmioğlu, gərək padşahın qızını alasan. Bu sənin üçün naxırçı qızı deyil, bir gecə yatasan, buraxasan.

Məhəmməd dedi:

– Mən onu necə ala bilərəm?

Dedi:

– Almasan, səni öldürtdürər. Mən yengəlik eliyərəm.

Arvadı özü yengəlik elədi. Padşah qızını da aldı Məhəmmədə. Onlar bacılar kimi yaşadılar. Məhəmmədlə arvadları mehriban yaşamaqda olsunlar, xəbəri xəbərdən, xəbəri bizim padşahdan. Pəri qızı hekayətini qurtardı. Qızlardan biri dedi:

– Bacılı, padşah səbirlə qulaq asdı, indi soruşaq görək o nəyə gəlib?

Padşah dedi:

– Mən öz əlimlə narlardan üç dənə dərmək istəyirəm, biri özümə, biri vəzirimə, biri də yol yoldaşım Ayaza.

Pəri qızları padşahı apardılar nar tərəyinin dibinə. Padşah öz əlilə üç nar kəsib götürdü. Gəldi dərvişin yanına. Dərvişlə görüşüb-öpüşüb gəldi karvansaraya. Nağıllarda vaxt tez keçər. Bilmirəm, nə qədər vaxt keçmişdi, amma Ayazla vəzirin arayıb-axtarmadığı yer qalmamışdı.

Padşahın qayıtmağından onlar çox sevindilər. Padşah başına gələnləri mən sizə söylədiyim kimi vəzirlə Ayaza nağıl elədi.

Onlar hazırlaşıb üz tutdular geriyə. Gəlib çatdılar həmin qız padşahın şəhərinə, qızı da götürüb gəldilər öz vilayətlərinə. Sərhədləri açıb bir elədilər. Ayaz üçün bir yaxşı toy eləyib, qızı ona aldılar. Yedilər, içdilər kef elədilər. Padşah dedi:

– Bilirsən, Ayaz, nə var? Mənim övladım yoxdu. Mən də ömrümü sürmüşəm. Qoy elə bu taxt-tac da sənə pay olsun.

Padşah alıb tacını qoydu Ayazın başına. Yeyib-içdilər, ömür sürüb xoş keçdilər. Sizin də Allah ömrünüzü xoş eləsin.

## Ovçu Pirim (60)

Rəvayətə görə, Pirim deyilən bir ovçu olubmuş. Bu ovçu Pirimin Kəlbi adında özündən kiçik bir qardaşı da varmış. Bu iki qardaş ovçuluqla gün keçirib dolanırmış. Onların bir tütəyi də varmış. Ova çıxanda tütək çala-çala kəyik, ceyran çağırarmışlar. Tütəyin səsinə gələn ceyranı, kəyiki ovlayıb geri qayıdarmışlar. Bu minvalla iki qardaş, bir də anaları Məhbub xanım dolanıb, güzəran keçirərmişlər.

Bir gün qışın soyuq vaxtı olur. Pirimlə Kəlbi axşam çörəklərini yeyib, bir az ixtilat da eləyib yatırlar ki, səhər tezdən ova çıxsınlar.

Səhər tezdən Məhbub xanım qorxmuş yuxudan oyanır. Yerindən qalxır, taxçadan bir qol çörək kəsib həyətdə zəncirlənmiş itə atır, sonra da deyir:

– Bu gecə gördüyüm yuxunun sadağası olsun, qada-balanı bizdən ötürsün.

Sən demə, Məhbub xanım yuxuda görübmüş ki, yol gedir. Gedə-gedə gəlib bir yerə çatır. Baxıb görür yolun üstə bir yığnaq var. Tez gəlib həmən yığnağa yanaşır. Görür ki, bir qoca hönkür-hönkür ağlayır.

Xəbər alır:

– Ay qardaş, bu adamlar bura niyə yığışıb? Sən özün niyə ağlayırsan?

Qoca deyir:

– Ay bacı, yolun üstündə bir cavan oğlan uzanıb, cancəsəddən olub, nəfəsi gəlmir, bir dişi də çıxıb ağzından sallanır.

Məhbub xanım tez adamları aralayıb qabağa keçir. Baxıb görür ki, yolda yıxılıb qalan öz oğlu Pirimdi. Başlayır haray salmağa. Necə haray qoparıb vay-şivən salırsa, öz səsinə yuxudan dik atılır. Arvad birtəhər özünü toxtatmaq istəyir ki, bir də baxıb görür ki, Pirim yatağından qalxıb, çarığının dolağını bərkidir. Məhbub xanım dalağı sancmış kimi oğlundan soruşdu:

– Oğlum, Pirim, hara belə?

– Ova gedirəm, – deyə Pirim cavab verdi.

Anası deyir:

– Oğul, gəl getmə! Bu gün hava heç ov havası da deyil. Allah qoysa, sabah gedərsən. Özü də Allah axırını xeyir eləsin, bu gecə yuxumu qarışdırmışam, qoy qalsın sonraya.

Pirim dediyindən dönmür:

– Yox, anacan, ürəyimə düşüb, qoy gedim. Çox əngəl olmaram, tez qayıdaram, bir-iki quşdan, ətlikdən vurub gələrəm.

Anası çox deyir, Pirim az eşidir. Pirim çarığını geyinir, tüfəngini çiyninə alıb, tütəyini də götürüb, Kəlbidən xəbərsiz evdən çıxır. Anası Məhbub xanım görəndə ki, oğlu getdi, görək nə deyir:

Səhər tezdən geyindin sən çarığını,
Ana dedi: – almaginən yarağını.
Mənə yuxuda əyan edib sorağını
Gəl getmə, can oğlum, aman günüdü.

Bu yuxu bənzəməz başqa yuxuya,
Canımı salıb sağalmaz qorxuya.
Gəl evdə yer atım, sən get yuxuya
Gəl getmə, can oğlum, aman günüdü.

Pirimin anası Məhbub xanım çox yalvardı, o eşitmədi. Şeytan qəlbinə giribmiş. Olmalı iş olsun gərək, deyiblər. Pirim əlindəki çalan aləti saz əvəzinə sinəsinə basıb anası Məhbub xanıma görək nə dedi:

Ovçu Pirim neçə ildi ovlayıb
Kəyiki, ceyranı meşələrdə qovlayıb.
Mən gedirəm Kəlbi evdə yuxlayıb
Burax anam, gedim, aman günüdü.

Qərəz Pirim ova getdi. Meşəyə çatıb özünə bir yer tutdu. Pirim meşədə qalsın, sizə kimdən xəbər verim – Ovçu Pirimin

qardaşı Kəlbidən. Kəlbi yuxudan oyanıb görür ki, qardaşı Pirim ondan xəbərsiz ova gedib. Kəlbi də tüfəngini, qalan alətini alıb, ova getdi. Amma bilmir ki, qardaşını harda axtarsın. İş elə gətirdi ki, o da qardaşının səmtini tutub getdi. Gəlib meşəyə çatdı. Kəlbi də meşədə özünə bir yer tutub, tütəyini çalmağa başladı. O biri tərəfdən Pirim də gördü ki, budu, ceyran gəlir. O da başladı tütəyini çalmağa. Hər ikisi bir-birindən xəbərsiz ceyranı başladılar izləməyə. Çala-çala bir-birinə tərəf gəlməyə başladılar. Ətraf yaman dumanlıq idi. Qardaşlar bir-birini görmürdülər. Pirim baxdı ki, ceyran tüfəng mənzilindədi. Pirim tüfənginin çaxmağını çəkdi, tüfəng işlədi. Pirim baxıb gördü ki, gülləsi boşa çıxmadı, hədəfə dəydi. Nəsə yerə yıxıldı. Qaçdı ki, baxıb görsün nə vurub. Gəlib çatanda gördü ki, qardaşı al-qan içindədir. Bu halı görübən ovçu Pirim huşdan gedib yıxıldı. Bir qədər sonra özünə gəlib qardaşına sarındı. Qardaşının qanını duz kimi yalamağa başladı. Pirim qardaşı Kəlbini bu halda görüb görək nə dedi:

Yatmış idim, aşkar gördüm yuxumu
Mən yuxuma peşman olub ağlaram.
Anam dedi: –gəl sən qayıt bu yoldan,
Yollar mənə viran oldu, ağlaram.

Çaxginən çaxmağı, od düşsün qova,
Çalxaşıb buludlar, tutuldu hava.
Dağılsın bu gün ki mən çıxdım ova
Kəyik bilib xan Kəlbini öldürdüm.

Yaraq səni zərgərlərə döydürdüm,
Əziz tutub zər-zibaya qoydurdum,
Bu günləri öz gözümü oydurdum,
Kəyik bilib Xan Kəlbini öldürdüm.

Sındırdım qəlbimi, bükdüm belimi,
Lal etdin dilimi, kor da gözümü,
Yalqız indi miskin görrəm özümü
Kəyik bilib Xan Kəlbini öldürdüm.

Düşmən oldun, yaraq, indi mənə sən,
Pas atıb çaxmağın, küncdə qalasan,
Sağalmaz yaranı canıma salansan,
Kəyik bilib Xan Kəlbini öldürdüm.

Ovçu Pirim görəndə ki, qardaşı Kəlbi ona hay vermir, dünya başına dar oldu. Bildi ki, qardaşı ölübdü. Yenə özünü saxlaya bilməyib dedi:

Qışqırdım "qardaş!", yox haydan-vaydan,
Üzüldü cahanda əlim qardaş payından,
Sarındım, yaladım qardaş qanından,
Kəyik bilib Xan Kəlbini öldürdüm.

Hava buludluydu, görə bilmədim,
Qardaş payından üzüldü əlim,
Qaraldı öz dünyam, kəsildi dilim,
Kəyik bilib Xan Kəlbini öldürdüm.

Ovçu Pirim ağlaya-ağlaya qardaşı Kəlbini qolları üstünə alıb evə gətirdi. Məhbub xanım Kəlbinin öldüyünü bilib oğlu Pirimə görək nə dedi:

Mən sənə yalvardım, çıxma sən çölə,
Yandırdın bağrımı, döndərdin külə,
Qardaşın əlindən qardaş da ölə,
Mən sənə yalvardım, aman günüdü.

Ovçu Pirim anasından bu sözləri eşidən kimi ürəyi qubarlandı. Tüfəngini çiynindən aşırıb anası Məhbub xanıma verib dedi:

– Anacan, qanım sənə halaldır. Al, vur məni! Qardaşımdan dala məni tək qoyma!

Ovçu Pirimin ürəyi tab gətirə bilmədi. Görək anası Məhbub xanıma nə dedi:

Qoy mənim canıma elim tüfürsün,
Ana, vuran əlim dibinnən sınsın,
Çıxsın gözlərim, qıçım qırılsın,
Al, vur məni, ana, aman günüdü.

Bunu deyibən ovçu Pirim tüfəngini alıb tövbə etdi. Dedi:

– Yaraq, sən mənə düşmənsən. Səni bir də ələ alası deyiləm.

Belə söyləyirlər ki, ovçu Pirim o gündən ovçuluqdan əl çəkdi, qardaşı Kəlbinin qarasını saxladı. Gedib bir cüt camış alıb rəncbərlik eləməyə başladı.

## Tülkü ilə tısbağa (61)

Biri var idi, biri yox idi, bir tülkü ilə tısbağa var idi. Bir gün tısbağa tülküyə dedi:

– Ay tülkü qardaş, gəlsənə darı əkək.

Tülkü dedi:

– A tısbağa, mən darını neynirəm. Darı yeyən sənsən. Mənimki toyuqdu, xoruzdu. Yox, qardaş, sövdamız baş tutmaz.

Tısbağa əl çəkməyib dedi:

– Sən gəl mən deyənə qulaq as. Darını əkərik, sonra da biçərik. Mən öz payımı yeyərəm, sən də payını bazarda satıb özünə toyuq-cücə alıb yeyərsən.

Bu söz tülkünün ağlına batdı. Xülasə, darını əkdilər də, biçdilər də. Tülkü cinsi hiyləgər olar. Öz-özünə fikirləşdi necə etsin bütün darıya sahib olsun. Odur ki, tülkü tısbağaya dedi:

– Tısbağa qardaş, görürsən zəhmətimiz yaman hədər getdi. Bu işdən bir şey qazanmayacağıq. Darını bölüşdürsən, ikimiz də ac qalacağıq. Gəl belə edək. Biçənəyin bu başından o başına qaçışaq, kim tez qaçsa, darının hamısı onun olsun.

Tısbağa o saat başa düşdü ki, tülkü onu aldatmaq istəyir. Dedi:

– Tülkü qardaş, icazə ver bir az fikirləşim.

Tülkü razılaşdı. Tısbağa tülküdən aralanıb getdi. Bir tısbağa dostunu tapıb məsələni ona danışandan sonra dedi:

– Sabah səhər mən tülkü ilə öz biçənəyimizdə qaçışacağıq. Odur ki, sən biçənəyin bir başında durarsan, mən də o biri başında.

Tısbağa dostu ilə razılaşıb yenə tülkünün yanına getdi.

Tülküyə dedi:

– Tülkü qardaş, mən razı. Sabah səhər öz biçənəyimizdə qaçışarıq.

Tülkü tısbağanın bu sözünə yaman sevindi.

Səhər tezdən tülkü ilə tısbağa gəlib biçənəyin aşağı başında dayandılar. Tülkü ona dedi:

– Tısbağa qardaş, gəl qaçışaq. Ya sənə verən Allah, ya mənə.

Bunlar deyib başladılar ötüşməyə. Tısbağa yerindən tərpənən kimi tülkü götürüldü. Gəlib biçənəyin yuxarı başına çatanda gördü ki, tısbağa onu gözləyir. Yaman pərt oldu. Dedi:

– Gəl, bir də qaçışaq.

Tısbağa dedi:

– Nə deyirəm. Mən razı.

Bir də başladılar qaçışmağa. Tülkü var qüvvəsilə geri qaçıb gələndə gördü ki, tısbağa yenə onu qabaqlayıb. Yorğunluqdan tülkünün nəfəsi yaman daralmışdı. Güclə nəfəs alırdı. Dedi:

– Tısbağa qardaş, bu sayılmır. Qaçanda ayağıma tikan batdı. Ona görə gəl bir də qaçışaq.

Tısbağa halını pozmadan dedi:

– Mən heç vaxt dost sözünü yerə salmaram. Gəl bir də qaçışaq.

Tülkü bu dəfə də ondan tez yerindən götürüldü. Amma biçənəyin yarısına çatmamış təngənəfəs olub ürəyi partladı. Tısbağa asta-asta tülkünün leşinə yaxınlaşıb dedi:

– Tülkü qardaş, acgözlüyün sənə yaman baha başa gəldi ha!

## İlanla ovçu (62)

Ovçu bir gün ova çıxmışdı. Bir də gördü ki, çələyə bir ilan düşüb. İlan ovçunu görcək yalvarmağa başladı. Ovçunun ona yazığı gəlib çələdən çıxartdı. O saat ilan ovçunun boynuna dolanıb dedi:

– Səni gərək çalıb öldürəm.

Ovçu dedi:

– Mənim sənə nə pisliyim dəyib? Axı səni ölümdən qurtardım. Mənə rəhmin gəlsin.

İlan dedi:

– Qabağımıza kim çıxsa soruşaq: "Bu dünyada yaxşılığın yeri varmı?" Desələr var, səni bağışladım, desələr yox, səni elə çalacam ki, partlayıb öləcəksən.

Bir çəmənlikdə qoca bir öküzə rast gəldilər. Ovçu soruşdu:

– Bu dünyada yaxşılığın yeri varmı?

Öküz dedi:

– Bu dünyada yaxşılığın yeri yoxdu. Əgər olsaydı, ömrüm boyu işlədiyim əyəm qocalanda məni qovub deməzdi: "Get səni istəsə it yesin, istəsə qurd".

İkinci dəfə onlar bir ata rast gəldilər. At lap qocalıb əldən düşmüşdü, yük daşımaqdan da beli yara olmuşdu.

Ovçu soruşdu:

– At qardaş, bu dünyada yaxşılığın yeri varmı?

At dedi:

– Mən cavanlığımda quş kimi uçurdum. Əyəm də həmişə mənim nazımı çəkirdi. Mən onu neçə dəfə ölümdən qurtarmışdım. Qocalanda mənə yük daşıtdırdı. Lap əldən düşəndə isə qovdu.

İlan dedi:

– Ey ovçu, axır halındır.

Ovçu dedi:

– İndi görək kimə rast gəlirik.

Bu dəfə onlar bir tülküyə rast gəldilər. Tülkü gördü ki, ovçu ilişib ilanın əlindən qurtara bilmir. Hiyləyə əl atdı:

– Çələ necə idi?

Ovçu çələni düzəltdi.

Tülkü dedi:

– Mən inanmıram, ilan çələyə düşsün. Bu ola bilməz.

Belə deyəndə ilan ovçunun boynundan açılıb dedi:

– Bax, belə çələyə düşmüşdüm.

Tülkü ovçunu zəhərli ilandan belə qutardı.

## Ayı, tülkü, qurd (63)

Bir meşədə ayı, qurd, tülkü, bir də dovşan birgə yaşayırdılar. Ayının iki bal ağacı vardı. Bir gün qurdla tülkü ayının balını yemək istədi. Tülkü qurda dedi:

– Bal hələ yetişməyib, qoy yetişsin, sonra yiyərik.

Tülkü qurdu aldatdı. Özü xəlvətcə balı yedi. Ayı xəbər tutmasın deyə baldan bir az götürüb qurdun, dovşanın quyruğuna çəkdi. Bir gün ayı gördü ki, balını yeyiblər. Heyvanların yanına gəlib dedi:

– Mənim balımı kim yeyib?

Qurd dedi:

– Xəbərim yoxdu.

Dovşan dedi:

– Xəbərim yoxdu.

Tülkü dedi:

– Xəbərim yoxdu.

Ayı dedi:

– İndi bilərəm balı kim yeyib.

Bunu deyib, başladı heyvanların üst-başını yoxlamağa. Gördü ki, tülkünün üst-başı təmizdi. Qurdun, dovşanın bala bulaşdığını gördü. Ayı elə başa düşdü ki, balı bunlar yeyib. Başladı

qurdla dovşanı əzişdirməyə. Onların hərəsini mağaranın bir tərəfinə atdı. Tülkü ayını beləcə aldatdı. O gündən heyvanların dostluğu pozuldu. Qurd, tülkü, dovşan mağaradan çıxıb getdi. Ayı isə mağarada tək qaldı.

## Tülkü, canavar, ayı (64)

Günlərin bir günü tülkü, canavar, ayı taxıl əkirlər. Taxıl cücərib yetişir. Onlar taxılı biçir, dərz bağlayır, sonra dərzi qurudurlar. Daha sonra da başlayırlar döyməyə. Tülkü tənbəllik eliyir. Ayı deyir:

– Tülkü, sən az işləyirsən, mən çox.

Tülkü cavab verir:

– Biz məhsulu ədalətlə bölüşdürərik.

Onlar taxılı döyüb qurtardılar. Bir iri topa küləşi bir yerə, bəlemi o biri tərəfə, dəni isə bir yerə yığırlar.

Ayı ilə canavar bölgüyə sevinirlər.

Ayı deyir:

– Tülkü ədalətlə bölməyi bacarır. Ən iri topanın mənə düşməsi yaxşı oldu.

Ayı küləşi, canavar bəlemi, tülkü də dəni götürür. Onlar paylarını dəyirmana gətirirlər. Üyütməyə başlayırlar. Tülkü dəni üyütdükcə xırtıldayırdı, canavarla, ayı üyütdükcə isə yavaş səs çıxırdı.

Ayı xəbər aldı:

– A tülkü, niyə sənin dənin bərk xırtıldayır, bizimki isə yavaş xışıldayır?

Tülkü cavab verir:

– Mən dənimin içinə qum tökmüşəm, ona görə belə xırtıldayır.

Bunu eşidən kimi canavarla ayı da öz dənlərinin içinə qum tökürlər, onlarınkı da başlayır xırtıldamağa. Onlar başlayırlar xəşil bişirməyə.

Baxıb görürlər ki, tülkünün xəşilinin rəngi açıqdır. Qaynadıqca qabarıqlanır, onların xəşilinin rəngi isə tünddür, həm də qabarcıqlanmır, onlar soruşurlar:

– Tülkü, bu niyə belədir?

Tülkü cavab verir:

– Əvvəlcə mən sizin xəşilinizin dadına baxım, sonra da siz baxarsınız.

Tülkü hər qazandan bir qaşıq xəşil götürüb, xəlvətcə öz qazanının qırağına tökür. Deyir:

– Bax, canavar, sən qazanın bu tərəfindən götür, ayı, sən də bax bu tərəfindən götür, görün necədir?

Hərə bir qaşıq öz xəşilindən götürüb dadına baxır.

Canavar deyir:

– Sənin xəşilin də mənimki kimidir.

Ayı da deyir:

– Mənim də xəşilim elə səninki kimidir.

Canavar soruşur:

– Tülkü, sənin unun niyə ağdır?

Tülkü cavab verir:

– Mən unumu çayın iti axarında yumuşam, ona görə də ağdır. Canavarla ayı kisələrini suyun içində yumağa başlayırlar. Su onların ununu yuyub, tamam aparır.

Tülkü xəlvətcə öz payını da götürüb, aradan çıxır. Canavarla ayı gözünü döyə-döyə qalır..

## Çörəyi kim yeməlidir? (65)

Bir gün dəvə, çaqqal, tülkü yol gedirmişlər. Birdən yolun üstündə bir çörək tapdılar. Bilmədilər bu çörəklə nə etsinlər. Üç yerə bölüb yesələr, heç biri doymayacaq. Tülkü dedi:

– Qoy çörəyi kim tez yaranıbsa o yesin!

Dəvəylə çaqqal tülkünün bu sözlərinə “əhsən” deyib razılaşdılar.

Tülkü dedi:

– Mən yarananda hər yan su idi.

Çaqqal dedi:

– Tülkü qardaş, sən yaxşısan. Mən yarananda heç su da yox idi.

Dəvə bir az fikirləşib dedi:

– Mən heç bilməzdim siz belə ahıl qocasınız. Mən sizə baxanda uşağam. Çörək də su kimi bir şeydir, birinci kiçiyindir. Odur ki, qoy çörəyi mən yeyim.

Dəvə bunu deyib tez çörəyi götürüb yeməyə başladı.

## Qurbağaların padşah seçməsi (66)

Bir gün qurbağalar yığışıb dedilər ki, gəlin özümüzə bir padşah seçək, bizə başçılıq etsin. Amma bilmədilər kimi padşah seçsinlər. Hər ağızdan bir avaz gəldi. Çox götür-qoy edəndən sonra bir qurbağa dedi:

– Belə getsə, özümüzə padşah seçə bilməyəcəyik. Gəlin gedək Musa peyğəmbərin yanına, görək o nə deyir.

Qurbağalar məsləhətləşib qoca qurbağanı Musa peyğəmbərin yanına göndərdilər. Qoca qurbağa məsələni açıb, ona söylədi. Dedi:

– Qoy Allah-taala bizə bir padşah seçsin.

Musa peyğəmbər Allah-taalanın yanına gedib qurbağaların xahişini ona çatdırdı. Allah onu dinləyib dedi:

– İndi ki, qurbağalar padşahsız dolana bilmirlər, qoy gölün qırağındakı qovaq ağacı onların başı üstə padşah olsun.

Musa peyğəmbər qayıdıb onun sözünü qoca qurbağaya çatdırdı. Qoca qurbağa sevincək qayıdıb qurbağalara dedi:

– Bax gördüyünüz bu qovaq ağacı bu gündən bizim padşahdır.

Qoca qurbağa bunu deyib gölün qırağındakı qovaq ağacını göstərdi. Qurbağalar bu xəbərdən çox sevincək oldular.

Bunlar burda qalmaqda olsun, eşit Musa peyğəmbərdən. Bir gün Allah-taala onu yanına çağırıb dedi:

– Ey Musa, bir get, bax gör qurbağalar nə edirlər, padşahlarını necə yola verirlər? Sonra gəl yanıma.

Musa peyğəmbər gölə yaxınlaşanda baxıb gördü ki, qurbağalar bir həşirdədirlər ki, gəl görəsən. Hamısı dırmaşıb oturublar qovaq ağacında. Musa peyğəmbər bir söz deməyib, Allah-taalanın yanına qayıtdı. Allah-taala ona dedi:

– Danışma, hər şeydən xəbərim var. Mən bilirəm onlar nə istəyir. Bu gündən şahmar ilanı onlara padşah təyin etdim.

Deyirlər, elə o gündən şahmar ilan qurbağalara qənim kəsildi.

## Bu boyda çələni görə bilmirsən? (67)

Bir ovcu var idi. Bu ovçu adət eləmişdi ki, hər dəfə ova gedəndə tərlanını da özüynən götürsün. Bir gün ovçu ovdan qayıdanda tərlan özünü öyüb dedi:

– Ovçu qardaş, sənin ovçuluğun mənim hesabımadı. Mən olmasam, sən bir şey eləyə bilməzsən. Mənim gözüm elə itidir ki, yerdə darını da görə bilirəm.

Ovçu bir az fikirləşib dedi:

– İndi ki belədir, baxıb görərik sənin gözün necə itidir?

Ovçu bunu deyib tərlanın ayağını boşaltdı. Tərlan qanad çalıb göyə qalxdı. Havada bir neçə dövrə vurdu. Yerə baxıb, ovçunun yerə səpdiyi darıları gördü. Qanadlarını yığıb, ildırım kimi yerə şığıdı. Caynaqlarını açıb darıları götürmək istəyəndə çələyə toxundu. Çələ şaqqıltıynan bağlandı. Tərlan nə qədər çırpındısa, qurtula bilmədi ki, bilmədi. Axırda halsız-halsız dörd

yanını gözdən keçirirdi ki, aralıqdan onun bu vəziyyətinin seyr eləyən ovçunu gördü. Ovçu gülüb soruşdu:

– Hə, dostum, necəsən? Nə təhər oldu ki, iynənin gözündən keçən darını görə bildin, amma bu yekəlikdə çələni görə bilmədin? Onu bil ki, mən sənin sayəndə ovçuluq eləyirəmsə, sən də mənim hesabıma tərlanlıq eləyirsən.

Ovçu belə deyib çələni açıb tərlanı oradan götürdü. Tərlan yerssiz təkəbbürdən pərt olub, nə ağ dindi, nə də qara....

## Çanaq öz başında çatladı (68)

Günlərin bir yay günündə qısa gecələr, şirin yuxular olan vaxt bir hiyləgar tülkü özünə toyuqdan, sümükdən axtara-axtara gəlib qaranlıq qarışanda bir kəndin qırağına çıxır.

Yazıq tülkünün girinə bir şey düşmür. Axırda yorulub, bir lənbə qayasında gecələyir. Yorğun tülkü gedir şirin yuxuya. Bir qədər yuxulayandan sonra diksinib oyanır. Başlayır fikirləşməyə. Fikirləşib qutarandan sonra öz-özünə deyir:

– Bircə, mən də qurd kimi iri heyvanlardan parçalaya bilsəydim, daha heç bir fikrim olmazdı. Nə zamanacan biz yazıq tülkülər qurdun basdığı heyvanların sür-sümüyündən yeyib dolanacağıq. Bir dəfə də olsa gərək qurd qardaşımızı biz qonaqlayaq. Onun yanında lap üzüqarayıq.

Tülkü bunu deyib, yenə getdi yuxuya. Bu yatmaqnan bir də oyanıb gördü ki, nahar olub. Gözlərini təmizləyib, bir o yana baxdı, bir bu yana. Gördü heç kəs yoxdu. Dedi:

– Bura adam gəlincə özümü bir meşəyə çatdırım. “Ya Allah, sən kömək ol!”, – deyib tüpürdü dabanına.

Bir qədər gedib meşəyə çatdı. Başladı asta-asta getməyə. Dedi:

– İndi mənə zaval yoxdur, çünki kim gəlsə özümü gizlədə bilərəm.

Bir də baxıb gördü ki, bir qurd meşədən çıxıb qabağıynan gedir. Tülkü dedi:

– Lap yaxşı rast gəlmişəm. İndi qurd qardaşdan iri malları necə parçalamağının fəndini öyrənərəm.

Tülkü qurdu görmüşdü, amma qurdun tülküdən xəbəri yox idi. Bu zaman tülkü qışqıra-qışqıra qurdu çağırmağa başladı:

– Ay qurd qardaş, ay qurd qardaş!

Qurd diksinib dayandı. Dedi:

– Bir baxım görüm məni çağıran kimdi?

Meşənin qırağına çatıb çevrildi, dala baxdı. Gördü, xırdaca bir heyvandı, həm qışqırır, həm də əl eləyir. Tülkü gördü ki, qurd dayanıb, tez dilləndi:

– Can qurd, dayan bir qulluğum var.

Qurd mat qaldı. Dedi:

– Bu xırda heyvanın mənə görə nə qulluğu var?

Qurd bunu deyib quyruğunun üstündə oturdu. Tülkü qurda yaxınlaşdı. Başladı hiyləyə. Dedi:

– Ay qurd qardaş, lap həlakam səni axtarmaqdan. Keçən gecə biz tülkülərin yığıncağı olmuşdu. O yığıncaqda tülkülər məni siz qurd qardaşların yanına məsləhətə göndərib. Yaxşı oldu ki, səni tapdım. Bir sən bilsən, elə qurd qardaşların hamısı bilən kimidi.

Qurdun səbri tükənib dedi:

– A tülkü, qurtar görüm nə deyirsən. Sözünü de, başımı ağrıtma!

Bunlar asta-asta başladılar getməyə. Tülkü başladı ixtilata. Dedi:

– Ay qurd qardaş, ha vaxta kimi siz qurd qardaşların yanında biz şərməndə olaq? Siz basdığınız iri heyvanların ətindən, sür-sümüyündən biz hər zaman yeyib dolanaq? Bəsdir! İndi məni tülkülər göndəriblər ki, bir dəfə də olsa biz də qurd qardaşlarımızı qonaqlayaq. Razısanmı, qurd qardaş?

Tülkünün danışığını eşidən kimi qurd başa düşdü ki, tülkünün nəsə bir hiyləsi var. Dedi:

– Lap razıyam. Kor nə istər, iki göz – biri əyri, biri düz. Siz qonaqladız, biz istəmədik? İşinizi görün, çağıran vaxt biz hazırıq.

Bu ixtilatnan gedib yataqlar olan bir dərəyə çatdılar. Tülkü gördü ki, bu dərədə bir dənə at var. At da nə at, təzə nallanmış, yaman təpik vuran. Tülkü atı görcək qurdu tutub saxladı. Dedi:

– Qurd qardaş, sənə bir sualım var. Gərək mənim sualıma tam cavab verəsən.

Qurd dedi:

– De görüm, bir qədər də artıq cavab verərəm.

Tülkü xəbər aldı:

– Qurd qardaş, soruşmaq ayıb olmasın siz özünüz kiçiksiniz, amma handa iri heyvanları yıxıb parçalayırsınız. O heyvanlara necə gücünüz çatır?

Qurd tülküyə baxıb gülümsədi. Sonra öz-özünə dedi:

– Tülkü məndən fənd öyrənmək istəyir.

Qurd tülküyə dedi:

– Qoy mən qaydasını deyim, sən də qulağında sırğa elə. Mən iri heyvanı görcək istər camış, istər at olsun, gedib qabağına başlayıram torpağı gözümə sovurmağa. O vaxtacan sovururam ki, gözlərim qızarsın. Elə ki, gözlərin qızardı, mənim qabağımda fil də olsa pişik balası kimi aciz olar. O zaman heyvanı yıxıb parçalayıram.

Tülkü o saat dedi:

– Qurd qardaş, mən elə bilirdim sən iri heyvanları başqa fəndlə yıxırsan. Sən demə, mənim əməllərimlə yıxırsan.

Tülkü elə bildi ki, qurdun fəndini öyrənib.

Tülkü dedi:

– Qurd qardaş, sən burada bir az dincəl. Mən bu atın halına baxım.

Qurd bunu deyib başladı baxmağa ki, görsün tülkü neyləyəcək. Tülkü gedib, həmən atın qabağında başladı torpağı eşənək eləməyə. At çox baxdı. Gördü balaca papağa oxşarlı bir şey qabağında torpağı eşir. Tülkü torpağı o qədər eşdi ki, əldən düşüb, özünü həlak elədi. Qurd qışqırdı:

– Qurd qardaş, gəl bax gözlərimə gör qızarıb, ya yox?

Qurd tülküyə yaxınlaşıb dedi:

– Bəli, gözlərin qızarıb.

Qurdun ağzından bu söz çıxan kimi tülkü var gücü ilən atın üstünə tullandı. Tülkü gedib düşdü atın dal ayaqlarının altına. At fürsəti itirməyib, tülküyə bir təpik vurdu. Tülkü gedib beş addım atdan aralı düşdü. Başladı çapalamağa. Qurd yaxınlaşıb, tülküyə dedi:

– Ay tülkü qardaş, siftəki yalan idi. Amma indi atı yıxa bilərsən, çünki gözlərin də qızarıb, qıçların da uzanıb yığılır. Ay yazıq heyvan, sənin qurdla nə işin vardı. Gedəydin gündə əlsiz-ayaqsız arvadların toyuqlarından birisini aparaydın, yeyəydin. İndi ondan da oldun.

Beləcə, çanaq tülkünün öz başında çatladı.

# GÜLMƏCƏLƏR

## Pulu çox verəydin (69)

Bir gün bir kişinin inəyi itir. Çox axtarır, amma tapa bilmir. Əli hər yerdən üzülür. Axır gəlir bir mollanın yanına. Ona beş manat verib deyir:

– Bir həftədir inəyimi itirmişəm, tapa bilmirəm. Qorxuram qurda-zada rast gələr. Al bu beş manatı, bir dua oxuyub qurdun ağzını bağla!

Molla beş manatı alıb deyir:

– Arxayın gedə bilərsən. Qurd inəyini yeməz.

Kişi arxayın olub gedir. Kişi gəzə-gəzə gəlib qala divarının ətəyinə çıxır. Görür inəyin sümükləri yerdə ağarır. O saat bilir ki, qurd inəyini dağıdıb yeyib. Qayıdır gedir mollanın yanına, çatan kimi deyir:

– Ay molla, bu nə işdir? Sən qurdun ağzını necə bağlamısan ki, inəyimi yeyib. Qaytar beş manatımı.

Molla gülüb deyir :

– A kişi, beş manata bir qurdun ağzını bağlamışam. Pulu çox verəydin, bütün qurdların ağzını bağlayaydım.

## Kefim nə vaxt isdəsə (70)

Bir gün Bəhlul Danəndə yolla gedirdi. Birdən bir qoluzorlu onun tədbirliliyini yoxlamaq üçün qabağını kəsib dedi:

– Ey Bəhlul Danəndə, mən səni öldürməliyəm. Ancaq ürəyinnən keçən nəsə bir isdəyin varsa, deynən onu yerinə yetirim, sonra səni öldürüm.

Bəhlul Danəndə sakitcə dilləndi:

– Qoy bir “Yasin” oxuyum, sonra öldür.

Qoluzorlu razılaşdı. Bəhlul Danəndə “Yasin”in başından bir az oxuyub dayandı. Sonra tərpəndi ki, çıxıb getsin.

Qoluzorlu dedi:

– Bəs nə oldu ? “Yasin”in dalısını niyə oxumadın?

Bəhlul Danəndə özünü o yerə qoymayıb qayıtdı ki:

– Şərtimiz belə idi ki, “Yasin”i oxuyub qurtarandan sonra sən məni öldürə bilərsən. İndi kefim nə vaxt isdəsə, onda “Yasin”in dalısını oxuyub qurtaracağam. Səndə onda gəlib məni öldürərsən. Oldumu?

– Oldu! Oldu!, – deyib qoluzorlu Danəndənin bu sözünə bənd imiş kimi uğunub getdi.

## Sən gətirib qoysaydın... (71)

Birisi borc alıb qaytarmamaqda vərdişgar imiş. Bir gün çoxdan borc alıb qaytarmadığı qonşusuna yenidən ağız açır:

– Ay qonşu, əlamanda qalmışam, mümkündüsə mənə 50 tümən əlborcu verəsən. Bu günə-sabaha düzəldib qaytararam.

Qonşusu da onun bu qırımına bələd olduğundan dərsini vermək isdəyir. Bu niyyətnən taxtın baş ucundakı mütəkkəni göstərib deyir:

– Get o mütəkkəni qaldır, pul onun altındadır, götür.

Borc istəyən mütəkkəni qaldırıb zəndinən o tərəf bu tərəfə baxır, nə qədər axtarıb arayırsa, pul deyilən şey gözünə dəymir. Döyükə-döyükə üz tutur ev yiyəsinə:

– Mütəkkənin altında pul-zad yoxdur.

Ev sahibi elə bu sözə bənd imiş kimi qayıdır ki:

– Pul hardan olsun, ay pir olmuş. Sən gərək ötən dəfə aldığını gətirib qoyaydın ki, indi orda da pul olaydı. Gətirib qoymamısan, pul da yoxdur.

Borc isdəyən qonşusu bu sözündən alımını alıb, suyu süzülə-süzülə aradan çıxdı.

## Getmərəm ha... (72)

Bir gün meşələr padşahı Aslan heyvanları hüzuruna çağırıb dedi :

– Ürəyimə sərin bulaq suyu düşüb. Filan dağdakı filan bulağın suyundan bir kuzə doldurub gətirin.

Padşahın sözünə "bəçeşm", – deyib heyvanlar bir qırağa çəkildilər ki, məsləhət-məşvərət eləyib bir heyvanı su dalınca göndərsinlər. Dedilər:

– Tez gedib gəlməyə dovşan yaxşıdır. Qoy o getsin. Dovşan yaxasını qırağa çəkdi:

– Ay başına dönüm, mənim bərk qaçmağıma baxmayın, yaman qorxağam. Elə yanımda balaca şıqqıltı olsa, qorxumdan kuzəni əlimdən salacağam, o da düşüb sınacaq.

Dedilər:

– Onda qurd hamıdan ürəklidi. Suyu qurd gətirsin.

Qurd tez cavab verdi:

– Vallah, mən öz xasiyyətimə bələdəm, yolda qoyundan-quzudan bir şey görsəm, küzəni bir tərəfə atıb, onu parçalamağa cumacam.

Qərəz, kimin adını çəkdilərsə, hərə bir şeyi tutalqa eləyib, yaxasını bir qırağa çəkdi. Axır-axırda tısbağanı üzüyola tapıb, su gətirməyi onun boynuna qoydular. Tısbağa çar-naçar kuzəni götürüb, otların arasına üz qoydu ki, padşah deyən bulaqdan su gətirsin. Bəli, bir saat, iki saat keçdi, tısbağadan bir xəbər çıxmadı. Gözləməkdən səbri tükənmiş heyvanlar başladılar onun qarasına söylənməyə. Elə bu heynidə tısbağa beş addım aralıdan başını qaldırıb donquldandı ki:

– Ey, qeybətimi eləməyin, yoxsa getmərəm ha!

## Arada nal da itdi (73)

Bir kişi yolda bir dəfə nal tapır. Sevinə-sevinə onu evinə gətirir, arvadına göstərib deyir:

– Ay arvad, bax gör nə naldır? Özü də qəttəzə. Yoldan tapmışam. Allah qoysa, üçünü də taparam, sonra da bir at alarıq, atımızı nallarıq.

Arvadı ərinin sözünə sevinib deyir:

– Ay kişi, görəsən bizim də atımız olacaq?

Kişisi deyir:

– Allah qoysa, əlbəttə olacaq. Mən indi durum atımıza bir axur hazırlıyım, sən də çay-çörək tədarükünü gör.

– Ay kişi, axuru harda hazırlayırsan?

Kişi əlilə evin qabağını göstərib dedi :

– Arvad, Allah qoysa, bax burada tikəcəyəm.

Gəlin bu söhbəti eşidib qaynanasına deyir:

– Qaynatama de ki, axuru həyətin o başında tiksin. Bu yaxınlarda uşağım olacaq. Uşaq iməkləyib həyətə çıxanda at onu təpikləyər.

Arvad gəlinin sözünü ərinə çatdırır. Kişi əsəbləşib deyir:

– Mən sizə demişəm ki, kişi işinə qarışmayın. Axuru elə evin qabağında tikəcəyəm. Gəlin də uşaqdan yaxşı göz olsun ki, at onu təpikləməsin.

Gəlin bu vaxtadək qaynatasının üzünə ağ olmamışdı. Bu dəfə özünü saxlaya bilməyib hirslə deyir:

– Özümü öldürməkdisə, burada axur tikməyə qoymayacağam.

Belə deyib də keçıb kəsir qaynatasının qabağını. Qaynatası da gəlinin cızıgından çıxdığını görüb, ona bir təpik vurur. Gəlin yıxılır. Bir hay-həşir düşür. Gəlinin qohum-əqrabası əhvalatı eşidib kişinin üstünə hücüm çəkillər. Bir mərəkə qopur ki, gəl görəsən. Elə bir vurçatdasın dava düşür ki, ara qarışıb məzhəb itəsi

olur. Dava qurtarannan, ara səngiyənnən sonra baxıllar ki, nal da itibdi.

## Eşşək bilə, mən bilməyəm?! (74)

Bir gün bir cavan oğlan iri bir hil daşını əlində oynada-oynada yolla gedirmiş. Tamahkar bir zərgər bunu görür. Hilin qiyməti çox baha olduğu üçün acgöz zərgər elə bilir ki, bu uşaq onun nə qiymətə olduğundan bixəbərdir. Odur ki, fənd ilə uşağı aldadıb, hili onun əlindən almaq qəsdinə düşür. Bu niyyətlə də uşağa yaxınlaşıb deyir:

– A bala, o daş nə olan şeydir ki, onu oynadırsan? Ala bu bir ovuc dinarı, oynat özünçün. Gör nə par-par parıldayır!

Uşaq zərgərin tamahkarlığını, üstəlik də hiylə işlətmək isdədiyini başa düşüb deyir:

– Mənə pul lazım deyil. Əlimdəkini isdəyirsənsə, üç dəfə eşşək kimi anqır, mən də əvəzində daşı verim sənə.

Tamahkar qoca o yan-bi yana baxır ki, görsün qıçqıranda eşidib eliyən olar, ya olmaz. Görür ki, yaxınlıqda bir kəs yoxdur. Öz-özünə fikirləşir ki, üç dəfə anqıranda nə olar. Görən yox, eşidən yox. Əvəzində heç nədən ara yerdə bu bahalıqda hili əlimə keçirəcəyəm. Odur ki, eləmə tənbəllik, üç dəfə eşşək kimi anqırır.

Sonra deyir:

– Anqır dedin, anqırdım. İndi də sən daşı ver mənə.

Belədə uşaq uğunub gedə-gedə qayıdır ki:

– Sən eşşək ola-ola bunun hil olmağını, üstəlik də bir ətək pula getdiyini bildin, mən adam balası ola-ola onu bilməyim?!

Tamahkar zərgər uşağın bu hazırcavablığından özünü elə itirir ki, gözünü döyə-döyə qalır.

## Dana baltanın sapını batırıb (75)

İki davakar adam qazının yanına gedib bir-birindən şikayətçi düşür. Qazı bunların sözünü dinləyib deyir:

– Gedin üç gündən sonra gəlin, divan qurub bir əncam çəkərəm.

Demə, bu iki nəfərdən biri dəmirçi imiş. Qazı deyən vaxtdan bir gün əvvəl gəlib ona bir yaxşı balta verir. Dalınca da iltimac eləyir:

– Qazı ağa, sabah qonşumla sənin yanına gələcəyəm. Amanın bir günüdü, mənim tərəfimi saxla.

Qazı onu xatircəm eləyib yola salır. Bir az keçmiş o biri qonşu gəlir. O da qazıya bir kök dana gətirir. Bir az ordan-burdan söhbət eləyənnən sonra gəlişinin səbəbini qazıya bildirir. Qazı onu da arxayın eləyib, yola salır.

Səhəri gün divan qurulur. Hər iki qonşu arxayın qazının hökmünü gözləyir. Qazı dərin fikrə gedir. Bilmir neyləsin ki, bunların ikisi də razı qalsın. Gah dana, gah da balta gəlib gözünün qabağında dayanır. Bu vaxt dəmirçi qazının yadına balta məsələsini salmaq niyyətilə eşitdirir.

– Ay qazı ağa, nə çox fikir eliyirsən? Burada nə var axı! Baltala getsin də!

Qazı fikirli-fikirli üzünü ona tutub deyir:

– Elə dərd orasındadır ki, baltalaya bilmirəm. Dana baltanın sapını batırıb...

## Şükür ki, qovun boyda deyil...(76)

Dərbəndin hazırcavab kişilərindən olan Mirzə Səməndər dincini alıb bostana tamaşa edirdi. O, bostana tamaşa eliyə-eliyə fikirləşirdi ki, bu böyüklükdə qoz ağacının meyvəsinə bax, bostan tağının üstündəki yemişə bax. Bu böyüklükdə ağacın meyvə-

si gərək iki qovun boyda olaydı. Elə bu handa bir qoz dənəsi düz Mirzə Səməndərin başına düşür. Mirzə şükür eləyir ki, nə yaxşı qoz ağacının meyvəsi qovun boyda olmuyub, yoxsa indi çoxdan cəhənnəmə vasil eləmişdi məni.

## Gəlin ilə qaynana (77)

Qoca bir arvad olur, bunun da var-yox bir oğlu olur. Bir gün arvad baxır ki, ta qocalıb, deyir, qoy oğlumu evləndirim, evə gəlin gətirim. İş-gücdə mənə də əl tutsun.

Bir az keçir, arvad oğlunu evləndirir. Bir gün oğlan görür ki, anası gündən-günə daha da sozalıb əldən düşüb. Arvadını çağırıb deyir:

– Dərin boşqaba yağlı şorba çəkib, gündə üç dəfə verərsən anama.

Arvadı deyir:

– Baş üstə.

Əri işə gedənnən sonra arvadı boşqabı ağzınacan əhənglə doldurur, üstünə də bir-iki çömçə şorba töküb, qaxsımış arpa çörəyini qoyur qaynanasının qabağına. Yazıq arvad əlini xörəyə uzadanda gəlin xörəyi çəkib deyir:

– Ay arvad, gəl bir az oynayaq, sora yeyərsən.

Gəlin çırtıq çalıb qaynanasını o qədər oynadır ki, qaynanası əldən düşüb, yerində oturur. Bunda sonra gəlin çəkdi şorbanı qaynanasınının qabağına. Yazıq arvad o qədər əldən düşmüşdü ki, heç yeməyə heyi qalmamışdı .

Bir gün oğlu baxır ki, anasının halı lap pisləşibdi. Qərara gəlir ki, işə getməyib anasıynan arvadını güdsün. Bir gün iş adıynan evdən çıxır, üsdünnən bir az keçmiş gizlincə evə qayıdıb, bir küncdə gizlənir. Günorta vaxtı həmişəki kimi gəlin şorba boşqabını qaynanasının qabağına qoyub dedi:

– Ay arvad, hə, başla! Qaynana ayağa qalxır, çırtıq çalıb, oynaya-oynaya başlıyır oxumağa:

Gəlin məni oynatdı,
Arpa çörəyini çeynətdi.
Altı daş, üsdü aş,
Neyləyim mən külbaş.

Arvad yorulub taqətdən düşəndə gəlin onun xörəyini verdi. Oğlu gizləndiyi yerdən çıxıb xörəyi anasının qabağından götürdü. Bilir ki, anası niyə əldən düşüb zəifləyib. Elə həmin gün arvadını boşayıb evdən qovur.

## Çuval vay! (78)

Günlərin bir günü bir kişi dəyirmana bir neçə çuval dən aparır. Görür ki, növbədir. Bir nəfər onun çuvallarından birini oğurlayır. Axır növbə gəlir kişiyə çatır. Çuvallarını axtarıb bir yerə yığanda görür ki, bir çuval yoxdur. Nə qədər axtarırsa da çuvalın birini tapa bilmir. Qalan çuvalların ununu üyüdüb, kor-peşman evinə qayıdır. Gəlib hadisəni xatununa danışır. Xatun çuvalları bir-bir sayır görür ki, beş sabı dən tutan çuval yoxdur.

Bu işin üstündən bir müddət keçir. Bir gün xəbər gəlir ki, qonşusu ölübdür. Çuvalı oğurlanan kişinin xatunu yasa gedir. Evdə oturduğu yerdə gözü oğurlanmış çuvala sataşır. O saat öz çuvalını tanıyır. Bunu görübən xatun başlıyır ağlamağa:

Demək olmaz dil ilə,
Ağzı bağlıdı qıl ilə,
Ağlıyaram bu yol ilə,
Çuval vay, çuval vay!

Məclisdə oturan xatınlardan biri işin nə yerdə olduğunu anlayıb ondan soruşdu:

– Sənin itən çuvalın hansıdır?

Çuvalı itən xatın işarə ilə çuvalını göstərir. Xatın ona deyir ki, səsini çıxarmasın, daha iş-işdən keçib, oğru da ölübdür.

## Lal gəlin (79)

Bir gəlin olur. Ata evindən köçüb gələndə anası ona dönə-dönə tapşırır ki, bax ha, dilotu yeyib dillilik eləmiyəsən. Beş desələr, beş də sən deməyəsən. Təzə gəlinə göz qoyan çox olar, artıq-əksik danışıb baş aparmıyasan.

Gəlin gəlir. Bir gün keçir, beş gün keçir, görüllər bu gəlinin dinib-danışmaqnan heç arası yoxdu. Qaynanası belə güman eləyir ki, bunun dili-ağzı bağlıdı, gəlin laldı. Qərəz çox götür-qoydan sonra bu qərara gəlirlər ki, bunun üstünə bir dilli-ağızlı günü gətirsinlər. Gətirirlər, özü də dili boğaza qoymayanından. Gününü gətirəndə dilsiz gəlin ocaqda süd bişirirmiş. Görür, budu ha, bəzəkli-düzəkli bir atın belində gətirdikləri təzə gəlin girdi doqqazdan içəri. Özünü itirdiyindən südə göz qoymaq yadından çıxır. Ələfi elə çaşır ki, şalı da sürüşüb başından düşür. Süd bişib daşır. Günüsü elə atın belindən haray salır:

– Ay kar gəlin, lal gəlin,
Ört başına şal, gəlin.
Südün daşdı, dağıldı ,
Dur odunu al, gəlin.

Dilsiz gəlin baxıb görür ki, day qaradan o yana rəng yoxdu. Odur ki, alma-çalma gələn sözün qabağını elə alma-çalmalı söznən qaytarır:

Hisdi gəlin, pasdı gəlin,
Yanın yəhər kəsdi, gəlin.
Hələ atdan düşməmisən
Səsin kəndi basdı, gəlin.

Eşidənlərin matı-qutu qurudu. Görürlər köhnə gəlinin dili də var, dilavərliyi də. Gününü atdan endirəsi olmurlar, geri qay-

tarırlar ki, bəs bizim gəlinin lallığı başqa lallıqdanmış. O gündən gəlinlə qaynana ana-bala mehri, ülfətiynən dolanırlar.

## Əgər bilsəydim... (80)

Bir gün Süleyman peyğəmbər gedirmiş, birdən dirrikdə işləyən qarışqaları görüb deyir:

– Qarışqa, niyə sizin beliniz incə, başınız yekədir?

Qarışqa deyir:

– Biz qənaətkar tayfayıq, ona görə başımız yekə, belimiz incədir.

Şah deyir:

– İndi mən səni imtahan edərəm.

Bunu deyib, şah qarışqanın birini torbaya salır, yanına da bir buğda dənini qoyur, torbanı bağlıyıb, divardan asır.

Bir neçə ildən sonra qarışqa Süleyman peyğəmbərin yadına düşür. Deyir, gedim görüm qarışqa necə oldu? Sağdımı, ölüdümü?

Gəlib torbanı açanda gördü ki, qarışqa buğdanın hələ yarısını yeyib. Soruşdu:

– Qarışqa, buğdanı niyə yeyib qurtarmamısan?

Qarışqa deyir:

– Bilsəydim ki, sənin yadına belə tez düşəcəm, qənaət etməzdim.

# UŞAQ FOLKLORU

## UŞAQ DÜZGÜLƏRİ

### Üryana ay üryana (81)

Üryana, ay Üryana**,**
Üzüyüm düşdü bir yana.
Üzük suyu içərlər,
Xar-xarı don biçərlər.
Xar-xarı donun olsun,
Kətan köynəyin olsun.
Kətan köynək içində
Ağbalanın bıçağı,
Gümüşdəndi saçağı.
Yeri-yeri, yetim oğlan,
Qolundan tutum, oğlan.
İtələ sandıq açılsın,
Zincir-mincir saçılsın.

### Teşti-teşti (82)

A teşti-teşti, teşti,
Vurdum Gilanı keşdi.
İki xoruz savaşdı,
Biri qana bulaşdı.
Qənd elədim qaşımcan.
Yeddi kəmər başımcan.
Kəmər getdi oduna,
Qarğı batdı buduna.
Qarğı deyil, qamışdı,
Beş barmağım gümüşdü.

Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını səpdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa.
Haqq qapısı bülbülü,
Gəl oxu bizim dili.
Bizim dil – Urum dili.
Urumdan gələn atlar,
Heyva çiçəyi çatlar.
Heyvanı götürəydim,
Məzrədən ötürəydim.
Məzrənin qız-gəlini
Şah deyib, şeh ötürəydim.
Şahım Şirvan içində,
Qılıncı qan içində.
Oynar meydan içində.
Meydanın ağacları,
Bar gətirməz başları.
Vurun başı üzülsün,
El yaylağa süzülsün.
El yaylaqdan gəlincə
Yarı canım üzülsün.
Yarı can alabaxta,
Qanadı taxta-taxta,
Görüm onu vuranı
Qan qussun laxta-laxta!

## Bacadan baxan ... (83)

Bacadan baxan çəmbərə göz
Biri kəhər, biri boz.
Mindim bozun boynuna,
Çıxdım Urum yoluna.
Urum yolu dərbədər,
İçində meymun gəzər.
Meymunu ürkütdülər,
Qulağını qırpıtdılar.
Qulaq deyil çivaldı,
Üstü qaval-qavaldı.
Qavalları çalaydım,
Altun-xalça alaydım.
Axça sandıq içində,
Sandıq hamam küncündə.
Hamam üstü açıqdı,
Dörd dövrəsi palçıqdı.
Palçıq yapdım divara,
Quşlar gəlib suvara,
Suvarmasa neylərəm?
Dovşan bağrı teylərəm...

## Mindir məni xoruza (84)

Ayza-ayza, Firuzə,
Mindir məni xoruza.
Xoruz girdi güllüyə,
Atdı məni küllüyə.
Küllük yaman nəmişdi,
Beş addımı qəmişdi.
Qəmiş çalsam, kim gələr?

Yaylaqdan əmim gələr.
Əmimin nökərləri,
Fırladar təkərləri.
Təkər Şabran yolunda,
Meymun oynar solunda,
Meymunu ürküdeydim.
Tükünü qırpıdeydim.
Meymun tükü yastıqda,
Yastıq üzü sandıqda.
Tərpət sandıq açılsın,
Altun-axça saçılsın.

## YANILTMACLAR (85)

Acdım, sac asdım, yadımdan çıxdı küllənməmiş asdım.

İynəni sarı sapla sapla, dümsarı sapla, sapsarı sapla sapla.

Kəsilməli kəsmiyi kəsmək istəsən də kəsəcəksən, kəsmək istəməsən də kəsəcəksən.

Çəp keçi çəp keçidi çəpəki keçər, çəp keçi çəp keçidi çəpəki keçib çəpərə keçər.

Qığılcımı qığılcıqlandırma, qığılcımlandırdıqca qığılcım-lanacaq.

Mən gedirəm şum toxmaqlamağa. Sən toxmaqlasan da toxmaqlayacağam, toxmaqlamasan da toxmaqlayacağam.

# BEŞIK NƏĞMƏLƏRI

## LAYLALAR (86)

Laylay atam balası,
Ayım-günüm parası.
Mən sənə qurban olum,
Gözüm ağı-qarası.
Göyçək balam, a laylay,
Çiçək balam, a laylay.

Qönçə dolu butasan,
Hər kamına çatasan.
Qızılgül budağının
Kölgəsində yatasan.
Ay bala, bəndim laylay,
Şəkərim, qəndim laylay.

Gül dolu taxtın olsun,
Qızıldan baxtın olsun.
Qardaşının toyunda
Oynayan vaxtın olsun.
Laylay, göyçəyim laylay,
Gülüm, çiçəyim laylay.

Balama quzu qurban,
Əllisi, yüzü qurban,
Maldan nə var qurbana,
Nənəsi özü qurban.

Layla çallam yatınca,
Gözlərəm ay batınca,
Can gedər, cəsəd qalar,
Sən hasilə çatınca.

Layla çallam həmişə,
Dayın gedib yemişə.
Yastığında qızılgül,
Yorğanında bənövşə.

Obalar obanız olsun,
Nəticə, nəvəniz olsun.
Sizin də mənim kimi
Bir belə balanız olsun.

Layla, çiçəyim, layla,
Gözü göyçəyim, layla.
Sən hasilə çatınca
Ağardı birçəyim layla.

Layla deyim, zər olsun,
Zər olsun, zivər olsun.
Tanrıdan arzum budu,
Balam bəxtəvər olsun.

## NAZLAMALAR (87)

Dəryada balıq,
Boxçada yaylıq,
Qızıl yaxalıq,
Bu balama qurban.

Dərya qırağı,
Dərbəndin bağı
Qızların ağı
Bu balama qurban.

Dəryada qazlar,
Uzun boğazlar,
Adaxlı qızlar
Bu balama qurban.

Balama qurban ozanlar
Balam haçan söz anlar.

Ay Allah, bunnan üç dənə ver,
Həsrətin çəkmişlərə ver.
Göydəki quşlara ver,
Yerdəki camışlara ver
Qırxlara getmişlərə ver,
Şıxlara getmişlərə ver.

Bağların kişmişi
Bu balama qurban,
Qızların gəlişmişi
Bu balama qurban!

Yüyənsiz atlar
Bu balama qurban,
Ərsiz arvadlar
Bu balama qurban!
Qotazlı quzular
Bu balama qurban,
Tükü qırmızılar
Bu balama qurban!

Göldəki qazlar
Bu balama qurban,
Nişanlı qızlar
Bu balama qurban!

Bazarın başı
Bu balama qurban.
Atlaz, qumaşı
Bu balama qurban!

Dağda samanlar
Bu balama qurban.
Yadlar, yamanlar
Bu balama qurban!

# AŞIQ ŞEİRLƏRI

## YERSULU AŞIQ EMİN

Aşıq Emin Dərbənd dövrəsindəki Yersu kəndində (indi Tabasaran rayonuna daxildir) ötən yüzillikdə güzəran keçirib. Şeirlərindən kamil söz ustası olduğu açıq duyulur. İlk dəfə toplanıb nəşr olunur.

### Göy atın tərifi (88)

Ay ağalar, sizə tərifin deyim,
Düldül kimi gəlir meydana göy at.
Gümüş cilovları, məxmər çulları,
Qızıldan rəng geyib gərdana göy at.

Boyunu nazikdi, ayağı uzun,
Dördəmə çapanda şax tutar üzün.
Yoxuşda yorulub qatlamaz dizin.
Müddətdi səs salıb hər yana göy at.

Meydanda iyidi naümid qoymaz,
Tərpənib süzəndə ceyranı saymaz.
Yorğa yerişindən gözlərim doymaz.
Aşıq Emin qalır heyrana, göy at.

### Oyandı (89)

Abi-ataş xaki-baddan cəm oldu,
Xalıq nəzər qıldı, xabdan oyandı.
Ağıl-kamal hakim oldu, iş qovalandı,
Adəmin al yanından Həvva yarandı.

Ondan sonra gəldi səkkiz min aləm,
Ho dəmdə kim-kimə verib ölü salam.
Həzrəti Cəbrayıl çəkdi bir qələm,
Adəm peyğəmbərdən Nuha dayandı.

Sən kimsən, mən kiməm hey xəbər aldı,
Sən sənsən, mən mənəm deyibən qaldı,
Həzrəti Əleyisalam dünyaya gəldi,
Yeddi tabaq, yer-gög nura boyandı.

Mənəm aşıq Emin, qurşandım ərdən,
Ya rəbbim, sən saxla şeytandan, şərdən.
Oxuram Quranı hökmü əzbərdən,
La ilaha illallaha dayandı.

**Xəbər ver indi (90)**

Təmiz bu dünyamız nədən yarandı?
Buluddan, dumandan xəbər ver indi.
Adam uruhları nədən yarandı?
Necə bir imandan xəbər ver indi.

Neçə Nəbi gəldi yuxarı baxdı?
Ol kimiyidi ki, əliylə evini yıxdı?
Ol kimiydi dünyanı çevirdi, sıxdı?
Dəriynən sümükdən xəbər ver indi!

Adəm peyğəmbərin atı nədəndi?
Meyvəsi nə idi, dadı nədəndi?
Bağlayan noxtası, qatı nədəndi?
Bağlayan mıxından xəbər ver indi!

Yeddi cəhənnəmin odları nədi?
Meyvəsi nədi, dadları nədi?
Aşıq Emin deyər, adları nədi?
Cənnət bucağından xəbər ver indi!

## XALİD QARADAĞLI

On doqquzuncu yüzillikdə Dərbəndin Qaradağlı kəndində ömür sürüb. İgid, qoçaq bir adam kimi tanınıb. Şux, təravətli şeirləri el arasında geniş yayılıb.

### Gördüm (91)

Ay ağalar, Vəlikəndin yolunda
Badəsər, badəsər ellərin gördüm,
Bir gözəl çıxmışdı bağlar seyrinə
Zər kəmər üstündə əllərin gördüm.

Baxçası, baharı, barı yetişmiş,
Namusu, qeyrəti, arı yetişmiş,
Qoynundakı bir cüt narı yetişmiş,
Açılıb laləzər güllərin gördüm.

Süzübən gözlərin bir mənə baxdı,
Qızıldan, gümüşdən qurulu taxtı,
Xalid deyər, canım odlara yaxdı,
Tökülüb gərdənə tellərin gördüm.

### Gəldim (92)

Başına döndüyüm, xubların xubu,
Genə durub sizin diyara gəldim.

Gördüm ki, qalmayıb könlümün tabı
Hüsnünün seyrinə dübara gəldim.

Yorub da yolların duman, tozunu,
Götürdüm çiynimə möhnət duzunu.
Şeyda bülbülləri bağlar uzunu.
Eynim seylabında suvara gəldim.

Xalid deyər: günün gedib batmağa,
Yar yolunda xəstə düşüb yatmağa,
Sənin dükanında canım satmağa
Dilbər, mürvət eylə, bazara gəldim.

### "Abbas-Gülgəz" dastanından bir parça (93)*

Söz o yerə bağlıdı ki, Gülgəz xanımın qardaşı Batmanqılınc Məmməd bəy məclis qurub şadlıq eləyirdi. Abbas Tufarqanlı da bu yığnağın çalıb-çağıranıydı. Sazın-sözün şirin yerində bir də xəbər gəldi ki, bəs şah Batmanqılıncın dalınca çapar göndərib.

Çapar gəlişinin qəsdini bildirən təki Məmməd bəyin əhvalı pozuldu. Abbas çapar sorağını eşidənnən göz qoyub ona baxırdı. Gördü ki, Məmməd bəy Batmanqılıncın halı o hal deyil. Yaxınlaşıb xəbər aldı ki:

– Bəy sağ olsun, qanın niyə qaraldı?

Məmməd bəy köks ötürüb könülsüz-könülsüz dilləndi:

– Abbas, heç üstünü vurma, şah məni Dəmirqapı Dərbənddən vergi yığmağa göndərir. İllik xəracın alınan vaxtıdı, məsləhət bilib ki, mən gedim. Heç o tərəflərə bələdliyim yoxdu, bilmirəm necə yerdi, adamlarının xoy-xasiyyəti nə təhərdi?

---------------------------

* Bu nümunəni Şəmkirli el aşığı Murad Niyazlı söyləmişdir.

Belədə Abbas gülümsünüb qayıtdı ki:

– A bəy, mənim gəzib dolaşmadığım yer yoxdu. Güzarım Dərbəndə də düşüb. İzin ver, Dərbəndin yer-yurdunu saznan başlı-bütünlü sənə nişan verim.

Məmməd bəy itiyini tapan adam kimi sevinib dedi:

– Ayə, bəs nə durmusan, de gəlsin.

Tufarqanlı Abbas sazının zilini zil, bəmini bəm eləyib aldı görək nə dedi:

Ay ağalar, gəlin tərifin deyim,
Nə əcəb düşübdü yeri Dərbəndin.
İskəndər əlilə olub bərqərar,
Çəkilibdi bürcü-barı Dərbəndin.

Dərbənd gözəlləri qəsirdən baxar,
Gələni-gedəni odlara yaxar.
Cümədən-cüməyə seyrana çıxar
Gəlini, qızları, dulu Dərbəndin.

Dərbənd dedikləri bağçadı, bağdı,
Alt yanı dəryadı, üst yanı dağdı.
Çox əcəb gəzməli, səfalı çağdı,
Xəstəyə şəfadı narı Dərbəndin.

Sən gedirsən o Dərbənddə qalmağa,
Ləldən-cəvahirdən ələ salmağa
Yeyib-yedirməyə, qonaq almağa
Səxalıdı oğulları Dərbəndin.

Döşündə çeşmələr, zirvəsində qar,
Gözəlində həya, iyidində ar.
Elə ki qış keçdi, açıldı bahar,
Laləzardı sağı, solu Dərbəndin.

Düyüsü əkilib Gilandan gəlir,
Sürüsü çəkilib Muğandan gəlir.
Çindən, Hindistandan, Yəməndən gəlir,
Darçını, mixəyi, hili Dərbəndin.

Düşməninə zalım, dostuna mərddi,
Səyyadı alıcı, bərəsi bərkdi,
Sıldırım qayalı, havası sərtdi,
Hər yana işləyir yolu Dərbəndin.

Cümə məscidində qılırlar namaz,
Ağam Əli orda olub pişnamaz.
Bu sözləri deyər binəva Abbas,
Məhəmməd dəstindən Əli Dərbəndin.

## QAZI ƏFƏNDİ
## (BABA SİRİ)

On doqquzuncu yüzilliyin sənətkarıdı, haqqında geniş bilgi yoxdur.

### Söylə (94)

Göydən əndərdilər on dörd kəlamı
Yaradandan başqa açanı söylə,
Qırxların camında nələr əsildi,
Əcəl qəhərindən keçəni söylə.

Söylə mənə həqiqətin sözünü,
Nədir bu dünyanın eni, uzunu?
Əli üçün Məhəmmədin qızını,
Nigah edib, kəbin kəsəni söylə.

Qazi Əfəndiyəm, ver cavabımı,
Heç yerdə açmaram üz niqabımı,
Dəryadakı firovunun tabını,
Çiskin qərq olanı, içəni söylə.

## ƏHMƏD HÜMEYDİLİ

Əhməd Hümeydili on doqquzuncu yüzilliyin ikinci yarısı ilə bizim əsrin əvvəlləri arasında Dərbəndin Hümeydi kəndində yaşayıb. Mədrəsə təhsili alıb.

### Qızlar (95)

Seyrangahda gül üstə bülbül kimi
Gəlirsiniz necə avaza, qızlar,
Hər qıya baxanda can alırsınız
Baxan necə dözsün bu naza, qızlar.

Qızlar, nə girmisiz o bəyaz dona,
Qoymayın üstünə bir qubar qona,
Kiminiz yaşılbaş, kiminiz sona,
Kiminiz oxşayır ağ qaza, qızlar.

Şirinin naləsi Fərhada yetdi,
Duam qəbul oldu, haqq dada yetdi,
Əhməd ilə Sevda murada yetdi,
Sizinki də qaldı bu yaza, qızlar.

## Beş-beş (96)

Ay ağalar, nədən döndü zəmanə,
Koxalar bir olub, mollası beş-beş,
Quran ayatını bilməyən kəsin
Papağı bir olar, züllləsi beş-beş.

Beş qara oxuyan olubdu molla,
Tezcə qismətləri beş arşın ola.
Sizə gəlsin Allahdan bir bəla
Həftədən-həftəyə öləsiz beş-beş.

Çağırmaz əzanı, alar zəkatı,
Tərsə döndəribdir Quran, ayatı.
Sizə görkəzməsin gözəl cənnəti,
Cəhənnəm dibinə düşəsiz beş-beş.

# AŞIQ NİFTULLA

Aşıq Niftulla 1915-ci ildə Marağa kəndində anadan olub. Hazırda Rubas kəndində yaşayır. Zəngin repertuara malikdir. Yaradıcı-ifaçı aşıq Dərbənd-Quba ərazisində böyük hörmət və nüfuz qazanmışdır. Söz sənətinin sirlərini öyrətdiyi neçə-neçə aşıq bugünkü el məclislərinin ustad aparıcılarıdır.

## Olmadı (97)

Gözəllər sultanı divan eylədi,
Hay saldı, hayıma gələn olmadı.
Çəkib qılıncını bağrım teylədi,
Bir dönüb halımı bilən olmadı.

Canımı bürüdü eşqin ataşı,
Yandı kabab oldu bağrımın başı,
Köməyə çağırdım qohum-qardaşı,
Yetib göz yaşımı silən olmadı.

Biçarə Niftulla düşüb kəməndə,
Bivəfa gözəli tanıdım mən də,
Qəm ləşkəri məskən saldı sinəmdə,
Bu ağır ləşkəri bölən olmadı.

**Nəsihət eyləyim (98)**

Könül, sənə bir nəsihət eyləyim,
Çəkmə özgə sözün dilə, eyibdi.
Hər deyilən sözdə doğruluq olmaz,
Yayma yalan sözü elə, eyibdi.

Gəzmə ara-bərə sözüylə belə,
Çəkin xəcalətdən, bir az ar elə.
Xırda bir damcını döndərmə selə,
Batırma aləmi lilə, eyibdi.

Adam budur, yaxşı əməl yarada,
Şirin ixtilatı gəzə arada.
Əqlini cəm eylə həyat barədə
Satma zatın bilə-bilə, eyibdi.

Tikmə gəl dövlətə, mala gözünü,
Ucuz tamahına satma özünü.
Çıx pərdədən, gəl gizlətmə üzünü,
Tutma Niftullanı dilə, eyibdi.

## Unutma (99)

Telli sazım, budur sənə minnətim,
Səni yada saldığımı unutma,
Sevib-seçib səni usta əlindən
Altun verib aldığımı unutma.

Qurban olum, ustadıyın əlinə.
Bəzək vurub oxşadıbdır gəlinə.
Xoş avaz yaradıb, verib telinə,
Canım eşqə saldığını unutma.

Sədəfin var, bəzəyin var, nazın var,
Baharın var, gülşənin var, yazın var.
Canlar eşqə salan xoş avazın var,
Sinəm üstə qaldığını unutma.

Səni alıb mən məclisə girəndə,
Qəmli könüllərin pasın siləndə,
Qızlar baxıb yaşmaq altdan güləndə
Heyran olub çaldığımı unutma.

Niftulla da günü keçən bəndədi,
Həqiqəti desə, qoca sindədi.
Yenə gözüm, könlüm, canım səndədi,
Səninlə qocaldığımı unutma.

## Qaşların (100)

Başına döndüyüm, qurban olduğum,
Vurubdur qəlbimə yara qaşların.
Könül mayil olub gül camalına,
Eylər dərdimə çara qaşların.

Gözlərin könlümə salıbdır güman,
Camalın aşiqə çəkdirir aman.
Yaxşı sözü bəyəm qanallar yaman,
Verər fərman, çəkər dara qaşların.

Yaxşısı yaxşıdı, yamanı qalsın,
Yaradan könlümə bir rəhim salsın.
Möhübbət bizimdir, arada qalsın,
Rəhm eləsin ahu-zara qaşların.

Niftulla sevibdir o şirin sözü,
Qara qaş altında piyala gözü,
Bir insafın olsun, zalımın qızı,
Könlüm salıb lap avara qaşların.

## Neyləyim (101)

Mənimlə könlümün ədavəti var,
Qulaq asmır cismi-cana neyləyim?
Mayıl olub bir qaşları kamana,
Dönmür billah heç bir yana, neyləyim?

Bilən gərək eşq əhlinin halını,
Əmən bilər yar ləbinin balını.
Könül sevib onun mah camalını
Rəhmi yoxdur şirin cana, neyləyim?!

Uca dağlar başın duman, qar aldı,
Leyliyə, Məcnuna dünya dar oldu.
İndi mənim işim ahu-zar oldu,
Dönüb oldum bir divana, neyləyim?!

Eşq oduna düşən aşkara yanmaz,
Səyyad dayan desə, ceyran dayanmaz,
Arı sızıldayar, güldən oysanmaz,
Haqq yaradıb salıb qana, neyləyim?!

Canıma qəsd edir o ala gözlər,
Ürəyim qövr çəkib, ciyərim sızlar.
Aşıq Niftulladan könül nə istər -
Bağrım olub şana-şana, neyləyim?!

## Ayırma məni (102)

Şah camalın eşqə saldı canımı,
Oynatdın ağlımı sərdən, sevdiyim.
Bağlayıb qolumu, tutdun gözümü,
Qoyma qurtar məni dardan, sevdiyim.

Siyah zülfün yarı enib qabağa,
Qoşa xallar xub yaraşır yanağa.
Bir canım var edəm sənə sadağa,
Kəsmə payım qoşa nardan, sevdiyim.

Niftullayam, dəryalara at məni,
Hərrac bazarına apar sat məni,
Səndən özgə qeyri bir cəllad məni
Ayırmaz o bəyaz qardan, sevdiyim.

## “Koroğlu” dastanından bir parça

### Xoş gəldin (103)

Dağlar aşıb gələn oğlan,
Oğlan, xoş gəldin, xoş gəldin.
Bağrım başın dələn oğlan,
Oğlan, xoş gəldin, xoş gəldin.

Dolandım güllü-cahanı,
Gəzdin dağı, dəryanı.
Sənə qurban deyim canı,
Oğlan, xoş gəldin, xoş gəldin.

Gəl gedək bülbüllü bağa
Canım canına sadağa.
Sallan gəl bir ağ otağa,
Oğlan, xoş gəldin, xoş gəldin.

Eylədim əhdimə vəfa,
Yolunda çəkmişəm cəfa,
Sürərik səninlə səfa,
Oğlan, xoş gəldin, xoş gəldin.

Almasın könlünü qubar,
Mən ollam sənə vəfadar,
Sənə qurban telli Nigar,
Oğlan, xoş gəldin, xoş gəldin.

# DASTANLAR

## SEYDİ-PƏRİ (104)

Qaydadı ki, dastan başlamazdan ustadnamə deyərlər. Biz də deyək bir olsun, düşmən gözü kor olsun:

Bəla baş verəndə haraya yetiş,
Dərdlini qınayıb sıxmaq çətindi.
Müxənnət, nanəcib qəlbim taladı,
Qanrılıb üzünə baxmaq çətindi.

Kimsədən qorxma ki, qorxmazlar səndən,
Qaç ədəb itirib qəzəb edəndən.
Ləkəli kimsədən gəl dolan gendən,
Bir pak ada qara yaxmaq çətindi.

Alı, bil yolunda hiylə qurulub,
Həyatın gərdişi səylə qurulub.
Eşqin darvazası eylə qurulub
Girərsən qayıdıb çıxmaq çətindi.

Ustadnaməni bir deməzlər, birin də deyək iki olsun, namərdin gözü tökülsün:

Qafil könül, bu nə yoldu tutubsan,
Sərf edirsən, nə kamaldı dünyada.
Dövlətə qul olub gül tək açılma,
Çox səni tək güllər soldu dünyada.

Kibrindən qəlbində bərkitmə barı,
Top dəyər, dağılar bürcü, hasarı,
Yüz sənin tək ahu gəzən şahmarı
Fələk kəməndinə saldı dünyada.

Guşumda sırğadı, sinəmdə dağdı,
Ağıllı unutmaz necə ki sağdı,
Dövlətdən qismətin beş arşın ağdı,
Çəkdiyin qövğadı, qaldı dünyada.

Yığılar məxluqat, qurular məhşər,
Boyunlarda kəfən, əllərdə dəftər,
Onda vay halına, yazıq Ələsgər,
Özün getdin, sözün qaldı dünyada.

Ustadnaməni iki deməzlər, üç deyəllər, biz də deyək üç olsun, düşmən ömrü puç olsun:

Bir adamsan, bir adama namə yaz,
Mahalı incidib, eldən danışma.
Ara qarışdırma seyraqub kimi
Kar çıxmaz qovğadan, qaldan danışma.

Kalman çarıq bizə adəti-nasdı,
Müsəlmana persoy deyən xənnasdı.
Ulaqın eşşəkdi, yükün kir-pasdı,
Abı atlas, tirmə-şaldan danışma.

Neçə aşıq qaçırmışam meydandan,
İstəyirsən bir-bir keçirim sandan,
Gəmirib kəngərdən, içib ayrandan,
Coşub kərkədəndan, fildən danışma.

Adım Ələsgərdi, mərdü-mərdana,
On iki şəyirdim işlər hər yana,
Tülküsən, aslanla girmə meydana,
Danasan, sürtünüb kaldan danışma.

Sizə hardan danışaq – Qarabağ şəhərinin hökmdarı Saleh padşahdan. Saleh padşah varlı-hallı, ağıllı-kamallı bir padşahıy-

dı. Bir kimsəni incitməz, haqqı nahaq ayağına verməzdi. Kasıblara əl tutar, dara düşənlərin dadına yetərdi. Di gəl onun övlad sarıdan könlü incikliydi, özündən sonra çırağını yandıracaq kimsəsi yoxuydu. Bir gün padşah genə də xəyala gedib var-dövlətinə kim sahib çıxacağını fikir eləyirdi. Bu fikirdəydi ki, gözü küçədən keçən ağsaqqal bir dərvişə sataşdı. Xəyalından keçdi ki, bəlkə, bu baba dərviş mənim övlad nisgilimdən bir soraq verə. Əmr elədi, dərvişi onun hüzuruna gətirdilər. Dərviş gəlib kamili-ədəblə salam verib, baş endirdi:

– Qibleyi-aləm, qulluğunda müntəzirəm.

Saleh padşah buyuruq verdi, dərvişlə onu tək buraxdılar. Padşah nigarançılığını dərvişə söylədi. Dərviş rəml atıb fal açdı. Dedi:

– Padşah sağ olsun, sənin qismətində övlad var. Amma gərəkdi ki, var-dövlətinin düz tən yarısını fağır-füqəraya paylayasan.

Sonra cibindən al qırmızı bir alma çıxarıb padşaha uzatdı:

– Bu almanı da xatınınla bölüb yeyərsən. Tanrı səni kamına yetirəcək. Padşah dərvişə yaxşı ənam verib, onu razı yola saldı. Sonra göstəriş verdi, mal-dövlətinin yarısını kasıb-kusuba payladılar. Axşam olanda padşah dərviş verən almanı da xatınıyla bölüb yedi. Doqquz ayın tamamında bunların bir oğlu oldu. Uşağın adını Seydi qoydular. Bəli, əzizlər, aşıq dili yüyrək olar, orda ayınan-ilinən, burda şirin dilinən oğlan böyüyüb yeddi yaşa yetdi. Saleh padşah məmləkətin ən bilikli mollası sayılan Molla Məhəmmədi yanına çağırıb, uşağın təlim-tərbiyəsinnən məşğul olmağı ona tapşırdı. Deyir, dərd-bəla bir ocağın üstünü almaya, alandan sonra çəkilib getməyi uzun işdi. Biçarə Seydi dərs oxumağa məşğul ikən qəflətən anası vəfat elədi, bunnan heç bir az ötməmiş Saleh padşahın özü də çarəsiz bir mərəzə tutulub yorğan-döşəyə düşdü. Əhvalının get-gedə korlandığını görən Saleh padşah bir gün molla Məhəmmədi yanına çağırıb dedi:

– Molla Məhəmməd, belə baxıram ki, mənim yastığım ağır yasdıxdan olub. Ayağa qalxmağım müşkül işdi. Oğlumu da, taxt-tacımı da sənə tapşırıram. Neçə ki, uşaq böyüməyib özün padşahlıq elə. Oğlum kamala yetəndən sonra onu əyləşdirərsən taxtda. Öz balan bil, dərsinə, elminə göz ol.

Molla Məhəmməd padşaha toxtaxlıq verib, onu arxayın elədi. Bu söhbətdən bir-iki gün keçəndən sonra Saleh padşah gözünü yumub, köçünü dünyadan çəkdi. Padşahın vəsiyyətincə taxta Molla Məhəmməd oturdu. Molla Məhəmməd Seydini öz balası kimi ciddi-cəhdinən oxudurdu. Bu minvalnan Seydi gəlib on altı yaşına yetdi. Yaraşığına, camalına da söz yoxuydu, ağıl-kamalına da. Molla Məhəmməd hayana getsəydi, Seydini özüynən aparardı. Bir gün yenə də səfər tədarükü görürlər. Yola çıxmazdan bir az qabaq Seydi yüngülcə naxoşlayır.

Padşah deyir:

– Sən qal, qulluğunda durub səni sağaltsınlar. Əhvalın babatlaşanda çıxıb meydanda, bazarda gəzib dolaşarsan, eynin açılar. Mən yolumdan qalmayım, bir-iki günə qayıdıb gələrəm.

Bəli, Seydi qalır evdə. Bir-iki gündən sonra görür daha naxoşluğu sovuşub, yaxşıca geyinib, bazara çıxır. Bir az gəzib dolaşandan sonra baxır ki, bir dərvişin dövrəsinə çoxlu adam yığışıb. Dərvişin də əlində saz var. Özü də elə şirin-şirin oxuyur ki, yoldan keçənlər istər-istəməz ayaq saxlayıb, onun səsinə qulaq asır. Seydi də xeyli qulaq asandan sonra dərvişə yan alıb soruşur:

– Baba dərviş, bu oxuduğun sözləri, bir də bu çaldığın sazı satarsanmı?

Dərviş zəndinən oğlanın təhər-töhrünə göz qoyub deyir:

– Niyə satmıram, oğul bala. Kim üç yüz bacaxlı versə, sazı da, oxuduğum sözləri də verərəm ona.

Seydi çıxarıb dərvişə üç yüz bacaqlı verir. Dərviş pulu alıb sazı verəndən sonra üzünü tutur Seydiyə:

– Get evdə yat, yuxuda hər şey sənə əyan olar.

Seydi yatıb yuxulayır, yuxusunda görür ki, Həzrəti Əli bir əlində badə, bir əlində Kavurəslimin qızı Pəri xanımın şəkli onun qarşısında dayanıb. Həzrəti Əli Pəri xanımın şəklini Seydiyə göstərib badəni içirdir. Deyir:

– O şəkildə gördüyün Pəri xanımı sənə buta verdim. Get butana qovuş. Belə deyib Həzrəti Əli qeyb olub.

Seydi də bihuş halda yıxılıb qalır. Vaxt ötür, Seydidən nigaran qalan Molla Məhəmməd tələm-tələsik səfərini başa vurub geri qayıdır. Gəlib görür nə? Seydi yıxılıb üzüstə, tamam bihuşdu, özünün də ağzından köpük gəlir. Silkələyib oğlanı oyadır. Görür, yox, balam, bunun halı o haldan deyil. Soruşur ki, nədi, nə olub sənə? Seydiyə vergi verilmişdi. Odur ki, sazı götürüb, ərzi-halını belə bildirir:

Məscid, mədrəsədə əyləşən qazı,
Halal eylə, yar yoluna gedirəm.
Qayibdən yazılıb alnıma yazı,
Halal eylə, yar yoluna gedirəm.

Molla Məhəmməd dedi:

– A bala, nə yol, nə yar? Sən nə danışdığındı?

Seydi gördü ki, hələ dərdini qandıranmayıb, götürdü sözün arxasını:

Bir kimsənə badə verdi dəstimə,
Mən qurbanam onun xaki-məsdinə.
Yatmış idim, haqq yetişdi üsdümə,
Halal eylə, yar yoluna gedirəm.

Molla Məhəmməd lap başını itirdi:

– Oğul, Seydi, başına hava-zad gəlməyib ki? Ağlını itiribsən, nədi?

Seydi dedi: – Ağa, başına dönüm, bircə burasına da qulaq as, gör sözümün canı nədi:

Dərin-dərin dəryalara dalasan,
Dərviş olub mənim dərdim biləsən.

Mən Seydiyə xeyir-dua verəsən,
Halal eylə, yar yoluna gedirəm.

Molla Məhəmməd hannan-hana ayılıb barmağını dişləyir ki, ay dadi-bidad, buna buta verilib, sevgisinə çatmayınca qərar tapan deyil. Fikirləşdi ki, yaxşısı budu, buna öyüd-nəsihət verib yola salım. Dedi:

– Oğul, Seydi, görürəm sənə buta verilib, sevdiyinin dalınca getməlisən. Get, Allah beləncə! Amma sənə bir tapşırığım var, çalış o tapşırığı unutma. Oğul, təki, tanrı sənə yar olsun, butana yetişəsən. Yetişəndən sonra mən kəbin kəsib, toyun tutmamış, evlənməyəsən. Oldumu?

Seydi:

– Oldu, ağa, lap arxayın ol, – deyib sazı da qoltuğunda yola düşdü. Gecə-gündüz yol gedib, özgə bir məmləkətə yetişdi. Baxdı ki, yorulub əldən düşüb. Dedi, qoy bir az dincimi alım, sonra yoluma davam eləyim. Gördü bağlı-bağatlı bir bulaq başı var. Bulağın suyundan əl-üzünə vurub, göy çəmənlikdə uzandı. O qədər yorulmuşdu ki, gözlərinin nə vaxt yumulduğundan heç xəbəri də olmadı. Hə, bu burda yatmağında olsun, eşit söhbətin o biri ucundan. Bu həmən günüydü ki, məmləkətin padşahının qızı, vəzirin, əyan-əşrəfin qızları yan-yörələrində də qul-qaravaşları çıxmışdılar seyrə. Çəmənlikdə dövrə vurub əyləşmişdilər. Deyən kim, gülən kim... Arada iki qızı göndərdilər ki, getsin bulaqdan su gətirsin.

Qızlar bulağın başına çatıb nə görsələr yaxşıdı? Gözəl–göyçək bir oğlan bulaqdan bir az aralı uzanıb yatır. Tələm-tələsik geri qayıdıb, əhvalatı xanımlara danışdılar. Padşah qızıynan vəzir qızı kişi paltarı geyinib, gəldilər bulağın üstünə. Səs eləyib oğlanı oyatdılar. Soruşdular:

– Oğlan, sən kimsən, nə qulluğun sahibisən, burda neynirsən?

Seydi belə baxdı ki, yaman yerdə axşamlayıb. Birtəhər özünü ələ alıb dedi:

– Aşığam, qurban.

– Əyəm aşıqsan, onda gərək sənə əyan olmuş ola ki, bizim könlümüzdə nə var? Düzünü deməsən, boynun vurulacaq.

Seydi gördü işlər yaşdı, iltimas elədi:

– Qurban, mənə iki saatlıq möhlət verin, oturum fikirləşim.

Razılaşdılar. Seydi o qədər fikir-xəyala batdı ki, gözünü təzədən mürgü basdı. Huşa getdiyinnən ona buta verən Həzrəti Əli gözünün önündə peyda oldu:

– Oğul, onların ikisi də qızdı, qəsdən qiyafələrini dəyişiblər ki, səni çaşdırsınlar. Qorxma, aç de.

Seydi o saat gözünü açıb, əl atdı sazına:

Bu şəkildə oğlan olmaz, ağa xan,
Soruşan dilində hiylə var, hiylə,
Cadu qaşlarında fitnə-fellərin,
Zülfünün telində hiylə var, hiylə.

Qızlar bir-birinin üzünə baxdılar, vəzir qızı duruş gətirmədi. İstədi hədə-qorxu gəlsin:

– Nə dediyindi, bu saat boynun vurulacaq.

Padşah qızı dedi:

– İşin olmasın, bu, haqq aşığıdı, qoy dalısın desin.

Götürdü Seydi:

Bir gün oldu, əlim yardan üzüldü,
Xumarlandı, ala gözlər süzüldü,
Vəzir qızı, nədən halın pozuldu?
Sənin əməlində hiylə var, hiylə.

Padşah qızı mat qaldı ki, gör hər şeyin cikindən-bikindən nə xəbər verir. Seydi də bildi ki, qızlar onun aşıqlığına inanıblar. Aldı sözün tamamında:

Mən Seydiyəm, bu dağları gəzirəm,
Xəbər alsan mərifətdən süzürəm,
Bilə-bilə cəbrinizə dözürəm,
İki qız könlündə hiylə var, hiylə.

Qızlar Seydinin ağıl-kamalına “afərin” deyib, hardan gəlib hara getdiyini bir də başdan-binədən öyrəndilər. Padşah qızı əmr elədi, Seydiyə yaxşı bir at verdilər ki, yolu piyada getməsin. Seydi bunlarnan halal-hümmət eləyib, üz qoydu Kavursəlimin diyarına. Az getdi, çox getdi, axır acıb əldən düşdü. Ora-bura boylandı ki, görsün yaxında obadan-oymaxdan nə var, gedib azuqə götürsün. Bu axtarmağında olsun. İndi eşit Kavursəlimin qızı Pəri xanımdan. Pəri xanımın məmləkətin qurtaracağında bir qalası vardı. İldə bir yol gəlib bu qalada qərara tapar, ova çıxar, sonra genə də geri qayıdardı. Özü də Pəri xanım igidlikdə, at minib ceyran qovlamaqda, ov ovlamaqda ad çıxarmışdı. Orasını da qulluğunuza yetirəm ki, bu səfər Pəri xanım qalada qərar tapanda ona da buta verilmişdi. O səbəbdən də əhvalı qarışmışdı. Ərən libasında qalanın qapısına enmişdi ki, ova yollansın, bəlkə, bir az eyni açıla. Bir də gördü ki, budu, bir aşıq əlində saz, girdi içəri. Seydi də baxdı ki, yaraqlı-yasaqlı bir iyid dayanıb, bilmədi ki, qızdı, özü də Pəri xanımdı. Aclıq taqətini tamam kəsmişdi deyin, götürüb görək nə istədi:

Gecə-gündüz çağırdığım ərənlər,
Bir yemək istərəm, bir yol varayım.
Sizə kömək olsun bizi yaradan,
Bir yemək istərəm, bir yol varayım.

Pəri xanım yuxuda buta alanda Seydinin şəklini görmüşdü. Baxdı ki, həmin oğlandı, yolda-izdə çətinliklərə düşdüyündən bir balaca sınıxıb. Özünü saxlaya bilməyib, görək nə dedi:

Gecə-gündüz çağırdığım ərənlər,
Gəl yuxarı, sənə qurban mən olum.
Könlün nə istəsə, buyur nuş elə,
Gəl yuxarı, sənə qurban mən olum.

Seydi genə də Pəri xanımı tanımadı, odur ki, yoluna davam eləməkdən ötəri yemək verməyini dilədi:

Mən çıxaydım eyvanına, köşkünə,
Bürünəydim ənbərinə, müşkünə,
Nur camallı peyğəmbərin eşqinə,
Bir yemək istərəm, bir yol varayım.

Pəri xanım fikirləşdi ki, bu, yəqin məni oğlan bilir, ona görə də özünü lap yaxından nişan verdi:

Zari-cismim qaldı fəraq içində,
Yandım piltə kimi çıraq içində,
Bir güləm mən, soldum yarpaq içində,
Gəl yuxarı, sənə qurban mən olum.

Seydi yenə tanımadı:

Bülbül kimi mən həsrətəm güllərə,
Axıb çeşmim yaşı döndü sellərə,
Mən Seydiyəm, düşdüm qərib ellərə,
Bir yemək istərəm, bir yol varayım.

Pəri xanım durammadı, başındakı niqabı götürüb atdı, siyah zülfündən üç tel ayırıb bağrına basdı:

Gözəl desən, gözəllərin xasıyam,
Aşıqların söhbətiyəm, sazıyam,
Adım Pəri, Gavursəlim qızıyam,
Gəl yuxarı, sənə qurban mən olum.

Belə deyənnən sonra Seydi bildi ki, bu, onun öz sevgilisidi. Pəri xanım gedib ov libasını soyundu, zərli-zərbaflı xanım-xatın paltarını geyindi. İstəklisinin boy-buxununa, yar-yaraşığına heyran kəsilən Seydinin dəli könlü bu yerdə cuşə gəldi, nə gəldi. Götürüb telli sazı haçan sinəsinə basdığından xəbəri olmadı:

Soruşmaq eyib olmadı
O nədi, Pəri, qoynunda,
Mənnən ötrü saxlamısan
Dərməyə narı qoynunda.

Gül baxçaya qədəm basdıq,
Əzəldən istəkli dostuq,

Zülfün yorğan, məmən yastıq,
Gəl açaq yeri qoynunda.

Bəyəm yarından doymusan,
Fani dünyaya uymusan,
Sən məni ağlar qoymusan,
Sərgərdan əli qoynunda.

Bəli, bunlar bir müddət burda bir yerdə qalırlar. Amma Seydi Molla Məhəmmədin tapşırığını yerinə yetirib, Pəri xanıma toxunmurdu. Hər dəfə də bir bəhanə gətirib, işi uzadırdı. Bir gün Pəri vurduğu ovu at üstünə qaldıra bilməyib kövrəldi. Üzünü səmənd atının yanına söykəyib belə dedi:

Gəşt eləyib çıxdım tərlan eşqinə,
Əzəlki ovqatım qalmayıb daha.
Dərya məcnun oldu gözüm yaşından,
Əzəlki ovqatım qalmayıb daha.

Dərin-dərin dəryalara bulaydım,
Neçə igitlərin boynun vuraydım,
Vurub səmənd atın üstə alaydım,
Əzəlki qüdrətim qalmayıb daha.

Mən Pəriyəm, işim qeylü-qaldadı,
Eşqin piyaləsi dolhadoldadı.
Seydi intizarda, gözü yoldadı,
Əzəlki ovqatım qalmayıb daha.

Seydi çox gözləyir, axır dözməyib durub yola çıxır. Hannan-hana görür Pəri gəlir. Gec gəlməyinin səbəbini soruşur. Pəri ovu vurub at belinə qaldıra bilmədiyini deyir. Seydi deyir ki, daha bu gündən belə ova özüm gedəcəyəm. Həmən gündən sonra Seydi Pəri xanımın səmənd atına minib, ova yollanır. Seydi ova gedəndə Pəri xanım molla dalınca adam göndərir ki, gəlib kəbin

kəssin. İş elə gətirir ki, kəbin kəsməyə gələn molla yolda Seydiyə tuş olur. Seydi hal-hekayəti öyrənib üzünü tutdu mollaya:

Başına döndüyüm, xocayi baba,
Şərti peyğəmbəri səndən istərəm.
Sənə kömək olsun ol əhli Əba,
Şərti peyğəmbəri səndən istərəm.

Yoluxdum yarımın qönçə çağına,
Bax sinəmin düyününə, dağına.
Qismət olub gedək yar otağına,
Şərti peyğəmbəri səndən istərəm.

Mən Seydiyəm, sənə elərəm minnət,
Sənə qismət olsun səkkizdə cənnət.
Bizə əmr olub fərzilə sünnət,
Şərti peyğəmbəri səndən istərəm.

Seydi saznan dediyi kimi söznən də mollaya evdən çıxanda aldığı tapşırığı söyləyib, öz ərzi-halını başa saldı. Molla Pəri xanımın yanına gəlib kəbin kəsməməkdən ötəri ona min cür mahna gətirdi. Pəri onunla razılaşıb bir söz demədi.

Hə, bu, burda qalsın, eşidək görək, bir gün ovda Seydinin başına nə gəldi. Pəri xanımın telləri gün kimi işıq saçırdı. Telinin hansı tükünü götürüb baxsaydın, gözünə Pəri xanımın şəkli görsənərdi. Seydi hər dəfə ova gedəndə Pəri xanımın bir tükünü götürüb aparar, könlü sevgilisini istəyəndə tükə baxıb təskinlik tapardı.

Bəli, ov vaxtıydı, Seydi bir bulaq üstündə əyləşdi ki, namaz qılsın. Namaz qılan zamanda birdən yarı yadına düşdü. Çıxarıb teli baş qoyduğu səmtə qoyur ki, namaz qıla-qıla sevdiyini də görsün. Birdən qəfil külək qalxıb teli aparır. Seydi dörd bir yanda axtarmadığı yer qoymur, di gəl tel tapılmır ki, tapılmır. Axırda Seydi hər yanı axtara-axtara gəlib Əcəm padşahının məmləkətində divlərə rast gəlir. Deyir, qoy bu divlərdən teli soruşum, bəlkə, görüblər?

Yol üstündə duran ağalar, xanlar,
İtirmişəm, yar telini gəzirəm.
Tapan olsa muştuluğun verərəm,
İtirmişəm, yar telini gəzirəm.

Div dedi:

– Səni xəta gətirib buraya çıxardıb, yoxsa bu söylədiklərin nədi?

– Hər yetəndən mən muştuluq almaram,
Heç bilmirəm, əcəm oğlu nə söylər?
Yetmiş yeddi yara vursa, ölmərəm,
Heç bilmirəm, əcəm oğlu nə söylər?

Seydi belə baxdı ki, div başqa hava çalır. Qərara gəldi ki, çölə-düzə düşməyinin səbəbini kəsəsinə desin:

Yarım ilən danışıban gülmüşdüm,
Yaylıq alıb didəm yaşın silmişdim.
Ovdan ötrü bu yerlərə gəlmişdim,
İtirmişəm, yar telini gəzirəm.

Div dedi:

Yarımilən danışıban gülmənəm,
Yaylıq alıb didəm yaşın silmənəm.
Sən dediyin nədi, onu bilmənəm,
Heç bilmirəm, əcəm oğlu nə söylər?

Seydi gördü xoşluğunan iş keçmir. Başladı alma-çalma gəlməyə. Özü də öz qolunda olan tutara bələdiydi, bilirdi ki, qəzəblənsə, qılıncınan divləri şül-küt eləyəsidi. Seydiyə badə veriləndən ona beş kəlin gücü gəlmişdi. Götürüb görək necə hədə-qorxu gəldi:

Mən Seydiyəm, Seydiliyim bildirrəm,
Misir qılıncının pasın sildirrəm.
On ikisiz, on beş olsaz öldürrəm,
İtirmişəm yar telini gəzirəm.

Div şaqqanaq çəkib güldü, dedi:

– Oğlan, görünür, sən mənim kim olduğumu, gücümü, qüdrətimi bilmirsən. Bilsən cəsarət eləyib belə sözlər deməzdin.

Seydinin dili dinc durmadı:

– Yox, biləmmirəm, de görək kimsən?

– Onda qulaq as:

Əcəm şahın buyruğunda gəzərəm,
Gələnin-gedənin başın üzərəm.
Sən uşaqsan, bir yumruğa əzərəm
Heç bilmirəm, əcəm oğlu nə söylər?

Sözlərinin çəp gəldiyini görən Seydi qəzəbnən divin üstünə atıldı. Div də ona hücuma keçdi. Seydi qılıncla divi iki böldü. Sonra o biri divnən tutaşdı. Qərəz ki, böyük mərəkə qopdu.

İndi eşit Pəri xanımdan. Pəri xanım Seydinin geciyməyindən qorxuya düşüb başladı onu axtarmağa. Gəzhagəz axırda gəlib çıxdı Seydinin divlərnən dava qopardığı yerə. Gördü vay aman! Seydi divləri parça-parça eləyib, yan-yana düzüb. Soruşdu:

– Ay Seydi, bu nədi belə? Nə həngamədi qalxızıbsan?

Seydi:

– Pəri xanım, sən verən teli itirmişəm, deyirəm, bəlkə, bunlar tapıb vermirlər. O səbəbdən də hamısını qılıncdan keçirdim.

Pəri xanım yaman ürəyi yumşağıydı. Dedi:

– Bir teldən ötrü də bir belə qan tökmək olarmı?

Seydi durammadı. Əl atıb sazını bağrına basdı:

– Pəri xanım, telin xiffəti bağrım başın dəlik-dəlik eləyib. Gör bir nə gündəyəm:

Qoyub əyləşmişdim bulaq üstünə,
Yar, sən verən tel ümmana qərq oldu,
Külək də durubmuş demə qəsdimə,
Yar, sən verən tel ümmana qərq oldu.

Yüyürdüm, dəstindən tuta bilmədim,
Özümü dəryaya ata bilmədim,

Nə qədər axtardım, tapa bilmədim,
Yar, sən verən tel ümmana qərq oldu.

Seydi deyər: qəmdən ağardı başım,
Tapmadım yanımda yarı-yoldaşım,
Müşkülə düşəcək mənim bu işim,
Yar, sən verən tel ümmana qərq oldu.

Pəri xanım dedi:

– Bir tel nəmənədi ki, sən onun xiffətini çəkirsən. O tel olmasın, qeyrisi olsun. Başımda nə qədər desən tük var.

Seydi genə də sözündən dönmədi:

– Yox, xanım, iş bu teldə, o teldə deyil. İşimin müşkülə düşməyi odur ki, telə baxanda sənin şəklin gözə görsənir. Kim tapsa, sənin şəklini görüb vurulacaq. Sonra aləm qarışacaq biri-birinə.

Bəli, Seydi necə güman eləmişdisə, elə də oldu. Tel suda axa-axa gəlib Əcəm padşahının ilxısı su içən noyura düşdü. Qoca mehtər atları suvarmağa gətirəndə görür ki, suda qızılabənzər tel var, alıb baxır ki, bir əcayib teldi, içində elə bir gözəlin şəkli boylanır ki, yemə-içmə, gecə-gündüz camalının tamaşasına dur. Mehtər sevinir ki, elə yaxşı oldu, belə qiymətli ərmağan kimdə var, aparım padşaha verim, əvəzində puldan-axçadan alım. Bəli, gətirib teli verir padşaha. Padşah gözünə inanmır. Vəzir-vəkili başına yığıb bu teldəki sirri-pünhanı öyrənmək istəyir. “Bilirəm”, – deyən olmur. Padşah car çəkib hər yana soraq göndərir ki, kim bu telin yiyəsini tanıyıb tapsa, böyük ənam alacaq. Xəbəri eşidən qoca bir qarı padşahın yanına gəlib deyir:

– Qibleyi-aləm sağ olsun, o tük Gavursəlimin qızı Pəri xanımındı. O, uşaq olanda dayəliyini mən eləmişəm. Saçındakı hikməti də o vaxtdan bilirəm. İndi həmin qız filan yerdə, filan qalada yaşayır. Yanında da bir oğlan var.

Padşah qarını razı salıb yenə soraqlayır ki, görsün tükün sahibini ayrı tanıyan da varmı? Bir keçəl gəlib dedi ki, mən neçə il onun atasına çobanlıq eləmişəm. Mənə qoşun ver, gedim zorla da

olsa qızı gətirim. Padşah əmr elədi, keçələ qoşun verdilər. Qoşun yaraqlanıb-yasaqlanıb, üz tutdu qarının nişan verdiyi səmtə.

İndi eşit söhbətin bayaqkı yerindən, divlərnən dava eləyəndən sonra Seydi bərk yorulmuşdu. Bir bulaq üstünə çatanda Pəri xanıma dedi:

– Gəl bir az dayanıb, dincimizi alaq.

Pəri xanım bir söz demədi. Bir az keçmiş Seydini yuxu apardı. Pəri xanım yatmayıb, dörd bir yana göz qoyurdu. Bir də baxdı ki, uzaqdan böyük bir qoşun onlara tərəf gəlir. Bildi ki, bu hər nə olsa, telin başına bağlı işdi, dedi qoy Seydini oyadım:

Nə getmisən gör yuxuya,
Oyan, Seydi yarım, oyan.
Canım düşübdü qorxuya
Oyan, Seydi yarım, oyan.

Seydi oyanıb soruşdu ki, nə olub? Pəri xanım qoşunu göstərib hal-qəziyəni danışdı. Seydi dedi:

– Qoy bir az da yaxın gəlsinlər, ona kimi mən bir az yatım. Yenə başını qoyub yatdı. Pəri xanım bir də səslədi:

Tel düşüb düşmən əlinə,
Qalx min səməndin belinə.
Tök qanın leysan yerinə,
Oyan, Seydi yarım, oyan.

Seydi bu dəfə də başını azca qovzayıb qoşun gələn səmtə baxdı:

– Qoy bir az da yaxınlaşsınlar, – deyib gözünü yumdu.

Pəri xanım gördü belə getsə, qoşun gəlib lap başlarının üstünü kəsəcək.

Götürüb sözün tamamında Seydini belə oyatdı:

Mən Pəriyəm, qaldım sayıq,
Dost yatıbdı, düşmən oyaq.
Biz təkik, düşməndə say yox,
Oyan, Seydi yarım, oyan.

Bunu eşidən Seydi bir göz qırpımında səmənd atın belinə qalxdı. Qılıncı çəkib, qoşunun üstünə düşdü. Bir yandan Seydi, bir yandan da səmənd at düşməni pərən-pərən saldı. Qoşun əhlindən qırılan qırıldı, bacarıb canını qurtaranlar da qaçıb gözdən itdilər. Seydi keçəli yaxaladı, dodaqlarını, qulaqlarını kəsib, atının belinə sarıdı. At keçəli götürüb gətirdi Əcəm padşahının yanına. Padşah əhvalatı belə görüb qara geyindi, üç gün, üç gecə bayıra çıxmadı. Bu işin sorağı bütün məmləkətə yayılmışdı. Bir gün bir qarı gəlib padşaha dedi:

– Şah sağ olsun, mən o saçın yiyəsini səndən ötəri gətirə bilərəm. Amma şərtim var.

Padşah soruşdu:

– Nə şərti?

Qarı:

– Şah sağ olsun, şərtim budur ki, qızı gətirsəm, məni özünə vəzir qoyasan. Padşah şərti qəbul elədi. Əmr olundu, qarıya üç yüz nəfərlik qoşun da verildi. Hazırlaşıb düşdülər yola. Pəri xanımın qalasına bir xeyli qalmış qarı dövrəsindəkilərə dedi:

– İndi mən gedirəm, bu dərədə xəlvətə çəkilib gözləyin. Nə vaxt o gördüyünüz qaladan tüstü qalxsa, bilin ki, gəlmək məqamıdır.

Qarı belə deyib üz qoydu qalaya. Gəlib yol qırağında bir kolun dibində oturdu. O qədər gözlədi ki, Seydi ovdan geriyə qayıdan vaxt oldu. Qarı gördü ki, Seydi yaxınlaşır, başladı ağlayıb-sıtqamağa. Seydi yaxınlaşıb soruşdu.

– Ay qarı nənə, nə olub, niyə belə ah-zar eləyirsən?

Qarı buna bəndiymiş kimi başladı dərdini çözələməyə:

– Qarı nənə sənə fəda olsun, oğul, gəlinim məni döyüb-söyüb, evdən qovub. İndi qalmışam sərgərdan. Başına dolanım, apar məni, atının yanında da olsa saxla, əlindən gələn işdə köməyin olaram.

Seydinini buna yazığı gəldi, götürüb qoydu atın tərkinə. Evə çatıb, hal-hekayəti Pəri xanıma söylədi. Pəri xanımın qarının təhər-töhrünnən gözü su içmədi. Dedi:

– Seydi, birdən bu şeytan qarılardan olar ha! Başımıza oyun gətirər.

Qarı o qədər yalvar-yaxar elədi ki, axırda Pəri xanımın da ürəyi yumşaldı. Seydi qarıdan soruşdu:

– Əlindən nə gəlir?

Qarı tez dilləndi:

– Mənimki aşbazlıqdı, başına dönüm, ömrüm boyu aşbazlıq eləmişəm. Sizə elə yeməklər hazırlayım ki, dadı damağınızdan getməsin.

Bəli, bu minvalnan qarı başladı aşbazlıq eləməyə. Doğrudan da, bişirdiyi yeməklərə söz yoxuydu. Az vaxtın içində Seydi də, Pəri də ona inanıb hər şeyi etibar elədilər.

Bir günləri qarı nahar yeməyini hazırlayıb, içinə bihuşdarı qatdı. Pəri xanım da, Seydi də nahar yeməyini yeyən kimi bihuş olub qaldılar. Qarı tez həyətdə tonqal çatıb, tüstü qaldırdı. Qoşun əhli tökülüb gəldi. Seydinin də, Pəri xanımın da əl-qolunu sarıyıb apardılar Əcəm padşahının hüzuruna. Padşah gördü həmən qızdı, yatıb yuxudadı. Fərman verdi, qarıya vəzirlik xalatı geydirdilər. Qarı Seydiynən Pəri xanımın yanında dayandı ki, görsün nə vaxt ayılacaqlar. Vaxt keçəndən sonra əvvəlcə Pəri xanım ayılıb gördü ki, ikisinin də əl-qolları bağlıdı, özləri də tamam başqa yerdədilər. Qarı da başlarının üstündə özgə qiyafədə. O saatca başa düşdü ki, iş nə yerdədi. Pəri xanım üzünü tutdu qarıya:

Nədən bizi bu yerlərə gətirdin,
Aman nənə, yamanlıqdan əl götür.
Sədaqəti, etibarı itirdin,
Aman nənə, yamanlıqdan əl götür.

Qarı dedi:

– Şadlığına şitdik eləmə. Səni padşah xanımı eləyirəm.

Pəri xanım qübar aldı:

Hər nə desən, mətləbini bitirrəm,
Ah çəkibən ürəyimdən ötürrəm,
Başqaların gözüm üstə götürrəm,
Aman nənə, yamanlıqdan əl götür.

Elə biləsən sözü daşa-divara deyirsən. Qarıya sözmü kar eləyirdi. Götürüb Pəri xanım sözünün axırını belə tamamladı:

Bu nə işdi gəldi, Pəri, başına,
Lənət olsun müxənnətin daşına.
Rəhmin gəlsin gözdən axan yaşıma,
Aman nənə, yamanlıqdan əl götür.

Pəri xanım sözlərini tamama yetirəndə Seydi gözlərini açdı. Əl-qolundakı ipə baxıb işin nə yerdə olduğunu anladı. Güman elədi ki, bəlkə, iltimas eləsəm, qarı amana gələr:

Mən ki səni öz əlimlə gətirdim,
Aman, nənə, aman, mürvət günüdür,
Mətləbinə, muradına yetirdim,
Aman, nənə, aman, mürvət günüdür.

Gördü sözünün qarıya əsəri yoxdu. Götürüb bir də dedi:

Ana oldun, zülüm etmə oğula,
Lənət olsun müxənnətə, çuxula.
İnsaf elə, mürvət elə, gəl yola,
Aman, nənə, aman, mürvət günüdür.

Qarının heç tükü də tərpənmədi. Seydi sözünü belə xətmə yetirdi:

Uyma, nənə, uyma düşmən sözünə,
Lənət olsun müxənnətin yüzünə,
Bağışla Seydini imam üzünə,
Aman, nənə, aman, mürvət günüdür.

Qarı Seydinin sözlərinə məhəl qoymayıb fərraşlara buyurdu:

– Xanımı aparın bir ayrıca otaqda saxlayın.

Bunun da meşədə boynun vurub, qanlı köynəyin gətirin, qoy cəsədini quşlar-qurdlar dağıtsın.

Bəli, fərraşlar Seydini gətirdilər qalın bir meşəyə ki, öldürsünlər, Seydi dedi:

– Bir hovur əl saxlayın, sinəmə bir xanə söz gəlib onu deyim, siz də görəsiniz bu dünyada haqq-divan yoxuymuş:

Arif olan gərək qana bu sözü,
Mərdi ayaqlara atandı dünya,
Əvvəl gələnlərə qılar məhəbbət,
Sonra dərdi dərdə çatandı dünya.

Neçələri qalxızıban bay etdi,
Neçəsinin göz yaşını çay etdi.
Yaqubun sənətin ahu-vay etdi,
Yusifi qul deyə satandı dünya.

Biçarə Seydinin budur sözləri,
Qanlı yaşla dolub qara gözləri.
Nakam yola salıb neçə yüzləri,
Nə dərdi anladı, nə qandı dünya.

Deyirlər, fərraşlar Seydini vurub ölümcül yaraladılar, qanlı köynəyini götürüb gətirdilər qarıya. Qarı da qanlı köynəyi Pəri xanımın üstünə atıb dedi:

– Bu da sənin Seydin. İndi daha o yoxdu. Gözünü yolundan çək, səni padşaha verəcəyəm.

Dünya-aləm Pəri xanımın başına fırlandı, qanlı köynəyi qucaqlayıb özündən getdi. Ayılanda tellərini bağrına basıb, görək nə söylədi:

Dağlar abı geysin, abılar qara,
Dilim yansın, bir cavana "vay" dedim.
Allah, sən qılgınan bu dərdə çara,
Orda ölən bir cavana "vay" dedim.

Fələyin bizlərə nə qəhri keçdi,
Göyün yaxasından ulduzum köçdü.
Sönməyən ataşlar bağrıma düşdü,
Seydi kimi bir cavana "vay" dedim.

Mən Pəriyəm, yalan gəlməz dilimə,
Qeyri bülbül qondurmanam gülümə.
Qanlı köynəyini aldım əlimə,
Gün çıxandan gün batana "vay" dedim.

Pəri xanım sevgilisinin yasını saxlamaqda olsun, indi sizə kimdən xəbər verək – Seydidən. Seydi ölümcül yaralanıb ölməmişdi. Qan içində bihuş olub uzanmışdı. Birdən Həzrəti Əli ağ libasda, nurani görkəmdə onun gözünə görsənib, yaralarına əl çəkib dedi:

– Oğul, daha sağaldın, qalx ayağa, get yarının dalınca, istəklinə qovuşacaqsan.

Belə deyib Həzrəti Əli qeyb oldu. Seydi gözünü açıb gördü ki, sapsağlamdı. Durub təzədən Pəri xanımın dalınca yola başladı. Gəlhagəl, gəlib yetişdi həmən şəhərə. Əyninə cır-cındır geyinib, üz-gözünü dəyişdirib, axşam qəribliyi düşəndə özünü bir qarının doqqazından içəri saldı. Qonaq qalmağa rüsxət istədi. Qarı onu içəri çağırdı. Çay-çörək yeyəndən sonra Seydi qarıdan soruşdu:

– Qarı nənə, şəhərdə nə var, nə yox?

Qarı dedi:

– Hər şey yaxşıdı, oğul, tək bir müşgül var ki, kimsənin o müşgülü açmağa gücü çatmır.

– O nə müşgüldü elə, ay qarı nənə?

– Bizim bu məmləkətin padşahı bir gözəli sevdiyinin əlindən aldırıb özünə arvad eləmək istəyir. Onun da bir səmənd atı var, tövlədədi. Çox dəli atdı. Qız şərt qoyub ki, padşah atı ram eləyib onunla meydanda gəzişməsə, ona gedən deyiləm. Müddətdi ki, mehtər qalmayıb, ovsunçu, falçı qalmayıb atı ram eləməkdən ötrü gətirməsinlər, di gəl bir şey çıxmır. At heç kəsi yaxına buraxmır. Seydi bir söz deməyib, gözlədi səhər açılanda

gəlib kəsdi Pəri xanım olan imarətin qabağını. Soruşdular ki, kimdi, burda nə gəzir? Seydi dedi:

– Mən falçıyam, eşitmişəm ki, burda dəlilik eləyən bir at var, padşah istəyir onu ram elətdirsin. Gəlmişəm ki, atı ram eləyib, ənam alam. Falçının sözünü padşaha yetirdilər. Padşah əmr elədi ki, aparsınlar atın yanına. Bəli, Seydini səmənd atın yanına saldılar. At onu görən kimi tanıyıb sakit oldu. Seydi baxdı ki, geyim-keçimi, qılıncı atın yanındadı. Geyinib-keçinib, qılıncı belinə bağladı. Birdən qulağına Pəri xanımın hıçqırtısı gəldi, qubarlandı, üzünü səməndin üzünə söykəyib ağladı, gördü ki, səməndin gözlərindən də gildir-gildir yaş axır. Dözməyib görək dərdini necə yetirdi:

Ötürüb namazı qılmaram qəza,
Bir canım var, yar yolunda riyaza.
Xorasan qəribiyəm, ya iman Riza,
Mən ağlaram, səmənd ağlar, yar ağlar.

Biçarə Seydinin çoxdu həvəsi,
İstəyir düşməndən ala qisası.
Mənə kömək eylə, kümbəz əyəsi,
Mən ağlaram, səmənd ağlar, yar ağlar.

Seydi göz yaşını silib, səməndin belinə qalxdı. Atı cövlana gətirib meydana çıxartdı. Padşah gördü ki, bu heç bayaqkı falçıya oxşamır. Canına vəlvələ düşdü ki, nəsə işlər şuluqdu. Tez bir fərraş göndərdi ki, falçının nə istədiyini öyrənsin. Seydi meydanın ortasında səmənd atı şahə qalxıza-qalxıza üzünü tutdu padşah səmtə:

– Şah sağ olsun, bilmək istəyirsən ki, qəsdim nədi? Buyur, qulaq as:

Bu gün yeddi padşah eylərəm nasir,
Canlar alan bir cəlladam, gəlmişəm.
Verib muradımı ol pərvərdigar,

Canlar alan bir cəlladam, gəlmişəm.

Gəlmişəm ki, öz Pərimi aparam,
Bu meydanda ruzi məhşər qoparam,
O müxənnət qarını da taparam,
Canlar alan bir cəlladam, gəlmişəm.

Mən Seydiyəm, bu gün mənimdi meydan,
Özün öz boynuna taxgınan kəfən.
Çıxıban taxtına kəsərəm divan,
Canlar alan bir cəlladam, gəlmişəm.

Seydinin adını eşidən kimi Pəri xanım qalxıb eyvana çıxdı. Gördü sevimlisi sağdı. Özü də meydanda səmənd atın belində gərdiş eyləyir. Padşah da Seydinin sağ olduğunu bilib, özünü itirdi. Əmr elədi, qoşun meydana yeridi. Seydi qılıncı çəkib, meydanı al-qana qərq elədi. Yara-yara gəlib padşahın da boynunu vurdu, sonra müxənnət qarını cəhənnəmə vasil elədi. Şəhər əhlini meydana yığıb, özləri bəyənən bir adamı padşah qoydu. Sevgilisi Pəri xanımı da götürüb öz vətəninə yollandı. Vətənə yetib, atalığı Molla Məhəmmədin hüzuruna getdi. Molla Məhəmməd əzəl-əzəl elə bildi ki, Seydi onun tapşırığına baxmayıb evlənib. Odur ki, bir az bikef oldu. Seydi gördü ki, atalığı bir az kefsiz gəzib-dolaşır. Dedi:

– Ağa, başına dönüm, bir ayaq saxla, sazımı götürüm, olub-olmuşları yeri-yatağıyla sənə yetirim.

Götürüb burda Seydi Molla Məhəmmədi nigarançılıqdan qurtarmaq üçün belə deyir:

Əziz ağam, sənnən eyləyib əhdi,
Heç vədə şeytana uymadım, gəldim.
Gülüb danışmadım həddən ziyada,
Əl əlin üstünə qoymadım, gəldim.

Tanımadım sultanını, xanını,
Meydannarda sel elədim qanını,
Müxənnət qarının aldım canını,
Heyif ki gözlərin oymadım, gəldim.

Biçarə Seydinin çoxdu həvəsi,
Xayin düşmənlərdən aldım qisası.
Kömək oldu qızıl kümbəz əyəsi,
Qisas qiyamətə qoymadım, gəldim.

Molla Məhəmməd arxayın oldu ki, Seydi onun tapşırığına əməl eləyib, evlənməyib. Əmr elədi, toy tədarükü görüldü, yeddi gün, yeddi gecə Seydiynən Pəri xanıma toy vurdurdu. Toydan sonra da Saleh padşahın vəsiyyətincə taxt-tacı Seydiyə tapşırdı. Onlar muradlarına yetib, kama çatdılar. Sizlərdən də çatanlar çatıb, çatmayanları da çatsın. Dastanımızı duvaqqapmaynan başa vuraq:

Hazarat, bircə baxın,
Canlar alandı bu gələn.
Gözləri cəllada dönüb
İsmi qaytandı bu gələn.
Özü bir saxa kanı,
Adil divandı bu gələn.
Ləbi gül, saçı sünbül.
Yaqut-Yəməndi bu gələn.

Yaquta bənzər yanağı,
Mərmərə bənzər buxağı,
Bir aya bənzər qabağı,
Kövsərə bənzər dodağı.
Ağ gülə bənzər ayağı
Qoy bassın gözüm üstə,
Qucmalı candı bu gələn.

Gecə-gündüz əməsən,
Ləblərindən misli-gülab,
Eşqinə düşənlərin
Qalmayıb canında tab.
Nə yatım, nə dincəlim,
Gözlərində varmı xab.
Bir miskin xani-xərab,
Zəhər versən, içərəm,
Nə ki əllərinlə gülab.

Nazik əlinə qurban,
Qara telinə qurban,
İncə belinə qurban.
Danış dilinə qurban,
Gələn yoluna qurban.
Bı gəlişdə insan olmaz,
Nuşirəvandı bu gələn.
Biçarə aşıq Söyün,
Gör yar nə nazınan gəlir.

Geyinib qəddi-dala,
Qiymətli xəzinən gəlir.
Yığıbdı gözəlləri,
Qırx incə qızınan gəlir.
Götürüb eşq badəsin,
Söhbət-sazınan gəlir
Deyəsən, şeyda bülbül
Baharu yazınan gəlir.

İçməmişəm, ayılam,
Ağıl gedib, zayılam,
Camalına mayılam,
Hər nə desən qayılam,

Qapınızda sayılam.
Mənə inayət eləsin,
Dərdə dərmandı bu gələn.

## SƏFİLLİ MƏMMƏD (105)

Ustadların tapşırmasıdı ki, dastanı ustadnaməynən başlayaq. Biz də deyək bir olsun, ustad sözü pir olsun:

Özündən kiçiyi işə buyurma,
Sözün yerə düşər, heç miqdar olmaz.
Hər nə karə görsən, öz əlinlə gör,
İnsan öz işində cəfakar olmaz.

Özündən böyüyün saxla yolunu,
Düşmən yerdə soruş ərzi-halını.
Amanat, amanat qonşu malını,
Qonşu yox istəyən özü var olmaz.

Soruşun, qul Abbas, halın necədi?
Gündüzlərin ay qaranlıq gecədi.
Sərv ağacı hər ağacdan ucadı,
Əsli qıtdı, budağında bar olmaz.

Ustadnaməni bir deməzlər, birin də deyək iki olsun, aqillərin yükü olsun:

Ay ağalar, gəlin sizə söyləyim,
Əzəl yaxşı olar yar aşnalığı,
Sən sevəsən, yarın səni sevməyə,
Olar bülbül ilə xar aşnalığı.

Bağban odur, zəhmət çəkə, əlləşə,
Saldığı bağ çiçəkləşə, gülləşə,
Əgər gücsüz güclü ilə güləşə,

Olar tərlan ilə sar aşnalığı.
Xəstə Qasım qəm əlində məst ola,
Əhli-dərviş xırxasında pust ola,
Bir adam ki loxma ilə dost ola,
Olar yağış ilə qar aşnalığı.

Ustadnaməni iki deməzlər, üç deyərlər. Biz də deyək üç olsun, düşmən ömrü puç olsun:

Bir adam ki, sənnən ülfət eyləsə,
Yəqin onun əsli-zatı yaxşıdı.
Namərd sənə quzu pulov yedirsə,
Mərdin quru məhəbbəti yaxşıdı.

Dad-hazar çəkərəm pərgarsız sazdan,
Ver, qurtar əlindən nəzir-niyazdan.
Söyləyən qarıdan, gəzəyən qızdan,
Güləyən gəlindən lotu yaxşıdı.

Aşıq olan sözün söyləyər başdan,
Qaç, qurtar canını ürəyi daşdan.
Bədnəzər qonşudan, bədcins yoldaşdan.
Qədirbilənlərin iti yaxşıdı.

Aşıq Söyün söylər kəlməni "tey"dən
Dərsimi almışam "əlif"dən, "bey"dən,
Çörəksiz otaqdan, gözəlsiz öydən,
Çölün, biyabanın otu yaxşıdı.

Söz-söhbət Quba xanı Fətəli xanın zamanından binə götürür. Fətəli xanın Hacı Aşur adında başlı-bilikli bir vəziri varıydı. Hacı Aşur düz otuz il idi ki, xanlığın işlərini qaydaya qoyur, çətin gündə, ağır saatda Fətəli xana yaxşı məsləhət-məşvərətlər verirdi. O vaxt qayda beləydi ki, əgər vəzir otuz ili sidq ürəklə başa vururdusa, onu həmən müddətin tamamında başqa bir vila-

yətə xan göndərirdilər. Fətəli xan otuz ilin başında Hacı Aşuru Şamaxıya xan təyin eləyir. Gedən zamanda Hacı Aşur Fətəli xandan iltimas eləyir ki, xanlığın mirzəsi Mirzə İsmayılı özüynən aparmağa izin versin. Fətəli xan bir söz demir, Hacı Aşur Mirzə İsmayılnan öz köç-külfətini götürüb, Şamaxıda məskən salır. Mirzə İsmayıl çox başbilən bir adamıydı. Əsli Dağıstanın Səfil mahalından olduğuna görə Səfilli İsmayıl adınnan da tanınırdı. Şamaxıya gələn gündən Hacı Aşur vilayətin xanı, Mirzə İsmayıl da onun vəziri olur. Bunlar əlbir-dilbir olub, başlayırlar vilayəti haqq-ədalətnən idarə eləməyə. Bu, burda qalsın, eşit söhbəti o biri başından.

Günlərin bir günü Hacı Aşur yatıb, yuxusunda görür ki, bağında bəhər verməyən alma ağacının başında qırmızı bir alma var. Sübh obaşdan yuxudan durur, Mirzə İsmayılı yanına çağırıb, gördüyünü ona danışır. Bu qərara gəlirlər ki, yuxudakı alma nəsə bir murazdı. Duruş gətirməyib yollanırlar bağa. Gəlib baxırlar ki, nə?! Həmən bəhərsiz ağacın başında qıpqırmızı bir alma dörd yana işıx salır. Almanı qoparır, sonra da ikiyə bölüb yeyirlər. Aşıq dili yüyrək olar, deyiblər. Bu əhvalatdan doqquz ay sonra Hacı Aşurun bir qızı, Mirzə İsmayılın da bir oğlu olur. Qızın adını Zöhrə, oğlanın adını Məmməd qoyurlar. Bəli, orda aynan-ilnən, burda şirin dilnən uşaqlar böyüyürlər. Bir yerdə məktəbə gedib, dərs oxuyurlar. On beş-on altı yaşa yetəndə bu iki novcavan bir-birinə mehir salıb, əhdi-peyman eləyir. Məmmədnən Zöhrənin günnən-günə artan məhəbbəti get-gedə arabərədə cürbəcürə söz-söhbətə səbəb olur. Hacı Aşurun qardaşı Əsgər xan əhvalatdan xəbər tutan kimi elə bir haray-həşir qaldırır ki, araya qalmaqal düşür. Qalmaqalın axır ucu da gedib çıxır davaya. Əsgər xanın adamları hücum çəkib, Məmmədin atasınnan anasını öldürür. Qonşuluqda imanlı bir qarı olur, bunun rəhmi gəldiyindən Məmmədi gizlədib, evində saxlayır. Bir müddət keçir. Ara səngiyib sakitlik düşəndən sonra Məmməd xəlvət-

cə üz tutub yol alır dədə-baba yurdu Səfil mahalına. Bir-iki ay burda qalır. Amma fikri-zikri Şamaxıda – sevgilisi Zöhrənin yanında olur. Axır ki, ayrılığıa tablamayıb təzədən geriyə qayıdır. Yolda "Əlçəli pir" deyilən bir yerdə yorulub uzanır ki, bir hovur dincini alsın. Çox yorğun olduğundan nə zaman yuxuladığından xəbər tutmur. Yuxuda görür ki, Həzrəti Əli ona da, Zöhrəyə də badə verib deyir:

– Bu eşq badəsidi, alın için, murazınıza yetəcəksiniz.

Belə deyib, Həzrət Əli qeyb olur. Məmməd yuxudan ayrılıb görür ki, bədəni uçum-uçum uçunur, gözü-könlü elə bir hala düşüb ki, əhvalı tamam dəyişib. Baxır ki, əhvalını söz qanadına düzməsə, bağrı yarılar. Görək bu yerdə götürüb nə deyir:

Əlçəli pir, sənə minnət eyləyərəm,
Hanı bizə badə verən kimsənə?
Şirin canım sənə qurban eylərəm,
Hanı bizə badə verən kimsənə?

Dağlarda maraldır, dəryada mahı,
Fələk itirməsin bu haqqı-sayı.
Əlimdən gedibdi şahların şahı,
Hanı bizə badə verən kimsənə?

Səfilli Məmmədəm, qaldım piyada,
Sağımdan-solumdan eylədi səda.
Gözümə görünmür mahi-param da
Hanı bizə badə verən kimsənə?

Sözlər tamama yetəndən sonra Məmməd durub yola düzəlir. Bir xeyli gedir. Birdən külək qalxır. Məmməd baxır ki, bu külək üzü Şamaxıya tərəf əsir. Öz-özünə deyir ki, qoy dərdi-dilimi bir parça kağıza yazıb, küləyə qoşum, bəlkə, gedib yara yetişə. Alır burda belə yazır:

Əsən yellər, sorax verin yarıma,

Yar məni könlündən yad eləməsin.
Aşiqin bağlayıb bəndi zindana,
Yıxıb könül şəhrin bad eləməsin.
Bənöyüş xalları gül yaraşığı,
Aləm camalından alar işığı.
Adət deyil, öldürməzlər aşığı,
Öldürüb sonradan dad eləməsin.

Məmməd deyər, canım ona can oldu,
Ağlamaqdan didələrim qan oldu.
Onun ucbatından dost düşman oldu,
El içində yaman ad eləməsin.

Külək kağızı götürüb, gözdən itirir. Məmməd bir xeyli müddət namənin arxasınca baxıb-baxıb, yenə də yolun ağını alır əlinə. O, yol getməyində olsun, indi eşit söhbəti yaxşı qarıdan. Yaxşı qarı o qarıydı ki, Məmmədi gizlədib evində saxlamışdı. Şirindil, xoşqılıq qarı olduğundan onunla könül söhbəti eləmək, dərd-qəm ovutmaq gözəl-göyçəklərin ürəyincəydi. Qarının Zöhrəynən də söz-söhbəti tuturdu. Odur ki, Zöhrə əlinə imkan düşüncə ona baş çəkir, həsrətlə, nisgillə imdad istəyir. Bəli, bir gün yenə də Zöhrə Yaxşı qarının yanına ixtilat eləməyə gəlir. Orasını da ərz eləyim ki, Məmmədin sağ-salamat olmağını qarı Zöhrəyə xəlvətcə danışmışdı. O vaxtdan da qızın gözü yolda, qulağı da səsdəydi ki, görsün istəklisindən bir səs-soraq varmı?

İndi də Zöhrə qapıdan girib görür ki, Yaxşı qarı yun əyirir. Diz qatlayıb yanında oturur. Başlayırlar ordan-burdan ixtilat eləməyə. Baxırlar ki, birdən bayırda bərk külək qopdu, evin qapısı açıldı, açıldığınnan da üçqanad bir kağız gəlib yapışdı cəhrənin tilinə. Yaxşı qarı gördü bu naməyə oxşayır. Götürüb Zöhrəyə verir ki, gör nədi belə? Zöhrə naməni oxuyub görür ki, Məmməddəndi. Ürəyi tel-tel olur, əhvaldan-əhvala düşür. Qarı soruşur:

– Ay qızım, sənə nə oldu? Niyə belə haldan-hala düşdün? Zöhrə deyir:

– Qarı nənə, gecə yuxuda görmüşdüm ki, yarım gəlib bir həftəliyə bizdə qonaq qalacaq. Bu namə də onnan gələn namədi. Qarı nənə, eşit gör nə deyirəm:

Qarı nənə, sənə qurban olum mən,
Əziz namə göndəribdi yar bizə.
Bizi xəlq eləyən şahı sevərsən,
Gizli saxla, vermə ahı-zar bizə.

Mən onu sevmişəm haqqı-say ilə,
Ömrümü keçirdim həmi tay ilə,
Həftə iqrar verib gəlməz ay ilə,
Belə deməmişdi beyilqar bizə.

Bu miskin Zöhrəni saldı amandan,
Görək nə istəyir mən pərişandan,
Əl çəkmərəm onun kimi cavandan,
Desin gizli sirri bir aşkar bizə.

Yaxşı qarı hal əhliydi, o saat bilir ki, Məmməd yaxın zamanlarda gələsidi. Odur ki, Zöhrə xanıma tapşırır ki, gözdə-qulaqda olsun, bu günlərdə yarından bir xoş soraq çıxacaq. Bəli, həmən bu söhbətdən iki gün ötəndən sonra Məmməd özünü Yaxşı qarının doqqazından içəri salır. Qarı xoş-beş eləyib, Zöhrə xanıma muştuluğa gedir. Çatıb görür ki, qız öz yatağında uzanıb yuxulayır. Deyir, gəl bunu söznən ayılt. Qarı saçından üç tel ayırıb sinəsinə basır. Götürüb görək Məmmədin gəlmək sorağını necə yetirir:

Ay qız, nə yatdın beyxəbər,
Zöhrə xanım, yarın gəldi,
Eşqindən olma dərbədər,
Zöhrə xanım, yarın gəldi.

Zöhrə xanım bu sözlərə bəndiymiş kimi tez yerindən qalxır. Üzünü Yaxşı qarıya tutub könül sevincini belə bildirir:

Axşammı gəlib qonağın,

Nənə, qonağın xoş gəldi,
Gerçək olubdur sınağın,
Nənə, qonağın xoş gəldi.

Qarı Zöhrə xanımın könlünü şad eləmək qəsdiynən sözün o biri yarpağını görək necə çatdırır:

Sınağımız gerçək olsun,
Axıb peymanələr dolsun.
Xoş günün mübarək olsun,
Zöhrə xanım, yarın gəldi.

Nolacaq, yar könlüydü, nigarançılığı, nisgili əysik olan deyildi. O səbəbdən də Zöhrə xanım sözarası Məmmədin hal-əhvalın da soruşmaqdan qalmır. Götürüb nə deyir:

Nənə, səhər bişir aşı,
Axıtma gözümdən yaşı.
Məmmədin varmı yoldaşı?
Nənə, qonağın xoş gəldi.

Qarı qızın nigarançılığını bildigindən onun sorğusunun cavabında:

Yalan deməz Yaxşı qarı,
Baxçalar gətirir barı.
Sənsən onun gözəl yarı
Zöhrə xanım, yarın gəldi.

Zöhrə xanım çox məmnun olub, sözünü belə tamama yetirir:

Zöhrə deyər, qəmim qaçdı,
Könül bağı çiçək açdı.
Şad oldum, dilim dolaşdı.
Nənə, qonağın xoş gəldi.

Qarı bir də Zöhrə xanıma gözaydınlığı verir, Zöhrə xanım muştuluq əvəzində ona zərli bir atlaz parça bağışlayır. İxtilat eləyib sözü bir yerə qoyurlar ki, səhər günorta vaxtı Zöhrə xanım bağa gəzməyə çıxsın. Məmməd də xəlvəti gəlib, orada sev-

gilisini görə bilsin. Qərəz, qarı ətəyini dəstələyib, özünü yetirir Məmmədin yanına. Məmməd qarının əhvalını xoş görüb ürəklənir. Amma yenə də tablamayıb Zöhrə xanımın onun gəlişini necə qarşıladığını bilmək istəyir. Götürüb görək Məmməd Yaxşı qarıdan nəyi soruşur, necə soruşur?!

Səni görcək əqlim oyandı sərdən,
Aman nənə, Zöhrə xanım nə dedi?
Nələr danışdınız xeyirdən-şərdən,
Aman nənə, Zöhrə xanım nə dedi?

Qarı baxır ki, oğlanın könlü tel-tel olub. Götürüb görək onun könlünü nə qaydaynan ələ alır:

Oğul, qəmgin olub bikef oturma,
Vəfalıdır sənin yarın, yad olmaz.
Sən gələndə qəmli könül şad olar,
Sən gedəndə vallah-billah şad olmaz.

Məmməd bir az toxdayan kimi olsa da gənə də ürəyi tab gətirmir. Götürüb dübarə soruşur:

Yarəb, niyarım oyanıban güldümü?
Yaylıq alıb gözüm yaşın sildimi?
Mənim gəlməyimi yəqin bildimi?
Aman nənə, Zöhrə xanım nə dedi?

Eşit bir:

Qatar-qatar olub nərlər, dayalar,
Ziyah zülfü dal gərdəndə sayallar.
Hər külüng də çapa bilməz qayalar,
Hər yetən gedə də bil, Fərhad olmaz.

Məmməd deyir:

– Ay qarı nənə, səni şad olasan, indi bildim ki, yar yanında yerim hansı mərtəbədədi:

Hər zaman bizləri belə yad elə,
Namərdin, əyrinin işin bad elə.
Səfilli Məmmədin könlün şad elə,

Aman nənə, Zöhrə xanım nə dedi?

– Yox, oğul, mən sizi üzbəsurət gətirməsəm, sənin könlünə sərinnik gəlməz. Gör sözümün canı nədi:

Oğul, nə sevdadı səpibsən sərə,
Çəkib apararmı yükləsəm nərə?
Gətiməsəm ikinizi bir yerə
Mən Yaxşıya el içində ad olmaz.

Qarı Zöhrə xanımın nə qədər sözü-tapşırması varıydısa hamısını birəbir yetirir Məmmədə. Axır sözü də bu olur ki, oğlan sübh obaşdannan durub özünü yetirsin xan bağına. Qızlar gələnə kimi dayanıb gözləsin. Orda imkan eləyib yarını görə bilər. Bəli, bu qərarnan gecəni keçirib səhəri açırlar. Cəmi sabahlarınız xeyirliyə açılsın. Məmməd geyinib-keçinib, yollanır qarının nişan verdiyi yerə. Bir xeyli gözləyəndən sonra görür, budu, Zöhrə xanım al-yaşıl libasın içində qızlara qoşulub bağın seyrinə çıxıb. Zöhrə xanımın hüsnü-camalı, boy-buxunu, sona kəklik kimi yerişi, ahu kimi can alan baxışı Məmməddə tab-tavana qoymur. Görür sinəsinə bir xana söz gəlib, onu deməsə, alışıbyanasıdı. Alır görək nə deyir:

Səhər-səhər bir ecaza tuş oldum,
Şəmsimidir, qəmərmidir, bu nədir?
Şəmsi-qəmər kimi görünür gözə,
Hurimidir, pərimidir, bu nədir?

Zöhrə saxlar yeddi göyün havasın,
Geyinib əyninə zərli libasın.
Kim görübdü yerdə mələk balasın,
Şölədimi, səyyardımı, bu nədir?

Yusif-Züleyxa da, Əli Osman da,
Qubanın sultanı Fətəli xan da.
Məmməd deyər, cəmi cümlə cahanda,

Ərşdən enən xəbərmidi, bu nədi?

Zöhrə xanım Məmmədi görən kimi ürəyi atlanır, bilmir ki, neyləsin. Birtəhər özünü ələ alıb fikrini yayındırmaq istəyir ki, qızlar duyuq düşməsinlər. Məmməd belə güman eləyir ki, istəklisi onu tanımayıb. Deyir, qoy özümü də, onu da bir yaxşı nişan verim, bəlkə, onda tanıya:

Səhər-səhər çıxdım bağlar seyrinə,
Gül-bənövşə bitən yerdi bu yerlər,
Hər gülündə müşkü-ənbər iyi var,
Şeyda bülbül ötən yerdi bu yerlər.

Gülünü dərməyə gəlməz ürəyim,
Qadir Allah, budu səndən diləyim,
Məftun müştağıyam zərli bilətin
Yar ixtilat qatan yerdi bu yerlər.

O gördüyüm mənim qönçə gülümdü,
Yar-yardan ayrılsa, vallah, zülümdü.
Məmməd deyil, qabağında qulundu
Əl ətəkdən tutan yerdi bu yerlər.

Zöhrə yenə də sirri qızlardan gizlətmək qəsdiynən özünü bilməməzliyə vurur. Amma ürəyinin başı əsir ki, bircə Məmmədnən kəlmə kəsə biləydim. Bu yannan da Məmməd biçarə elə zənn eləyir ki, bir belə sözün qabağında heç olmazdı ki, Zöhrə xanım onu tanımasın. Yəqin qız özü onu yaxına buraxmır. Daha üzü dönüb. Bu gümannan Məmmədin qara bağrı qan olur. Götürüb təzədən dərdi-dili bir qatar sözün qanadına belə düzür:

Gülşənli baxçanın, gülşənli bağın
Bağban meyvəsini dərsə yaxşıdı.
Bu dünya fanidir, aqil kimsələr
Dost ilə düşmanın bilsə yaxşıdı.

İgid bu dünyada badə içincə

Badə içib şirin candan keçincə,
Hər namərdə gizli sirri açınca
Pas tutub ürəkdə qalsa yaxşıdı.
Nazlı yarım mənim daşımı atdı,
Bir təhnə söz deyib yan verib getdi.
Əvvəl aşna idi, indi unutdu,
İnsan bir iqrarda olsa yaxşıdı.

Səfilli Məmmədi bidar elədin,
Geydirib libası abdal elədin.
El içində məni sən xar elədin
Belədə qılıncla ölsə yaxşıdı.

Zöhrə xanım işi başa düşür. Bilir ki, Məmməd inciyib. Odur ki, tez üzünü qızlara tutub deyir: – Ay qızlar, gəlin ikibir-ikibir dağılışıb, hərə bir tərəfdə baxçanın seyrinə dalsın.

Qızlar bir söz deməyib, hərəsi öz könlünə yaxın bildiyi bir gözəlnən seyrə yollanır. Zöhrə xanım da öz rəfiqəsiynən üz tutur Məmmədin dayandığı səmtə. Məmməd onların gəlişindən çox məmnun olub, xətirli sözlərnən könüllərini xoş eləmək istəyir. Götürüb görək nə deyir:

Bizim bağda bir cüt sona dolaşır,
Yaşıl başlarına qurban olduğum.
Çalxaşıban göl kənarın gəzirlər,
Tayi-tuşlarına qurban olduğum.

Gözlərin alıbdır dünyanı həngə,
Kipriyin aləmnən çıxıbdı cəngə.
Kəbə örtüyündən nur alıb rəngə
Siyah qaşlarına qurban olduğum.

Səfilli Məmmədi salginan yada,
Bivəfalıq başa yetməz dünyada.

Solundan, sağından eylədi səda
Sərxan yerişinə qurban olduğum.

Məmməd belə deyəndə Zöhrə tab gətirməyib yar gəlişindən şadlanan olmağını biruzə verir. Siyah tellərindən üç tel ayırıb sinəsinə basıb, görək istəkli yarının könlünü nə yolnan ələ alır:

Səhər-səhər çıxıb bağlar gəzən yar,
Sən gəzən yerlərin qurbanıyam mən.
Şirin-şirin gül budağın süzən yar,
O qızıl güllərin qurbanıyam mən.

Məmməd görür ki, yox, nə qədər şəkki-şübhə varıydısa, hamısı boş yerəymiş. Zöhrə xanımın fikri-zikri əzəl gündən ona bağlıdı. Odur ki, bir balaca üzrxahlıq niyyətiynən götürüb istəklisinə ərz eləyir:

Başına döndüyüm, gözəllər xası,
Bil, səni əlimdən qoyan deyiləm,
Tikanlı sözləri nahaqdan dedin,
Səndən özgə kəsə həyan deyiləm .

Zöhrə xanım ayrılıq çağlarına işarəynən sözün cavabını belə yetirir:

Alıb sorağını əsən yellərdən,
Doyunca dərmədim qönçə güllərdən.
Kəlmə-kəlmə danış şirin dillərdən,
Danışan dillərin qurbanıyam mən.

Məmməd dedi:

– Zöhrə xanım, sən nə danışdığındı, mən elə sənin bir xoş baxışına canımı qurban verərəm. Mənim sözüm də sənə qurbandı, özüm də:

Tovuz kimi sığal verdin özünə,
Dindirəndə mayil oldum sözünə.
Ömrüm boyu gözüm baxsa gözünə,
Tanrı bilir, səndən doyan deyiləm.

Zöhrə xanım baxdı ki, qızlar təzədən əvvəlki yerə cəmləşməyə başlayır. Qorxdu ki, birdən onları görüb atasına xəbər çatdırarlar. O səbəbdən də sözünü xitama yetirir:

Zöhrə xanım əhdin sənə bildirər,
Yaylıq alıb, didə yaşın sildirər,
Məmməd, atam görsə bizi öldürər,
Bihudə yellərin qurbanıyam mən.

Məmməd də sözünün xitabında deyir:

Məmmədin yarısan təzə, növrəstə,
Canım qurban olsun vəfalı dosta.
Başımı qoyaram sinənin üstə,
Öpərəm, qucaram, yiyən deyiləm.

Bəli, sevgililər təzədən görüşmək qəsdiynən ayrıldılar. Sözləri də belə olur ki, sabah günortadan sonra Yaxşı qarının yanında görüşüb söhbətləşsinlər. Qərəz, gün ötür, vədə tamamında aşiq-məşuq görüş yerinə gəlib, qabaq-qənşər dayanır. Zöhrə xanım umu-küsü eləyib Məmmədin neçə müddətdi ki, onun arxasınca gəlmədiyindən gileylənir, deyir:

– Ay insafsız, heç olmasa əl boyda kağız göndərəydin, sağ-salamat olmağının xəbərin alaydım. Soraq gözləməkdən ürəyimin yağı əridi, gözlərimin kökü saraldı. Heç yar da yarı belə unudardımı?

Məmməd and-aman eləyib qayıdır ki:

– Zöhrə xanım, səndən ayrılandan bəri günüm kömürə dönüb. O qədər əlfim çaşıb ki, axşamımı, sabahımı bilməmişəm. Yollar boyu min bir oyuna düşmüşəm, başıma gələn hal-qəziyələri heç saznan-söznən də deyib başa gətirmək olmaz. Səndən ayrı tablamağı bacarsaydım, bir belə zuluma qatlaşardımmı?

Zöhrə xanım deyir:

– Ay qarı nənə, heç olmasa sən deynən, mən nə firqətlər çəkmişəm. Gündüz yaylığım islaq olub, gecə yastığım.

Yaxşı qarı üzünü Məmmədə tutur:

– Can oğul, bunun sənsiz günü qaradı, bu neçə müddətdə sənin yolunu gözləyə-gözləyə nə yediyini bilib, nə də içdiyini. Bir də vallah, qaydadı ki, yar yarı görəndə umu-küsüsünü bildirsin, ərköyünlük eləsin. İndi Zöhrə xanım da səni görüb kövrəldiyindən belə eləyir.

Zöhrə xanım əlini sinəsində çarpazlayıb deyir:

– Yox, ay nənə, kövrəldiyimnən deyil, dediyim odur ki, aramızda haqqı-say olsun. Bir qulaq as, sinəmə bir xanə söz gəlib, qoy onu deyim, bəlkə, bu beyinsaf agah ola:

Qarı nənə, bu beymürvət yolunda,
Gör nə qədər haqqı-say eyləmişəm.
Gecə-gündüz ağır firqətlər çəkib
Tamam əlif qəddim yay eyləmişəm.

Məmmədin bu sözdən könlü qubarlanır. Deyir:

– Onda eləsə, qulaq as, gör mən nələr çəkmişəm:

Məniminən əhdi ilqar edən yar,
Nədən zəhmətimi zay eyləmisən?
Sənin aşiqindi tərki-vətən, yar,
Hər günüm döndərib ay eyləmisən.

Zöhrə xanım deyir:

– Ay Məmməd, elə bilirsən, mən sənin halına az yanmı-şam? Deynən heç adın dilimnən, odun canımdan getdiyi varmı? Eşit hələ:

Ağ üstündən qaraları bağlaram,
Bağrım başın düyünlərəm, dağlaram,
Sən gedəndən vaxtı-bivaxt ağlaram,
Gözümün yaşını çay eyləmişəm.

Götürür burda sözün cavabına Məmməd görək nə söy-ləyir:

Əvvəlindən artıb şanı-şövkətin,
Hər şeydən əzizdi, yar, məhəbbətin,

O qədər çəkmişəm dərdin, möhnətin,
Ömrümü boyaboy vay eyləmisən.

Yaxşı qarı görür bunların giley-güzarı uzun çəkəcək, deyir:

– Tez olun, sözünüzü qurtarın, sonra bir yerdə bu işə əncam çəkməkdən ötəri oturub, götür-qoy eləyək.

Zöhrə xanım sözün tamamında:

Hicran əydi Zöhrə qəddi dalını,
Görüm işləməsin kor iqbalını,
Tamam verib mən atamın varını
Bu Yaxşı qarını bay eyləmişəm.

Məmməd deyir:

– Başına döndüyüm, yari-mehriban, nə ki söylədin, hamısı mənə bəlliydi. Bəlli olmasaydı, heç bu günə düşərdimmi? İndi eşit sözümün axır yarpağını:

Səfilli Məmmədi qoyub yaşiylə,
Çox da gileylənmə təhnə daşiylə,
Canı cismim yandı eşq atəşiylə,
Sən məni Kərəmə tay eyləmisən.

Yaxşı qarı məsləhət bilir ki, onlar özlərinə yol tədarükü görüb, buralardan uzaqlaşsınlar. Yoxsa Hacı Aşur Məmmədin Şamaxıda olmağından xəbər tutsa, yenə də aləmi bir-birinə qatacaq. Yerin deşiyindən də olsa Məmmədi tapdırıb zindana atdıracaq. Odur ki, gözləyirlər, axşam olub qaranlıq düşəndən sonra Zöhrə xanımnan Yaxşı qarı Hacı Aşurun evinə gəlib, nə qədər ehtiyat lazımdısa götürür, yaraqlanıb-yasaqlanıb iki köhlən atnan xəlvəti aradan çıxırlar. Bunlar buradan tərpənməkdə olsunlar, eşit xəbəri Məmməddən. Məmməd Yaxşı qarının evində oturub gözləməkdəydi. Hava yağışlı-yağmurluydu deyin, qarının evindən xırda-xırda damırdı. Məmmədin könlü tab gətirmədi. Nigaran-nigaran görək nə söyləyir:

Sızıldaşıb yaralarım qövr edir,
Bədəsidir gəlir damnan deyillər,

Yığılıban, sıxılıban dövr edir,
Bədəsidir gəlir damnan deyillər.

Seyraqublar üstümüzə enibdir,
Abi leysan üzü bizdən dönübdür,
Qəm hicranı qapımıza qonubdur,
Bədəsidir gəlir damnan deyillər.

Oxumuşam əlif beyin qarasın,
Kim sarısın mən yetimin yarasın.
Məmməd gözlər Zöhrə bərəsin,
Bədəsidir gəlir damnan deyillər.

Söz tamama yetən kimi doqqazın qapısı açılır. Məmməd başını qaldırıb görür ki, budu, Zöhrə xanımnan Yaxşı qarı iki at yükü er-ehtiyatnan gəlir. Bir az oturub, ordan-burdan söhbətləşib, halal-hümmət eləyirlər. Qarı onları Səfil tərəfə yola salır. Məmmədnən Zöhrə xanım üz tutub Şamaxıdan Səfilə getməkdə olsun, indi eşit söhbəti Hacı Aşurdan. Bəli, sabahın gözü açılan kimi Hacı Aşur qızın qaçmağından xəbər tutur. Qəzəbindən bilmir neynəsin. Beş-on nəfər qoldan qüvvətli adam seçdirib onlara silah-əsləhə verdirir ki, qızı axtarsınlar. Bunlar başılovlu axtarmaqda olsun, al sorağı Məmmədnən Zöhrə xanımnan. İki sevgili gecəynən dayanmadan at sürə-sürə Şamaxıdan neçə mənzil uzaqlaşır.

Culfa dərəsi deyilən axar-baxarlı bir yerdə belə qərara gəlirlər ki, dayanıb bir hovuluğa nəfəs dərsinlər. Otururlar, bir az keçmir ki, Zöhrə xanımı yuxu tutur. Məmməd oyaq qalıb ona keşik çəkir. Sübhün gözü işaranda oğlan baxır ki, bir dəstə əlisilahlı onlara tərəf gəlir. Bilir ki, Hacı Aşurun adamlarıdı, Zöhrə xanımı axtarırlar. Tez tüfəngini dabana çəkib bir ağacın arxasında gizlənir. Başlayır həmən adamlarnan atışmağa. Bu tərəflərdə Əhməd ağa adında bir kişi olub. Onun da Abdal

adında vurub-tutan comərd bir oğlu. Bu Abdul həmən vaxt ovdan qayıdırmış. Güzarı Culfa dərəsindən düşür. Görür bir cavan oğlan bir tərəfdə, bir dəstə adam o biri tərəfdə üz-üzə durub atışır. Bir atışhaatışdı ki gəl görəsən. İnsafı yol vermir ki, bir dəstə adam tək bir oğlanı üstələsin. Başının dəstəsiynən keçir Məmməd tərəfə. Hacı Aşurun adamları duruş gətirə bilməyib qaçmağa üz qoyurlar. Amma dava vaxtı Məmmədgilin atları hürküb nə qədər ki, azuqələri varıydısa hamısını da götürüb, meşəlikdə itirlər. Məmməd Əhməd ağanın oğlu Abdal bəyə dil-ağız eləyib, Zöhrə xanımın yanına dönür. Görür istəklisi hələ şirin yuxudadı. Onu yuxudan ayıltmayıb görək nə deyir:

Gəlib gördüm burda yar daldalanıb,
Gün düşübdü ağ buxağın üstündən.
Tər güllərə gül əndamı bürünüb.
Çadır qurub ay qabağın üstündən.

Yığılıb aşıqlar istiyər nəmər,
Qızıldan bilərzik, minadan kəmər.
Xoş o dodağa ki, ləbindən əmər,
Sonra öpər gül yanağın üstündən.

Səfilli Məmmədəm, elərəm bir ad,
Əgər qohum, əgər qardaş, əgər yad,
Qalx ayağa huri-qılman, pərizad,
Qurtar məni bu bulağın üstündən.

Zöhrə xanım oyanır. Nə baş verdiyini soruşur. Məmməd olub-olmuşların hamısını yerli-yataxlı ona yetirir. Sonra durub payi-piyada yola düşürlər. Bir xeyli gedəndən sonra bərk acırlar. Meşədə odun doğrayan bir kişiyə tuş gəlirlər. Ondan çörək istəyirlər. Kişi onlara azuqə verib soruşur ki, kimsiniz, nəçisiniz, bu yerlərə güzar etməkdə qəsdiniz-niyyətiniz nədi belə? Məmməd başlarına gələn hal-qəziyyəni odunçuya danışır. Kişi bunun atasını tanıyır. Deyir:

– Siz bu yolnan düz gedin, bir-iki ağacdan sonra Əhməd ağanın mülkünə yetəcəksiniz. O atanı yaxşı tanıyır. Bilsə ki, Səfilli Mirzə İsçayılın oğlusan, gözü üstdə saxlayar, səni yağıya yaman verməz.

Bəli, odunçu necə demişdisə, o yolnan düz gəlib Əhməd ağanın mülkünə çatdılar. Rüsxət alıb ağanın hüzuruna yollandılar. Əhməd ağa onların kimliyini, hardan gəlib hara getmələrini xəbər aldı. Biləndə ki, bu, Səfilli Mirzə İsmayılın oğludu, özü də başı bu cür qovğa-qal içindədi, kişinin gözləri yaşardı. Əmr elədi, qızı da, oğlanı da yaxşı yedirib-geydirib rahatladılar. Zöhrə xanımı öz qızlarının yanına göndərdi, Məmmədi də oğlanlarına qoşdu. Məmməd Əhməd ağanın oğlu Abdal bəyi görən kimi tanıyıb deyir:

– Ağa, bu oğlan yolda yaman mənə kömək elədi.

Ağa soruşur:

– Bala, nə kömək?

– Ağa, başına dönüm, qoy yerli-yataxlı söyləyim.

Görək burda Məmməd Abdal bəyi necə tərifə tutur:

Başına mən dönüm, ay Əhməd ağa,
Əvvəl işlərimiz əlaman oldu.
Yerbəyerdən qovğa qalxdı üstümə,
Bir oğlan orada qəhrəman oldu.

Ona tay olamaz cümlə cahanda,
İyiddi, əvəzi yoxdu meydanda,
Əli boşda durmaz, qılıncı qında,
Cumub nərə çəkən bir aslan oldu.

Səfilli Məmmədəm, oldum dəhandan,
Əl üzmənəm Zöhrə kimi cavandan.
Qismətimi tanrı kəsib Şirvandan,
Axır mənzilimiz Dağıstan oldu.

Əhməd ağa cəmi dövrəsindəkinə tapşırır ki, oğlandan da, qızdan da muğayat olsunlar. Özü də toy tədarükü görməyə başlayır ki, dostunun oğluna ürəyi istəyən bir toy vurdursun. Toy tədarükü görülməkdə olsun, indi xəbər tut Məmməddən. Əhməd ağanın evinə gələn gündən neçə günüydü ki, istəklisini görə bilmirdi. İki gün ötür, üçüncüyə keçəndə görür ki, yox, ayrılığa dözməyə taqəti qalmayıb. Halı xarablaşır, özünü pis hiss eləyib yorğan-döşəyə düşür. Nə qədər dava-dərman, həkim-loğman gətirirlərsə bir xeyri olmur. Deyirlər ki:

– Sənin dərdin, mərəzin nədisə bizə agah elə, çarəsin qılaq.

Məmməd deyir:

– Onda Zöhrə xanımı buraya çağırın, dərdimi deyəndə o da eşitsin. Gedib Zöhrə xanımı çağırırlar. Görək Məmməd burda hansı mərəzə tutulmağını necə bildirir:

Sızıldayıb ciyərimdə qövr edər,
Bilirsənmi nə dağların var sənin?
Məşuq bəyim aşiqinə cəbr edər,
Yanır canda ocaqların, yar, sənin.

Üzülüb qalmışam firqətdə yüz il,
Olmur sevdiyimdən muradım hasil.
Gülündən ayrılsa saralar bülbül.
Dərmanımdı dodaqların, yar, sənin.

Hicran əyib bu Məmmədin dalını,
Görüm işləməsin kor iqbalını
Gəlibən görmüsən xəstə halımı,
Qurbanıyam ayaqların, yar, sənin.

Hamıya əyan olur ki, Məmmədin xəstəliyi nə xəstəlikdi. Əhməd ağa deyir:

- Eybi yoxdu, toyu tezləşdirərik, sənin də mərəzin sağalar.

Bəli, deyirlər, tədarük başa gələn kimi Əhməd ağa Məmmədnən Zöhrə xanıma elə bir toy vurdurur ki, deməknən, söyləməknən başa gələn iş deyil. İki aşiq-məşuq bir-birinə qovuşur. Əhməd ağa Məmmədə mülk ayırıb ev tikdirir, var-dövlətindən ona oğul payı verir. Məmmədnən Zöhrə xanım burada şad-xürrəm yaşayıb, oğul-uşaq sahibi olur, istəklərinə çatırlar. Siz də cəmi murazlarınıza yetəsiniz. Söhbətimizə ustadnaməynən başlamışdıq, ustad tapşırmasına görə dastanımızda iki həsrətli qovuşduğundan yığnağımızın axırında duvaqqapma deməliyik:

Ay gözəl, bundan əzəl,
Səndən iqrar axtarıram.
Almağa, yar olmağa
Açıq-aşkar axtarıram.

Məcnunam, sən Leyliyə
Düşüb diyar axtarıram.
Mürdəyəm firqətindən
Daha məzar axtarıram.

Səni sevən kimsə gərək
Dünyada var istəməyə.
Zülflərin havasını
Eşidən tar istəməyə.

Aşiqə məşuq olan
Qeyri əğyar istəməyə.
Sənin kimi ilqarı düz
Əziz dilbər axtarıram.

Məhcamal, zərəfşan xal,
Gözəllərin sultanıdı.
Novrəstə can, dərddən qanan,
Min bir dərdin dərmanıdı.

Bu ziynət, bu vəcahət.
Ustadı kərəm kanıdı.
Bir belə naxış çəkən
Qabil nəccar axtarıram.
Zər tila, ipək qotaz,
Örtübdü zülfün tağına;
Sərindən araxçını
İnci düzüb qabağına.
İstərəm mehman olam,
Boynunda rizvan üçün
Təzə nobar axtarıram.

Sənin kimi mələkzadə
Heç bir məkanda görmədim.
Yer üzündə yaranmamış
Huri qılmanda görmədim.

Xoy, Səlmas, Marağa,
Təbriz, Tehranda görmədim;
Vəsf elər aşıq Hüseyn,
Neçə şəhər axtarıram.

## BİKƏS (106)

Ustadların öyüdüdür ki, dastan başlamazdan ustadnamə desinlər. Biz də deyək bir olsun, düşmən gözü kor olsun:

Bədəsilnən dost olmayın, qardaşlar,
Bədəsil dost tapan ahuzar eylər.
Pis olar xasyəti, höccət danışar,
Can yığar boğaza, səni zar eylər.

Üç gündən üç günə dostundan küsər,
Aralığı pozar, ayağın kəsər.
Qaş-qabağın sallar, sufatın asar,
Yıxıban könlünü zir-zəbər eylər.

İnsandan utanmaz, Allahdan qorxmaz,
Vədə versə gəlməz, çevrilib baxmaz.
Gözlərsən, gözlərsən qapıdan çıxmaz,
Dünyanı başına tamam dar eylər.

Dindirərsən dinməz, başını bular,
Söz deyərsən baxmaz, üzünü dalar.
Tutarsan qolundan, it kimi ular,
Həmişə kişiyə söz xabar eylər.

Ay Cümə, bədəsil dost sevmə naçar,
Çağırarsan gəlməz, yanından qaçar.
Sirr versən saxlamaz, ölkəyə açar,
Yetənə söyləyər, elə car eylər.

Ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, düşmənin gözü tökülsün:

Nigahdan atılsa mərd igidə daş,
Görmə bir kimsədən, o dostdan olar.
Namərdin yarası öldürməz mərdi,
Pozular damağı, həvəsdən olar.

Göz açıb dünyaya qıldım tamaşa.
Kim qaçar qəzanın toruna düşə.
İki həsrət bir-birinə qovuşa,
O gün cənnət bağı gülüstan olar.

Matahım qəlp oldu, al qumaşım bez,
Gəl biçarə Nəcəf, hər cəfaya döz.
Yayılar aləmə nəsihətli söz,
Ariflər dilində bir dastan olar.

Ustadlar ustadnaməni iki deməyib, üç deyiblər, biz də deyək üç olsun, düşmən ömrü puç olsun:

Varlıya dost olub, kasıba gülmə,
Çox da havalanıb coşma dünyada.
El səni istəyib keçirsə başa,
Ağır ol, alçağa düşmə dünyada.

Oturub durgunan qədirbilənnən,
Yaxşı iyid "sən öl" deməz yalannan.
Vəfalı dost olmaz üzə gülənnən,
Onun körpüsündən keçmə dünyada.

Əsil övlad törər, əsilsə ata,
Ölüncə kimsəyə yetirmə xata.
Yeri gəlsə xeyir verər elata,
Onun arxasından qaçma dünyada.

Bu sözü xoşlayar bir arif, əyyar
Xeyri yox, bədəslə ha yapış, yalvar,
Qonşuya söyləyər, mahala yayar,
Sirdaşa sirrini vermə dünyada.

Nəcəf, gəz dünyanı təmiz adınan,
Təklif olsa, bir məclisə getginən.

Bir dost sənnən ola, sözü yadınan,
Onu düşmənindən seçmə dünyada.

Sizə hardan xəbər verim? – Qaradağ mahalında Həsən sövdagardan.

Həsən sövdagar puluna-malına görə barmaqnan göstərilirdi. Çox ölkələr gəzib, çox diyarlar dolaşmışdı, ziyarəti də, ticarəti də qaydasındaydı. Amma bunun bir yaman nisgili varıydı ki, o da övlad sarıdan baxtının bağlı olmağıydı. Bir axşam Həsən sövdagar yatağında uzanıb öz-özünə xəyal elədi ki, ay dadi-bidad, sabah, biri gün başımı yerə qoyub köçümü dünyadan yığandan sonra yurduma kim çıraq yandıracaq, bu qədər var-dövlətin axırı nə olasıdı? Beləcə, sübhü dirigözlü açıb, münəccim yanına getdi. Açıb dərdi-dilini dedi. Münəccim kitab qaldırıb baxdı. Xeyli götür-qoydan sonra üzünü tutdu sövdagara:

– Övlad olmağına sənin qismətində övlad var. Amma bu şərtnən ki, sən dövlətinin yarısını kasıb-kusuba paylayıb, köçüb gedəsən bəyəndiyin başqa bir məmləkətə.

Həsən sövdagar evə gəlib niyyətini, bir də münəccimin məsləhətini arvadına danışdı. Arvad bir söz deməyib razı oldu. Bəli, beş günün içində Həsən sövdagar car çəkdirib var-dövlətinin tən yarısını sadağa payladı. Sonra da köç-külfətini götürüb yol aldı Təbriz şəhərinə. Gəlib burda yaxşı bir mülk aldı, genə də alış-verişiynən məşğul olmağa başladı. Bir müddət keçəndən sonra sövdagar gördü ki, xatını boyludu, uşağa qalıb. Çox xoşhal olub, övladının dünyaya gəlməyini gözlədi. Amma deyir, sən saydığını say, gör fələk nə sayır. Uşaq anadan olana az qalmış sövdagar Həsən qəflətən vəfat elədi. Bunnan bir qədər ötdü, sövdagarın xatını bir oğlan doğdu. Uşağın anasından savayı bir kimsəsi olmadığını görüb adını Bikəs qoydular. Bəli, orda aynan-ilnən, burda baldan şirin dilnən oğlan böyüdü. On yeddi yaşa gəlib yetəndə boylu-buxunlu bir igidə döndü. Tanrı onu yaraşıqdan da yarıtmışdı, ağıl-kamaldan da. Bir dəfə Bikəs yuxuya

gedənnən sonra birdən Həzrət Əli əlində badə onun başı üstündə dayandı. Badəni Bikəsə uzadıb dedi:

– Oğul, al iç bu badəni.

Oğlan özü də bilmədən badəni başına çəkdi. Həzrət Əli dedi:

– Bu içdiyin eşq badəsiydi. Firəngistan padşahının qızı Nazlı xanımın badəsi. Onu sənə buta verdim. İnşallah muradına çatarsan.

Belə deyib Həzrət Əli qeyb oldu. Bikəs yuxudan ayılıb gördü bütün bədəni uçum-uçum uçunur. Anası oğlunun pərişan halına baxıb soruşdu:

– Can bala, rəng-rufun niyə belədi? Olmaya azarlayıb eləmisən?

Bikəs dedi:

– Yox, ana, dərdim özgə dərddir, bir qulaq as:

Ana, sənə ürək sirrim söyləyim,
Qadir Allah mənə buta veribdir.
Xəncər alıb bağrım başın teyləyim,
Qadir Allah mənə buta veribdir.

Anası bir şey başa düşməyib donuxdu:

– Nə buta, nə xəncər, ay bala?

Bikəs mətləbin dalısın belə yetirdi:

Bu sevdanın qovğası var, qalı var,
Yar ləbinin şəkəri var, balı var.
İstəklimin bir firəngi şalı var,
Qadir Allah mənə buta veribdir.

Anası bu dəfə bir az işdən hali olsa da mətləbin canından bir şey anlaya bilməyib dedi:

– Ay oğul, istədiyin qız kimdi, deynən elçi düşüb alım. Amma gənə də buta deyirsən, orasından bir zad başa düşmürəm.

Bikəs gördü ki, hali-dilindən anasına bir əsər yetmir. Dedi:

– Ana, mənim nağılım uzun nağıldı, o səbəbdən sənə çatmır. Elçilik olsaydı, elə bir kəlməynən deyərdim. Bu ayrı sövdadı, eşit gör istədiyim hansı məmləkətin gözəlidi:

Bizim yerlər ördəklidi, qazlıdı.
Miskin Bikəs əli cürə sazlıdı.
Yarım – Firəng şahın qızı Nazlıdı.
Qadir Allah mənə buta veribdir.

Anası Firəng adını eşidib əl-ayağa düşdü ki, yəqin, uşağın başına hava gəlib. İstədi təbib-loğman çağırdıb dava-dərman elətsin. Amma oğlu qoymadı:

– Başına döndüyüm ana, mənim mərəzim dava-dərmannan sağalan deyil. Dərdimin dərmanı odu ki, gərək yarımı tapam. Murazıma yetməsəm ölləm:

Ana, pünhan dərdim sənə deyim mən,
Alagözlü bir canandan ayrıldım,
Yüz min təbib gəlsə, bilməz dərdimi,
Alagözlü bir canandan ayrıldı.

Üzünü göstərdi, çəkdi kənar,
Sızıldayıb artdı canımda yara.
Mahalı uzaqdı bizim diyara,
Alagözlü bir canandan ayrıldım.

İllac üçün bu könlümün dadına,
Baxmaq gərək gözlərinin oduna.
Hərdən-hərdən düşür Bikəs yadına,
Alagözlü bir canandan ayrıldım.

Bu sözlərdən sonra anası Bikəsin baş alıb gedəcəyini yəqinlədi. Amma ana könlü ayrılığa tabsızdı, duruş gətirə bilməyib qubarlı-qubarlı yalvar-yaxar elədi:

Başına döndüyüm, gülüzlü bala,
Oğul, getmə indi, aman günüdü.

Az qaldı cəsədim yanıb od ala,
Oğul, getmə indi, aman günüdü.

Sən gedərsən, sönər mənim çırağım,
Günü-gündən artar dərdi-fərağım.
Sən olmasan, yanar ürəkdə yağım,
Oğul, getmə indi, aman günüdü.

Sənsiz viran qalsın bağçalar, bağlar,
Vurma ürəyimə düyünlü dağlar.
Yazıq anan gecə-gündüz qan ağlar,
Oğul, getmə indi, aman günüdü.

Anası çox dedi, çox minnət elədisə də xeyri olmadı. Bikəs daşı ətəyindən tökmədi ki, tökmədi. Axırda əlacı kəsilən ana oğlunun getməyinə razılıq verdi. Bikəs azuqə götürüb halal-hümmət eləyəndən sonra üzü qürbətlərə sarı yola başladı. Neçə müddət yol gedib axırda gəlib çatdı Misir vilayətinə. Burdan o yana getməkdən ötəri nə pulu qalmışdı, nə də azuqəsi. Belə qərara gəldi ki, burda qalıb bir müddət işləsin, bir az pul-para, ehtiyat toplayıb təzədən səfərinə davam eləsin. Bu minvalla Bikəs Misirdə Əlibəy adında bir sövdəgərın yanında iş tapıb, işləməyə başladı. Bikəs işləyib pul-para yığmağında olsun, indi sizə kimdən xəbər verək – Nazlı xanımdan. Nazlı xanıma da Bikəsnən bahəm buta verilmişdi. Oturub yarının yolunu gözləməkdəydi. Günlər ötür, həftələr dolaşıb, aylar keçirdi. Di gəl Bikəsdən bir xəbər-ətər çıxmırdı. Yollara baxmaqdan qızın gözünün kökü saralmışdı. Nazlı xanım intizar içində o qədər xiffət eləmişdi ki, şam kimi əriyib gedirdi, bir gün anası dilə gəldi:

– Ay qızım, sənə nə olub, belə günü-gündən saralıb-solursan? Nisgilin-xiffətin nədi, tapıb gətirtdirək. Bu boyda məmləkət bizim əlimizdədi, sənin nə dərdin ola bilər?

Nazlı xanım baxdı ki, iş-işdən keçib. Belə qərara gəldi ki, ürəyindən keçənləri anasına bildirsin. Pərişan zülfündən üç tel ayırıb sinəsinə basdı. Görək nə dedi:

Necə ağlamasın bülbülü şeyda,
Dərilib xonçada gülü dəst olub.
Fələk verdi içdim qəm piyaləsin,
Əqlim sərdə durmur, könlüm məst olub.

Başım düşüb qovğalara, qallara,
Axıb gözüm yaşı dönüb sellərə,
Xəyalım intizar baxır yollara,
Sevgilimi görüb könlüm dost olub.

Əbəs-əbəs sözlərimi söylədim,
Xəncər alıb bağrım başın teylədim,
Nazlı deyər, sirrim bəyan eylədim,
Şirin cana, bəlkə, sizdən qəsd olub.

Sözlər tamama yetdi. Nazlı xanımın anası belə güman elədi ki, yəqin, qız darıxır, ona görə halı pərişandı, eyni açılmır. Ata-ana birlikdə götür-qoy eləyib qərara aldılar ki, Nazlı xanım qırx incəbelli qızla dəniz səyahətinə çıxıb dərd-qəmini dağıtsın. Əmr olundu, dərya səyahətindən ötəri bir gəmini yaxşıca döşəyib hazırladılar. Nazlı xanım bu tədbirə razılıq verib ürəyindən keçirtdi ki, bəlkə, elə səfər vaxtı Bikəsdən bir xəbər tuta. Gəmi səfərə çıxıb Misir yaxınlığına çatdı. Buralar dəniz quldurlarının oylağı imiş. Gəmini dövrələyən qırx harami quldur qızları ələ keçirdilər. Hərəyə bir qız götürdülər. Təkcə Nazlı xanıma yaxın düşə bilmədilər. Əgər ona əl uzatsalar, özünü dəryaya atacağını bildirdi. Quldurların başçısı Tülək Tahir yaxınlaşıb and içdi ki, onu özünə bacılığa götürür. Bundan sonra Nazlı xanım onun yanınca getməyə razılıq verdi. Tülək Tahir Nazlı xanımı gətirdi evinə. Nazlının əynində biri-birindən gözəl yeddi dəst paltar varıydı. Tülək dedi:

– Bacı, onun bir dəstini ver mənim arvadıma.

Nazlı xanım bir söz deməyib paltarın bir dəstini verdi. Belə-belə Tülək Tahir gündə onun bir dəst paltarını alıb arvadına verirdi. Axırıncı dəst qalanda üzünü tutdu Nazlı xanıma:

– Bacı, səni saxlamağa gücüm çatmır, istəyirəm səni aparım qul bazarında satım. Nə deyirsən?

Nazlı xanım dedi:

– İxtiyar sahibisən, özün bilərsən.

Tülək Tahir Nazlı xanımın başına çadra atıb, onu apardı qul bazarına. Bu burda qalsın, indi eşit Bikəsdən. Bikəs sövdagar Əlibəyin hörmətini qazanmışdı. Bir gün açıb məqsədini ona danışdı. Sövdagar xeyli fikrə gedib belə məsləhət elədi:

– Oraya tezliklə gedə bilməzsən, uzaq yoldu, xeyli pul-para toplamalısan. Yaxşısı budu, sən get bazardan bir qul-kəniz al gətir, paltarını yusun, yeməyini bişirsin. Pul yığandan sonra gedib sevgilini taparsan. Belə deyib bir kənizlik pul da verdi.

Bikəs qul bazarına gəlib gördü ki, Tülək Tahir bir kəniz satır. Razılaşıb kənizi aldı. Yanına salıb evə gətirdi. Evdə kənizə "xoşgəldin" eləmək niyyətinən götürüb belə dedi:

Üz tutuban bu yerlərə, gələn qız
Qədəm basıb, ay qız, bizə xoş gəldin.
Sən gələn yollara canım payəndaz,
Qədəm basıb, ay qız, bizə xoş gəldin.

Nazlı xanım niqab altındaydı, üz-gözü görünmürdü. Sahibinin ürəyiyumşaq adam olduğunu görüb dərdi-dilini yetirməyi lazım bildi:

Bülbül kimi ayrılmışam gülümdən,
Yolum düşüb, sizin yana gəlmişəm.
Ağlar qoyub əziz ata-anamı,
Yolum düşüb sizin yana gəlmişəm.

Bikəs kənizin nəcabətli yerdən olduğunu yəqin eləyib onun halına acıya-acıya dedi:

Aç görünsün ağ üzünün laləsi,
Görüm olsun seyraqubun balası.
Bir əlində tutub qəm piyaləsi,
Bir əlində dürlü məzə xoş gəldin.

Nazlı baxdı ki, bu lap qanan adamdı. Fikirləşdi ki, qoy yurd-yuvamı nişan verim, bəlkə, halıma yandı:

Mən gəlmişəm Firəngistan elindən,
Ayrı düşdüm çəmənindən, gülümdən.
Qurtar məni haramının əlindən,
Yolum düşüb sizin yana gəlmişəm.

Firəngistan adı çəkiləndə Bikəsin ürəyi atlandı, yadına sevgilisi düşdü. Qubarlanıb sözünü belə tamam yetirdi:

Əynivə geymisən xasların xasın,
Yolundan azanı ilahi kəssin,
Artırdın dərdini yazıq Bikəsin,
Yetirdin doxsana, yüzə, xoş gəldin.

Bikəsin adını eşitcək Nazlı onu alıb gətirənin sevgilisi olduğunu bildi. O da özünü nişan verib görək sözünü nə qaydaynan tamamladı:

Sən nə bildin mən bir alagözlüyəm,
Ayna qabaqlıyam, şirin sözlüyəm.
Adım Nazlı, Firəng şahın qızıyam,
Yolum düşüb sizin yana gəlmişəm.

Belə deyib başındakı çadranı atdı. Hər iki sevgili bir-birini tanıyıb sevincdən ağlaya-ağlaya qol-boyun oldular. Bikəs Nazlını Tülək Tahirdən alanda bir az borclu qalmışdı. Nazlı dedi:

– Sən get bazardan ip al gətir, mən yaxşı şal toxuya bilirəm. Toxuyum, apar sat, pulu düzəldib borcu verək, yoxsa birdən fikrindən dönər, gəlib məni aparar, başqasına satar.

Bikəs gedib ip aldı. Nazlı başladı şal toxumağa. Bikəs də həmən şalları bazara çıxarıb satırdı ki, pul yığıb borcu verə bilsin. Bu burda şal satmağında olsun, indi eşit Nazlı xanımın

qardaşlarından. Bəli, bacılarının qırx qızla itkin düşməyini eşidən Firəng şahının oğlanları dörd bir yandakı məmləkətləri gəzib dolaşır, bacılarını soraxlayıb axtarırdılar. Bu minvalla gəlib Misirə də çıxdılar. Bazarda gəzib dolaşanda şal satan Bikəsi gördülər. Qardaşlar Nazlının əl işini, vurduğu ilmə, naxışı tanıyırdılar. Şala baxan kimi o saatca bildilər ki, Nazlının əl işidi. Bikəsi dilə tutub dedilər:

– Bizə bu şaldan çox lazımdı, gedək evdən götürək.

Bikəs bir söz deməyib onları evə gətirdi. Qardaşlar Nazlını görən kimi tanıdılar. Bacı da onları tanıdı. Görüşüb öpüşdülər. Oturub əhvalatı öyrəndilər Nazlı yemək hazırladı. Yemək ortalığa qoyulanda qardaşlar xəlvəti Bikəsin yeməyinə bihuşdarı qatdılar. Bikəs bihuş olub yıxılanda zorla Nazlını ondan ayırıb, özləriynən apardılar Firəngistana. Yolda bir çobana tuş gəldilər.

Nazlı xanım dedi:

– Ay çoban, mənim dalımca istəklim gələcək, götür bu üzüyü məndən nişan saxla, özünə də bu dediyim sözləri yetir:

Başına mən dönüm, ay çoban qardaş,
Yara de ki, bizim yana gəlməsin.
Arı kimi sızıldadım bal üstə,
Doğrasın bağrımı şana, gəlməsin.

Çoban dedi:

– Bə bu nə cür istəkli olmaqdı ki, onun dalınca gəlməyinə razı olmursan?

Nazlı xanım dedi:

– Qulaq as, indi səbəbini deyərəm.

Götürür sözünün davamında:

Çoban qardaş, görsən, tanıyarsan onu,
Oddan köynəyidir, alovdan donu.
Atam beymürvətdi, öldürər onu
Məndən ötrü nahaq qana gəlməsin.

Çoban soruşdu:

– Bacı, bu istəklin hardadı belə, niyə gələmmir?

Nazlı xanım əhvalatı qısaca nəql eləyib sözünü tamama yetirdi:

Oyananda düşəcəyəm yadına,
Tanrı çatsın Bikəsimin dadına.
Nazlı deyər, mən çəpəlin oduna
Nahaq yerə yana-yana gəlməsin.

Çoban Nazlı xanımı arxayın elədi ki, tapşırığını başlı-bütünlü istəklisi gələndə ona yetirəcək. Amma burdan aralanandan sonra Nazlı xanım dediyinə peşman oldu, bilmədi neyləsin. Onu geri qaytarmağa qoyan kim idi ki, sözünü dəyişib çobana ayrı tapşırıq versin. Qərəz gəlib gəmiyə minəndə belə qərara gəldi ki, gəmiçiynən Bikəsə çağırış sorağı yollasın. Bilirdi ki, gəmiçi tez-tez o yan-bu yana gedəndi. Əvvəl-axır Bikəsə tuş gələcək. Odur ki, xəlvətə salıb gəmiçinin ovucuna xeyli pul basdı, sonra da bir parça kağıza mətləbini yazıb qoydu onun cibinə. Dedi:

– Gəmiçi qardaş, oxu, burda mətləbimi yazmışam.

Gəmiçi açıb gördü ki, namədə bir qatar sözdü:

Bir dərdim var, aşkar deyə bilmərəm,
Gəlsə, yarı keçirginən, gəmiçi.
Onsuz bir də sevinmərəm, gülmərəm,
Gəlsə, yarı keçirginən, gəmiçi.

Gəmiçi arif adamıydı, o indicə anladı ki, iş nə yerdədi. Nazlı xanımı arxayın elədi ki, Bikəsə tuş gələn kimi onu o taydan bu taya keçirib sorağı da yetirəcək. Nazlı atası evinə çatmaqda olsun, indi eşit xəbəri Bikəsdən. Bihuşdarının vaxtı ötüb keçəndən sonra Bikəs ayılıb qalxdı. Dörd bir yana boylanıb qonaqları axtardı. Gördü ki, nə qonaqlar var, nə də Nazlı xanım. Başa düşdü ki, qardaşlar bacılarını aparmaqdan ötəri onun yeməyinə xəlvəti bihuşdarı qatıblarmış. İşin bunnan beləsini qaydaya qoymaqdan, hal-qəziyyəyə əncam çəkməkdən ötəri biçarə

Bikəs durub birbaşa gəldi Əlibəy sövdagarın yanına. Sövdagar baxdı ki, bunun halı o haldan deyil. Əl-ayağa düşüb soruşdu:

– Bala, Bikəs, nə olub, başına nə iş gəlib?

Bikəs dedi:

– Ağa, qoy düzümləyim, sözü qatarnan deyim.

– Buyur, oğul.

Götürdü görək Bikəs öz dərdi-dilini nə tövürnən yetirdi:

Ay ağalar, nazlı yarın dərdindən
Qohumdan, qardaşdan, eldən ayrıldım.
Müşk-ənbər qoxuyan siyah telindən,
Ağ yüzündə bir cüt xaldan ayrıldım.

Əlibəy sövdəgər durammadı:

– Ay oğul, gənə nə ah-vaydı düşmüsən, sözünün canını de.

Bikəs dedi:

– Ağa, başına dönüm, bir az səbr elə, hamısını deyəcəyəm:

Nə müddətdi qovğası var, qalı var,
Həsrətinin könül yıxan halı var.
İpək tüldən toxuduğu şalı var,
İpəkdən gen düşdüm, şaldan ayrıldım.

– Ayə, yoxsa, satdığın şalları oğurlatmısan?

– Yox, ağa, elə olsaydı, dərdim nəydi. Eşit gör itirdiyim nə mətahdı:

Ay ağalar, yar ayrısı yamandı,
Verməl, Allah, bir bəndəyə amandı.
Bikəs deyər, qəddim yayda kamandı
Alagözlü Nazlı yardan ayrıldım.

Belə deyəndən sonra Əlibəy işdən hali olub bildi ki, daha Bikəsi buralarda saxlamaq müşkül məsələdi. Odur ki, ona çatacaq haqqı ikiqatıynan verib "yaxşı yol" dilədi. Bikəs Nazlı xanımın sorağıynan üz tutdu Firəngistan sarıya. Gəlib yolda çobana rast gəldi. Fikirləşdi ki, çoban çöl adamıdı, gələnnən-gedənnən xəbəri olandı, qoy soruşum görüm, mənim yarımın

buralardan keçməyindən xəbəri varmı? Götürüb görək nə dilnən Nazlı xanımından xəbər-ətər tutmaq istədi:

Başına döndüyüm, ay çoban qardaş,
Bir deginən Nazlı yarı gördünmü?
Sinəsi suzandı, didəsi giryan,
Çeşmi yaşlı vəfadarı gördünmü?

Bikəs belə deyən kimi çobanın yadına Nazlı xanımın tapşırığı düşdü. Çomağını sinəsinə basıb sözün cavabını belə yetirdi:

Şükür olsun biliyinə xudanın,
Yarın dedi: – bizim yana gəlməsin,
Arı kimi sızıldayıb bal üstdə
Bağrımı döndərib şana, gəlməsin.

Bikəs çobanın sözlərini eşitdisə də ağlına bir şey batmadı. Öz-özünə güman elədi ki, yəqin, çoban mənim yarımı başqasıynan dolaşıq salıb. Götürüb dübarə soruşdu:

Özü bir nazənin, yoldaşı beşdi,
İşvəsi, qəmzəsi bağrımı deşdi.
Cəmi gözəllərdən camalı başdı,
Alagözlü Nazlı yarı gördünmü?

Çoban Nazlı xanım verən üzüyü ovcunda tutub dedi:

Verib üzüyünü mənə nişana,
Bir kərə boylanıb baxmadı yana.
Qiyamət vəbalın atıb boynuma
Yarın dedi, bizim yana gəlməsin.

Bikəs üzüyü tanıdısa da yenə inanmadı:

Heç kəs olmasın mən Bikəsin halında,
Könül fəğan eylər yar məlalında.
Mina qolbaqları varmı qolunda,
Alagözlü Nazlı yarı gördünmü?

Çoban gördü bu divanəni inandırmaq çətin peşədi, sözünü belə xətmə yetirdi:

Eşqin atəşini salmışdı cana,
Alışıb olmuşdu dəli-divana.
Yalvarıb yaxardı o, mən çobana:
Məndən ötrü yana-yana gəlməsin.

Çoban çox dedi, Bikəs az eşitdi. Yarının ondan üz döndərməyi beyninə batmadı. Duruş gətirməyib ordan başıloylu dərya kənarına gəldi. Gəmiçi təhər-töhürünə baxıb onun Bikəs olduğunu bildi. Nazlı xanımın naməsini verib, onu gəmiynən keçirdi dəryanın bu üzünə. Bikəs soraqlaşa-soraqlaşa gəlib çıxdı Firəngistan məmləkətinə. Vaxtı, yeri öyrənib Nazlı xanımın bağ seyrinə çıxmaq məqamında özünü yetirdi həmən yerə. Gördü budur, Nazlı qırx incəbelli qızla sallana-sallana gəlir, özünü saxlaya bilmədi, bir onda gördü ki, sinəsindən bir qatar söz havalandı:

Gözəllər əlində dəstə gül olar,
Düzülüb araya minalar gəlir.
Uçub könlüm quşu olmuşam sərxoş,
Budur, yaşılbaşlı sonalar gəlir.

Qurban olum Nazlı yarın məstinə,
Qızılgül alıbdı genə dəstinə.
Laçın kimi cumub şikar üstünə,
Bəyəm can almağa tərlanlar gəlir.

Bizdən salam olsun o nazlı yara,
Eldən, vilayətdən düşdüm avara.
Demir hanı Bikəs, taleyi qara,
Yaxıb əllərinə xınalar gəlir.

Nazlı xanımın əmisi qızı Xeyransa də qızların arasındaydı, Xeyransaya da söz qoşdu:

Başdan-başa geyinmisən yaşılı,
Yaraşır qəddinə allar, Xeyransa.

Aşiqin yandırma eşq atəşinə,
Düzülüb qapına qullar, Xeyransa.

Bir libas geymisən tamam abıdir,
Məlayikələr qulluğuna tabidir,
Dilin, dodaqların şəkər kibidir,
Tökülür ləbindən ballar, Xeyransa.

Məndən salam olsun sizə dübarə,
Şamamanı üzdürməynən xunxara.
Bikəs deyər, budur minnətim yara,
Sarılsın boynuma güllər, Xeyransa.

Xeyransanin belə tərifə tutulmağı Nazlı xanımın könlündən olmadı. Bikəs gördü ki, yarı ondan incik düşdü, məqamındaca üzrxahlıq eləməyə macal tapdı:

Başına döndüyüm, gözəllər xası,
Danışmaq olmazmı yadnan, ay xanım?
Dolanıb gileyli, gəzmə narazı,
Bir də oynamaram odnan, ay xanım.

Behişti-əladan çıxmısan məgər?
Göydə məlayikələr sənə baş əyər.
Tamam kefsiz olub xəcalət çəkər.
Əgər camalını görsə ay, xanım.

Əzəldən muştaqdı Bikəs muyuna,
Qəddi-qəmətinə, sərvi boyuna.
Hüsnün çəkilibdi kövsər suyuna,
Tərifin dolanır adnan, ay xanım.

Bu sözlərdən sonra Nazlı xanımın əhvalı düzəldi. İki sevgili ara eləyib vədələşdilər ki, sabah filan vaxtı, filan yerdə görüşüb bu məmləkətdən qaçsınlar. Bikəs axşamı bir qarının evində qaldı. Qarı da nə qarı. Yetmiş ilin kaftarı. Amma özünə bir

sığal-tumar verir, bir əzilib-büzülürdü ki, deyirdin cavanca gəlin eşqindədi. Çay-çörəkdən sonra qarı Bikəsə qaş-göz atıb istədi onu cənginə keçirsin. Aldı qarı:

Aman oğlan, gözüm oğlan,
Oğlan, al məni, al məni.
Sənə qurban özüm, oğlan,
Oğlan, al məni, al məni.

Götürdü Bikəs cavabında:

Aman qarı, canım qarı,
Almanam səni, almanam,
Muradın bitirsin tanrı
Almanam səni, almanam.

Qarı dil-boğaza qoyanıydı bəyəm? Qırsaqqız olub yapışmışdı. Söz düzüb qoşmaqda, hərzə-hədyan gəlməkdə də ayrı cürə pərgarıydı. Aldı dübarə:

Sənə həddini bildirrəm,
Dərinə saman doldurram.
Almasan, boğub öldürrəm,
Oğlan, al məni, al məni.

Bikəs gördü ki, qarı əl çəkmir. Dedi, qoy bunun yör-yöndəmini özünə başa salım. Yoxsa elə bilir ki, ay parçasıdı, tayı-bərabəri yoxdu:

Əcəb beyiman qarısan,
Şumda qalan darısan.
Vallah, heyvadan sarısan,
Almanam səni, almanam.

Qarı dedi:

– Sən nə danışırsan? Mən cavanca qız yerindəyəm. Qara gün çəkib bu günə düşmüşəm. Sən məni alsan, yarım-yaraşığım təzədən qaydasına düşəsidi. Bir qulaq as:

Qırılıb qohum-qardaşım,
O qəmdən ağarıb başım.

Muzladan tökülüb dişim,
Oğlan, al məni, al məni.

Bikəs baxdı ki, gecə-gecədən keçir, sözü uzatmağın başı yoxdu. O səbəbdən sözünü tamamladı:

Mən Bikəsəm, barım vardır,
Heyva, zirinc, narım vardır,
Nazlı kimi yarım vardır,
Almanam səni, almanam.

Qarı da cəhdinin boşa çıxdığını başa düşüb, yanıxlı-yanıxlı mətləbini belə xətm elədi:

Gülsüm qarı sözün desin,
O, dil-dodağın yesin,
Görüm yarın qara geysin,
Oğlan, al məni, al məni.

Bəli, bunlar yorulub yatdılar. Sübh açılanda cəmi sabahlar üzünüzə xeyirlikdən açılsın, Bikəs çay-çörək yeyib, qarının haqqını verdi, sonra halallaşıb, vədə tamamında şərtləşdikləri yerdə Nazlı xanımnan görüşdü. Nazlı xanım yaxşı yol tədarükü görmüşdü, neçə günlük azuqə, xeyli da pul-para götürmüşdü ki, yol boyu çox əziyyət çəkməsinlər. Bəli, bunlar xəlvətcə aradan çıxıb özlərini yetirdilər dərya qırağına. Gəmiçi tapıb, Misirə getməkdən ötəri sövdələşdilər. Yol haqqını verib üzü Misirə sarı gəmiylə yola başladılar. Bunlar yola düşəndən bir az keçmiş Nazlının qardaşları qızın getməsindən xəbər tutdular. Onlar da bir gəmiyə xeyli yaraq-əsləhəli adam doldurub, Bikəsgilin gəmisinin ardınca saldılar. Nazlı xanım uzaqdan gələn gəminin niyyətini bilib, özünü itirdi. Bildi ki, qardaşları onlara çatsa, hər ikisini öldürəcəklər. Odur ki, üzünü göylərə tutub tanrıdan imdad dilədi:

Ya bir təcəllahi rüxsari aləm,
Aman Allah, qurtar bizi bu dardan.
Qulluğunda mələk, əlində qələm
Aman Allah, qurtar bizi bu dardan.

Dəryanın üzündə fəraqa düşdüm,
Ayrıldım vətəndən, irağa düşdüm.
Bikəsin dərdindən sorağa düşdüm.
Aman Allah, qurtar bizi bu dardan.

Biçarə Nazlıyam, gəldim imana,
Canım qurban olsun, Axır Zamana.
İstərdim yağılar bata ümmana,
Aman Allah, qurtar bizi bu dardan.

Nazlının harayı xudavəndi-aləmə nazil oldu. Onun əmriynən dəryanın üzündə görünməmiş bir tufan qopdu. Arxadan gələn yağı gəmisi suya qərq olub batdı. Bikəsnən Nazlının mindiyi gəmi də duruş gətirməyib dağıldı. İki sevgili bir böyük taxta parçasının üstündə üç gün, üç gecə yol gedəndən sonra axırda gəlib bir qırağa çıxdılar. Tamam yorulub əldən düşmüşdülər deyin oturdular ki, dincəlsinlər. Nazlı xanımın bərk yuxusu gəlirdi. Bikəs öz paltarlarını onun başının altına qoydu ki, qız rahat yata bilsin. Nazlı xanım qolundakı qolbaqları açıb, yanında bir yerə qoydu, sonra şirin yuxuya getdi. Bikəs yatmayıb istəklisinə keşik çəkirdi, amma yorğun, yuxusuz olmağı öz işini gördü, başladı yavaş-yavaş mürgüləməyə. Elə bu heyin göy üzündə süzən bir çalağan Nazlı xanımın qolbaqlarını ət parçası bilib şığıdığınnan onu caynağında göyə qaldırdı. Bikəs bir onda gözünü açdı ki, qolbaqlar çalağanın caynağındadı. Durub qaça-qaça nə qədər hay-haray qopardısa bir şey çıxmadı. Quş uçub getdikcə Bikəs də onun qarasınca qaçmağa başladı ki, bəlkə, haradasa qolbaqları caynağından yerə buraxanda yetişib götürə bilə. Axırda çalağan gözdən itib yoxa çıxdı. Bikəs də dörd bir yanına boylanıb, gəlib çıxdığı yerin hara olduğunu ayırd eləyə bilmədi. Ha düşündü ki, hansı yolnan geri qayıtsın ki, gedib Nazlı xanımı qoyduğu yerə çıxa. Bu, burda vurnuxmağında olsun, indi biz qayıdaq Nazlı xanımın yanına. Nazlı xanım yuxudan oyanıb gördü ki, nə Bikəs

var, nə də qolbaqları. Elə güman elədi ki, yəqin, Bikəs qolbaqları götürüb qaçıb, onu da qoyub çölün-düzün ortasında. Ağlaya-ağlaya ürəyindən keçirdi ki, sən bir bu namərdin işinə bax, tamahına qul olub, mənim qızıllarımı götürüb qaçıb. Mən də bunun felinə uyub, yurdumnan-yuvamnan olmuşam. Kül mənim ağlıma. Gördü ki, qəm-qübardan könlü tel-tel olub, söz sinəsini dağıdır, aldı görək dərdi-dilini necə izhar elədi:

İstərəm Allahdan yazılsın bu gün,
Həmdəm oldum sənin kimi yara mən.
Fələk mənə qəm şərbətin içirib
Günü-gündən oldum bəxti qara mən.

Şikəstə durnayam, başda teli yox,
Yaşılbaşlı bir sonayam, gölüm yox.
Qohumum yox, qardaşım yox, elim yox,
Alıb başım, gedəm bir diyara mən.

Nazlı xanım öz-özünə arlanır,
Gecə-gündüz ah çəkibən zarlanır.
Saxlayınca bir vəfasız tərlanı
Həmdəm ollam bir vəfalı sara mən.

Bir az da oturub axırda naillac durdu ayağa. Gördü Bikəsin paltarları burdadı. Götürüb öz paltarlarının üstündən onları da geyindi ki, qız olduğu bilinməsin. Baxanlar elə bilsin ki, kişidi. Beləcə, çöl boyu üz tutub getməyə başladı. Gəlib bir çobana rast oldu. Gördü bu çoban onun qolbaqlarını çomağına keçirib oynadır. Soruşdu:

– Ayə, çoban qardaş, o nədi elə çomağa keçirib oynadırsan?

Çoban dedi:

– Vallah, bunları gəzdirməkdən bezmişəm, dəmir-dümür-dü, çalağanın ayağından düşəndə götürmüşəm. İstəyirsən verim, apar, oynat.

Belə deyib qolbaqları atdı Nazlı xanıma tərəf. Nazlı xanım götürüb baxdı ki, onunkulardı ki var. Bir söz deməyib yoluna davam elədi. Amma orasını da yəqin elədi ki, o yatanda qolbaqları çalağan götürüb aparıb. Yazıq Bikəs də çalağanın dalınca gəzə-gəzə yol azıb.

Nazlı xanım belə qərara gəldi ki, nə yolla olursa-olsun, gərək Bikəsi axtarıb tapa. Nazlı xanım gəzə-gəzə gəlib bir şəhərə çıxdı. Gördü bütün şəhər əhlini meydana cəm eləyib şahlıq quşu uçururlar ki, özlərinə bir padşah seçsinlər. Quş uça-uça gəlib Nazlı xanımın başına qondu. Aparıb bir də uçurtdular, genə gəlib Nazlı xanımın başına qondu. Bir də aparıb uçurtdular, genə belə olandan sonra onu padşah kimi bəzəndirib taxta çıxartdılar. Nazlı xanım başladı padşahlıq eləməyə. Bir gün o, öz qız paltarında şəkil çəkdirib həmən şəkli qoydurdu şəhərin girəcəyindəki bulağın başına. Adam ayırıb tapşırıq verdi ki, kim gəlib bu şəklə baxandan sonra ah-zar eləyib baş-gözünə döyməyə başlasa, onu tutub gətirərsiniz mənim yanıma. İndi eşit Bikəsdən. Bikəs neçə müddətdən sonra gəlib çıxdı həmən bulağın üstünə. Nazlı xanımın şəklini görən kimi ah çəkib ağladı. Onu tutub gətirdilər padşahın qulluğuna. Padşah soruşdu:

– Sənin dərdin nədi ki, o şəklə baxıb ağladın?

Bikəs dedi:

– Padşah sağ olsun, eşit bir-bir qulluğuna yetirim:

Soruşursan nədir dərdi-məlalın,
İtirmişəm o dildarım, tapılmaz.
Pərişan halıma, ahı-zarıma,
Baxıb yanan bir qəmxarım tapılmaz.

Dərddən gecə-gündüz çəkirəm fəryad,

Görək kim qılar bizlərə imdad.
Yıxılıb dünyamız, qoy olsun bərbad,
Məndən ayrı düşən yarım tapılmaz.

Heç kəs olmaz mən Bikəsin halında,
Könlüm fəğan eylər yar məlalında.
Hamının sevgisi, yarı yanında,
Amma mənim vəfadarım tapılmaz.

Nazlı xanım Bikəsi bir də sınağa çəkmək qəsdiynən sual elədi:

– Oğlan, itirdiyin kimdi ki, belə yanıxlı-yanıxlı axtarırsan?

Bikəs Nazlı xanımı tanımışdı. Di gəl cəsarəti çatmırdı ki, işi açıb ağartsın. Fikirləşdi ki, verdiyim cavabda padşahın Nazlı xanım olduğuna da işarə eləyim, bəlkə, bir şey çıxdı. Götürdü sualın cavabında:

Sənə qurban olum, padişahi-əzəl,
Bir alagözlüdən ayrı düşmüşəm,
Qəddi sərvi-rəna, əndamı ayna,
Bal, şəkər sözlüdən ayrı düşmüşəm.

Əhdi olan heç ayrılmaz yarından,
Arını öldürər, əl çəkməz balından.
Gücün varsa qurtar məni zalımdan,
Bir qəmər üzlüdən ayrı düşmüşəm.

Bikəs deyir: – mənim əslim Təbrizli,
Vəfalı sevgili olar bir sözlü.
Ağ buxaqda qara xalı düzülü,
Sultanım Nazlıdan ayrı düşmüşəm.

Belə deyəndən sonra daha Nazlı xanım tab gətirmədi. Özünü nişan verdi. İki həsrətli qucaqlaşıb, qol-boyun oldu. Nazlı xanım əmr elədi. Buyuruqçular gəldi, Bikəsi aparıb yaxşı geydirib-yedirib rahatladılar.

Səhəri gün Nazlı xanım vəzir-vəkili, əyan-əşrəfi yığıb hal-hekayəti danışdı. Hamı bir ağızdan onların vəfasına "əhsən" söylədi. Nazlı xanım taxt-tacı Bikəsə verməyi qərara aldı. Bikəs taxtda əyləşib məmləkəti idarə eləməyə başladı. Tədarük görüldü, onlara yeddi gün, yeddi gecəlik yaxşı bir toy vuruldu. Sevgililər qovuşub muraza yetdilər, sizləri də cəmi murazlarınıza yetəsiniz. Qaldı dastanımızın duvaqqapması, onu da deyək könlünüz şad olsun:

Şükür həqqə, gördüm üzün,
Dünyada aşkara, gəlin.
Çəkərəm həsrətini,
Amandı bir çara, gəlin.
Yəqin bil dərdin məni
Salıbdır azara, gəlin.
Düşmüşəm yollarına,
İş-gücdən avara, gəlin.
Qarşıma çıxdın, gəlin.

Dedim xublar xası gəlir.
A gəlin, döşün üstdə
Təzə pullar səsi gəlir
A gəlin, belin görən
Qucmağa həvəsi gəlir.
A gəlin, səni görən
Dindən çıxıb asi gəlir,
A gəlin, müsəlmanı
Döndərmə kəffarə, gəlin.

Maşallah, a gəlin,
Canın necə candı sənin,
Dişlərin inci kimi,
Dodağın mərcandı sənin.
Qoynunda cüt şamama,

Hər biri fincandı sənin,
Baxımın canlar alır,
Boynundakı qandı sənin.
A gəlin, ciyərimi
Etdin para-para, gəlin.

A gəlin, yoxdur ayıb,
Qaş-kirpikin, gözün gözəl.
Dil gözəl, dodaq gözəl,
Yanaq gözəl, üzün gözəl.
Cilvə gözəl, qılıq gözəl,
Söhbət gözəl, sözün gözəl,
Boy gözəl, buxun gözəl,
Qamət gözəl, özün gözəl.
A gəlin, xoşdur canın
Təzə yağmış qara, gəlin.

Zülfünə çək sığalı,
Tellərə şana yaraşır.
Ağ bilək, ağ əllərə
Əlvanca xına yaraşır.
Belinə gümüş kəmər,
Sinənə mina yaraşır.
Köynəyə tafta, gilas,
Başına cuna yaraşır.
Ay gəlin, gey əyninə
Atlas, ziba, xara, gəlin.
Yazığam, yaralıyam,
Yalvarıram sənə, gəlin.
A gülüm, etmə zülüm,
İnsaf eylə mənə, gəlin.
Gəl yanıma, dinlə, gəlin.

Eşqinnən saralıban
Soldum gündən-günə, gəlin.
A gəlin, çıxdı canım,
Yalvara-yalvara, gəlin.

A gəlin, camalına
Baxmaqdan doya bilmirəm.
Tutmuşam ətəyini,
Əlimdən qoya bilmirəm.
Var sözüm, utanıram,
Üzünə deyə bilmirəm.
Sənin bal ləblərini
Əmibən yeyə bilmirəm.
A gəlin, Molla Cuma
Yanıbdır odlara, gəlin.

## YETIM AYDIN (107)

Sizə kimdən deyim, danışım – yetim Aydından. Yetim Aydın qoca nənəsindən başqa kimsəsi olmayan bir uşağıydı. On dörd, on beş yaşına çatana kimi biçarə nənəsi onu güc-bəla ilə birtəhər böyütmüşdü. Elə ki uşaq gəlib on beş yaşına yetdi, qarı kəndin ağsaqqalına-qarasaqqalına iltimas elədi ki, bu yetimə bir iş tapşırsınlar ki, o da həmən işin qulpundan yapışıb bir parça çörək pulu qazana bilsin. Çox götür-qoydan sonra camaat bu qərara gəldi ki, yetim Aydını kəndin danalarını otarmağa göndərsinlər. Bunun qabağında da hər ayın tamamında muzdunu alıb özünü də, nənəsini də dolandıra bilsin. Bəli, bu minvalla o, hər gün səhər tezdən kəndin dana-buzovlarını qabağına qatıb örüşə aparır, axşam da şər qarışana yaxın geri qaytarırdı. Bir axşam kəndə dönən zaman Aydın gördü ki, uçarda çoxlu adam toplaşıb. Ortalıqda iki aşıq üz-üzə dayanıb deyişir. Yaxınlaşıb onlara qulaq asdı. Aşıqların çalıb-çağırmağı çox xoşuna gəldi. O vaxtlar belə bir qayda varıydı: başqa yerdən gələn aşıqların evinə qonaq aparmaq istəyən məclis qurtaranda yaxınlaşıb aşığın sazını götürərdi, aşıq da onun yanına düşüb qonaq gedərdi. Çal-çağır başa yetəndə yetim Aydın heç başqalarına aman vermədi. Tez sazlardan birini əlinə götürüb dedi:

– Ustad, bu axşam mənim qonağımsınız.

Kəndin camaatı onun bu hərəkətindən bir şey başa düşməyib maddım-maddım bir-birinin üzünə baxdı. Aydın aşıqları yanına salıb apardı. Aşıqlar gəlib gördülər ki, bu lütün biridi, nə düz əməlli əlacağı, nə də babat bir dolanacağı var. Yaxşıya-yamana baxmayıb olandan yedilər, bir az da ev yiyələrindən ötəri çal-çağır eləyib yatdılar. Səhər açılan təki aşıqlar çay içib yola düzəlmək istəyəndə yetim Aydın əl çəkmədi ki, mən siznən gedəcəyəm. Saza-sözə elə bağlanmışam ki, öldürsəniz də sizdən ayrılan deyiləm. Aşığın biri onu başından etmək üçün dedi:

– A bala, aşıqlıq sənə nə yaman asan gəlir. Bunun min bir əziyyəti var. İkincisi də, qoturun, keçəlin birisən, bu sir-sifətlə kimdi səni sayıb, toya-düyünə çağıran? Aşıq dediyinin gərək boyu-buxunu da qaydasınca olsun.

Aydın yenə əl çəkmədi:

– Şagirdliyə götürmürsünüz, heç olmasa nökərliyə götürün. Atlarınıza baxar, yüklərinizi daşıyaram.

Qərəz, çox çək-çevirdən sonra aşıqlar baxdılar ki, bu yaman üzlü yetimdi, heç əl çəkənə oxşamır. Əlacsız qalıb onu özləri ilə aparmağa razılıq verdilər. Bu yandan da nənəsi qırsaqqız olub Aydını buraxmırdı ki buraxmırdı:

– Məni – qoca qarını yiyəsiz qoyub, hara gedirsən, – deyirdi. Amma nəvə daşı ətəyindən atıb dediyindən dönmürdü. Belədə qarı fənd işlədib, aşıqları xəlvəti aradan çıxartdı. Başı yır-yığışa qarışmış Aydın bir də onda baxdı ki, aşıqlar nə gəzir, lələ köçüb, yurdu qalıb, haçandı gizlincə çıxıb gediblər. Nənəsi nə qədər yalvar-yaxar elədisə, tərpəndi aşıqların dalınca.

İndi eşit aşıqlardan. Yayın isti günüydü. Bir xeyli gedəndən sonra aşıqlar dincəlməkdən ötəri bir kölgəlikdə dayandılar. Elə bir az nəfəs dərmişdilər ki, gördülər budu ha, yetim qaranəfəs özünü yetirdi. Çatıb aşıqların ayağına döşəndi: "amanın bir günüdür, məni atıb getməyin".

Aşıqların böyüyü bu dəfə də onu başından eləmək qəsdilə dedi:

– İndi ki dediyindən dönmürsən, qoy onda səni bir sınağa çəkək. Bax o dağı görürsənmi? – Şahdağıdı. Onun təpəsindən get bizə qar gətir, ürəyimizə sərinlik olsun.

Şahdağına dünya-aləm yoluydu. Biçarə yetim çar-naçar razı olub, həmən səmtə üz qoydu. Gethaget, gethaget axırda yorulub, əldən düşdü. Dincini almaqdan ötrü bir ulğun kolunun altına uzandı. O qədər yorulmuşdu ki, elə uzanmağıyla yuxuya getməyi

bir oldu. Yuxuda şahlar şahı Həzrəti Əli gəlib Aydının başı üstündə dayandı. Əlindəki abi-kövsər dolu badəni ona verib dedi:

– Al, bu badəni iç.

Aydın badəni başına çəkdi, şahlar şahı dedi:

– Bu badəynən mən sənə doxsan min sözü bəyan verdim. Sazda-sözdə qabağına çıxan olmayacaq. İndi yaxın gəl, barmaqlarımın arasından bax, gör nə görürsən?

Aydın baxıb dedi:

– Orda bir şəhər görürəm, şəhərdə bir imarət, imarətdə də gözəl bir qız görürəm.

Həzrət Əli dedi:

– O qız Gürcüstanda yaşayan gürcü Vəlinin qızı Gülzamandı. Onu sənə buta verdim. Get butana yetiş. Başının üstündə bir xurcun qar var, onu da apar ver aşıqlara.

Belə deyib şahlar şahı qeyb oldu. Aydının başı üstündəki qara gün dəyib əriyirdi, onun bir damcı suyu üzünə düşən kimi ayıldı. Özü-özünü tanımadı. Baxdı ki, keçəllikdən, qoturluqdan bir əsər qalmayıb. Boylu-buxunlu gözəl bir oğlana dönüb. Özünü ələ alıb xurcun dolu qarı götürüb, geri qayıtdı. Aşıqlar gördülər ki, yetim Aydının əvəzində gözəl bir oğlan, əlində də bir xurcun qar gəlib, onlara yetdi. Zəndinən baxdılar ki, deyəsən, elə yetimin özüdü. Başlarını itirib bilmədilər neyləsinlər. Orasını deyim ki, aşığın birinin adı Urfanıydı, o birinin Qurfan. Urfannan Qurfan bir qara baxdılar, bir Aydına baxdılar. Axır-axırda birtəhər özlərini ələ alıb soruşdular:

– A bala, bu nə işdi, nə sirri-xudadi belə? Bir bizi agah elə.

Aydın dedi:

– Gərək sazla deyəm, saz olmasa deyəmmərəm.

– Ay oğul, sən saz çalmağı nə vaxt öyrəndin? Dana otarmağı buraxdığın bir gün ola, ya olmaya.....

– Usta, sazı ver, gör harda öyrəndim.

Aşıq Urfan sazı ona uzatdı. Götürdü görək burda Aydın nə dedi:

Yatmış idim, bir duş gördüm, ağalar,
Duşumda Həzrəti Əlini gördüm.
Zülfüqar əlində, Düldül belində,
Qabağında Qəmbər qulunu gördüm.

Düldülü var onun peyman içində,
Hüsnü nur içində, nişan içində.
Pürkamal, pürcamal imam içində,
Ağamın şəriət yolunu gördüm.

Gəzib yetim Aydın dolanır miskin,
Uca dağlar başı çən, dolu, çiskin,
Cümlə məxluqatdan kəlamı kəskin,
Şahlar şahı ağam Əlini gördüm.

Aşıqlar bunun çal-çağır bacarığına, söz düzüb qoşmaq hünərinə heyran qalıb mat-mat baxırdılar. İşdən başlı-bütünlü hali olmaqdan ötəri bir də dedilər:

– Oğul, daha nə gördün?

– Tələsmə, usta, hamısını qulluğunuza ərz eləyəcəyəm. Götürüb ayrı bir qatarda belə dedi:

Ay ağalar, Tur dağına varanda,
Şahlar şahı Həzrət Əlini gördüm.
Zülfüqar hökmüylə qılınc vuranda,
Düldülün curatın, nalını gördüm.

Ay ağalar, təəccüb qaldım bu işə
Fələyin yazdığı gəlibdi başa.
Günorta vaxtında girib savaşa,
Allahın aslanı Əlini gördüm.

Aydın deyir: – getmə, qəriblik yerə,
Cəmi mətləbini mövladan dilə.
Haşı bülbül, mayıl olma hər gülə,
Yarın dal gərdanda telini gördüm.

Yetim Aydının sözlərinin şəhdi-şəkərinə hayıl-mayıl olan aşıqlar onu özləriylə aparmaq qərarına gəldilər. Bir az gedəndən sonra dedilər:

– Oğul, mənzilə yetməyimizə çox qalıb. Sən gəl yola nərdivan qoy, tez çataq.

Aydın bildi ki, onlar "nərdivan" deyəndə söz ixtilat eləməyi nəzərdə tutublar. Ona görə də təzədən aşıq Urfandan sazı alıb bağrına basdı:

Yatmış idim ulğun kolu dibində,
Nə qafil yatmısan, oyan, dedilər.
Düldülün əyəsi, Qəmbər ağası,
Dur, gəlibdi Şahı-mərdan dedilər.

Oyandım qəflətdən, açdım gözümü,
Ərənlər nayinə sürtdüm üzümü.
Dindirəndə haqq söylədim sözümü,
Doxsan min kəlməni bəyan dedilər.

Yetim Aydın çıxdı qar sevdasına,
Ərənlər səri, haqq mövlasına.
Əli suvaq verdi könlün pasına,
Urfandan, Qurfandan əyrən dedilər.

Beləcə, söz deyə-deyə, ixtilat eləyə-eləyə gəlib yetdilər mənzil başına. Bir az dincəlib yol yorğunluqlarını çıxarandan sonra yollandılar şəhərin ortasındakı uçara. Gəlib gördülər ki, ortalıqda boylu-buxunlu bir aşıq dayanıb dörd dövrəsinə meydan oxuyur. Yanında da otuz-qırx saz var. Soruşub öyrəndilər ki, bu aşığın adı Dədə Gözlüdü. İndiyə kimi meydana nə qədər aşıq gəlibsə hamı-

sını bağlayıb, sazlarını da əlindən alıb. Yanına düzdüyü də həmən aşıqların sazlarıdı. Aşıq Urfanla Qurfan Aydına dedilər:

– Oğul, sən get atlarımıza göz ol, biz indi onun dərsini verək.

Yetim Aydın bir söz deməyib getdi atların yanına. Çox gözlədi, az gözlədi gördü ustaları gəlib çıxmır. Axırda durub gəldi meydana. Baxdı ki, Dədə Gözlü aşıq Urfanı da, Qurfanı da bağlayıb, sazlarını da əllərindən alıb. İrəli yeriyib dedi:

– Dədə Gözlü, mən də aşığam. Gəl indi mənimlə deyiş.

Dədə Gözlü güldü:

– A bala, heç sənin sazın da yoxdu, hardan oldun aşıq?

– Yoxumdu, indi alaram.

– Yaman yelli-yelli danışırsan. Eləyisə cavab ver görək.

Dədə Gözlü belə deyib də götürdü görək nə dedi:

Göydən enib doqquz nəsdə,
Söylə görüm səri nədi?
Dörd dilli, beş nisbət,
Söylə görüm pəri nədi?

Yetim Aydına tanrı vergisi verilmişdi, o səbəbdən də heç çətinə düşmədən cavabını verdi:

Sən deyirsən doqquz nəsdə,
Onun səri fəraildi.
Dördü kəlam, beşi nisbət,
Gətirəni Cəbraildi.

Dədə Gözlü baxdı ki, bu baxəbər adama oxşayır. Sorğu-sualı bir az da dərinləşdirdi:

Bir məscid var, ol ərşdədi,
Söylə görüm, nə gürşdədi?
Binəsin bil, adın söylə,
Nə nigar, nə naxışdadı?

Yetim Aydın cavabında:

Ol məscid ki, sən deyirsən,
Yeddi bürcdən yuxarıdı.

Binəsi nur, adı Əqsa,
Qələm nigar naxışdadı.

Dədə Gözlü:

Bir anadan bir qız olsa,
Atasına nigah qılsa,
Gözlü deyər, bəyan olsa,
Əri kimdi, pəri kimdi?

Yetim Aydın cavabında:

Aydın deyər, yandı canım,
Eşq oduna bələndi qanım.
Adəm ata ol Həvvanın,
Həm əridi, həm pəridi.

Dədə Gözlü:

– Ustadına bərəkəllah, oğul, – dedi, – sənin kamalna söz yoxdu. Bu aşıqları da sənə bağışladım, götür get.

Yetim Aydın gördü ki, bu Dədə Gözlü başda-bilikdə o biri aşıqlara bənzəmir. Öz-özünə fikirləşdi ki, gəlsənə bir sorğu-sual da mən başlayım. Axırı nə olar, olar. Bu fikirlə də üz tutdu Dədə Gözlüyə:

– Ustad, sən sual elədin, mən də cavabın verdim. Aşıqlığın qaydası belədi ki, indi növbə mənimdi. İzin versən, iki-üç kəlmə də mən soruşaram.

Dədə Gözlü özündən arxayın idi, dedi:

– Buyur, neçə kəlmə xətrindi soruş.

Götürüb görək burda Yetim Aydın nəyi soruşdu, necə soruşdu:

Yer altında qızıl öküz,
Söylə, neçə yaşındadı?
Qulaq qırpır, yer titrədir,
Nə güc onun başındadır?

Dədə Gözlü döyükə-döyükə qaldı. Cavab almayanda Aydın dübarə soruşdu:

Kimi ağa, kimi nökər,
Nökər olan hicran çəkər.
Bir milçəkdən qorxu çəkən,
Milçək hansı tuşundadı?

Yenə bir səs-soraq çıxmadı. Aydın sözün arxasını belə tamamladı:

Yetim Aydın deyir bunu,
Dağlardan qalındı gönü.
Tutub cütə qoşun onu,
Ləzzət cütün xışındadı.

Dədə Gözlü yetim Aydının suallarından heç birinə cavab verə bilməyib dedi:

– Sənin cavabını versə, mənim böyük qardaşım Dədə Qürbət verər. Get özünü onunla sına.

Aydın Dədə Qürbətin yer-yurdunu öyrənib üz qoydu həmən ünvana. Gethaget, axırda gəlib çatdı Dədə Qürbətin olacağına. Salam-kəlamdan sonra sözünə belə başladı:

– Ustad, sözünü-söhbətini eşidib, səni deyib gəlmişəm. Məni şəyirdliyə götür.

Dədə Qürbətin oğlanın diribaşlığından xoşu gəldi. Amma o, indiyə kimi nə qədər şəyird götürmüşdüsə, hamısını imtahana çəkib sonra yanında saxlamışdı. Ona görə də şərtini bəri başdan kəsdi:

– Bala, mən sınağa çəkməmiş bir kimsəni şəyirdliyə götürmərəm. Gərək baxam sənin qabında bir şey var, yoxsa yox.

Aydın razılaşdı. Dədə Qürbət görək ondan nələri xəbər aldı:

Ol nə şeydir, alçaqlardan axayi?
Ol nə şeydir, yerdən göyə baxayi,
Ol nə şeydir, nərdivandan ənəyi?
Ol nə şeydir, nərdivandan çıxır hey.

Aydın cavabında:

Ol sudur ki, alçaqlardan axayi,
Ol məhsuldur, yerdən göyə baxayi.
Ol qocadır, nərdivandan ənəyi,
Ol cahıldır, nərdivandan çıxır hey.

Dədə Qürbət: – Əhsən, – deyib dübarə soruşdu:

Ol nə şeydir, göydən yerə sallanır?
Ol nə şeydir, hər nə versən allanır?
Ol nə şeydir, dalısından dallanır?
Ol nə şeydir, əldən-ələ gəzər hey.

Aydın götürüb belə cavab verdi:

Ol yağışdır, göydən yerə sallanır,
Ol uşaqdır, hər nə versən allanır,
Abbasıdır, dalısından dallanır,
Ol sevdadır, əldən-ələ gəzər hey.

Dədə Qürbət sualın bir düzümünü də düzdü:

Ol nə dağdır, onu lalə bürüməz?
Ol nə dağdır, yaz-qış qarı ərimməz?
Ol kim idi, ölməz, itməz, qarımaz?
Ol kim idi, qədəriyə gəzər hey.

Aldı Yetim cavabında:

Tur dağıdır, onu lalə bürüməz,
Şah dağıdır, yaz-qış ərimməz,
Bir Allahdır ölməz, itməz, qarımaz,
Mikayıldır qədəriyə gəzər hey.

Dədə Qürbət əlacsız qalıb sözü tamamlamaq qərarına gəldi:

Qürbət deyir, kim gəzədür havada,
Ol nə şeydir, dildə, dişdə, divada?
Ol nə şeydir, yalqız yatar yuvada?
Ol nə şeydir, ona tövbə qılallar?

Yetim Aydın cavabında nə dedi:

Aydın deyər: – mən gəzirəm havada,
Bismillahdı dildə, dişdə, divada.
Can quşudur, yalqız yatar yuvada,
Əzrayıldı, ona tövbə qılallar.

Aydının hazırcavablığı Dədə Qürbətin xoşuna gəldi.

– Hə, oğul, səni şəyirdliyə götürürəm.

Şəyirdlik bəhanəydi, Aydın Dədə Qürbəti sınağa çəkməyə gəlmişdi. Odur ki, bir balaca qımışıb dedi:

– Usta, cavab verməyim kimi sual vermək bacarığım da var. İzin versən, beş-altı sual da mən verərəm.

Dədə Qürbət çar-naçar razı oldu. Götürüb burda Yetim Aydın kamali-ədəbnən görək ondan nəyi soruşdu:

Məndən salam olsun Dədə Qürbətə,
Bəydən Bəydullaha nə demək gərək?
Oxuyanda kərəmullah surəsin,
Haqqın birliyinə nə demək gərək?

Dədə Qürbət çox sorğulara düşüb çıxmışdı, yeddibaşlı sualların, qıfılbəndlərin cavabın tapmışdı, amma hələ beləsinə tuş gəlməmişdi, ha fikirləşdisə cavabı bir yana çıxara bilmədi. Aydın onun döyüküb qaldığını görüb sualın arxasını gətirdi:

Bu dünyada oynamasan, gülməsən,
Orucunu, namazını qılmasan,
Ya Allahın, peyğəmbərin bilməsən,
Deynən məşhər günü nə demək gərək?

Yenə bir cavab çıxmadı. Yetim Aydın belədə dübarə söylədi:

Aydın dəryalara dalanda yetim
Saraliban heyva kimi solanda.
İnkir-minkir gəlib sual alanda,
Dili bəndə düşüb nə demək gərək?

Dədə Qürbət yerindəcə quruyub qaldı. Nə ağ dinə bildi, nə qara. Axır-axırda hannan-hana özünə gəlib dedi:

– Bala, sənin bu sualının cavabını versə, mənim böyük qardaşım Heykəl verər. Get özünü onunla sına.

Yetim Aydın Dədə Heykəlin yer-yurdunu öyrənib, üz tutdu həmən tərəfə. Çox getdi, az getdi, axırda gəlib mənzil başına yetdi. Şəyird olmaq istədiyini Dədə Heykələ bildirib onun razılığını aldı. Hər gün axşam düşəndə o da başqa şəyirdlərlə bir yerdə ustadın evinə yığışıb saz-söz söyləməyə başladı. Bir axşam qırx şəyirdnən bahəm dərsə gələndə Aydın böyük bir odun şələsini çiyninə alıb qapıdan girdi. Bunu görüb Dədə Qürbətin arvadı ağzını büzdü:

– Ay kişi, sənin bu külbaş təzə şagirdin heç oturuş-duruşunu bilmir. O biri şəyirdlər çalıb oxumağa gələndə bu da bir şələ odun gətirir.

Dədə Heykəl Yetim Aydının bu hərəkətindən alındı:

– Yox, arvad, o şələynən gəlib qapıdan girməkdə "mənim yüküm var", – deyə işarə verir. Belə getsə, işlər şuluxdu.

Şəyirdlər gəlib yığışdı. Dədə Heykəl bir yerdə qərar tapa bilmirdi. Üzünü tutdu şəyirdlərə:

– İstəyirəm ki, bu axşam sizi bir imtahan eləyim, görüm qabınızda bir şey var, ya yox.

Götürüb sazı görək nələri xəbər aldı:

Ol nə şeydir, iki başı?
Parası var, parası yox.
Neçə illərdi uzunu,
Mənzili çox, arası yox?

Ol nədir, göydə tutuşur?
Biri-birindən ötüşür,
Ol nədir, rizqə yetişir?
Uçmağa müğ anası yox?

Heykəl deyər urfun əci,
Ol nədir sura içi?

Hər dərdin var bir illacı.
Ol nə dərddi çarəsi yox?

Şəyirdlər bir-birinin üzünə baxdı. Aydın üstündə oturduğu şələdən bir odun çəkib saz əvəzinə bağrına basdı:

– Usta, izin versən, sualın cavabını mən deyərəm.

Dədə Heykəl içindən qırılıb qaldı. Bildi ki, şübhələndiyi şələ söhbəti boşuna deyil. Amma əlacı nəydi, könülsüz də olsa razılığını bildirdi.

Götürüb görək yetim Aydın onun suallarının cavabını kamali-ədəbnən necə verdi:

Ol dünyadır, iki başı,
Parası var, parası yox.
Beş yüz ilədir uzunu,
Mənzili çox, arası yox.

Aynan gün göydə tutuşar,
Biri-birindən ötüşər.
Can quşu rizqə yetişər,
Uçmağa müğ anası yox.

Aydın deyər, urfun əci,
Ana südü surə içi.
Hər dərdin var əlaci,
Ol ölümdü, çarəsi yox.

Dədə Heykəl onun cavabını bəyənib “afərin” söylədi:

– Oğul, sən şəyirdliyi neynirsən, özün kamil aşıqsan. Get məclis apar, ustadlıq elə.

Aydın təşəkkürünü bildirib dedi:

– Usta, cavab verməyim xoşuna gəldi, gəlsənə bir sual etməyimə də baxasan.

Dədə Heykəl baxdı ki, qırx şəyirdin qırxının da gözü ondadı. Özünü də hələ indiyə kimi meydanda söz qabağından qaçdığı olmayıb. Ona görə də dedi:

– Buyur, oğul, sorğu-sualını elə.

Yetim Aydın əlindəki odun parçasını sinəsinə basıb xəbər aldı:

Məndən salam olsun Aşıq Heykələ,
Nə üstdə durubdu, dədə, kavmahi?
Nə yeyər, nə içər, nəyə bağlıdır?
Nə üstdə durubdu, dədə, kavmahi?

Salmanlar nisbətin nə günü bağlar?
Nə gündə saç töküb, nə gündə ağlar?
Kimlər qabağında başın kim bağlar?
Nə sütuna bağlıdır, dədə, kavmahi?

Dindirirsən yetim Aydını dindir,
Ayətün Quranın ayəsi nədir?
Atası yox idi, anası kimdir?
Nə gündə oldu, dədə, kavmahi?

Dədə Heykəl çox açılmayan bağlamalar açmışdı, tapılmayan cavablar tapmışdı. Amma Aydın soruşan ölçü-biçidə bir söz-söhbət eşitməmişdi. Çox götür-qoydan sonra dedi:

– Oğul, bu sorğu-sual hələ bir yanda oxunmayıb. Oxunsa mən eşidərdim. Əgər cavabı varsa, onda cavabını da de, bilək.

Aydın dedi:

– Düzdü, usta, bunun cavabı məndən qeyri bir aşığa əyan deyil. İndi ki, bilmək istəyirsən cavabını da qulluğunuza yetirim:

Məndən salam olsun Aşıq Heykələ,
Bəhr üstə durubdur, dədə, kavmahi.
Nur yeyər, nur içər, pirə bağlıdır,
Bəhr üstə oturubdu, dədə, kavmahi.

Salmanlar nisbətin belinə bağlar,
Cümə gün saç tökər, şəbi gün ağlar.

İsrafil haqq günü başını bağlar,
Ərşin sütunundadı, dədə, kavmahi.

Yetim Aydını dindirərsən dindir,
Ayətül Quranın ayəsi nurdur.
Atası yox idi, anası nurdur,
Çərşənbədə oldu, dədə, kavmahi.

Dədə Heykəl öz sazını da, şəyirdlərinin sazını da gətirib qoydu Aydının qabağına:

– Aşıqlığın qaydası belədi, cavabını verəmmədik, sazlar sənindi.

Ustanın mərdliyi yetim Aydının xoşuna gəldi, o dedi:

– Yox, usta, sənin eldə-mahalda adın var. Mən səni başıaşağı eləmərəm. Amma mümkünsə özün mənə bir saz peşkəş elə.

Aşıq Heykəlin ehtiyatda yaxşı bir sədəfli sazı varıydı. Çıxardıb onu Aydına peşkəş elədi.

Yetim Aydın onlarla sağollaşıb üz qoydu Arpa şəhərinə. Bu burda yol getməyində olsun, sizə kimdən xəbər verim, Arpa şəhərində Pərzad xanımdan. Pərzad xanım Arpa şəhərinin girəcəyində bir qala düzəltdirib oturmuşdu. Nə ki gəlib-gedən saz-söz əhli var, hamısını bir-bir bağlayıb özünə qul eləyirdi. Bəli, elə ki, yetim Aydın şəhərin girəcəyinə çatdı, qarovulçu Pərzad xanıma qoltuğu sazlı bir adamın gəldiyini xəbər verdi. Pərzad xanım sazını götürüb bayıra çıxdı. Gördü bu qoltuğu sazlı adam nə karədisə heç ona gözünün ucuyla da baxmayıb, yan keçdi. Götürüb arxadan yetim Aydını belə səslədi:

Getmə, getmə pirsiz aşıq,
Dayanginən şirə döndüm.
Ver salamı, al kalamı,
İnkirə-minkirə döndüm.

Aydın elə bunu gözləyirdi, sazı sinəsinə çəkib aldı görək nə dedi:

Pirsiz dedin, qanım coşdu,
Qəzəbli Heydərə döndüm.
Məhəmməd Mustafa bilib,
Allahu əkbərə döndüm.

Pərzad hərbə-zorbasından qalmadı:

Divar üstündə pəncərəm,
Sinənin üstdə xəncərəm,
Tərpənmə, səni sancaram,
Ağulu şahmara döndüm.

Aydın onu yumşaltmaq qəsdilə dedi:

Divar üstdən sürünəm,
Zülfün ucuna bürünəm,
Dərya nisbətdə dərinəm,
Hökmü Qələndərə döndüm.

Pərzad bir balaca yumşalan kimi oldu. Götürüb sözünü belə tamamladı:

Pərzad xanımam, qanaram,
Keçən gününü sanaram.
Gecə sübhəcən yanaram,
Alışıb məşhərə döndüm.

Yetim Aydın:

Aydın deyər, ay bivəfa,
Camalın oxşatdım aya.
Sən bir alagözlü maya,
Mən əsrimiş nərə döndüm.

Söz tamama yetəndən sonra Aydın Pərzadın qala qurub neçə-neçə aşıqları bağladığını, hamısını da özünə qul elədiyini öyrəndi. Əhvalatdan hali olub Pərzada dedi:

– Sən ki belə sözdə-sazda bərabəri olmayan hünər yiyəsisən, onda gəl səni bir-iki sualnan sınağa çəkim.

Pərzad sazını əlinə alıb:

– Buyur, – dedi, – səni kimləri çox görmüşəm.

Yetim Aydın sazın zilini zil, bəmini bəm eləyib sorğusuna başladı:

Ay qız, səndən xəbər alım,
Göy çadırda duran kimdir?
Göydəki mizan-tərəzi,
Onu dürüst quran kimdir?

Pərzad bir cavab tapa bilməyib dinmədi. Belədə sualın arxası gəldi:

Biri İsa, biri Musa,
Musanın əlində əsa.
Kafirin köşki kəmsa,
Binə daşın qoyan kimdir?

Yenə də Pərzaddan səs-səmir çıxmadı. Belə də yetim Aydın sorğunu tamama yetirmək qəsdinə düşdü.

Yetim Aydın, nə mayılsan,
Yatdığın duşdan ayılsan.
Pərzad, sən aşıq deyilsən,
Sözü səndən soran kimdi?

Pərzad lal-dinməz yetim Aydının üzünə baxdı. Aydın sazını çiyninə keçirib dedi:

– Mən yol üstəyəm, butam var, onun dalısıycan gedirəm. Səni də bağışladım bağladığın aşıqlara. Get, onları azad burax.

Bəli, yetim Aydın Pərzad xanımdan ayrılıb düzəldi yola. Gethaget gəlib çıxdı Xırmaldan vilayətinə. Bir bulaq başında oturub dincini alan zaman bir də gördü ki, bir qız anasıyla su aparmağa gəlir. Qızı görən kimi tanıdı, yuxuda buta aldığı gözəldi. Aydın özünü nişan vermək niyyətilə görək nə dedi:

Ay ağalar, bu bulağın üstündə,
Ay işığı nə pünhana düşübdü.

Anasına deyim, yoxsa qızına,
Mənim gözüm bu ceyrana düşübdü.

Ay qız, hurisənmi, ya da ki mələk,
Yeri, gəl üstümə mən oldum həlak.
Sənə qurban olum, ay çərxi-fələk,
Siyah zülfü dal gərdana düşübdü.

Ay qız, pərisənmi, ya da quba qaz,
Yeri, gəl üstümə dərdim eylə az.
Yer üstündə belə insan yaranmaz,
Yaranıb da nə imana düşübdü?

Qız da buta almışdı deyə Aydını tanıdı. Amma anasının qorxusundan səsini çıxara bilmədi. Su doldurub geri qayıtmaq istəyəndə yetim Aydın ana-balanın qabağını kəsib dedi:

– Xanımlar, amanın bir günüdü, bir ayaq saxlayın, sinəmə iki qatar söz gəlib onu sizə oxuyum.

Qızın anası istədi aşığı söyüb yamanlasın. Amma baxdı ki, boylu-buxunlu, suyuşirin oğlandı, özünün də səsi gözəldi. Ayaq saxlayıb dayandı. Aydın buna bənd imiş kimi gözünü sevgilisinin camalından ayırmayıb sazı basdı bağrına:

Sərçeşmədən su doldurub gedirsən,
Ucaboylu, xırmandallı gözəlim.
Müjkan atıb bağrım başı didirsən,
Ucaboylu, xırmandallı gözəlim.

Geymisən əynini nazikbənazik,
Qoluna yaraşır qızıl bilərzik.
Verərlər özgəyə, olarsan yazıq,
Ucaboylu, xırmandallı gözəlim.

Yetim Aydının sözünü əyər,
Uzundur saçların torpağa dəyər,

Beş min, beş yüzdən də artığa dəyər,
Ucaboylu, xırmandallı gözəlim.

Qız birtəhər daldada bir kağız yazıb xəlvətcə yetim Aydına ötürdü. Sonra da anasına qoşulub getdi evlərinə. Aydın naməni açdı. Gördü sevgilisi onu tanıyıb. Amma anasının qorxusundan dinə bilməyib. Özü də sabah şəhər bağına qızlarla seyrangaha gələcəyini bildirib. Bəli, biçarə Aydın həmən nişana verdiyi bağa gəlib xeyli qabaqdan gözləməyə başdadı. Bağban onun xəlvət-xəlvət gəlməyindən elə bildi ki, bağ oğrusudur. Belə də yetim Aydın götürüb görək bağbana nələr eşitdirdi:

Səhər-səhər çıxdım bağlar seyrinə,
Bu bağın bağbanı ayaq üstədi.
Könlüm firqət edir yarı görüncə,
Çeşmimin giryanı ayaq üstədi.

Mollalar yazırlar ağı-qaranı,
Siyah zülflər dal gərdana daranı,
Məhəmməd şanıyla mələk quranı,
Cəbrayıl da alıb ayaq üstədi.

Yetim Aydın deyər, dinim ərəbdir,
Haqqın piyaləsi dürlü şərabdır.
Haqq üzü yatcəyin dünya xarabdır,
Haqq özü yatmayıb ayaq üstədi.

Sözlər başa yetər-yetməz bir dəstə qız bağlar arasından keçib gedir. Aydın nə qədər baxırsa sevgilisini onların arasında görmür. Sazı götürüb oxuyur ki, bəlkə, səsini eşidib istəklisi üzə çıxa:

Belə gəl, belə get bağ arasıyla,
Hürküşüb bülbüllər, gül inciməsin.
Daransın zülfləri badi-səbayla,
Şana inciməsin, tel inciməsin.

Sürməni çəkəsən göz ilə qaşa,
Tutasan dünyanı, gedəsən başa.
İki sevgili bir-birilə sarmaşa,
Gərdan tərpənməsin, bel inciməsin.

Yetim Aydın deyər, dərdimi demə,
Yetişib ürəyim qayğıya, qəmə.
Verəydi o şirin ləbini əmə,
Dodaq tərpənməsin, dil inciməsin.

Sözlər qurtardı, ha gözlədi sevgilisindən bir xəbər-ətər çıxmadı. Bir qatar söz dəxi oxudu ki, bəlkə, bir işıq üzü görünə:

Dad elərəm, dad elərəm,
Səndən ötrü, alagözlüm,
Aşna, dostum yad elərəm,
Səndən ötrü, alagözlüm.

Sirr sözüm sənə bildirəm,
Gözümün yaşın sildirəm,
Axır öz-özüm öldürəm,
Səndən ötrü, alagözlüm.

Viran qalsa belə dağlar,
Güllü-bənövşəli bağlar,
Yetim Aydın deyib ağlar,
Səndən ötrü, alagözlüm.

Yetim Aydının çalıb-oxumağına çox adam yığışdı. Hər ağızdan bir avaz gəldi. İstədilər onu tutub döysünlər. Birtəhər qaçıb canını qurtardı. Xəlvətcə aralanıb yol qırağındakı qamışlıqda gizləndi. Başına gələn hal-qəziyyədən, üstəlik də sevgilisinin xiffətindən ürəyi tel-tel oldu. Sazı bağrına basıb ağlaya-ağlaya oxumağa başladı:

Ay ağalar, çərxi-fələk əlindən,
Çeşmi didələrim tamam qan ağlar.

Düşüb qaldım biyabanda nalalı,
Cismim ağlar, cəsəd ağlar, can ağlar.

Əyninə geymisən qızıl heydəri,
Olaydım mən nazlı yarın xirdarı,
Yasa batsa, bir qoşunun sərdarı,
Qoşun ağlar, sərdar ağlar, ban ağlar.

Sözün bu yerində həmən qamışlığın yanındakı yoldan Türk paşası öz qoşunuyla keçirdi. Yaxınlaşıb gördülər ki, bir aşıx ağlaya-ağlaya oxuyur. Aydın onları görüb sazı belə tamamladı:

Mənim işim bu yerlərdə sayılmaz,
Seyraqublar bu arada tapılmaz.
Yetim Aydın dərddən, qəmdən ayılmaz,
Axşam ağlar, səhər ağlar, dan ağlar.

Türk paşası Aydının başına gələnlərin hamısını danışdırıb dedi:

– Mən səni istəklinə yetirəcəyəm. İndi elə hamımız bir yerdə gedərik gürcü Vəlinin yanına. Danışıb-barışıb sevgilin Gülzamanı sənə alarıq.

Bunlar dedikləri kimi hamısı bir yerdə yol alıb gəldilər gürcü Vəlinin yanına. Gürcü Vəli işdən agah olub bəri başdan şərt kəsdi:

– Mənim Cami adında bir aşığım var. Əgər sizin gətirdiyiniz bu oğlan həqiqi aşıqdısa, qoy onda mənim aşığımla deyişsin. İşdi, deyişmədən qalib çıxsa, onda qızım Gülzamanı ona verərəm, yox, məğlub oldu, onda bəxtindən küssün.

Paşa soruşdu:

– Oğul, Aydın, şərtə qol qoyursan, ya yox?

Aydın əlini sinəsinə qoyub dedi:

– Mən hazıram.

Əmr olundu, camaat yığışdı, məclis quruldu. Qasid yolladılar aşıq Cami də gəldi. Məsələdən agah olan aşıq Cami aldı sazı sinəsinə görək Aydından nəyi soruşdu, necə soruşdu:

Ol nə şeydir, qapısı yox?
Endirillər bacasından.
Ol nədir, dediyi tutmaz
Alçaq olur ucasından?

Götürdü Yetim Aydın cavabında:

Ol qəbirdir, qapısı yox,
Endirillər bacasından.
Şeytandır, dediyi tutmaz,
Alçaq olur ucasından.

Aşıq Cami:

Nə yerdə divan qurulur,
Kimlərdir ora yığılır?
Ol nədir, ölüb-dirilir?
Yük də bağlar ucasından.

Aydın cavabında:

Məşhərdə divan qurulur,
Bəndələr ora yığılır.
İpəkqurdu ölüb-dirilir,
Yük də bağlar ucasından.

Aşıq Cami:

Cami deyir, harası yox,
Ol nə şeydir, yarısı yox?
Nə qələmdir qarası yox?
O da söylər ucasından.

Aydın cavabında:

Aydın deyir, harası yox,
Ol iqrardır, yarısı yox.
Dil qələmdir, qarası yox,
O da söylər ucasından.

Sözlər tamam oldu. Hamı yer-yerdən Aydının fərasətinə, ağıl-kamalına əhsən söylədi. Yetim Aydın dedi:

– İndi növbə mənimdi, qoy aşıq Cami mənim suallarıma cavab versin.

Aşıq Cami bir söz deməyib razılaşdı.

Götürdü Yetim Aydın:

Adəm ata bu dünyaya gələndə,
Gələn günlərinə nə demək gərək?
Günahkar bəndədən xəbər alanda,
Alan günlərinə nə demək gərək?

Aşıq Camidən bir səs çıxmadı. Yetim Aydın dübarə soruşdu:

Kim gətirib peyğəmbərin xələtin?
Kim götürdü onun qələm büvətin?
Kim gətirib ona Quran ayətin?
Adəm oğlu ona nə demək gərək?

Yenə bir cavab çıxmadı. Yetim Aydın sualını belə tamamladı:

Aydın deyər, amma boynuma minnət,
Gəl ikimiz qılaq fərzinə sünnət.
Allah yaradıbdır səkkizdə cənnət.
Cənnətə girəndə nə demək gərək?

Aşıq Cami dinməz-söyləməz sazını gətirib Aydının qabağına qoydu. Aydın güldü:

– Mən saz alan aşıq deyiləm, haqq aşığıyam. Ağam verən butanın dalısıca gəlmişəm.

Paşa da o yandan qayıtdı ki:

– Şərt kəsilib yerinə yetsin gərək. Sən meydandan qalib çıxdın. Gülzaman pəri sənindi.

Gürcü Vəli də razı olub toy tədarükünə başladı. Yetim Aydının bütün toy xərcini paşa özü çəkdi. Ona bəylərə yaraşan bir toy çaldırdı. Yeddi gün, yeddi gecə yeyib-içmək məclisi quruldu. Yetim Aydın öz toyunda çalıb-çağırdı. Axırda da istəklisinə qovuşub şad-xürrəm ömür sürdü. Onlar vəslə yetib xoşbəxt oldular, siz də cəmi muradlarınıza yetəsiniz.

## YER VƏ TARİXİ ABİDƏ ADLARI

Arpa şəhəri
Bayat qapısı
Başmaqtəpə
Bilici
Vəlikənd
Qala qapı
Qayib piri
Qanlı dərə
Qarabağ
Qaradağ
Qaradağlı
Qoyun daşa dönən yer
Qırxqız mağarası
Qırxlar bulağı
Qırxlar qapısı
Qırxlar qəbiristanlığı
Daş qapı
Deşikli daş piri
Dəliçoban
Əmcəkli piri
Yersu
Zidyan
Kar daş piri
Məhrağa-Marağa
Mitəyi
Narın qala
Nənəvay dərəsi
Nüydü
Padar
Rükəl
Rubas
Rubas çayı
Orta qapı
Sabnava
Səlik
Tabasaran
Tatlar
Təbriz
Ullu Tərəkəmə
Ullu çay
Xırmandal
Hümeydi
Çaqqal dərəsi
Çinar
Calğan
Calğan dağı
Carçı qapı
Cimikənd
Culfa dərəsi
Şah dağı
Şıxlar piri
Şıxzamin bağı
Şıxzamin bağı
Şıxheydər bulağı
Şıxheydər dağı
Şıxheydər yolu

# ETNOQRAFİK TERMİNLƏR

Arğac
Ağız südü
Axça
At nalı
Badya
Bədnəzər
Bəy otağı
Boyunduruq
Bulama
Vəl
Quda ağzı bağlama
Qurd aşığı
Qurd ağzı bağlama
Qurd ağzından keçirmək
Qurd cəhəngi
Quşqun
Qızlar gecəsi
Qırx açar camı
Dəyirman
Dəyə
Döl
Eydirmə
Əmbiz
Əppək
Əriş
Əriştə
Ərsin
İlaxır çərşənbə
İlxı
Yağış daşı
Yapıncı
Yəhər
Kəfən
Küz
Gəbə
Lavaş
Gəlin bəzəmə
Gəlin qarşıladı
Gəlin yola saldı
Gəlin otağı
Göz daşı
Göz muncuğu
Güdül-güdül
Məscid
Motal
Nəhrə
Örüş
Sabı
Sandıq payı
Sərnic
Sovut-xəncər
Süd dişi
Tacirbaşı
Tiyan
Tuman
Tütək
Tümən
Urva
Üzəngi
Fətir

Xana
Xaral
Xəmir
Xəncər
Xınayaxdı
Xırman
Xurcun
Halva
Heyb
Həsir
Holavar
Çadra
Çalası
Çanaq
Çarıq
Çaxmaq daşı
Çuxa

## MİFOLOJİ ADLAR GÖSTƏRİCİSİ


Adəm
Qayışbaldır
Qırxlar
Div
Əzrayıl
Əyə
Əcinnə / əcinə /
İnkir-minkir
Yaxşı kimsələr
Kəlləgöz
Küp qarısı
Məşayixlər
Nuh
Ovçu Pirim
Süleyman peyğəmbər
Təpəgöz xatın
Xızır Nəbi
Həvva
Cəbrayıl
Şıxlar
Eldar xatın

# MƏHƏLLİ SÖZLƏRİN LÜĞƏT GÖSTƏRİCİSİ

Aba – ana
Avaldı – fərasətli
Azbar – həyət
Ayovlu – istəkli
Ayıxmaq – oyanmaq
Aylanmaq – dolanmaq, dolanıb gəlmək, fırlanmaq
Bəmel – qırıntı
Boyat – köhnə, əski
Varmaq – getmək
Qazaq – gözətçi, ilxıçı
Qəcələ – sağsağan
Əvuş – yumşaq
Əyə – sahib, yiyə
İriz – iz, ləpir
Yastan – ətək (dağın ətəyi)
Yoğurt – qatıq
Kecə – ağzıboş adam
Kəndi – un qabı
Küntov – acıdil
Giyov – kürəkən
Laşqarın – çox yeyən, qarın qulu
Mağal – məhəllə
Mahna – bəhanə
Mişmişi – ərik
Pitik – dua
Sabı – çanağa bənzər un qabı
Saya – bərəkət
Siyafır – sırtıq
Siyiş – əziz

Siftə – ilk dəfə
Səmirmək – kökəlmək
Sıynamaq – çağırmaq
Sonulamaq – bəyənmək
Sovut – xəncər
Tum – toxum
Taydırmaq – azdırmaq
Tərək – ağac
Usal – fərsiz, ləyaqətsiz
Uçar – meydan
Ucaq düşmək – sarmaşmaq
Xatın – arvad
Xeyrat – ehsan
Hacıbuğda – qarğıdalı
Hoxar – uzun
Çaqqı – cib bıçağı
Çalı – düzənlik
Calğa – dolça, parç
Cələ – tələ
Şabrat – özül

## SÖYLƏYİCİLƏR

**Qeyd:** Kitaba daxil edilmiş folklor örnəkləri 1980-ci illərin ikinci yarısında aşağıdakı söyləyicilərdən yazıya alınmışdır:

Abbasov Əliheydər Nəcəf oğlu, Sabnava kəndi, 103 yaşında, savadsız – 1, 2, 3, 15, 16, 18, 19, 69, 70

Allahverdiyeva Söhbət, Tatlar kəndi, 53 yaşında, orta savadlı – 6, 13, 14

Ağayeva Bibiheybət, Bilici kəndi, 68 yaşında, az savadlı – 1, 2, 8, 13, 14

Ağayeva Şahsənəm Kiçikbəy qızı, Vəlikənd, 50 yaşında, orta savadlı – 10, 14, 15

Ağarəhimova Zahidat İsa qızı, Bərəkey kəndi, 54 yaşında, orta savadlı – 1, 2, 13, 14

Qəhrəmanov Qəhrəman, Mitəhi-Qazmalar kəndi, 67 yaşında, az savadlı – 4, 15, 16, 20, 21, 22, 23,71, 72, 73

Qəhrəmanova Əminə, Mitəhi-Qazmalar kəndi, 61 yaşında, az savadlı – 13, 14, 15

Qocayev Niftulla Qoca oğlu, Rubas kəndi, 75 yaşında – 24, 60, 88, 89, 90, 91, 92, 93, 94, 95, 96, 97, 98, 99, 100, 101, 102, 103, 104, 105, 106, 107

Quliyeva Nəsibə, Bilici kəndi, 58 yaşında, az savadlı – 13, 14

Namazova Gülbikə Məmməd qızı, Dərbənd şəhəri, 79 yaşında – 1, 2, 13, 14

Dadaşov Dadaş Hacısoltan oğlu, Dərbənd şəhəri, 66 yaşında – 1, 2, 15, 24, 25, 26, 27, 74, 75

Dadaşova Mədinə Hacısoltan qızı, Dərbənd şəhəri, 60 yaşında, az savadlı – 1, 2, 13, 14

Daşdiyiva Umcahan İlyas qızı, Zidyan kəndi, 69 yaşında, az savadlı – 1, 2, 5, 13, 14

Dəmirov Salavat Amanat oğlu, Zidyan-Qazmalar kəndi, 63 yaşında, orta savadlı – 28, 29, 30, 31, 76, 77, 78

İsayeva Həcər, Tatlar kəndi, 60 yaşında, orta savadlı – 1, 2, 14, 15, 16

Zahirova Züleyxa Abdulla qızı, Sabnava kəndi, 77 yaşında – 1, 2, 8, 9, 13, 14, 85

Zahirova Kümsiyyət, Səlik kəndi, 70 yaşında, az savadlı – 1, 2, 9, 12, 86, 87

Abdurizayeva Umhani Mühitdan qızı, Yersu kəndi, 57 yaşında, az savadlı – 13, 14, 83

Əmirova Şəkər Abdurazaq qızı, Oqni qəsəbəsi, 64 yaşında, az savadlı – 1, 2, 14, 81, 82

Əbdülkərimova Zeynəb Ağabala qızı, Dəliçoban kəndi, 29 yaşında, orta savadlı – 1, 2, 13, 14

Əbdülkərimova Xədicəxanım Mansur qızı, Dəliçoban kəndi, 50 yaşında, orta savadlı – 12, 13

Əliəhmədov Əlisəfa Cəfər oğlu, Dərbənd şəhəri, 63 yaşında, orta savadlı – 21, 32, 33, 34, 35, 36, 56, 80

Əlibəyov Qorxmaz Əlibəy oğlu, 32 yaşında, orta savadlı – 15, 16, 37, 38, 39, 61, 62, 63

Kadaşov Bayram Abdurazaq oğlu, Vəlikənd, 61 yaşında, ali savadlı – 1, 2, 66

Kərimov Pərviz Müslüm oğlu, Dərbənd şəhəri, 61 yaşında – 41, 55, 64, 65, 79, 84

Məlikov Məlik Seyid oğlu, Calğan kəndi, 68 yaşında – 1, 2, 15, 16

Məmmədov Sədulla Əsədulla oğlu, Dərbənd şəhəri, 67 yaşında – 42, 44, 45, 47, 54, 57, 58, 59

Mürsəlova Qəsnişirin, Dərbənd şəhəri, 75 yaşında, az savadlı – 2, 7, 10, 11, 13

Ramazanov Nəbi, Zidyan kəndi, 55 yaşında, ali savadlı – 15, 16

Rzayev Ağahüseyn Məşədi Əli oğlu, Dərbənd şəhəri, 61 yaşında, ali savadlı – 40, 49, 67, 68

Rəşidov Əfəndi, Çinar kəndi, 67 yaşında, orta savadlı – 2, 9, 15, 16

Orucova Umzanat, Qaradağlı kəndi, 38 yaşında, orta savadlı – 1, 2, 14

Orucova Xədicəxanım, Qaradağlı kəndi, 78 yaşında, savadsız – 1, 2, 13, 14

Orucov Səlim, Qaradağlı kəndi, 55 yaşında – 2, 8, 17

Səlimov Səlim Xəlil oğlu, Calğan kəndi, 63 yaşında, orta savadlı – 15, 16

Səlimova Nurcahan, Dəliçoban kəndi – 1, 2, 14, 16

Səmədov Tələt Abdul oğlu, Sabnava kəndi, 78 yaşında, savadsız – 7, 17

Səfixanov Nurulla, Muğartı kəndi, 50 yaşında – 3, 4

Səfərəliyev Məmmədyusif, Aşağı Calğan kəndi, 55 yaşında, orta savadlı – 3, 4, 15, 16, 48, 49

Sultanova Şəkər, Bilici kəndi, 68 yaşında, az savadlı – 1, 2, 15, 16

Şahmərdanova Surə Kəblə Qulam qızı, Dərbənd şəhəri, 85 yaşında – 1, 2, 14, 15, 46

Cavadov Mustafa Fəzail oğlu, Bilici kəndi, 63 yaşında, orta savadlı – 50, 51, 52, 53

Hacıyev Xeyrulla Niftulla oğlu, Dərbənd şəhəri, 66 yaşında, orta savadlı – 15, 16

***Qeyd:*** *Söyləyicilərin adı qarşısında verilən rəqəmlər onların danışdıqları mətnlərin nömrələrini göstərir.*

## MÜNDƏRİCAT

**ÖN SÖZ** ................................................................ **3**
**İNAMLAR** ................................................................ **12**
**SINAMALAR** ................................................................ **19**
**MÖVSÜM VƏ MƏRASİM FOLKLORU**
Sayaçı sözləri ................................................................ 27
Holavarlar ................................................................ 27
Eydirmələr ................................................................ 29
Nehrə nəğməsi ................................................................ 30
**TOY ADƏTLƏRİ**
Dərbənddə qız toyu ................................................................ 31
Göndər gəlsin elçini... ................................................................ 37
Qapıda durub elçilər ................................................................ 37
Mübarək olsun (*Bəy tərifi*) ................................................................ 37
Ömrü uzun olsun giyovların (*Bəy tərifi*) ................................................................ 39
Dərbənddə qadınların toylarda oxuduqları mahnılar ................................................................ 39
**AĞILAR** ................................................................ 41

**BAYATILAR** ................................................................ 42
**ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR** ................................................................ 49
**TAPMACALAR** ................................................................ 54
**ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
Başmaqtəpə ................................................................ 69
Şıx Heydər dağı ................................................................ 69
Narınqala ................................................................ 71
Göz daşı ................................................................ 71
“Nənəvay” dərəsi ................................................................ 72
Qanlı dərə ................................................................ 73
Qırxqız mağarası ................................................................ 73
İsgəndər səddi ................................................................ 74

Dərbəndin alınması ............................................76
İlanbalığı ............................................................77
Toyuq ..................................................................77
Süleymanla qoca dünya .......................................78
Qayib piri ............................................................79
Şıxlar piri............................................................79
Şıxzamın bağı.......................................................80
"Kar daşı" piri .....................................................80
"Deşikli daş" piri.................................................81
Səbirsizlik............................................................82
Təkgöz xatın........................................................82
Qırxlar ................................................................84
Ullu çay ..............................................................85
Əmcəkli pir .........................................................86
Halal tikə.............................................................87
**NAĞILLAR**
Kərim .................................................................90
Şələçi...................................................................92
Ağılbənd və Nağılbənd ........................................94
Üç arzu ..............................................................106
Ağılla bəxt..........................................................108
Şahzadə ilə sövdəgər ...........................................111
Hazırcavab qız.....................................................123
Hərəmi Cəlal .......................................................125
Yaxşılığa yaxşılıq................................................134
Bəxtini axtaran oğlan ..........................................139
Tacir qızı ............................................................143
Əziz Sövdəgər.....................................................147
Armudan bəy.......................................................155
Ovçu oğlu...........................................................160
Şəmsəddinlə Nurəddin........................................164
İki kosa ..............................................................178

Bəxt .......... 181
Tamah .......... 182
Əhməd Dərbəndi .......... 186
Məlik tacirin nağılı .......... 195
Ovçu Pirim .......... 217
Tülkü və tısbağa .......... 221
İlanla ovçu .......... 223
Ayı, tülkü, qurd .......... 224
Tülkü, canavar, ayı .......... 225
Çörəyi kim yeməlidir? .......... 226
Qurbağaların padşah seçməsi .......... 227
Bu boyda çələni görə bilmirsən? .......... 228
Çanaq öz başında çatladı .......... 229

**GÜLMƏCƏLƏR**
Pulu çox verəydin .......... 233
Kefim nə vaxt isdəsə .......... 233
Sən gətirib qoysaydın... .......... 234
Getmərəm ha... .......... 235
Arada nal da itdi .......... 236
Eşşək bilə, mən bilməyəm?! .......... 237
Dana baltanın sapını batırıb .......... 238
Şükür ki, qovun boyda deyil... .......... 238
Gəlin ilə qaynana .......... 239
Çuval vay! .......... 240
Lal gəlin .......... 241
Əgər bilsəydim... .......... 242

**UŞAQ FOLKLORU**
**Uşaq düzgüləri**
Üryana ay Üryana .......... 243
Teşti-teşti .......... 243

Bacadan baxan ....................................................245
Mindir məni xoruza...............................................245
**Yanıltmaclar** ..........................................................246
**Beşik nəğmələri**
Laylalar ..............................................................247
Nazlamalar ..........................................................248

**AŞIQ ŞEİRLƏRİ**
**Yersulu Aşıq Emin ..................................................249**
Göy atın tərifi .......................................................249
Oyandı ...............................................................249
Xəbər ver indi.......................................................250
**Xalid Qaradağlı .......................................................251**
Gördüm ..............................................................251
Gəldim................................................................251
"Abbas-Gülgəz" dastanından bir parça...............252
**Qazı Əfəndi** /Baba Siri/ ............................................254
Söylə ..................................................................254
**Əhmədd Hümeydili...................................................255**
Qızlar..................................................................255
Beş-beş ..............................................................256
**Aşıq Niftulla ............................................................256**
Olmadı ................................................................256
Nəsihət eyləyim....................................................257
Unutma...............................................................258
Qaşların ..............................................................258
Neyləyim.............................................................259
Ayırma məni .......................................................260
"Koroğlu dastanından bir parça
Xoş gəldin .......................................................261

**DASTANLAR**

Seydi-Pəri....................................................................262
Səfilli Məmməd.............................................................286
Bikəs...........................................................................307
Yetim Aydın..................................................................331

**Yer və tarixi abidə adları ........................................353**
**Etnoqrafik terminlər.................................................354**
**Mifoloji adlar göstəricisi ..........................................356**
**Məhəlli sözlərin lüğət göstəricisi .............................357**
**Söyləyicilər ................................................................359**

**Dərbənd folklor örnəkləri,**
Bakı, Elm və təhsil, 2014.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Sönməz Abbaslı**

Kompyuterdə yığdı:
**Ruhəngiz Əlihüseynova**

Korrektor:
**Vüsal Abıyev**

Kompyuter tərtibçisi
və texniki redaktoru
**Aygün Balayeva**

Kitabın formatı: 60/84 1/32
Kağızın ölçüsü: №1
Həcmi: 368 səh.
Tirajı: 300

Kitab Folklor İnstitutu Redaksiya-nəşr bölməsinin
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil“ NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap edilmişdir.